# AZƏRBAYCAN DİLİNİN OMONİMLƏR LÜĞƏTİ

"ŞƏRQ-QƏRB"
BAKI
2007

*Bu kitab "H.Həsənov. Müasir Azərbaycan ədəbi dilinin omonimlər lüğəti"*
(*Bakı, Maarif, 1981*) *nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Omonimlər haqqında məqalələrin
müəllifi və lüğətin tərtibçisi: **Həsrət Həsənov**

**ISBN 978-9952-34-102-7**

**494.36131-dc22**
Azərbaycan dili – Omonimlər – Lüğətlər

**Azərbaycan dilinin omonimlər lüğəti.**
Bakı, "Şərq-Qərb", 2007, 168 səh.

Dilimizin lüğət tərkibində yazılışı eyni, mənaca müxtəlif olan sözlər – omonimlər mühüm yer tutur. Omonimlər bir-biri ilə əlaqəsi olmayan və ya məna əlaqələrini itirmiş məfhumları ifadə edir.

Lüğətdə dilimizdə işlənən omonim sözlərin əlifba sırası ilə mənaları izah olunur və Azərbaycan yazıçılarının əsərlərindən gətirilən nümunələr əsasında mənası şərh edilir.

© "Şərq-Qərb", 2007

## AZƏRBAYCAN DİLİNDƏ OMONİMİYA

Dilçilikdə ən mürəkkəb problemlərdən biri də omonimiya hadisəsidir. Dildə omonimlərin mövcudluğu yeni hadisə deyildir. O, tarixi kateqoriyadır. Dilin eyni formalı bütün vahidləri (morfem, söz, söz birləşmələri və cümlələr) arasında omonimik münasibət vardır. Omonimiya dilin və nitqin qanunauyğun təbii leksik-semantik və leksik-qrammatik amilləridir. Omonimiya dilin leksik və qrammatik elementlərini birləşdirərək, öz fonetik strukturuna görə dilin müəyyən inkişaf dövründə uyğunlaşan morfem, söz, söz birləşmələri və cümlələri araşdırır.

Dilçilikdə omonimiya probleminin öyrənilməsinin həm nəzəri, həm də praktik əhəmiyyəti vardır. Çünki semasiologiyanın bir sıra məsələləri, xüsusən söz problemi, onun mənası omonimlərlə çox bağlıdır.

## OMONİM SÖZLƏR

Omonimlər linqvistik hadisə olub, dilin leksik və qrammatik xüsusiyyətlərini birləşdirən, öz səs tərkibinə görə dilin inkişaf dövrlərində müəyyən oxşarlığı olan, mənaca müxtəlif sözlərdir. Bunlar bir dilə yox, bütün dillərə xas olan bir hadisədir. Hər dildə işlənən omonimlərin öz xüsusiyyəti var, onu mexaniki olaraq başqa bir dilə köçürmək olmaz. Bu həm müxtəlif, həm də eyni sistemli dillərə aiddir. Türk dillərinin hamısında omonim var; lakin onlar tam eynilik təşkil etmir. Türk dillərinin nəşr olunmuş lüğətlərini bir-biri ilə müqayisə etsək, omonimlərdə olan fərqi aydın görmək olar. Məsələn, Azərbaycan dilindəki *ağ – ağ; ay – ay; arı – arı; at – at; aşıq – aşıq; bağ-bağ; bal – bal; bez – bez; bel – bel; biz – biz; boz – boz; qaz – qaz; qara – qara; qəza – qəza; qərar – qərar; qurd – qurd; dağ – dağ; dar – dar; divan – divan; dolu – dolu; don – don; dövlət – dövlət; düz – düz; əsər – əsər; göy – göy; mat – mat; sağ – sağ; sap – sap; sarı – sarı; saç – saç; səfər – səfər; sirkə – sirkə;*

*top – top; çalğı – çalğı; çap – çap; çiçək – çiçək* və s. omonim cərgələrin bir qismi türk, türkmən, tatar, özbək dillərində omonim cərgə, bir qismi isə çoxmənalı kimi verilir. Türk dilində *ağ, at, aşıq, boz, qərar, divan, göy, sap, sarı, səfər, çalğı, çin;* türkmən dilində *bez, bel, boz, qara, əsər, göy, mat, saç, çiçək;* tatar dilində *ağ, aşıq, bağ, bez, bel, boz, qara, dağ, dar, dolu, sağ, sap, saç;* özbək dilində *göy, ay, mat, al, arı, bal, biz, qara, qərar, dal, çalğı* çoxmənalı və ya birmənalı kimi izah olunur.

Türk, türkmən, tatar və özbək dilləri Azərbaycan dili ilə bir sistemə aiddir. Bəs onların omonim cərgələrindəki fərqli cəhətlər nə ilə əlaqədardır? Bu, həmin dillərin tarixən qədimliyi, inkişafı, başqa dillərlə əlaqəsi, alınma sözlərin o dillərin öz sözləri ilə formaca eyniləşmə dərəcəsi, sözlərin fonetik və qrafik xüsusiyyətləri, lüğət tərtibçilərinin formaca eyni, mənaca müxtəlif olan vahidləri necə izah etməsi, çoxmənalı sözlərlə omonimlər arasında fərqqoyma imkanı ilə bağlıdır.

Yuxarıda qeyd olunan Azərbaycan dilindəki omonim cərgələrin bir qisminin üzvləri, mənaları, forması türk, türkmən, tatar və özbək dillərindəki omonim cərgələrə uyğun gəlsə də, digər qismi kəmiyyətinə, mənasına və yazılışına görə fərqlənir.

## OMONİMLƏRİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

Omonimlərin müəyyənləşdirilməsinin həm praktik, həm də nəzəri əhəmiyyəti var. Nəzəri cəhətdən sözün bir sıra xüsusiyyəti, məna hüdudu müəyyən edilir. Praktik cəhətdən isə lüğətlərin tərtibinə kömək edir.

Dərsliklərdə, adətən, omonimlər səslənmələrinə görə deyil, mənaca müxtəlif sözlər kimi müəyyənləşdirilir.

Omonimləri yalnız eyni mənşəli, formaca eyni, mənaca müxtəlif sözlər kimi təyin etmək olmaz, çünki omoform, omofon, omoqraf, paronim sözlər də bu xüsusiyyətlərə malikdir. Onları "bir ifadə edənin bir neçə müxtəlif ifadə olunanı var" kimi də müəyyən etmək doğru deyil. Onda çoxmənalı sözlərin bütün mənaları omonim ola bilər. Bu təriflərdə omonimlərin tarixi xarakterli olmasına, onların müxtəlif tiplərinin mövcudluğuna işarə edilmir. Burada

omonimlərin özünəməxsus xüsusiyyətləri yaddan çıxarılır. Formal cəhətlərə əsaslanaraq qrammatik və leksik sistemlər birləşdirilir.

Omonimlərə ancaq bir cütlük kimi baxmaq olmaz. Bu cür münasibət omonimlərin dəyişməz, sabit olduğunu qəbul etməkdən irəli gəlir. Halbuki başqa dil hadisələri kimi omonimlər də dəyişir. Dəyişmə tədricən olur, müəyyən şərait və səbəblərlə bağlıdır. Omonimlərin kəmiyyəti bir tərəfdən fəal və qarşısıalınmaz şəkildə canlı affiksial elementlərlə isim, fel və bəzən də sifətlərdən törəyərək artır. Digər tərəfdən isə həmin dövrdə omonimlər fasiləsiz olaraq yox olub gedir. Bu, müxtəlif semantik və sintaktik səbəblərlə əlaqədardır. Dildə omonim cərgə adı altında ən azı iki sözü – üzvü başa düşməliyik; məsələn, **küp** (su qabı) – **küp** (sap keçirilən yer); **kürəkli** (kürəyi enli) – **kürəkli (**əlində kürək olan); **kütlə** (əhali) – **kütlə** (metal yığını); **görmək** (rastlaşmaq) – **görmək** (icra etmək); **görüş** (danışıq üçün ayrılan vaxt) – **görüş** (fikir) və s.

Dilimizdə üç və üçdən artıq üzvlü omonim cərgələr də vardır. Belə omonim cərgələrə dilimizin müxtəlif inkişaf mərhələlərinə və hal-hazırkı müxtəlif funksional üslublarına aid faktları tutuşdurduğumuz zaman rast gəlmək olur. Bir neçə üzvlü ismi omonim cərgələr dialekt və alınma sözlər hesabına, fellərdə isə çoxmənalı sözün mənaca ayrılma və işlənilmə dərəcəsinə görə yaranır; məsələn, **kor** (görməyən) – **kor** (xəstəlik, *məh.*) – **kor** (küt, *dan.*); **küt** (kəsəri olmayan alət) – **küt** (bacarıqsız); **külçə** (filiz qırıntısı) – **külçə** (çörək) – **külçə** (deşik); **kökləmək** (aləti sazlamaq) – **kökləmək** (sırımaq) – **kökləmək** (dəbərtmək); **göyərmək** (cücərmək) – **göyərmək** (üşümək) – **göyərmək** (özündən çıxmaq); **kök** (ağacın rişəsi) – **kök** (*bot.* yerkökü) – **kök** (*qram.* sözün mənalı hissəsi) – **kök** (nəsil) – **kök** (vəziyyət) – **kök** (yağlı) – **kök** (kefi yüksək olan); **kürə** (*fars.* ocaq) – **kürə** (*ər.* girdə) – **kürə** (dünya) – **kürə** (qulağı uzun olan) və s.

Omonimlər bir sözü deyil, eyni səslənən müxtəlif sözləri əhatə edir. Onlar bir-birindən yalnız leksik mənalarına görə deyil, sosioloji, areal, üslubi və ya xronoloji cəhətdən də fərqlənir. Bu və ya digər dildə omonim sözlərin çoxluğu əsasən birköklü, birhecalı sözlərin kəmiyyəti ilə bağlıdır. Hansı dildə birköklü, birhecalı sözlər çoxdursa, o dildə omonim sözlərin kəmiyyəti artıq olacaqdır. İngilis dilində olduğu kimi, Azərbaycan dilində də omonim sözlər çoxdur. Çünki bu dillərdə sözlərin əsas hissəsi birhecalı və ikihecalıdır.

Omonimləri formaca eyni, mənaca müxtəlif sözlərdən fərqləndirmək, onları ayrıca bir leksik vahid kimi müəyyən etmək üçün aşağıdakı cəhətləri nəzərə almaq lazımdır:

1. *Mənaca müxtəliflik.* Omonim cərgənin üzvləri bir-birindən mənalarına görə fərqlənir. Onların ifadə etdikləri əşya və ya hadisələr arasında yaxınlıq olmur.

2. *Formaca eynilik.* Omonim cərgənin üzvləri öz səs komplekslərinə görə bir-birinin tam eyni olmalıdır.

3. *Tələffüzcə eynilik.* Omonim cərgənin üzvləri tələffüzcə bir-birindən fərqlənməməlidir.

4. *Qrafik cəhətdən eynilik.* Omonim cərgənin üzvləri qrafik cəhətdən – yazılışca eyni olmalıdır.

5. *Eyni və müxtəlif nitq hissələrinə aidlik.* Omonimlərin bir qismi (leksik omonimlər) bir nitq hissəsinə, bir qismi isə müxtəlif nitq hissəsinə (leksik-qrammatik omonimlər) aid olur. Məsələn, **çalğı** (musiqi aləti) – **çalğı** (süpürgə). Bunların hər ikisi isimdir. **Qala** (istehkam) isim – **qala** (qalamaq) feldir.

6. *Eyni və müxtəlif sintaktik funksiyalılıq.* Bir nitq hissəsinə aid olan omonimlər bir sintaktik vəzifəli olur; məsələn, **vəzifə** (borc, *is.*) – **vəzifə** (qulluq, *is.*) sözləri cümlədə eyni funksiyalı olur: ya hər ikisi mübtəda, ya tamamlıq və ya da xəbər olacaqdır. Müxtəlif nitq hissələrinə aid olan omonimlər müxtəlif funksiyalı olur. Məsələn, **at** (*is.*) – **at** (*f.*); **tut** (*is.*) – **tut** (*f.*) omonimlərinin birinci komponenti cümlədə **at** (heyvan), **tut** (ağac) mübtəda və ya tamamlıq, o biri komponenti **at** (atmaq), **tut** (tutmaq) isə xəbər olacaqdır.

7. *Eyni və müxtəlif mənşəli olmaq.* Omonimlərin bir qismi müxtəlif mənşəli sözlərin təsadüfi səs uyğunluğuna əsaslanır, digər qismi isə çoxmənalı sözlərdən əmələ gəlir. Məsələn, **bucaq** (künc, *is.*) – **bucaq** (həndəsi fiqur, *is.*); **bağlı** (örtülü, *sif.*) – **bağlı** (məftil, *sif.*); **bitirmək** (qurtarmaq, *f.*) – **bitirmək** (yetişdirmək, *fel.*) sözlərinin mənşəyi eynidir. **Bel** (alət, *is.*) – **bel** (arxa, *is.*); **qayın** (ər və arvadın qardaşı, *is.*) – **qayın** (ağac, *is.*); **qan** (maddə, *is.*) – **qan** (anlamaq, *f.*) sözlərinin mənşəyi isə müxtəlifdir.

8. Omonim cərgələrin komponentləri həm köklərinə, həm də leksik və qrammatik əlamətlərinə görə eyni olmalıdır; məsələn, *dağ**lar** – dağ**lar**, yaşı – yaşı və s.*

Deməli, omonimlər formaca, tələffüzcə və qrafik cəhətdən eyni, mənaca bir-birindən fərqlənən, məna ümumiliyi və aralarında assosiativ əlaqə hiss olunmayan, eyni və müxtəlif mənşəli, eyni və müxtəlif nitq hissələrinə aid sözlərdir.

Omonim cərgə əmələ gətirən **dan** (şəfəq) – **dan** (inkar etmək), **din** (məzhəb) – **din** (danışmaq) sözlərini səslənmələrinə, tərkiblərinə və yazılışlarına görə bir-birindən fərqləndirmək mümkün deyil, çünki bu cəhətdən onlar eyni sözlərdir. Lakin bu omonim cərgələrin üzvlərinin mənaları, qrammatik kateqoriyaları, funksiyaları və işlədilmə sahələri müxtəlifdir. **Dan** şəfəq və **din** məzhəb mənasında isim, **dan** inkar etmək və **din** danışmaq mənasında feldir.

Omonimlər tarixi kateqoriya olsa da, dilin indiki vəziyyəti nöqteyi-nəzərindən sinxronik planda müəyyənləşdirilməlidir. Çünki onlar sözlərin yalnız xarici formalarının uyğunluğuna, məna əlaqəsinin olmamasına görə yox, həm də həmin sözlərin mənasına əsasən fərqləndirilir. Onlara tarixilik baxımından yanaşılsa, bir kökdən törəyən, müxtəlif məfhumlar ifadə edən sözlər omonim hesab olunmamalıdır. Çünki əvvəla, omonimləri etimoloji cəhətdən təyin etmək çox çətindir; ikincisi, onların bir qismi müasir dilimizdə artıq omonim hesab olunmur.

Sinxronik planda omonimlərin izah edilməsi tarixiliyi tamam rədd etmir. Onların müasir təbiəti tarixi məlumatlarla zənginləşdirilir. Təsvir olunan sözün təbiəti qarşılıqlı şəkildə həll olunur; indiki və keçmiş vəziyyəti tutuşdurulur. Lakin tarixən eyni olan sözlərin müasir təbiəti onların genetik ümumiliyi, tarixi əlaqələri, məna və funksiyalarının ardıcıl dəyişməsinə əsasən yox, aktual funksiyası, məna və forması, başqa sözlərlə məna əlaqəsi, sintaktik və leksik birləşmələri və üslubi səciyyələri ilə açılır[1].

Dildə leksik və morfoloji sistemlərin qanunauyğun əlaqəsi sayəsində dilin söz yaratma imkanı tədricən inkişaf edərək genişlənir, təkmilləşir. Kök sözlərin yeni mənalar kəsb etməsi və ya şəkilçilərin köməyi ilə onlardan yeni sözlər alınır. Hal-hazırda eyniköklü sözlərin isim – fel, fel – isim, isim – sifət, sifət – isim və s. ikili təbiəti keçmişin qalığı kimi özünü göstərir. Sözlər məhz bu yolla

[1] А.А.Юлдашев. Принципы составления тюркско-русских словарей. М., 1972, стр. 237.

mənaca genişlənmiş, şaxələnmişdir. Kök sözlərin müxtəlif nitq hissələri kimi işlədilməsi və şəkilçilər leksik-qrammatik omonimlərin yaranmasında əsas olmuşdur.

Türk dillərinin materiallarına müraciət etdikdə aydın olur ki, fellə adın omonimliyi təsadüfi səs uyğunluğu və ya adların feldən törəməsi deyildir. Eyni kökün ad və fel kimi işlənməsində ciddi bir qanunauyğunluq mövcuddur. İlkin omonimlərin əsasını fel və ad mənasında işlədilən ilkin köklər təşkil edir.

Fel və ad kökləri arasındakı qarşılıqlı münasibəti "hərəkətlə onu icra edən əşya arasında olan münasibət, yəni hərəkət ilə materiyanın vəhdəti formal cəhətdən öz varlığını bu məfhumların şüurumuzda fərqləndirilərək abstraktlaşdırıldığı bu dövrdə də saxlanmış olur. Daha doğrusu, istər əşyanı, istərsə də ona xas olan hərəkəti ifadə edən forma – söz öz vəhdətini (eyniliyini) mühafizə edir, yəni eyni fonetik tərkibə malik olan söz müxtəlif şəraitdə həm əşyanı, həm də hərəkəti bildirmək xüsusiyyətini mühafizə edir; məsələn, **saç**(maq) – fel, **saç** – isim, **köç**(mək) – fel, **köç** – isim, **düz**(mək) – fel, **düz** – isim, sifət və ya zərf, **ac**(maq) – fel, **ac** – isim, sifət və ya zərf və s."[1]

Fellərlə isimlərin omonimləşmə prosesi bir "sözün müxtəlif mənaya ayrılması yolu ilə deyil, əksinə, öz mahiyyəti etibarilə bir vəhdət təşkil edən əşya və hərəkət məfhumlarının qədim ifadə formasının indiyə qədər mühafizə olunması yolu ilə"[2] bağlıdır.

Omonimlər tarixən genetik cəhətdən müxtəlif olan iki sözün formaca uyğunlaşması və ya bir sözün – çoxmənalı sözün iki müstəqil mənalı sözə ayrılması, başqa dillərdən söz alma yolu ilə yaransa da, onları müəyyənləşdirərkən müxtəlif tələblər irəli sürülməlidir. Çoxmənalı sözlərdən və genetik cəhətdən müxtəlif sözlərdən yaranan omonimlər arasında fərq məna əlaqəsinin olub-olmaması ilə bağlıdır. Bu fərq onların omonimliyinə mane olmur. Omonimlərin mahiyyəti iki izomorf sözün arasında məna əlaqəsinin olması və ya olmaması ilə deyil, onların həmin dildə danışanlar tərəfindən şəksiz-şübhəsiz ayrı-ayrı sözlər kimi dərk edilməsi və mövcudluğu ilə müəyyənləşir.

---

[1] S.Cəfərov. Azərbaycan dilində söz yaradıcılığı. Bakı, 1960, səh. 13.

[2] Yenə orada

Dildə omonimləri təyin etmək üçün hələ universal meyar yoxdur. Bu, mümkün də deyildir. Çünki sözlər dəyişir, çoxmənalılıqdan omonimliyə, omonimlikdən çoxmənalılığa keçir.

Dilçilikdə omonimləri müəyyənləşdirmək, dəqiqləşdirmək üçün (universal meyar olmasa da) məna, etimoloji, sinonimlik, sözyaratma, leksik-qrammatik və s. meyarlar vardır.

Omonimlərdə məna meyarı əsasdır. Çünki onların özü mənaca qruplaşmış sözlərdəndir. Bu meyar bütün omonimlərə tətbiq oluna bilər. O biri meyarlar isə məna meyarını tamamlayır, onu dəqiqləşdirir.

Məna meyarı çoxmənalı sözlərdən törəyən omonimlərdə, metaforik omonimlərdə, konversiya yolu ilə yaranan omonimlərdə, bir sözlə, leksik omonimlərdə həlledici rol oynayır.

Tarixi, etimoloji, leksik-qrammatik omonimlərdə leksik-qrammatik meyar əsasdır.

## OMONİMLƏRİN İNKİŞAFI VƏ YARANMA YOLLARI

Başqa sözlər kimi, omonimlər də dəyişir, inkişaf edir, yaranır. Yeni məfhumların əmələ gəlməsi, sözlərin yeni məna kəsb etməsi, müxtəlif dillərin bir-biri ilə qarşılıqlı əlaqəsi və s. kimi səbəblər omonimlərin meydana gəlməsində mühüm rol oynayır.

Dildə omonimlərin inkişafı və artımı bir sıra amillərlə bağlıdır. Bu amillər əsasən aşağıdakılardır:

1. Xalqın ictimai həyatında baş verən dəyişikliklər.
2. Sözün mənaca inkişaf etməsi; çoxmənalı sözlərdən yeni leksik vahidlərin əmələ gəlməsi.
3. Törəmə mənaların diferensiallaşması.
4. Fonetik dəyişmə.
5. Alınma sözlər.
6. Əsil və alınma sözlərin fonetik tərkibcə təsadüfi oxşarlığı.
7. Düzəltmə yolla söz artımı.
8. Leksik məna qalmaqla qrammatik mənanın inkişafı.
9. Müxtəlif elmi-texniki məfhumların ümumişlək sözlərlə ifadə olunması və s.

Omonimlərin əmələ gəlmə yollarını üç şəkildə qruplaşdırmaq olar:

1. Leksik yolla əmələ gələn omonimlər.
2. Morfoloji yolla yaranan omonimlər.
3. Sintaktik yolla meydana gələn omonimlər.

## LEKSİK YOLLA ƏMƏLƏ GƏLƏN OMONİMLƏR

Leksik yolla yaranan omonimlər öz sadəliyi və tarixiliyi ilə morfoloji və sintaktik yollarla əmələ gələn omonimlərdən fərqlənir. Bu omonimlərin tarixi qədimdir. Heç bir qrammatik və sözyaratma vasitə, sintaktik əlaqə olmadan da sözlər omonimləşir. Bu yol formasına görə sadə, lakin meydana gəlməsinə görə çox mürəkkəbdir. Bunların hamısının tarixən nə zaman və necə əmələ gəldiyini müəyyənləşdirmək, lüğət tərkibində nə vaxt dəyişdiyini demək çətindir. İndi bu sözləri biz hazır şəkildə görürük, işlədirik.

Leksik yolla əmələ gələn omonimlərin müasir ədəbi dilimizin lüğət tərkibinin zənginləşməsində müəyyən rolu vardır.

Bu yolla omonimlər aşağıdakı hallarda meydana gəlir: 1) çoxmənalılıqdan törəmə, 2) ümumi və xüsusi isimlərin bir-birinə keçməsi, 3) metafora və metonimiya, 4) toponimiya, 5) antonomaziya, 6) evfemizm, 7) təsadüfi səs uyğunluğu, 8) alınma sözlər, 9) terminlər, 10) fonetik dəyişmə, 11) nitq hissələrinin bir-birinə keçməsi: substantivləşmə, atributivləşmə, adverbiallaşma, əsas sözlərin qeyri-əsas sözlər mövqeyinə keçməsi və s.

**Çoxmənalı sözlərdən törəyən omonimlər.** Polisemantik sözdən birdən-birə yeni söz əmələ gəlmir. Bu tədricən baş verir. Yeni yaranan sözlər həmin sözün əsas mənasından əlavə mənalarının tamam ayrılması nəticəsində olur.

Çoxmənalı sözün ayrılan mənası əsas – ilk məna ilə aralıq, qovuşuq əlaqəni kəsir, yeni məna əlaqəsi əsasında möhkəmlənir. Söz mənaca dəyişməklə bərabər, başqa leksik cərgəyə daxil olaraq əvvəlki sintaktik əlaqəsini də itirir. Çoxmənalı sözdən əmələ gələn omonim söz öz leksik və qrammatik mənalarına görə törədiyi sözdən fərqlənir, diferensiallaşır. Əlbəttə, bunun üçün vaxt lazımdır.

Sözdə tədricən əmələ gələn yeni mənalar onun məna birliyini pozmaq üçün zəmin hazırlayır. Çoxmənalı sözlərin əsas və törəmə mənaları arasındakı assosiativ əlaqə o qədər zəifləyir ki, onu hiss etmək olmur, əlaqə pozulur, mənaca motivləşmə gedir. Bu, omonimlərin yaranması ilə nəticələnir. Omonim söz əsas sözlə məna əlaqəsini itirərək öz növbəsində törəmə mənaların yığılması yolu ilə məna həcmini zənginləşdirir.

Çoxmənalı sözlərdən əmələ gələn omonimlərə aşağıdakı nümunələri göstərmək olar:

| | |
|---|---|
| **Baxış** I | – baxma |
| **Baxış** II | – əqidə |
| **Basma** I | – rəng |
| **Basma** II | – möhür |
| **Basma** III | – suçəkən kağız |
| **Basma** IV | – naxış |
| **Basma** V | – çap |
| **Bic** I | – ağacda əmələ gələn zoğlar |
| **Bic** II | – rəsmi olmayan ata-anadan uşaq |
| **Qızıl** I | – metal |
| **Qızıl** II | – qırmızı |
| **Qol** I | – bədənin bir üzvü |
| **Qol** II | – imza |
| **Qondarmaq** I | – qurmaq |
| **Qondarmaq** II | – uydurmaq |
| **Quruluş** I | – sistem |
| **Quruluş** II | – əsərin tərtibatı |

**Alınma sözlər hesabına yaranan omonimlər.** Dilimizdə işlənən omonimlərin müəyyən hissəsi alınma sözlərin payına düşür. Müəyyən tarixi səbəb və hadisələrlə əlaqədar olaraq başqa dillərdən dilimizə keçən sözlərin bir qismi omonim sözlər kimi işlədilir. Başqa dillərdən keçən sözlər vasitəsilə əmələ gələn omonimlər müxtəlifdir.

Alınma sözlər omonim cərgənin üzvü kimi iki şəkildə iştirak edir:

1. Heç bir dəyişiklik edilmədən, əslində olduğu kimi omonimləşənlər.
2. Fonetik və ya morfoloji dəyişiklik edilməklə omonimləşənlər.

Alınma sözlər əsasında müəyyənləşən omonim cərgələrin üzvlərinin hamısı alınma və ya biri alınma, o birisi isə əsil söz olur. Alınma sözlərdən düzələn omonim cərgələrə *xalis,* biri alınma, digəri isə əsil söz olan omonim cərgələrə *qarışıq* demək olar.

**Ərəb mənşəli omonimlər.** Aşağıdakı omonim cərgələrin üzvləri ərəb mənşəlidir:

**Aləm** (kainat) – **aləm** (çoxlu) – **aləm** (çox maraqlı)

**Bəhs** (mübahisə) – **bəhs** (əsərin bir hissəsi)

**Fars mənşəli omonimlər**. Belə omonimlərin hamısı fars mənşəli sözlərdən ibarətdir:

**Bəhrə** (vergi) – **bəhrə** (məhsul)

**Bənd** (buğum) – **bənd** (şeir bölgüsü) – **bənd** (sədd) – **bənd** (vurğun) – **bənd** (maddə)

**Beynəlmiləl sözlü omonimlər:**

**Aksiya** (*fr*. qiymətli kağız) – **aksiya** (*fr.* siyasi iş, çıxış)

**Akt** (*lat*. sənəd) – **akt** (*lat*. iclas)

**Boks** (*ing*. idman növü) – **boks** (*ing*. palata) – **boks** (*ing*. saçvurma üsulu) və s.

**Müxtəlif mənşəli qarışıq tipli omonimlər:**

**Bal** (şirin maddə) – **bal** (*fars*. qanad) – **bal** (*fr*. rəqs gecəsi) – **bal** (*fr*. dərəcə)

**Bar** (*fars*. məhsul) – **bar** (*fars*. yük) – **bar** (*yun*. hava təzyiqi vahidi) – **bar** (*ing*. qəlyanaltı) – **bar** (*fr*. say; dayaz yer) – **bar** (*ing*. qazıma maşınının əsas kəsici hissəsi) – **bar** (kif)

**Divan** (*rus*. taxt) – **divan** (*fars*. zülm etmə) – **divan** (*fars*. külliyyat) və s.

**Toponimiya yolu ilə yaranan omonimlər**. Toponimləşmə yolu ilə əmələ gələn omonimlərə *toponimik omonimlər* də deyilir.

Coğrafi adlar ümumi məfhumların konkretləşdirilməsi və fərdiləşdirilməsi ilə əlaqədar olaraq əmələ gəlmiş və gəlməkdədir. Toponimləşmə ümumi məfhumların konkret ünvanla bağlanması prosesidir. Ümumi məfhumların konkretləşdirilməsi və fərdiləşdirilməsi nəticəsində eynicinsli əşyaların ümumi adını bildirən ümumi sözlər – adlar eyni zamanda xüsusi adları da ifadə edir. Onlar eynicinsli əşyaları bir-birindən fərqləndirərək xüsusiləşir, konkret – xüsusi ada çevrilir. Demək, bir söz həm apellyativ, həm də toponim kimi dərk edilir, işlədilir.

Ümumi söz konkret obyekti ifadə etdiyi zaman ilk mənasından assosiativ əlaqəsini zəiflədir, getdikcə ondan tamamilə ayrılaraq yeni xüsusi ada, konkret və tək bir məfhuma xidmət edən sözə çevrilir.

Toponimlər ümumi sözlərdən leksik-semantik, morfoloji və sintaktik üsullarla törəyir. Leksik-semantik üsul daha qədim və əsasdır. Çünki bu yolla yaranan toponimlər daha çoxdur.

Ümumi və toponim sözlər arasındakı qarşılıqlı əlaqə nəticəsində əmələ gələn toponimik omonimləri iki qrupa ayırmaq olar:

1. Ümumi sözlərin toponimlərə keçməsi.
2. Toponimlərin ümumi sözlərə keçməsi.

**Ümumi isimlərin xüsusi isimlərə keçməsi ilə yaranan omonimlər.** Maddi varlıqların, mənəvi və abstrakt anlayışların ümumi adını bildirən ümumi isimlər xüsusiləşdirir:

**Durna** (ümumi) – **Durna** (xüsusi); **kəklik** (ümumi) – **Kəklik** (xüsusi); **göyərçin** (ümumi) – **Göyərçin** (xüsusi).

**Badam** (ümumi) – **Badam** (xüsusi); **bənövşə** (ümumi) – **Bənövşə** (xüsusi); **qönçə** (ümumi) – **Qönçə** (xüsusi) və s.

**Afət** (ümumi) – **Afət** (xüsusi); **şəkər** (ümumi) – **Şəkər** (xüsusi); **şirin** (ümumi) – **Şirin** (xüsusi); **almaz** (ümumi) – **Almaz** (xüsusi); **qənbər** (ümumi) – **Qənbər** (xüsusi); **dəmir** (ümumi) – **Dəmir** (xüsusi); **zümrüd** (ümumi) – **Zümrüd** (xüsusi); **yaqut** (ümumi) – **Yaqut** (xüsusi) və s.

**Xüsusi isimlərin ümumi isimlərə keçməsi ilə yaranan omonimlər.** Bu üsulla əmələ gələn omonimləri iki qrupa bölmək olar:

1. İstehsal edən xüsusi yer adının istehsal etdiyi məhsulun adına verilməsi:

**Sirab** (xüsusi, yer adı) – **sirab** (ümumi, mineral su adı); **Boston** (xüsusi, yer adı) – **boston** (ümumi, parça adı); **Şeviot** (xüsusi, yer adı) – **şeviot** (ümumi, parça adı) və s.

2. İxtiraçının xüsusi adının icad etdiyi əşyaya verilməsi:

**Amper** (xüsusi) – **amper** (ümumi); **Kulon** (xüsusi) – **kulon** (ümumi); **Om** (xüsusi) – **om** (ümumi); **Volt** (xüsusi) – **volt** (ümumi); **Botkin** (xüsusi) – **botkin** (ümumi); **Qalife** (xüsusi) – **qalife** (ümumi); **Mauzer** (xüsusi) – **mauzer** (ümumi) və s.

**Bənzətmə nəticəsində yaranan omonimlər.** Tərkib və formaca bir-birinə bənzəyən əşya və ya hadisələr ayrı-ayrı deyil, bir sözlə, eyni fonetik tərkiblə ifadə olunur. Əvvəl mövcud olan əşyaya oxşar

olaraq meydana gələn əşya başqa sözlə deyil, əvvəlki əşyanın adı ilə adlandırılır. Beləliklə, bir söz iki məfhuma xidmət etməli olur. Əşya və ya hadisələrin bir-birinə bənzəməsi nəticəsində əmələ gələn omonimləri iki qrupa ayırmaq olar:

1. Əşyaların bir-birinə bənzəməsi ilə.
2. Eyni proses və hadisənin bir-birinə bənzəməsi ilə.

Əşyaların bir-birinə bənzəməsi yolu ilə yaranan omonimlər formal cəhətə əsaslanır; məsələn, **qitə** (yer) – **qitə** (şeir forması); **qırma** (xırda kürəciklər) – **qırma** (odun) – **qırma** (qayçı ilə vurulmuş); **qırov** (şehin donmuş zərrələri) – **qırov** (göz nöqsanı) və s.

Eyni proses və hadisələrin bir-birinə bənzəməsi nəticəsində yaranan omonimlərdə hadisələr bir-birinə ya tam, ya da qismən oxşayır; məsələn, **süzmə** (süzülmüş qatıq) – **süzmə** (plov növü); **basdırma** (gizlətmə) – **basdırma** (kabab növü); **ağacdələn** (quş adı) – **ağacdələn** (adət) və s.

**Antonomaziya ilə yaranan omonimlər.** Antonomaziya xüsusi adların müəyyən mənada ümumiləşdirilərək işlədilməsidir. Antonomaziya vasitəsilə omonimlər aşağıda göstərilən xüsusiyyətlərlə əlaqədar olaraq yaranır:

1. Həmin şəxsə xas olan və ya aid edilən keyfiyyətin mücərrəd mənada işlədilərək onun öz adı ilə ifadə olunması nəticəsində.
2. Əvvəl bu adı daşıyanın xüsusiyyətlərinin metaforik yolla həmin şəxsi ifadə edən xüsusi ada tətbiqi nəticəsində.

Məsələn, *Demon, Morfey, Otello, Donjuan, Loğman, Məcnun, Koroğlu, Fərhad, Hacı Qara, Əzrail, İblis, Boykot və s.*

**Otello** (xüsusi ad) – **otello** (qısqanc); **Donjuan** (xüsusi ad) – **donjuan** (şəhvətpərəst); **Loğman** (xüsusi ad) – **loğman** (bilici həkim); **Məcnun** (xüsusi ad) – **məcnun** (aşiq); **Koroğlu** (xüsusi ad) – **Koroğlu** (igid); **Fərhad** (xüsusi ad) – **Fərhad** (qəhrəman); **Hacı Qara** (xüsusi ad) – **Hacı Qara** (xəsis); **Əzrail** (xüsusi ad) – **əzrail** (cəllad); **İblis** (xüsusi ad) – **iblis** (hiyləgər) və s.

**Evfemizm yolu ilə yaranan omonimlər.** Omonimlərin yaranmasında evfemizm xarakterli sözlərin də müəyyən rolu vardır.

Evfemizm əhvali-ruhiyyəyə pis təsir edə bilən söz və ifadələrin xoşagəlməz hadisənin təsir dərəcəsini yumşaldan və zəiflədən söz və ifadələrlə əvəz olunması nəticəsində yaranır. Belə əvəzlənmələr müxtəlif şərait, münasibət, məqsəd və səbəblə bağlıdır. Söz

və ifadələr öz həqiqi deyil, məcazi, dolayı mənasında işlədilməklə evfemizm xarakterli olur.

Dildə söz və ifadələr evfemistik və həqiqi mənalarda işlədilərək yeni omonim cərgələr əmələ gətirir; məsələn, *sönmək, piyada, uzunqulaq, boz, xəstə, yuxulamaq, köçmək, dəm, yalquzaq, ağırayaqlı* və s.

**Sönmək** (*həqiqi,* keçmək) – **sönmək** (*evfemizm*, ölmək)

**Piyada** (*həqiqi,* ayaqla getmək) – **piyada** (*evfemizm,* savadsız, küt)

**Uzunqulaq** (*həqiqi,* heyvan) – **uzunqulaq** (*evfemizm,* qanmaz, başa düşməz)

**Xəstə** (*həqiqi,* naxoş) – **xəstə** (*evfemizm,* dəli).

**Təsadüfi səs uyğunluğu yolu ilə sözlərin omonimliyi.** Omonimlərin bir qismi təsadüfi səs uyğunluğu nəticəsində yaranır. Bunların mənşəyi müxtəlifdir. Dilimizdə bu yolla əmələ gələn omonimlər müxtəlif səbəblərlə bağlı olaraq formaca təsadüfən eyniləşir. Omonimlər ayrı-ayrı konkret dillərin leksik sistemi ilə bağlıdır. Müxtəlif sözlər səs uyğunluğuna görə omonim əmələ gətirir. Bu prosesdə yalnız semantik deyil, fonetik, morfoloji amillər də müəyyən rol oynayır.

Səs uyğunluğuna görə müxtəlif leksik sistemli dillərin sözləri omonim cərgə düzəldir. Müxtəlif dillərdə eyni səslənən, eyni fonetik tərkibli sözlər var. Həmin sözlər bir dilin lüğət tərkibinə – milli mətninə düşməyincə, dərk edilməyincə onlar həmin dildə omonim sözlər kimi diqqəti cəlb etməyəcəkdir. Lakin hər formaca uyğun gələn müxtəlif dillərə məxsus sözləri omonim kimi qəbul etmək olmur, çünki onlar omonim kimi çıxış edə bilmir.

Demək, istər alınma sözlər, istərsə də alınma sözlə milli sözlər o zaman bu və ya digər dildə omonim kimi işlənə bilər ki, onlar bir-birinə səs uyğunluğundan başqa, həm mənaca müxtəlif olsun, həm də həmin dilin lüğət tərkibində milli sözlər kimi dərk edilsin, işlədilsin. Bu omonimləri üç qrupa ayırmaq olar:

1. Öz sözlərimizin təsadüfi səs uyğunluğu.
2. Alınma sözlərin təsadüfi səs uyğunluğu.
3. Alınma sözlərlə öz sözlərimizin təsadüfi səs oxşarlığı.

Sözlərimizin qanunauyğun səs uyğunluğun nəticəsində yaranan omonimlər: **sin** (ərəb əlifbasında bir hərfin adı) – **sin** (əyilmək); **çal** (ağarmış) – **çal** (vurmaq); **soy** – (nəsil) – **soy** (qarət etmək); **ov** (şikar) **ov** (doğramaq); **yay** (fəsil adı) – **yay** (yaymaq) və s.

Alınma sözlərin təsadüfi səs uyğunluğu əsasında əmələ gələn omonimlər: **bəm** (*ər.* ən aşağı sim) – **bəm** (*ər.* üst), **bürc** (*ər.* qüllə) – **bürc** (*ər.* ulduzlar qrupu), **azad** (*fars.* ağac növü) – **azad** (*fars.* sərbəst), **val** (*rus.* plastinka) – **val** (*rus.* silindr) və s.

Alınma sözlərlə əsil sözlərdən yaranan omonimlər: **al** (qırmızı) – **al** (*ər.* mövhum surət); **ayə** (*ər.* mənalı cümlələrin hər biri) – **ayə** (sual, təəccüb mənasında); **alt** (bir şeyin aşağı hissəsi) – **alt** (*it.* alçaq səsli); **as** (*ər.* təkxallı qumar kağızı) – **as** (*ər.* sözü keçən) – **as** (*fr.* mahir təyyarəçi) – **as** (asmaq) və s.

**Fonetik dəyişmə yolu ilə omonimlərin yaranması.** Dilimizdə mövcud olan omonimlərin bir qismi fonetik dəyişmə prosesi ilə əlaqədar olaraq yaranmışdır. Söz kökündə səs düşümü, səs artımı və ya səslərin yer dəyişməsi hadisəsi nəticəsində dilimizdə omonim cərgələr əmələ gəlmişdir. Bu yolla müasir dilimizdə demək olar ki, omonim yaranmır.

Ayrılıqda heç bir məna verməyən hər hansı bir səs söz tərkibində mənanın dəyişməsinə səbəb olur. Sözün formaca dəyişməsi (səsin düşümü və ya səs artımı) nəticəsində formaca bir-birinə oxşar sözlər meydana çıxır. Bu sözlər dildə yeni məfhumu ifadə edən leksik vahid kimi dərk edilir.

Türk dillərində tarixən söz və şəkilçi üçün qapalı heca tipi xarakterik olmuşdur. Orxon-Yenisey abidələrinə əsasən demək olar ki, türk dillərinin oğuz-səlcuq budağından olan dillərdə, xüsusilə Azərbaycan dilində söz kökünün sonuncu hecası qapalı olmuşdur. Dilimizdə tarixən qapalı heca kimi işlənən söz kökləri indi açıq hecalı köklərə çevrilmişdir; məsələn, *ol<o, qarğay<qarğa, alaq<ala, kim<ki* və s. Sözün son səsinin bu cür dəyişməsi, daha doğrusu, səs düşümü nəticəsində söz qapalılıqdan açıq hecalılığa keçərək omonim sözlərin əmələ gəlməsində müəyyən rol oynamışdır.

Fonetik dəyişmə yolu ilə yaranan həmin yeni söz formaları dildə fonetik tərkibcə eyni, lakin başqa mənaya malik olan sözlərlə omonimləşir. Bu yolla omonim sözlərin yaranmasında aşağıdakı qaydaları müşahidə edirik:

1. Söz kökündəki səslərdən birinin düşməsi ilə omonim sözlərin yaranması. Sözün səs düşümü nəticəsində dəyişməsi özünü iki şəkildə göstərir:

a) forma dəyişir, məzmun dəyişmir. Bu hadisə, əsasən, söz kökündəki “q”, “k” samitlərinin düşməsi ilə sözün formasının dəyişdiyi, leksik-qrammatik mənanın isə sabit qaldığı zaman baş verir.

Dilimizdə işlədilən sarı sözü Orxon-Yenisey abidələrində sarığ şəklində olmuşdur. Sarığ sözü abidələrdə rəng, sifət mənalarında işlədilmişdir. Bu sözün dəyişilmiş şəkli olan sarı sözü də dilimizin lüğət tərkibində həmin mənalarda işlədilir.

Ütü sözü ütük sözündən “k” samitinin düşməsi ilə əmələ gəlmişdir. Daha doğrusu, ütük sözü indi ütü şəklinə düşmüşdür. Ütük və ütü sözlərinin ifadə etdikləri mənalar arasında fərq yoxdur, fərq ancaq formalarındadır.

b) forma dəyişdiyi kimi, məzmun da dəyişir.

Söz kökündəki “q”, “k” samitləri düşməklə sözün tərkibi və mənası dəyişir. Söz öz əvvəlki mənasından tamamilə uzaqlaşır, yeni mənalı söz kimi dərk edilir; məsələn, *alaq<ala, arıq<arı, acıq<acı, azıq<azı, yarıq<yarı, yuvaq<yuva, çatıq<çatı* və s.

**Ala** (*is.* dəri xəstəliyi) – **ala** (*is.* ziyanverici ot) – **ala** (*sif.* açıq-mavi rəng)

**Arı** (*is.* bal hasil edən cücü) – **arı** (*sif.* təmiz, pak)

**Acı** (*sif.* qəlbə toxunan) – **acı** (*f.* ürəyi yanmaq)

**Azı** (*is.* əsas diş) – **azı** (*ədat,* ən cüzi)

**Yarı** (*is.* bir şeyin hissəsi) – **yarı** (*f.* təmin olunmaq)

2. Söz kökünə müəyyən bir səsin artırılması ilə omonim sözlərin törəməsi:

a) “q” samitinin artırılması ilə “*bala*”*dan* “*balaq*”*,* “*qaba*”*dan* “*qabaq*” sözü əmələ gəlmişdir: *bala → balaq, qaba → qabaq.* İndi *balaq* və *qabaq* sözləri omonim sözlər kimi işlədilir.

**Balaq**$^1$ – camışın balası

**Balaq**$^2$ – şalvarın aşağı hissəsi

b) “u” samitinin artırılması ilə omonim sözlərin yaranması. *Ağuş, qucaq* mənasında işlənən *qoyn* sözünə “u” saitinin artırılması ilə o, “qoyun” şəklinə düşmüş və dilimizdə gövşək ev heyvanını bildirən “qoyun” sözü ilə omonim yuva düzəltmişdir.

3. Söz kökündəki səslərin dəyişməsi ilə omonim sözlərin əmələ gəlməsi. Bu hadisə sözün əvvəlində, ortasında və sonunda özünü göstərir.

*Aşiq → aşıq, ağu → ağı, sövda → sevda, zəman → zaman, qazi → qazı, axir → axır, axur → axır, qurt → qurd, bari → barı, baru → barı.*

4. Söz kökündə səslərin dəyişməsi, düşməsi və artırılması nəticəsində omonim sözlərin əmələ gəlməsi:

| | |
|---|---|
| *Ayinə → ayna* | *əql → ağıl* |
| **Ayna**[1] – *güzgü* | **Ağıl**[1] – *zəka, şüur* |
| **Ayna**[2] – *şəffaf* | **Ağıl**[2] – *mal saxlanılan yer* |

**Terminoloji omonimlər.** Elm və texnikanın inkişafı ilə əlaqədar olaraq meydana gələn müxtəlif məfhum və anlayışları ifadə edən sözlər xüsusiləşmiş məna kəsb edərək adi sözlərdən fərqlənir. Belə sözlər t e r m i n adlanır. Termin sözdür. Lakin hər söz termin olmur. Terminlər ümumi sözlərdən təkmənalılığı, az komponentliliyi, sinonimsizliyi və üslubi cəhətdən neytral olması ilə seçilir. Terminlər də adi sözlər kimi dilin lüğət tərkibinə daxildir, onun zənginləşməsində müəyyən rolu var.

Söz termin kimi işləndikdə ifadəliliyini itirir və yeni əlaqə əldə edir. Termin ümumi ədəbi dilə düşəndə yeni leksik məna kəsb edir və sözə çevrilir.

Terminologiya ilə ümumi ədəbi dil arasında həmişə kontakt və qarşılıqlı təsir olur, daim əvəz olunma gedir. Ümumi ədəbi dil sözlərindən əmələ gəlmiş terminlər özünü xüsusi omonimlər kimi göstərir. Söz terminə keçəndə öz mənbəyindən assosiativ əlaqəsini kəsir, müəyyən elm sahəsinə keçir. Sözün semantik cəhətdən dəyişməsi nəticəsində xüsusi terminlər fondu yaranır. Həmin söz həm termin kimi, həm də ümumi ədəbi dildə işlənərək terminoloji omonim əmələ gətirir.

**Nitq hissələrinin bir-birinə keçməsi ilə omonimlərin yaranması.** Dildə omonimlərin bir qismi nitq hissələrinin bir-birinə keçməsi hesabına əmələ gəlir. Bir söz eyni formada müxtəlif nitq hissəsinə aid ola bilir. Bu vəziyyət yalnız əsas nitq hissələrinə aid olan sözlərdə deyil, köməkçi nitq hissələrinə daxil olan sözlərdə də özünü göstərir. Bir söz öz formasını saxlamaqla ya iki əsas nitq hissəsi, ya da biri əsas, digəri köməkçi nitq hissəsi kimi çıxış edir.

Türk dillərində sözlərin bir nitq hissəsindən digərinə keçməsi nəticəsində leksik-qrammatik omonimlər yaranmışdır. Bu proses təsadüfi yox, qanunauyğun bir hadisədir.

İsmin adverbiallaşması, sifətin substantivləşməsi, feli sifətlərin adyektivləşməsi, əsas sözlərin köməkçi sözlərə keçməsi nəticəsində leksik-qrammatik omonimlər yaranır. Müxtəlif kateqoriyalı sözlər formaca diferensiallaşmasa da, mənaca diferensiallaşaraq omonimləşir.

Söz bir nitq hissəsindən digərinə keçəndə öz fonetik formasını olduğu kimi saxlayır, leksik və qrammatik mənalarını ya mühafizə edir, ya da itirir. Öz əvvəlki leksik və qrammatik mənalarını mühafizə edən söz başqa nitq hissəsinə keçəndə yeni leksik və qrammatik mənalar, sintaktik funksiya kəsb edir. Bəzi sözlər isə əvvəlki leksik və qrammatik mənalarını tamamilə itirir və daxil olduğu nitq hissəsinin xüsusiyyətlərinə uyğun leksik və qrammatik mənalara, sintaktik funksiyaya yiyələnir.

Söz bir nitq hissəsindən digərinə ya müəyyən qrammatik əlamətlərin vasitəsilə, ya da heç bir qrammatik göstərici olmadan keçir. Formal göstəricisi olmayan sözün hansı nitq hissəsinə aid olmasını leksik və qrammatik mənalarına, sintaktik funksiyasına görə müəyyənləşdirmək olar.

Həmin söz fonetik cəhətdən bir, semantik cəhətdən isə ikili xarakterli olur.

Nitq hissələri bir-birindən əşyaya münasibətinə, morfoloji əlamətinə, sintaktik funksiyasına və əlaqə yaratmasına görə seçilir.

Sözün əşyalıq, əlamətlik, hərəkətlik və s. kimi məzmunlara yiyələnməsi, ayrı-ayrı qrammatik formaların leksikləşməsi funksionallıq, fonetik və ya semantik qanunlarla bağlıdır. Sözün mənaca genişlənməsi, sonra da ayrılması nəticəsində müxtəlif nitq hissələrinin daxilində fəaliyyət göstərərək leksik-qrammatik omonimlərin meydana gəlməsində əsas rol oynayır.

Sifətlərdən isimlərin törəməsi sifətlərin substantivləşməsi, isimlərdən sifətlərin əmələ gəlməsi, isimlərin atributivləşməsi ilə bağlıdır. Sifətlərin substantivləşməsi nəticəsində əlamət və keyfiyyət məzmunlu sözdə əşyalıq məzmunu yaranır, yəni həmin sözlər əlamət və keyfiyyət anlayışı ilə bərabər, əşyalıq məzmununu da qazanaraq omonim cərgə düzəldir; məsələn, **buynuzlu** (*sif.* buynuzlu olan) – **buynuzlu** (*is.* yem bitkisi); **burma** (*sif.* burulmuş) – **burma** (*sif.* sarğı) və s.

İsmin sifətləşməsi atributivləşmə yolu ilə olur. Əşyalıq məzmununa malik olan ismin keyfiyyət məzmunu kəsb etməsi metafora

– əşyalıq əlaqəsinin yer dəyişməsi nəticəsində yaranır; məsələn, **qaraçı** (*is.* xalq) – **qaraçı** (*sif.* həyasız); **qəhrəman** (*is.* əsərin əsas surəti) – **qəhrəman** (*sif.* igid); **əsil** (*is.* əsas) – **əsil** (*sif.* həqiqi) və s.

Belə omonimlərin isim və ya sifət olduğunu morfoloji əlamətlərinə, leksik və qrammatik mənalarına və sintaktik funksiyalarına görə müəyyənləşdirmək olar.

Ümumi isimlərin omonimliyi xüsusi isimlərin omonimliyinə nisbətən çoxdur. Xüsusi isimlər ayrı-ayrı şəxsləri, əşyaları, hadisələri eynicinsli olan başqa şəxslərdən, əşyalardan və hadisələrdən fərqləndirən fərdi konkret addır. Ümumi isimlər isə konkret və məcazi mənalarda işlədilərək, oxşar əşyaların ümumiləşmiş adı kimi fəaliyyət göstərir. Bunlar öz əşyalıq mənalarını saxlamaqla yanaşı, yeni əlamət və keyfiyyət məzmunu da əldə edir.

Dilimizdə işlədilən fellərin bir qismi omonimləşir, feli omonim cərgələr əmələ gətirir. Feli omonimlər ismi omonimlərə nisbətən kəmiyyətcə azdır. Fellərin omonimliyə meyli çox zəifdir. Fellərdə çoxmənalılığa meyil daha güclüdür, çünki onlar müxtəlif əşyaların bir-birinə bənzər hərəkətlərini icra edir, nominativ mənası, kommunikativ münasibəti dəyişir. Omonim fellərin kəmiyyətcə azlığı, daha doğrusu, fellərdə omonimləşmənin zəifliyi "onların (felin) ifadə etdiyi hərəkət məfhumu əşya və onun tərkibində, üzərində olan ona məxsus əlamətdən daha abstrakt bir xarakterə malikdir. Bu isə müxtəlif əşyaya məxsus müxtəlif tərzli hərəkətlərin zaman və məkana görə eyni olması ilə izah edilir"[1]. Fellərlə ifadə olunan hərəkət və əlaqə, adətən, daha ümumi abstrakt mahiyyətə malikdir, konkretlikdən azaddır. Məhz buna görə də fellərin omonimləşməyə meyil etməsi prosesi hərəkət məzmununa malik olan felin öz əsas mənasını saxlamaqla, onun məna çalarlığından birinin əsas mənadan "ayrılaraq yeni bir xüsusi mənaya malik məfhum kəsb etməsi üçün hərəkət tərzinin, zaman və məkan şəraitinin tamamilə dəyişməsi lazımdır ki, bu da çox çətin başa gələn proseslərdən biridir"[2].

Fellər başqa nitq hissələrindən məna strukturunun daha tutumlu və elastik olması ilə fərqlənir. Bu, fellərin qrammatik quruluşunun xüsusiyyətləri, mənaca birləşmə üsullarının və diferensiallaşmasının

[1] S.Cəfərov. Azərbaycan dilində söz yaradıcılığı. Bakı, 1959, səh. 12.

[2] Yenə orada

müxtəlifliyi, sintaktik imkanlarının zənginliyi ilə bağlıdır. Fellər həm məna, həm də formaca zəngin və müxtəlifdir; onlar bir-birini tamamlayır. Bunlarda fellərin əsil forma və məzmun vəhdəti vardır. Lakin fellərin kateqoriya və forma zənginliyi onların mənalarında əsaslı dönüş yarada bilmir. Çünki fel kateqoriya və formalarının hamısı özünü təsriflənən bir felin formaları kimi göstərir. Həmin fel formaca dəyişsə də, müxtəlif olsa da, mənaları arasında yaxınlıq qalır. Məhz buna görə də fellərdə omonimlik isimlərdən azdır. Bu da təbiidir. Fellər müstəqim yox, məcazi mənada omonimləşir.

Omonim fellərə misal olaraq *alınmaq, alışmaq, vurulmaq, qurumaq, dolanmaq, eşmək, əkmək, keçinmək, keçirmək, oynatmaq, otarmaq, ötürmək, tutulmaq, üzülmək* və s. sözləri göstərmək olar. Bu fellərin hər biri müxtəlif hərəkət məfhumunu ifadə edir; məsələn, **alınmaq** (ələ gətirilmək) – **alınmaq** (incimək); **alışmaq** (odlanmaq) – **alışmaq** (öyrəşmək); **vurulmaq** (döyülmək) – **vurulmaq** (bənd olmaq); **qurumaq** (quru vəziyyətə düşmək) – **qurumaq** (üzülmək); **dolanmaq** (gəzmək) – **dolanmaq** (yaşamaq); **eşmək** (qazmaq) – **eşmək** (burmaq); **əkmək** (basdırmaq) – **əkmək** (rədd etmək) – **əkmək** (şumlamaq) – **əkmək** (səpmək); **keçinmək** (ölmək) – **keçinmək** (yaşamaq); **keçirmək** (ötürmək) – **keçirmək** (söndürmək); **oynatmaq** (rəqs etdirmək) – **oynatmaq** (ələ salmaq); **otarmaq** (yemləmək) – **otarmaq** (aldatmaq); **ötürmək** (yola salmaq) – **ötürmək** (yemək); **tutulmaq** (həbs olunmaq) – **tutulmaq** (tutqunlaşmaq); **üzülmək** (əldən düşmək) – **üzülmək** (dərilmək).

**Morfoloji yolla omonimlərin əmələ gəlməsi.** Dilimizin lüğət tərkibinin artmasında, zənginləşməsində, omonim cərgələrin yaranmasında morfoloji prosesin əhəmiyyəti daha çoxdur. İsim, sifət, fel köklərindən sözdüzəldici şəkilçilərlə omonim cərgə düzəlir.

Morfoloji yolla əmələ gələn omonimləri iki qrupa bölmək olar:

1. Kökləri omonim olan sözlərdən düzələn omonimlər.
2. Kökləri omonim olmayan sözlərdən düzələn omonimlər.

**Kökləri omonim olan düzəltmə omonimlər.** Bu omonimlərin komponentləri həm köklərinə, həm də şəkilçilərinə görə bir-biri ilə omonim münasibətdə olur. Məsələn:

**Ağa** – ağalıq (hökmranlıq) – **ağa** – ağalıq (ağalara məxsus yer)
**Ağ** – ağartı (məhsul) – **ağ** – ağartı (görünən ağ şey)
**Ayna** – aynalı (tüfəng) – **ayna** – aynalı (güzgüsü olan)

**Aş** – aşlıq (plov üçün yararlı) – **aş** – aşlıq (aşa qoyulmuş dəri)

**Bağ** – bağlıq (bağ üçün yararlı, bağı çox olan yer) – **bağ** – bağlıq (ip, sap)

**Bağ** – bağça (kiçik bağ, güllük) – **bağ** – bağça (tərbiyə müəssisəsi) və s.

**Kökləri omonim olmayan düzəltmə omonimlər.** Bu omonimlər ancaq şəkilçilərin vasitəsilə bir-birinə formaca tam uyğunlaşır. Sözlər şəkilçilərin köməyi ilə omonim cərgə əmələ gətirir:

**Almalıq** (çuxur yer, çökəklik) – **almalıq** (alma bağı)

**Burğu** (alət) – **burğu** (çubuq)

**Vergi** (dövlət rüsumu) – **vergi** (istedad)

**Vurğu** (zərbə) – **vurğu** (müəyyən səsin ucaldılması)

**Arpalıq** (arpa olan yer) – **arpalıq** (çökəklik)

**Sintaktik yolla əmələ gələn omonimlər.** Sintaktik yolla da omonimlər yaranır. Bu üsulla düzələn omonimlər əsasən yanaşma əlaqəsi əsasında cərgə əmələ gətirir. Məsələn:

**Aypara** (bir-iki günlük ay) – **aypara** (qadın bəzəyi)

**Alacəhrə** (quş adı) – **alacəhrə** (ağac)

**Quşqonmaz** (bitki) – **quşqonmaz** (uca, sıldırım)

**Danabaş** (qurd) – **danabaş** (küt, sarsaq)

**İkibaşlı** (iki başı olan) – **ikibaşlı** (kinayəli)

**İkiüzlü** (iki üzü olan) – **ikiüzlü** (yaltaq)

**Karvanqıran** (zəhərli ot) – **karvanqıran** (ulduz) və s.

Sintaktik yolla mürəkkəb ixtisarlardan da omonimlər əmələ gəlir:

**AMM** – Azərbaycan Milli Məclisi (1945-1946-cı illərdə)

**AMM** – Azərbaycan Modernləşdirmə Mərkəzi

**AP** – Assoşieyted Press

**AP** – Avropa Parlamenti

**ASA** – Azərbaycan Sahibkarlar Assosiasiyası

**ASA** – Azərbaycan Sosiologiya Assosiasiyası və s.

## OMONİMLƏRİN TƏSNİFİ

Eyni və müxtəlif qrammatik kateqoriyalara aid sözlərin bir qismini fonetik tərkibcə eyni və ya yaxın, leksik və qrammatik mənaca eyni və ya müxtəlif olan sözlər təşkil edir. Bu sözlər həm dilin daxili imkanları, həm də alınma sözlər hesabına əmələ gəlir.

Formaca eyni, mənaca müxtəlif sözlərdən biri də omonimlərdir. Onların nitq hissələrinə münasibəti, tərkibləri, mənşəyi və növləri müxtəlifdir. Omonimləri müxtəlif şəkildə təsnif etmək olar. Onları mənşələrinə, əmələ gəlmələrinə, nitq hissələrinə, tərkiblərinə və quruluşlarına, məna və qrammatik formalarına və s. görə qruplaşdırmaq olar.

Omonimləri təsnif edərkən onların aşağıdakı cəhətləri nəzərə alınmalıdır:

1. Səslənmə eyniliyi.
2. Yazılış eyniliyi.
3. Məna müxtəlifliyi.
4. Eyni və müxtəlif nitq hissələrinə aidliyi.

Dilimizdə işlədilən omonimləri dil vahidlərinin omonimlik xarakterinə, omonim vahidlərin tamlıq dərəcəsinə, mənşələrinə, mənbələrinə, morfoloji quruluşlarına, tərkiblərinə, mənalarına görə bölmək olar:

**I. Dil vahidlərinin omonimlik xarakterinə görə.** Bu prinsipə görə omonimlərin aşağıdakı növlərini göstərmək olar:

a) omonim morfemlər;
b) omonim sözlər;
c) omonim birləşmələr;
ç) omonim cümlələr;
d) qarışıq omonimlər: 1) Şəkilçi ilə sözün omonimliyi, 2) Sözlə söz birləşməsinin omonimliyi, 3) Söz birləşməsi ilə cümlələrin omonimliyi.

**II. Qrammatik formaların uyğunluğuna görə.** Bu bölgüyə əsasən omonimləri iki yerə ayırmaq olar: *tam və natamam omonimlər*.

*Tam omonimlər* eyni nitq hissəsinə aid olub, bütün formalarında bir-biri ilə tam eynilik təşkil edən omonimlərdir; məsələn, **bağça** (*is.* kiçik bağ, güllük) – **bağça** (*is.* müəssisə); **dağ** (*is.* yüksəklik) – **dağ** (*is.* qəm) – **dağ** (*is.* yandırma); **top** (*is.* silah) – **top** (*is.* kos); **ləpə** (*is.* qoz, fındıq içi) – **ləpə** (*is.* dalğa) və s.

*Natamam omonimlər* müxtəlif nitq hissələrinə aid olub, köklərinə görə tam uyğun gəlir, sonra qəbul etdikləri formal əlamətlərə görə fərqlənir; məsələn, **köç** (*is.*) – **köç** (*f.*); **aş** (*is.*) – **aş** (*f.*); **at** (*is.*) – **at** (*f.*) və s.

**Köç** (isim) → köçüm (*mənsub.*), köçdür (*xəbərlik*)

**Köç** (fel) → köçmək (*məsdər*), köçdü (*keçmiş zaman*)
**Aş** (isim) → aşın (*yiy. hal*), aşlar (*kəm.*)
**Aş** (fel) → aşmalı (*vacib*), aşır (*indiki zaman*)
**At** (isim) → atı (*təsirlik hal*), atın (*mənsub.*)
**At** (fel) → atacaq (*gələcək zaman*), ataraq (*feli bağ.*)

**III. Mənşəyinə görə.** Omonimlər mənşəyinə görə iki yerə bölünür:

1. Bir kökdən əmələ gələnlər.
2. Müxtəlif köklərdən əmələ gələnlər.

Bir kökdən əmələ gələn omonimlərə *etimoloji semantik,* müxtəlif köklərdən əmələ gələn omonimlərə isə *tarixi* omonimlər deyilir.

*Etimoloji omonimlər* müxtəlif mənşəli olub, tarixən fonetik dəyişmə nəticəsində təsadüfən tələffüzcə eyniləşən, qrafik cəhətdən eyni olan omonimlərdir; məsələn, **biz** (isim) – **biz** (əvəzlik); **çay** (bitki) – **çay** (axar su); **ton** (musiqi sədası) – **ton** (ağırlıq ölçüsü); **tər** (maye) – **tər** (təzə); **əqrəb** (kəfgir) – **əqrəb** (həşərat); **ərz** (yer) – **ərz** (anlatma); **kərə** (yağ) – **kərə** (qulağı qısa heyvan); **yal** (tük) – **yal** (it yemi); **çin** (rütbə) – **Çin** (ölkə) – **çin** (alət adı) – **çin** (doğru) və s.

*Semantik omonimlər* bir sözün bir və ya iki mənasının əsas məna ilə hər cür əlaqəsini kəsərək maksimal məna ayrılığına malik omonimlərdir; məsələn, **mürəkkəb** (rəng) – **mürəkkəb** (çətin); **mal** (əmtəə, əşya) – **mal** (heyvan); **gün** (günəş) – **gün** (müddət); **dad** (hiss) – **dad** (qışqırmaq); **bağ** (meyvəlik) – **bağ** (ip); **bel** (üzv) – **bel** (alət); **əsər** (yaradıcılıq işi) – **əsər** (iz) – **əsər** (təsir) və s.

**IV. Əmələ gəlmələrinə görə.** Omonimləri əmələ gəlmələrinə görə iki yerə ayırmaq olar:

1. Həmin dilin daxili imkanları hesabına əmələ gələnlər; məsələn, **üz** (isim) – **üz** (fel); **tut** (isim) – **tut** (fel); **yad** (isim) – **yad** (sifət) və s.
2. Başqa dillərdən alınma sözlər hesabına yarananlar; məsələn, **tab** (*fars.* güc) – **tab** (*fars.* dözmə); **tam** (*ər.* dad) – **tam** (bütöv); **parça** (*fars.* material) – **parça** (hissə); **para** (pul) – **para** (*ər.* hissə); ***rast*** (*fars.* musiqi havası) – **rast** (*fars.* qarşılaşma); **tas** (*ər.* su qabı) – **tas** (*ər.* uduş dövrəsi).

**V. Morfoloji quruluşuna görə.** Bu prinsipə görə omonimləri iki qrupa ayırmaq olar: *əsas və törəmə omonimlər*.

*Əsas omonimlər* tarixən bir-biri ilə əlaqədar olmamış sözlərdir; məsələn, **şam** (cisim) – **şam** (yemək); **şan** (qovuqlu mum) – **şan** (ad-san); **saz** (musiqi aləti) – **saz** (kefi kök); **sar** (quş) – **sar** (bürümək) – **sar** (ağac).

Törəmə omonimlər mənşəcə eyni olmuş, onların arasında əlaqə hiss olunur; məsələn, **şiş** (çubuq) – **şiş** (qabarma); **şor** (duzu çox olan) – **şor** (ağartı növü); **yaş** (maye) – **yaş (**nəm); **fəsil** (ilin dörddə biri) – **fəsil** (əsərin hissəsi); **tağ** (kol) – **tağ** (hissə); **siyasət** (dövlətin yeritdiyi siyasət) – **siyasət** (hiylə).

**VI. Omonimlərin tərkibcə bölgüsü.** Dilçilik ədəbiyyatında omonimlərin tərkibcə iki – sadə və düzəltmə növü qeyd olunur. Azərbaycan dili materialları əsasında demək olar ki, omonimlər tərkibcə üçdür: *sadə, düzəltmə, mürəkkəb.*

*Sadə omonimlər.* Bu omonimlər həm fonetik amillər, həm də bir sözün mənaca obyektiv şəkildə inkişaf etməsi nəticəsində yaranır. Bunlar dilin öz sözləri və başqa dillərdən alınma sözlərdən ibarətdir; məsələn, **səfər** (*ər.* yola çıxmaq) – **səfər** (*ər.* dəfə); **sona** (erkək ördək) – **sona** (gözəl); **rəf** (*ər.* ləmə) – **rəf** (*ər.* yox etmək); **ocaq** (od qalanmış yer) – **ocaq** (nəsil); **saç** (tel) – **saç** (yaymaq) **göy** (rəng) – **göy** (səma) və s.

*Düzəltmə omonimlər.* Bu omonimlər etimoloji cəhətdən əlaqədar olan və olmayan sözlərdən şəkilçilər vasitəsilə əmələ gəlir. Düzəltmə omonimləri müəyyənləşdirmək nisbətən asandır. Çünki onlar dəqiq tarixi leksik axtarışlar tələb etmir. Bunlar sözyaratma və formayaratma prosesinin nəticəsidir; məsələn, **sağlıq** (sağlamlıq) – **sağlıq** (qədəh qaldırma); **donluq** (maaş) – **donluq** (parça) və s.

*Mürəkkəb omonimlər* yanaşma və idarə əlaqələri əsasında sadə sözlərdən, sadə və düzəltmə sözlərdən yaranır. Mürəkkəb omonimlər sadə və düzəltmə omonimlərə nisbətən azdır və bunların çoxu termin kimi işlədilir; məsələn, **quşqonmaz** (bitki) – **quşqonmaz** (uca); **bağrıqara** (quş) – **bağrıqara** (kədərli); **alacəhrə** (quş) – **alacəhrə** (ağac); **ağzıbir** (həbsxana) – **ağzıbir** (sözü bir) və s.

**VII. Mənalarına görə omonimlərin təsnifi.** Azərbaycan dili materialı əsasında omonimlərin mənaca 5 növünü qeyd etmək olar:

1. Leksik omonimlər.
2. Leksik-qrammatik omonimlər.
3. Qrammatik omonimlər.

4. Qarışıq tipli omonimlər.
5. Funksional omonimlər.

**Leksik omonimlər.** Fonetik tərkibləri, qrammatik məna və formaları eyni, leksik mənaları müxtəlif olan omonimlər leksik omonimlər adlanır; məsələn, **bazar** (alver yeri) – **bazar** (istirahət günü); **qaz** (quş) – **qaz** (fiziki maddə) – **qaz** (parça) və s.

**Bazar – bazar, qaz – qaz – qaz** omonim cərgələrin üzvlərinin fonetik tərkibləri eynidir. Eyni şəkildə tələffüz olunur, hamısı bir nitq hissəsinə – ismə aiddir və yazılışlarına görə də fərqlənmir. Onları bir-birindən ayıran cəhət ancaq mənalarıdır.

Leksik omonimləri müəyyən edərkən sözlərin nominativ mənası və sintaktik cəhəti nəzərə alınmalıdır.

Hansı omonimləri leksik omonim hesab etmək olar? Aşağıda sadalanan tələblərə cavab verən omonimləri leksik omonim adlandırmaq olar:

1. Omonim cərgənin üzvləri fonetik tərkibcə eyni olmalıdır.
2. Qrammatik formaları eyni olmalıdır.
3. Qrafik və tələffüzcə tam eyniyyət təşkil etməlidir.
4. Bir nitq hissəsinə aid olmalıdır.
5. Leksik mənalarına görə müxtəlif olmalıdır.

Leksik omonimlərin əmələ gəlmə yollarını iki şəkildə qruplaşdırmaq olar:

1. Bir-biri ilə əlaqədar olmayan müxtəlif mənşəli sözlərin səs formalarının tarixi inkişaf nəticəsində bir-birinə uyğun gəlməsi.
2. Çoxmənalı sözlərin mənalarından birinin əsas mənadan uzaqlaşması.

Səs uyğunluğu nəticəsində yaranan omonimlər aşağıdakı yollarla əmələ gəlir:

1. Sözün mənaca inkişafı nəticəsində; məsələn, **öyrənmək** (bilmək) – **öyrənmək** (alışmaq); **ötmək** (keçmək) – **ötmək** (oxumaq); **oxşamaq** (bənzəmək) – **oxşamaq** (əzizləmək) və s.
2. Fonetik dəyişmə nəticəsində; məsələn, **dava** (*fars.* də’va) – **dava** (*ər.* dəva’); **dəf** (*ər.* dəf) – **dəf** (*ər.* dəf’); **axır** (axur) – **axır** (*ər.*axir); **ağıl** (mal-qoyun salınan yer) – **ağıl** (*ər.* əql) və s.
3. Alınma sözlərlə Azərbaycan sözlərinin uyğunlaşması nəticəsində; məsələn, **dad** (*fars.* fəryad) – **dad** (tam); **dar** (*fars.* dirək) – **dar** (sıx, geniş olmayan).

4. Ədəbi dil və dialekt sözlərinin fonetik tərkibcə eyniləşməsi nəticəsində; məsələn, **ala** (*ədəb.* qarışıq rəngli, açıq-mavi) – **ala** (*dan.* ağ ləkə) – **ala** (*məh.* alaq); **alıcı** (*ədəb.* müştəri) – **alıcı** (*ədəb.* yırtıcı) – **alıcı** (*məh.* qov) və s.

5. Alınma sözlərin uyğunlaşması nəticəsində; məsələn, **kavaler** (*fr.* bir ordenlə bir neçə dəfə təltif olunmuş) – **kavaler** (*fr.* qadınla rəqs edən kişi); **kadet** (*fr.* hərbi məktəb) – **kadet** (*fr.* partiya adı); **kadr** (*fr.* səhnə) – **kadr** (*fr.* müəyyən sahədə çalışan heyət) və s.

Çoxmənalı sözlərdən törəyən leksik omonimlər bir sözün iki və ya daha çox mənasının ilkin məna ilə əlaqəni kəsərək maksimal semantik ayrılması nəticəsində yaranır; məsələn, **basma** (rəng) – **basma** (möhür) – **basma** (kağız) – **basma** (naxış) – **basma** (çap); **beyt** (şeir parçası) – **beyt** (ev); **bəbək** (gözdəki qara dairəcik) – **bəbək** (qönçə); **bərə** (pusqu yeri) – **bərə** (sal) – **bərə** (sağın yeri); **bitirmək** (qurtarmaq) – **bitirmək** (yetişdirmək) və s.

Leksik omonimləri nitq hissələrinə görə əsasən üç qrupa ayırmaq olar: ismi, sifəti, feli.

**İsmi leksik omonimlər.** Bu omonim cərgələrin üzvləri ancaq isimdən ibarətdir; məsələn, **əməl** (iş) – **əməl** (hesab əməliyyatının hər biri) – **əməl** (arzu, ümid); **ərz** (yer) – **ərz** (şikayət etmə) – **ərz** (yer) – **ərz** (şikayət etmə) – **ərz** (müddət); **əsər** (iş) – **əsər** (iz) – **əsər** (təsir); **əsmə** (çöl bitkisi) – **əsmə** (titrəmə) – **əsmə** (çarşabın bir növü); **zəfər** (qələbə) – **zəfər** (bəla); **zindan** (qazamat) – **zindan** (dəmiri döymək üçün alət) və s.

**Sifəti leksik omonimlər.** Belə omonimlərin üzvləri sifətə aid olur; məsələn, **simli** (teli olan) – **simli** (qanı zəhərlənmiş); **üzlü** (üzü olan) – **üzlü** (yağlı) – **üzlü** (həyasız); **biryerli** (bir yeri olan) – **biryerli** (həmyerli); **bağlı** (qapalı) – **bağlı** (bağı çox olan yer) – **bağlı** (məftun) – **bağlı** (əlaqədar); **duru** (sulu) – **duru** (şəffaf) – **duru** (xalis) və s.

**Feli leksik omonimlər.** Bunların üzvləri ancaq fel olur; məsələn, **bələnmək** (sarınmaq) – **bələnmək** (bulaşmaq); **qarışmaq** (müdaxilə etmək) – **qarışmaq** (dolaşıq düşmək) – **qarışmaq** (bənd olmaq); **yetişmək** (dəymək) – **yetişmək** (çatmaq) – **yetişmək** (həddibüluğa çatmaq); **yoluxmaq** (xəstəliyə tutulmaq) – **yoluxmaq** (baş çəkmək); **işləmək** (iş görmək) – **işləmək** (bayıra getmək) və s.

**Leksik-qrammatik omonimlər.** Müxtəlif nitq hissələrinə aid olub, bir-birindən leksik və qrammatik mənalarına görə fərqlənən omonimlər *leksik-qrammatik* omonimlər adlanır.

Leksik-qrammatik omonimlərin komponentləri müxtəlif nitq hissələrinə aid olsa da, onlar səslənmələrinə və yazılışlarına görə eyni olur. Bunlarda ümumi cəhətlərlə yanaşı, fərdi, ancaq həmin nitq hissələrinə xas olan əlamətlər də vardır. Cərgənin üzvləri aid olduqları nitq hissələrinin formal əlamətlərini qəbul edir. Lakin bu formal cəhətlər onların mənasına təsir göstərmir; omonimliyinə mane olmur, işlənmə sahələrinin müxtəlifliyinə işarə edir. Demək, müxtəlif nitq hissələrinə aid olan sözlərin leksik-qrammatik omonim kimi işlənməsi onların qəbul etdikləri formal əlamətlərə əsasən yox, köklərinin mənaca müxtəlifliyinə, forma eyniliyinə görədir. Leksik-qrammatik omonimləri nitq hissələrinə görə belə qruplaşdırmaq olar; isim – sifət, isim – fel, sifət – fel, sifət – qoşma, say – fel, isim – nida, isim – ədat, fel – nida və s.

İsim və sifətdən ibarət leksik-qrammatik omonimlər: **kip** (*is*. topa) – **kip** (*sif.* sıx); **lopa** (*is*. alov) – **lopa** (*sif.* iri); ***lülə*** (*is*. boru) – **lülə** (*sif.* bükülmüş); **misri** (*is*. mahnı növü) – **misri** (*sif.* kəsərli); **nazlı** (*is*. şaftalı növü) – **nazlı** (*sif.* dəcəl, ərköyün) və s.

İsim və feldən ibarət leksik-qrammatik omonimlər: **an** (*is*. ləhzə) – **an** (*f.* yada salmaq); **ara** (*is*. ortalıq) – **ara** (*f.* axtarmaq); **bit** (*is*. cücü) – **bit** (*f.* tamamlamaq); **qır** (*is*. qatı maddə) – **qır** (*f.* kəsmək); **yağ** (*is*. qida maddəsi) – **yağ** (*f.* yağışın düşməsi); **yara** (*is*. xəstəlik) – **yara** (*f.* lazım olmaq) və s.

Sifət və feldən ibarət leksik-qrammatik omonimlər: **cır** (*sif.* yabanı) – **cır** (*f.* parçalamaq); **sıx** (*sif.* qalın) – **sıx** (*f.* əzmək); **çaş** (*sif.* əyri) – **çaş** (*f.* özünü itirmək) və s.

Leksik-qrammatik omonim cərgələrin üzvləri bir-birindən leksik və qrammatik mənalarına, qəbul etdikləri əlavə qrammatik formaların müxtəlifliyinə görə də fərqlənir.

Hansı omonimləri leksik-qrammatik omonim hesab etmək olar? Leksik-qrammatik omonimlərin əsas əlamətləri bunlardır:

1. Müxtəlif nitq hissələrinə aidlik.
2. Leksik və qrammatik mənaların fərqli olması.
3. Səslənmələrinə və yazılışlarına görə eynilik.
4. Mənşələrinin eyni və müxtəlif olması.

5. Sintaktik funksiyalarının müxtəlif olması.

6. Müxtəlif morfoloji paradiqmalı və sintaktik funksiyalı olması.

Azərbaycan dilində leksik-qrammatik omonimlər aşağıdakı yollarla əmələ gəlir:

1. Müxtəlif sözlərin fonetik tərkibcə təsadüfi uyğunluğu yolu ilə; məsələn, **yad** (isim) – **yad** (sifət); **yaz** (isim) – **yaz** (fel); **at** (isim) – **at** (fel); **gül** (isim) – **gül** (fel); **biz** (isim) – **biz** (əvəzlik); **min** (say) – **min** (fel) və s.

2. Nitq hissələrinin bir-birinə keçməsi yolu ilə; məsələn, **isim:**

| | | |
|---|---|---|
| *isim – sifət:* | *kök – kök* | *arı – arı* |
| *isim – fel:* | *qabar – qabar* | *tala – tala* |
| *isim – zərf:* | *qabaq – qabaq* | *baş-ayaq – baş-ayaq* |
| *sifət – isim:* | *ağ – ağ* | *göy – göy* |
| *sifət – zərf:* | *təzə – təzə* | *tərs – tərs* və s. |

3. Omonim şəkilçilərin artırılması yolu ilə; məsələn, **keçmiş** (*is.*) – **keçmiş** (*f.sif.*) – **keçmiş** (*f.*); **gələcək** (*is.*) – **gələcək** (*f.sif.*) – **gələcək** (*f.*).

**Qrammatik omonimlər.** Qrammatik omonim nədir? Köklərinin omonim olub-olmamasından asılı olmayaraq sözlərə sözdüzəldici şəkilçilər artırmaqla əmələ gələn omonimləri qrammatik omonim adlandırmaq olar. Bu omonimlərin əsas əlamətləri aşağıdakılardır:

1) bunların üzvləri eyni nitq hissəsinə aid olur;

2) leksik mənaları müxtəlif, qrammatik mənaları eynidir;

3) yazılış və tələffüzcə isə tam eyni olur.

Qrammatik omonimlərə aid nümunələr: **aylıq** (maaş) – **aylıq** (bir aya aid iş); **aşıqlıq** (aşıq sənəti) – **aşıqlıq** (oynaq sümüyün yeri); **atalıq** (ögey ata) – **atalıq** (ata üzərinə düşən vəzifə); **bağlama** (bağlanmış şey) – **bağlama** (deyişmə); **başlıq** (örtük) – **başlıq** (sərlövhə) – **başlıq** (süd pulu); **qazma** (daxma) – **qazma** (alət); **qazıntı** (faydalı süxurlar) – **qazıntı** (tör-töküntü); **yaylıq** (dəsmal) – **yaylıq** (yayda yetişən); **birlik** (ittifaq) – **birlik** (ölçüsü, nömrəsi, sayı və s. bir olan) və s.

**Qarışıq omonimlər.** Azərbaycan dilində leksik-qrammatik omonimlərlə yanaşı, qarışıq tipli omonimlər də vardır. Əgər leksik omonimlərin üzvləri bir nitq hissəsi ilə əlaqədardırsa, leksik-qrammatik

omonimlərin üzvləri iki nitq hissəsi ilə əlaqədardır. Bunların tərkibi leksik-qrammatik omonimlərdən ibarətdir.

Müxtəlif nitq hissələrinə aid olan, leksik və leksik-qrammatik omonimlərin qarışığından düzələn, azı üç üzvlü omonim cərgələri qarışıq omonimlər adlandırmaq olar; məsələn:

| | |
|---|---|
| **Al** I (*isim*) | – hiylə |
| **Al** II (*isim*) | – xəyal (mövhum surət) |
| **Al** III (*sifət*) | – qırmızı |
| **Al** IV (*fel*) | – götürmək |
| **Artıq** I (*isim*) | – qalıq |
| **Artıq** II (*ədat*) | – daha |
| **Artıq** III (*sifət*) | – çox |
| **Düz** I (*isim*) | – sahə |
| **Düz** II (*sifət*) | – doğru |
| **Düz** III (*fel*) | – qoymaq |
| **Düz** IV (*zərf*) | – açıq |
| **Düz** V (*ədat*) | – ancaq və s. |
| **Gəz** I (*isim*) | – gərtik |
| **Gəz** II (*fel*) | – hərəkət etmək |
| **Gəz** III (*num. söz*) | – dəfə |
| **Kəm** I (*isim*) | – əskik |
| **Kəm** II (*sifət*) | – pis |
| **Kəm** III (*zərf*) | – az |

**Funksional omonimlər** çoxmənalı sözlərin məna əlaqəsini itirməsi nəticəsində əmələ gəlir. Bunlar bir sözdən törəsə də, müxtəlif nitq hissələrinə aid olur, sintaktik funksiyaları da müxtəlifdir. Belə omonimlər çoxfunksiyalıdır.

Funksional omonimləri sözlərin səs tərkiblərinə, qrammatik mənalarına, müxtəlif nitq hissələrinə aidliyinə, müxtəlif funksionallığına görə yox, mətnlə müəyyənləşdirmək mümkündür. Demək, bu omonimlər leksik mənalarına görə deyil, sintaktik funksiyalarına görə müəyyən edilir. Yazılışları, formaları və səslənmələri eynidir. Məsələn, *düz, cəld, sakit, sərt, yaman, bərk, yaxşı, gözəl, pis* və s. Bu sözlər isimdən əvvəl gəldikdə sifət (*düz, cəld, sakit adam*), feldən əvvəl gəldikdə isə (*düz danışır, cəld hərəkət edir, sakit*

*danışır və s.*) zərf olur. Belə omonimlər ancaq işlənmə yerlərinə və funksiyalarına əsasən müəyyənləşir. Bunlar sifət kimi işləndikdə təyin, zərf kimi işləndikdə isə zərflik olur.

## OMOMORFEMLƏR

Dilimizin lüğət tərkibinin zənginləşməsində, çoxmənalı sözlərin və omonimlərin yaranmasında şəkilçilərin rolu çoxdur. Bu cəhətdən sözlərə əlavə olunaraq onlarda yeni məna yaradan şəkilçilər və qrammatik formaların leksikləşməsi prosesi daha əhəmiyyətlidir. Şəkilçilər ayrılıqda müstəqil işlədilib yeni məna ifadə etməsə də, yeni sözlərin yaranmasında, onlar arasında əlaqə yaratmaqda, təfəkkürümüzün təzahür formalarının qaydaya salınmasında, dilimizin sözyaratma prosesini müəyyənləşdirməkdə, qrammatik sistemin əmələ gəlməsində mühüm rol oynayır.

Dilimizdə işlədilən şəkilçilərin (sözdüzəldici və sözdəyişdirici) bir qismi eyni formalı, müxtəlif funksiyalıdır. Bu şəkilçilər səslənmələrinə, fonetik tərkiblərinə görə tam eyniyyət təşkil edir. Onlar əlavə olunduqları sözün ya mənasını dəyişir, ya da həmin sözün başqa sözlərlə müxtəlif münasibətini bildirir. Bir qismi isə formaca müxtəlif olsa da, mənaca ya bir-birinə yaxın, ya da əks olur. Bu cəhətdən dilimizdəki şəkilçiləri üç qrupa ayırmaq olar:

1) formaca eyni, mənaca müxtəlif olanlar (omonim və çoxmənalı şəkilçilər);

2) formaca müxtəlif, mənaca bir-birinə yaxın və ya eyni olanlar (sinonim və dublet şəkilçilər);

3) formaca müxtəlif, mənaca bir-birinə əks olanlar (antonim-şəkilçilər).

Dilimizdə isim və sifət düzəldən **-şünas, -saz, -baz, -kar;** sifətin azaltma dərəcəsinin şəkilçiləri (**-sov, -ımtıl, -mıtraq, -raq**); feli bağlama şəkilçiləri (**-ıb, -araq, -anda, -dıqca, -ınca, -alı, -madan, -məmiş, -ikən**) sinonim şəkilçilərdir. **-sız (-siz, -suz, -süz), -bi, -ba, -li, -ov, -zadə** şəkilçiləri isə dublet şəkilçilərdir.

Antonim şəkilçilər, demək olar ki, dilimizdə yox dərəcəsindədir. Antonim şəkilçilərə **-lı** (*-li, -lu, -lü*), -**sız** (*siz, -suz, -süz*) şəkilçilərini nümunə göstərmək olar.

Çoxmənalı və omonim şəkilçilər sinonim və antonim şəkilçilərdən həm forma, həm də mənaca fərqlənir. Ona görə də onlar arasında hüdud qoymaq, onları bir-birindən ayırmaq asandır. Çoxmənalı, omonim, sinonim və antonim şəkilçiləri bir-birindən fərqləndirərkən onların formasına, mənasına və funksiyasına əsaslanmaq lazımdır.

Sözdüzəldici omonim şəkilçilər müxtəlif mənalı və formalı sözlərə əlavə edilərək onlardan müxtəlif mənalı yeni sözlər əmələ gətirir. Bu şəkilçilərin əmələ gətirdiyi yeni sözlərin hamısı deyil, bəzisi omonim kimi çıxış edir.

Bu və ya digər şəkilçinin konkretləşdirici rolunu, mənasını söz vasitəsilə bilmək olar. Şəkilçilərin sözyaratma, sözdəyişmə və formayaratma keyfiyyəti ancaq sözdə müəyyənləşir, mənaları qəti olaraq dəqiqləşir. Ona görə də şəkilçilərin sözdüzəldici və ya sözdəyişdirici olmasını, omonimliyini sözsüz təsəvvür etmək olmaz.

Sözdüzəldici şəkilçilərin müəyyən hissəsi öz səs tərkibinə görə bir-birinə uyğun gəldiyi kimi, onlar sözdəyişdirici və forma düzəldən şəkilçilərlə də eyniləşə bilər.

Sözdüzəldici omomorfemlər dildə mövcud olan başqa morfemlərdən həm mənasına, həm də funksiyasına görə əsaslı fərqlənir. Sözün strukturunda onların başqa morfemlərlə birləşmə qayda və qanunları müxtəlifdir. Sözdüzəldici morfemlərin bir nitq hissəsi daxilindəki omonimliyinə nisbətən müxtəlif qrammatik və ya leksik-qrammatik kateqoriyaların şəkilçilərinin omonimliyini təyin etmək daha asandır, çünki bunların mənası və funksiyası gözə tez dəyir, müxtəlif sözlərdən müxtəlif mənalı və funksiyalı sözlər alınır.

Bir və ya müxtəlif kateqoriyaya aid olan şəkilçilərin omonimliyini, əsasən, məna və funksiya meyarları əsasında müəyyənləşdirmək olar. Dilimizdəki omomorfemlər, əsasən, üç nitq hissəsində özünü göstərir: isim, sifət, fel.

Şəkilçilər öz ilk formasını saxlamaqla, abstraktlaşma və ümumiləşmə nəticəsində söz yaratma imkanını genişləndirərək çoxmənalı olduğu kimi, əlavə olunduqları sözlərin məna və funksiyalarında dəyişiklik yaratmaqla da omonimləşir.

Çoxmənalı morfemlərə felin məchul və qayıdış növlərinin (*-ıl, -ın*), xəbərlik və şəxs kateqoriyalarının və s. şəkilçilərini aid etmək olar.

Azərbaycan dilində elə şəkilçilər var ki, onları həm omonim, həm də çoxmənalı şəkilçilər kimi qəbul etmək mümkündür. Bunları bir-birindən ayırmaq çətindir, çünki hər ikisi formaca eynidir, eyni nitq hissəsi daxilində fəaliyyət göstərir. Şəkilçilərin omonim və çoxmənalı kimi olması təbiidir. Omonim şəkilçilərin bir qismi təsadüfi səs uyğunluğu nəticəsində yaranırsa, digər qismi çoxmənalılıqdan əmələ gəlmişdir. Çoxmənalı şəkilçilər məna əlaqələrini itirərək omonimləşmişdir.

Şəkilçinin omonim və ya çoxmənalı olmasını müəyyənləşdirərkən aşağıdakıları nəzərə almaq lazımdır:

1. Omomorfemlər müxtəlif mənalı şəkilçilərdir. Polisemantik morfemlər isə bir-biri ilə mənaca əlaqədardır, bir mərkəzdə birləşir.

2. Omomorfemlərin sözyaratma imkanı müxtəlifdir. Onlar müxtəlif paradiqmalıdır. Polisemantik morfemlərin isə sözyaratma imkanı eynidir, bir paradiqmalıdır.

3. Omomorfemlərin funksiyası müxtəlif, çoxmənalılarınkı isə eynidir.

4. Sinonimi olan şəkilçilər polisemantik, sinonimi olmayanlar isə omonim olur.

Şəkilçinin omonimliyi sözün mənasından, qrammatik təbiətindən, şəkilçinin xüsusiyyətindən asılıdır. Omonim və çoxmənalı şəkilçiləri bir-birindən məna və funksiyaya görə fərqləndirərkən tarixi faktlara yox, dilin müasir faktlarına əsaslanılmalıdır. Çünki diaxronik planda şəkilçi öz formasını, mənasını və funksiyasını dəyişə bilər. Müəyyən bir dövrdə omonim olan şəkilçilər başqa bir dövrdə öz omonimliyini itirər və ya əksinə, omonim olmayan şəkilçilər omonimləşər. Məhz buna görə də şəkilçilərin omonimliyinə sinxronik plandan yanaşmaq lazımdır.

Şəkilçilərin omonimliyinə toxunarkən onların fonetik çoxvariantlılığı da nəzərə alınmalıdır. Şəkilçilərin əsas variantları kimi qeyri-əsas variantları, əsas və qeyri-əsas variantları da omonim olur.

Şəkilçilər bir-biri ilə omonim münasibətdə olduğu kimi, onlar sözlərlə də formaca uyğunlaşaraq omonim kimi çıxış edir.

Dildə omomorfemlərin olmasına təsadüf nəticəsi kimi yox, dilin daxili inkişaf qanunauyğunluğu kimi baxılmalıdır. Qrammatik şəkilçilərin bir qismi qanunauyğunluq nəticəsində öz əvvəlki mənasını saxlamaqla bərabər, əlavə olunduqları sözləri yeni leksik vahidə

çevirə bilən məna da kəsb etməklə yeni leksik şəkilçilərin yaranmasına səbəb olur (məsələn, *-acaq, -ar, -maq, maz* və s.).

Səslənmələrinə və yazılışlarına görə eyni, məna və funksiyaca fərqli olan şəkilçiləri omonim şəkilçilər kimi qəbul etmək olar.

Azərbaycan dilində omomorfemlər aşağıda göstərilən yollarla yaranır:

1) şəkilçilərin tələffüzcə və yazılışca təsadüfi eyniləşməsi;

2) çoxmənalı şəkilçilərin məna və vəzifəcə genişlənərək çoxmənalılıqdan uzaqlaşması;

3) mənbəyində ayrıca söz kimi işlənən vahidlərin dilimizdə şəkilçi mövqeyinə keçməsi;

4) başqa dillərdən sözlə birlikdə şəkilçilərin alınması;

5) qrammatik şəkilçilərin leksik, leksik-qrammatik şəkilçi yerinə keçməsi;

6) şəkilçidən şəkilçinin törəməsi (*-lıq → -lı, laq → la, maq → ma* və s.);

7) şəkilçilərin fono-morfoloji dəyişməsi (reduksiya, substantivləşmə, assimilyasiya, fonetik divergensiya, morfoloji cəhətdən ayrılma).

Omonim şəkilçiləri 4 qrupa ayırmaq olar:

1. Leksik şəkilçilərin omonimliyi (omonim-leksik şəkilçilər).
2. Qrammatik şəkilçilərin omonimliyi (omonim-qrammatik şəkilçilər).
3. Leksik-qrammatik şəkilçilərin omonimliyi.
4. Qrammatik-leksik şəkilçilərin omonimliyi.

**I. Leksik şəkilçilərin omonimliyi.** Omonim leksik şəkilçilər müxtəlif məfhumlar ifadə edən leksik vahidlər əmələ gətirir. Bunlar bir və ya bir neçə nitq hissəsini əhatə edir. Leksik omomorfemlər formaca eyni, məzmunca müxtəlifdir. Bunları həm omonim sözlərə, həm də omonim olmayan sözlərə əlavə etmək olar. Leksik omomorfemləri omonim sözlərə əlavə etdikdə onlardan yenə omonim sözlər yaradır, omonim olmayan sözlər əlavə olunduqda isə onların bir qismini omonimləşdirir; məsələn, omonim sözlərdən: *sür*(mək) → *sürü* (isim) – *sürü* (mək); göy → göyər (cücərmək) – göyər (soyuqdan rəngi göy rəngə çalmaq).

Omonim olmayan sözlərdən: turş → turşu (isim) – *turşu* (fel); *kəs*(mək) → kəsir (əməliyyat) – *kəsir* (qalıq) və s.

Azərbaycan dilində leksik omomorfemlər aşağıdakılardır:

**-a** (-ə) – **-a** (-ə), **-ı** (-i, -u, -ü) – **-ı** (-i, -u, -ü), **-la** (-lə) – **-la** (-lə), **-lı** (-li, -lu, -lü) – **-lı** (-li, -lu, -lü), **-ov – -ov, -sız** (-siz, -suz, -süz) – **sız** (-siz, -suz, -süz), **-kı** (-ki, -ku, -kü) – **-kı** (-ki, -ku, -kü).

**II. Qrammatik şəkilçilərin omonimliyi.** Bu şəkilçilərə ismin yiyəlik, yönlük və təsirlik hallarının, mənsubiyyət kateqoriyasının şəkilçiləri, felin əmr şəklinin (birinci şəxsin təki, ikinci şəxsin cəmi) şəxs sonluğu, arzu şəklinin şəkli əlaməti, kəmiyyət və felin üçüncü şəxsini bildirən cəm şəkilçiləri daxildir. Omonim qrammatik şəkilçilər bir-birindən funksiyalarına görə fərqlənir.

Qrammatik omomorfemlər bunlardır:

**-a** (-ə) – **-a** (-ə), -**ı** (-i, -u, -ü) – **-ı** (-ı, -u, -ü), -**ıb** (-ib, -ub, -üb) – **-ıb** (-ib, -ub, -üb), – **-ım** (-im, -um, -üm) – **-ım** (-im, -um, -üm), **-lar** (-lər) – **lar** (-lər), **-ın** (-in, -un, -ün) – **-ın** (in, -un, -ün).

**III. Leksik-qrammatik şəkilçilərin omonimliyi.** Leksik və ya qrammatik şəkilçilərin omonimliyinə nisbətən, leksik-qrammatik şəkilçilər arasında omonimlik daha çoxdur. Bunlar həm mənalarına, həm də funksiyalarına görə tam omonim cütlük kimi işlədilir. Buraya müxtəlif kateqoriyaların əlamətləri və sözyaratma imkanları daxildir. Omonim olan leksik və qrammatik şəkilçilər tarixən qrammatik olmuş, sonra leksikləşməyə meyl etmişdir. Qrammatik şəkilçilər inkişaf nəticəsində iki qrupa – leksik və qrammatik şəkilçiyə ayrılmaqla omonimləşmişdir. Bunlar formaca eyni olsa da, məna və funksiyaca müxtəlifdir; məsələn, ***-ış*** (*iş, -uş, -üş*) şəkilçisi əslində felin qarşılıqlı və müştərək növünü düzəldən şəkilçi olmuşdur. İnkişafla əlaqədar onun həcmi genişlənmiş, yeni funksiyaya yiyələnmiş, yeni sözyaratma imkanı əldə etmiş, feldən isim düzəltmişdir. İndi ***-ış*** bir deyil, formaca eyni olan iki şəkilçi kimi götürülməlidir.

Azərbaycan dilində aşağıda sadalanan leksik və qrammatik şəkilçilər bir-biri ilə omonim münasibətdə olur:

**-a** (-ə) – **-a** (-ə), **-aq** (-ək, -q, -k) – **-aq** (-ək, -q, -k), -**ar** (-ər) – **-ar** (-ər), **-araq** (-ərək) – **-araq (**-ərək**), -acaq** (-əcək) – **-acaq** (-əcək), **-ək** – **-ək, -da** (-də) – **-da** (-də), -**dan** (-dən) – **-dan** (-dən), -**dar** (-dər), -**dar** (-dər), **-dır** (-dir, -dur, -dür) – **dır** (-dır, -dur, -dür), **-ı** (-ı, -u, -ü) – **ı** (-i, -u, -ü), -**ıq** (-ik, -uq, -ük) – **-ıq** (-ik, -uq, -ük), **-ım** (-im, -um, -üm) – **-ım** (-im, -um, -üm), **-ın** (-in, -un, -ün) – **-ın** (-in, -un, -ün), **-caq** (-cək) – **-caq** (-cək).

**IV. Qrammatik və leksik şəkilçilərin omonimliyi.** Belə şəkilçilərə feli sifət düzəldən şəkilçiləri (*-mış, -miş, -muş, -müş; -acaq, -əcək; -ar, -ər; -malı, -məli; -ası, -əsi*) və felin zaman (*-mış, -miş, -muş, -müş; -acaq, -əcək; -ar, -ər*), vacib (*-malı, -məli*) və lazım (*-ası, -əsi*) şəkilçilərinin şəkilçilərini aid etmək olar. Bunlar formaca bir-birinə oxşasa da, müxtəlif məzmunlar, müxtəlif formalar yaradan şəkilçilərdir. Bu şəkilçilərin feli sifət, felin zaman və forma şəkilçiləri olduğunu yerinə, roluna və vəzifələrinə görə müəyyənləşdirmək olar. Feli sifət şəkilçiləri kimi onların da fel köklərinə əlavə olunaraq əmələ gətirdikləri sözlər tərkib daxilində əşyanın və ya hadisənin keyfiyyətini ifadə edir, *hansı?* sualına cavab olur, təyin vəzifəsində çıxış edir; məsələn, *sol**muş*** (çiçək), *gələ**cək*** (zaman), *ye**məli*** (xörək), *deyil**əsi*** (söz).

Felin zaman və forma şəkilçiləri kimi bunlar da işin müəyyən zaman daxilində icrasını, icrası lazım və vacib olan hərəkəti ifadə edir, aid olduğu sözdən sonra gəlir, cümlənin xəbəri olur; məsələn, *çiçək sol**muş,** zaman gələ**cək,** xörək ye**məli,** söz deyil**əsi**dir* və s.

## SÖZLƏRLƏ ŞƏKİLÇİLƏRİN OMONİMLİYİ

Dildə yalnız müstəqim mənalı sözlər deyil, müstəqim mənalı sözlərlə şəkilçilər də omonim münasibətdə olur. Deməli, leksik mənalı sözlər kimi sözlərlə şəkilçilər və ayrı-ayrı şəkilçilər də formaca eyni, mənaca müxtəlif ola bilər. Dilimizdə eyni səs kompleksli vahidlər həm müstəqim leksik vahid, həm də şəkilçi kimi işlədilir. Müasir Azərbaycan dilində həm söz, həm də şəkilçi kimi işlənən *dar, sən, siz, süz, inci, un, dan, dən, daş, iş, aş, sin, tay, xana, xor, cil, gər, gil, gün, lay, maz* və s. vahidlərin fonetik və qrafik cəhətdən eyniləşməsi müxtəlif amillərlə bağlıdır. Onların bir qismi müstəqim sözlərin şəkilçiləşməsi, bir qismi başqa dildən alınması, bir qismi təsadüflə, digər bir qismi isə dilin daxili inkişaf qanunu ilə bağlıdır. Bunlar bir-birindən mənaca fərqlənsə də, fonetik tərkibcə və tələffüzcə eyniləşdikləri üçün omonimləşmişdir. Bunların müstəqim söz və ya şəkilçi olduğunu, müstəqil işlədilib-işlədilmədiyini, müstəqim məna ifadə edib-etmədiyini mətnə, situasiyaya, nitqə əsasən müəyyənləşdirmək olar; məsələn, *Siz*

*özünüzün vicdanən casus olmadığınızı göstərməklə xalqı inandırmalısınız* (M.S.Ordubadi); *Mübahisəsiz məsələni həll etmək asandır.*

Deməli, dilimizin lüğət tərkibindəki sözlərin bir qisminin öz müstəqimliyini saxlamaqla şəkilçi mövqeyinə keçməsi nəticəsində eyni formalı müxtəlif vahidlər yaranmışdır. Bu da həmin vahidlərin omonimləşməsinə (sözlə şəkilçinin) səbəb olmuşdur.

Hal-hazırda dilimizdə omonim cərgə yaradan xeyli söz və şəkilçi vardır. Bunlar aşağıdakılardır:

*al – al, ala – ala, alaq – alaq, alı – alı, an – an, ar – ar, araq – araq, at – at, ac – ac, aş – aş, baz – baz, var – var, qan – qan, qın – qın, qır – qır, dan – dan, dar – dar, daş – daş, dən – dən, dər – dər, duz – duz, dur – dur, ək – ək, əl – əl, ələ – ələ, əli – əli, əm – əm, ən – ən, ər – ər, ət – ət, iş – iş, yar – yar, yaraq – yaraq, yun – yun, kar – kar, kəm – kəm, ki – ki, kin – kin, kür – kür, gər – gər, gəc – gəc, gil – gil, gün – gün, laq – laq, lək – lək, maz – maz, mal – mal, ov – ov, saz – saz, sal – sal, san – san, sən – sən, siz – siz, sız – sız, sin – sin, sın – sın, süz – süz, tay – tay, tik- tik, ud – ud, un – un, ün – ün, xana – xana, xor – xor, xar – xar, cil – cil.*

## SİNTAKTİK OMONİMLƏR

Sintaktik omonimlər müxtəlif məzmunlu sintaktik vahidlərin – söz birləşmələri və cümlələrin formaca bir-birinə uyğun gəlməsi nəticəsində yaranır.

Sintaktik omonimlərdə söhbət sintaktik vahidlərin omonimliyindən getməlidir. Sintaktik vahidlər isə söz birləşmələri və cümlələrdir.

Sintaktik omonimlər üçün əsas əlamətlər aşağıdakılardır:

1) ən azı iki sintaktik vahid iştirak etməli;

2) həmin vahidlər formaca eyni və ya oxşar, mənaca müxtəlif olmalı;

3) leksik tərkib və qrammatik formaca bir-birinə uyğun gəlməli;

4) omomodellərdə sözlər kəmiyyətcə bərabər olmalı;

5) sözlərin sıraca eyniliyi;

6) intonasiya uyğunluğu.

Bu əlamətlərə uyğun gələn eyni formalı, müxtəlif mənalı söz birləşmələri və cümlələr omonim söz birləşmələri və cümlələr kimi izah oluna bilər.

Nəzəri dilçilik ədəbiyyatında sintaktik omonimləri müəyyənləşdirmək üçün: sözyaratma, sinonimlik, morfoloji, sintaktik, semantik və s. müxtəlif meyarlar tətbiq edilir.

Sözyaratma və sinonimlik meyarları sintaktik omonimlərin təbiətinə uyğun gəlmir. Sözyaratmada sözlərin yeni sözyaratma imkanı nəzərə alınır. Birləşmələrdə isə sözlərin yaranması deyil, birləşməsi əsasdır.

Omonim frazeoloji vahidlər müxtəlif sinonim cərgələrdə iştirak etsələr də, onların sinonimləri ilə mənaları arasında heç bir məna ümumiliyi olmur.

Sintaktik meyarda söz birləşmələri və cümlələrin quruluşu, tərkibi, formalaşması, distribusiyaların məcmuyu nəzərdə tutulur. Morfoloji ölçüdə birləşmələrin və cümlələrin eyniliyi, müxtəlif əlamətləri, müxtəlif paradiqmalara aid olması nəzərə alınır. Semantik meyarda isə eyni formalı vahidlərin ifadə etdikləri mənaların müxtəlif olması əsas götürülür. Sintaktik omonimlərdə də leksik omonimlər kimi məna meyarı əsasdır. Çünki əvvəla, bu meyarla söz birləşmələri və cümlələrin mənaca fərqli olub-olmaması, ikincisi, onlarda məna əlaqəsinin qırılma dərəcəsi müəyyənləşdirilir. Nəhayət, üçüncüsü, omonimlərin özü nə qrammatik, nə də sintaktik deyil, xalis semantik hadisədir.

Əlbəttə, sintaktik omonimləri müəyyən etmək üçün sintaktik və morfoloji meyarların da müəyyən rolu var, lakin əsas deyildir. Ona görə də məna meyarı əsas, sintaktik və morfoloji meyarlar isə ikinci dərəcəlidir.

Sintaktik omonimləri iki qrupa ayırmaq olar:

1. Söz birləşmələrinin omonimliyi.
2. Cümlələrin omonimliyi.

## OMONİM SÖZ BİRLƏŞMƏLƏRİ

Sözlər birləşərək müxtəlif tipli söz birləşmələri əmələ gətirir. Birləşmələri üç qrupa ayırmaq olar:

1. Müstəqim – həqiqi mənada işlədilən söz birləşmələri (*Əlinin kitabı, şagirdin dəftəri, qızıl saat* və s.).
2. Müstəqim və məcazi mənalı söz birləşmələri (*əldən düşmək, əl tutmaq, əl qaldırmaq, əl vurmaq, yoldan çıxmaq, baş çəkmək* və s.).

3. Məcazi mənalı söz birləşmələri (*baş aparmaq, baş çəkmək, başa salmaq, baş çıxarmaq, dilə tutmaq, ürək vermək, göz yetirmək* və s.).

Sərbəst birləşmələr sözlərin həqiqi, keçid birləşmələr həqiqi və məcazi, sabit birləşmələr isə məcazi mənalarına əsaslanır.

Müstəqim mənalı söz birləşmələrinin komponentləri həm ayrılıqda, həm də birləşmə daxilində sərbəst işlədilir. Belə birləşmələr ancaq bir məna ifadə edir. Bunlar omonim birləşmələr əmələ gətirmir. Həqiqi və məcazi mənalı birləşmələr keçid xarakterlidir: həm həqiqi, həm də məcazi məna daşıya bilir. Belə birləşmələr iki və daha artıq məna kəsb edir. Məcazi mənalı birləşmələr sabit birləşmə kimi formalaşmışdır. Bunlar ancaq məcazi mənada çıxış edir. Bu birləşmələr də bir neçə mənada işlədilir.

Dilimizdəki omonim birləşmələr keçid və sabit səciyyəli birləşmələr əsasında yaranır.

Sözün həqiqi mənası əsasında əmələ gələn söz birləşmələri *sərbəst birləşmə* adlanır. Komponentləri əsas mənalarda işlədilsələr də, bir-biri ilə əlaqələndirilmir. Dilə hazır şəkildə gəlməyib, fikir mübadiləsi prosesində dilin qrammatik quruluşunun müəyyən qaydaları əsasında yaranır.

Sərbəst birləşmələr sintaktik vasitələrlə meydana çıxır. Onun tərəfləri bir-biri ilə qrammatik cəhətdən bağlı olsa da, aralarında struktur əlaqə yoxdur. Əlaqə birləşməyə bütövlükdə aid olmur. Belə birləşmələr sözlərin xarici əlaqələri ilə bağlıdır. "Birləşən sözlərdəki xarici əlaqə müxtəlif tipli olur; onlar birləşmənin komponenti funksiyasını icra edən sözün valentlik münasibətinə əsaslana bilər; nitq situasiyasının tələblərinə uyğun olaraq nitq axınında həmin əlaqələr vasitəsilə birləşmə yayılır"[1].

Keçid (bir mənasına görə) və sabit birləşmələrdə sözlər arasında mənaca daxili əlaqə mövcuddur. Onlar sintaktik vasitələrlə yaranmır, dildə hazır şəkildə işlədilir. Tərəfləri arasında struktur əlaqə olur ki, bu, bütövlükdə birləşməyə aiddir.

Sözlər bir-biri ilə sərbəst və sabit şəkildə birləşərək yeni keyfiyyətli leksik frazeoloji vahidlərin yaranmasına səbəb olur. Sərbəst və sabit birləşmə kimi işlədilən söz birləşmələri müxtəlif mənalar ifadə edir. Belə birləşmələr formaca eyni, mənaca müx-

[1] М.Т.Тагиев. Глагольная фразеология современного русского языка. Баку, 1966, стр. 24.

təlif olur. Məhz bu baxımdan həmin birləşmələrin bir-biri ilə omonim münasibətdə olduğunu söyləmək olar; məsələn, *ayağından çəkmək, barmağını dişləmək, yoldan çıxmaq, süpürgə çəkmək, quyruq bulamaq, əldən salmaq, ağız açmaq, əl açmaq, ayağa durmaq, baş açmaq* və s.

Omonim söz birləşmələrini iki şəkildə qruplaşdırmaq olar: 1) sərbəst və sabit söz birləşmələrinin omonimliyi; 2) sabit birləşmələrin omonimliyi.

**Sərbəst və sabit söz birləşmələrinin omonimliyi.**

Sərbəst birləşmələrlə sabit birləşmələr arasında ümumiyyətlə, bir yaxınlıq vardır. Sabit birləşmələr sərbəst birləşmələr əsasında əmələ gəlir. Sərbəst birləşmələrin komponentləri sabitləşib, birlikdə mənanı dəyişdirdikləri zaman sabit birləşməyə çevrilir. Buna görə də bu birləşmələr arasında formal cəhətdən fərq görünmür, tərəfləri qrammatik əlamətlərinə görə eyni vəziyyətdə olur. Hər iki birləşmə eyni qrammatik əlaqələrə əsaslanır, birləşmə xüsusiyyətləri, modelləri də birdir. Sərbəst və sabit birləşmələr formaca, ümumi strukturca, modellərinə və qrammatik əlamətlərinə əsasən uyğun gəlsələr də, ifadə etdikləri mənaya görə bir-birindən fərqlənir. Məsələn, *qan almaq, əl qaldırmaq, yoldan çıxmaq, əl vermək, boğazı qurumaq, baş çəkmək* və s. birləşmələrin ifadə etdikləri mənaları nəzərdən keçirək.

**"Qan almaq"** iki mənada işlədilir: 1) müalicə məqsədilə damardan qan çıxarmaq; 2) intiqam almaq. Məsələn, *Qanın çoxalıb, gərək səndən* ***qan alam*** (C.Məmmədquluzadə); *Mahmudun* ***qanını*** *bəylərdən* ***almasam,*** *Xocahanlıdan getməyəcəyəm* ("Qaçaq Nəbi").

Birinci misaldakı "qan alam" sərbəst birləşmədir, damardan qan çıxarmaq mənasını verir. İkinci misalda isə həmin birləşmə intiqam almaq mənasında işlədilmişdir, sabit birləşmədir.

**"Əl qaldırmaq"** iki mənada işlədilir: 1) vurmaq, döymək; 2) danışmaq üçün icazə almaq. Məsələn, *Vurun, binamuslar, diniz varmı? Kişi də arvada* ***əl qaldırarmı?*** (S.Vurğun); *Şirzadın son sözlərinin doğurduğu alqışlar kəsilməmiş Rüstəm kişi* ***əlini qaldırdı*** *və zalı sakit olmağa çağırdı* (M.İbrahimov).

Birinci misalda "əl qaldırmaq" birləşməsi vurmaq, ikincidə isə camaatı sakit etmək məqsədi ilə əlin qaldırılması mənasında işlədilmişdir.

**“Yoldan çıxmaq”** iki mənada işlədilir: 1) azmaq, pis yola düşmək; 2) öz yolundan kənara çıxmaq.

Məsələn, 1. *Əli başqalarına qoşulub* ***yoldan çıxıb***. 2. *Maşın* ***yoldan çıxıbdır***.

Birinci misalda “yoldan çıxmaq” pis yola düşmək, azmaq, ikincidə isə öz yolundan kənara çıxmaq mənasında işlədilmişdir və s.

Omonimlik yalnız sözlərə aid deyildir. Sintaktik vahidlərdə də bu xüsusiyyət vardır. Sabit birləşmələrlə sərbəst birləşmələr arasındakı oxşarlıq frazeologizmlərin quruluşca müxtəlifliyinə təsir göstərmir. Əksinə, frazeoloji vahidlərdə əsas əlamətin – mənanın bütövlüyünü təsdiq edir. Sabit birləşmələr sərbəst birləşmələrin komponentlərinin leksik mənasının zəifləməsi nəticəsində inkişaf edir.

Eyni formal birləşmənin müxtəlif birləşmə kimi işlənib, müxtəlif mənalar ifadə etdiyini ancaq mətnlə müəyyənləşdirmək mümkündür; məsələn, *Bu gün çörəyimi yeyən adam sabah* ***ayağımın altını qazır*** (Ə.Əbülhəsən); *Onun* ***ayağının altını qaz,*** *oradan küpə çıxmalıdır; Qoy desin, a Mürsəl kişi, niyə* ***ağzına su alıb*** *dillənmirsən?* (M.Hüseyn); ***Ağzına*** *bir az* ***su alıb*** *dilini yaşladı.*

Bu misallarda işlədilən “ayağın altını qazmaq” və “ağzına su almaq” birləşmələri iki mənada işlədilmişdir. “Ayağın altını qazmaq” birləşməsi birinci cümlədə birinə zərər vermək, pislik etmək üçün onun əleyhinə xəlvəti iş görmək, ikinci cümlədə isə öz həqiqi mənasını ifadə edir.

“Ağzına su almaq” birləşməsi birinci cümlədə susmaq, sükut etmək, dinməmək, ikinci cümlədə isə öz həqiqi mənasını verir.

“Ayağın altını qazmaq” və “ağzına su almaq” birləşmələri sərbəst birləşmə kimi işlədildiyi zaman onların komponentləri ayrılma, aydın formalaşma xüsusiyyətinə malik olub, öz mənalarında çıxış edir, özünü sintaktik vahid kimi göstərir. Həmin birləşmələr sabit birləşmə kimi ifadə olunduqda, tərəflər müstəqil məna daşımır, hamısı bütövlükdə bir mənaya xidmət edir; leksik vahid kimi dərk olunur. Bu birləşmələrin sərbəst və ya sabit olmasını onların əhatə dairəsi ilə müəyyənləşdirmək olar. Sərbəst birləşmə kimi işləndikləri vaxt özlərinə subyekt də tələb edə bilir; məsələn, *Mənim ayağımın altını qaz. O, ağzına su aldı.*

## FRAZEOLOJİ OMONİMLƏR

Frazeoloji vahidlər sözlərin məcazi mənaya keçərək öz mütəhərrikliyini itirməsi, onlar arasında əlaqə və münasibət yaradan vasitələrin donuq bir hala keçməsi nəticəsində birləşərək vahid bir məfhum ifadə edən sözün ekvivalentinə çevrildiyi zaman yaranır.

Frazeoloji birləşmələrin omonimliyi sərbəst və sabit birləşmələrin omonimliyindən məna, forma və kəmiyyətcə fərqlənir. Frazeoloji vahidlərin üzvləri bir-birindən leksik, morfoloji (paradiqmatik), sintaktik (sintaqmatik) və semantik asılılığına görə ayrılır. Bunlarda əsas forma quruluşca bir-birinə tam uyğun olmalıdır.

Frazeoloji vahidlərin omonimliyi sərbəst-sabit birləşmələrin omonimliyindən çox azdır. Bunun müəyyən səbəbləri vardır: əvvəla, frazeoloji vahidlərin məna sistemi onlara nisbətən daha mürəkkəbdir; ikincisi, sərbəst-sabit birləşmələrin struktur-qrammatik imkanları geniş, frazeoloji birləşmələrinki isə məhduddur; üçüncüsü, frazeoloji birləşmələrdə tərkibcə bir neçə sözün uyğun gələrək vahid bütöv hadisə yaratması lazımdır; dördüncüsü, vahidlərin cüzi məna variantlılığına əsaslanmalıdır; beşincisi, frazeoloji birləşmələrin komponentlərinin ikinci dəfə məcazi mənada işlədilməsi lazımdır.

"Bir dəfə məcazi məna kəsb edərək, yeni məfhum ifadəsi kimi formalaşan söz birləşməsinin yenidən başqa bir məcazi məna kəsb etməsi çətindir"[1].

Frazeoloji vahidləri müəyyənləşdirərkən dilin struktur əlamətləri – davamlılıq, hazır şəkildə işlədilməsi, məna bütövlüyü, metaforik mənanın ümumiləşməsi və s. əsas götürülməlidir. Bunları sözlərin leksik-semantik xüsusiyyətləri kimi izah etmək olar. Bu əlamətlərin hər biri ayrı-ayrılıqda frazemlərin mahiyyətini aça bilməz. Bunlar bütövlükdə götürüldükdə isə frazemləri mahiyyətcə müəyyənləşdirmək üçün əsas ola bilər. Frazeoloji birləşmələrdə struktur-semantik cəhətdən idiomatiklik, leksik-semantik cəhətdən isə məna bütövlüyü əsas əlamətdir. Frazeoloji birləşmələrdəki omonimliyi iki yerə ayırmaq olar: xarici və daxili.

Öz tərkiblərinə görə eyni, mənaca müxtəlif olan sabit və sərbəst birləşmələr arasındakı omonim münasibət xarici omonim

---

[1] S.Cəfərov. Müasir Azərbaycan dili. Bakı, 1970, səh. 102.

adlanır. Daxili omonimlər ya frazeoloji vahidlərin müxtəlif tipləri arasında, ya da bir frazeoloji vahid daxilində olur. Daxili omonimlər ifadə planlarına görə tamamilə eyni, məzmunca isə müxtəlif olan frazeoloji vahidlərin omonimliyinə deyilir. Frazeoloji vahidlərin omonimliyinin səbəbləri: 1) iki dil vahidinin ya qismən, ya da tamamilə omonim olması; 2) sərbəst birləşmələrin sabitləşməsi; 3) sabit birləşmələrin yenidən məcazlaşması; 4) frazeoloji birləşmələrdə eyniliyin pozulması; 5) çoxmənalı frazeoloji vahidlərdə mənanın tamamilə uzaqlaşması; 6) başqa dillərdən kalka yolu ilə frazeoloji vahidlərin alınmasıdır.

Frazeoloji omonimləri ifadə etdikləri mənalarına görə iki qrupa ayırmaq olar:

1. İki mənada işlədilən frazeoloji omonimlər.
2. Bir neçə məna ifadə edən frazeoloji omonimlər.

İki mənalı frazeoloji omonimlərə aşağıdakı birləşmələri aid etmək olar: *can vermək – can vermək, cana gəlmək – cana gəlmək.* Məsələn, *Lakin sevinmədi bizim babalar; Qəfəsdə* ***can verdi*** *ellər, obalar* (S.Vurğun); *Əridir qüdrəti, dağı əridir; Səhraya* ***can verir,*** *çölə yaraşıq* (N.Babayev); *Onun hərəkətindən mən* ***cana gəldim;*** *Bir neçə gündür ki, özümü yaxşı hiss edirəm,* ***cana gəlirəm.***

Bu misallardakı **can vermək** "ölmək" (birinci misalda) və həyat vermək, "gözəlləşdirmək" (ikincidə); **cana gəlmək** "yorulmaq" (birincidə) və özünü yaxşı hiss etmək, "canlanmaq" (ikincidə) mənalarında işlədilmişdir.

Bir neçə mənalı frazeoloji omonimlərə aşağıdakı nümunələri göstərmək olar: *ayağa qaldırmaq, baş vermək, başa çıxmaq;* məsələn,

*Sarıl Günəş rəngli bir al bayrağa;*
*Səsinlə elləri* ***qaldır ayağa*** (S.Vurğun).

*İsti su vannaları bir həftədən sonra xəstəni* ***ayağa qaldırdı;*** *Qardaşı əsgər gedəndən sonra Nənəxanım arvad onun uşaqlarına himayəçilik edib, onları* ***ayağa qaldırdı.***

*Xanım, niyə məni bəndəliyə qəbul etmirsən, məndən nə xəta* ***baş veribdir?*** (M.F.Axundzadə); *Bulud göyün üzünü tutan kimi yağış* ***baş verdi;*** *Əcəl macal verə, gün gəlib ötə;* ***Baş verib*** *bənövşə, yasəmən bitə* (Aşıq İsmayıl).

*Sən dinmədikcə lap **başa çıxırsan;** Bu gün elmi işimi tamamlayıb **başa çıxdım;** Ötüşdə **başa çıxmayanın** başı torpağa düşər.* (S.Rəhimov).

Bu misallardakı **ayağa qaldırmaq** hərəkətə gətirmək (birinci misalda), sağaltmaq (ikincidə) və yetişdirmək, tərbiyələndirmək, bəsləyib-böyütmək (üçüncüdə), **baş vermək** əmələ gəlmək, ortaya çıxmaq (birincidə), başlamaq (ikincidə) və cücərmək, bitmək (üçüncüdə), **başa çıxmaq** həddini aşmaq, böyük-kiçik bilməmək, ayaqlamaq (birincidə), işi qurtarmaq, tamamlamaq (ikincidə) və üstün gəlmək, qalib gəlmək (üçüncüdə) mənalarında işlədilmişdir.

## OMONİM CÜMLƏLƏR

Kəmiyyətcə, forma və qrammatik əlamətlərinə görə eyni və ya oxşar olan müxtəlif məzmunlu cümlələr bir-biri ilə omonim münasibətdə ola bilər. Cümlələrin omonimliyini sözlərin omonimliyi ilə eyniləşdirmək olmaz. Sözlərin omonimliyində vahidlərin bir-biri ilə forma, tələffüz, yazılış cəhətdən tam eyniliyi əsas götürülür. Cümlələrin omonimliyinə bu cəhətdən yanaşmaq olmaz. Cümlələrin tərkibində həm leksik mənası olan, həm də leksik mənası olmayan sözlər olur. Bunlar kəmiyyətcə bir-birinin eyni ola da bilər, olmaya da bilər, tərkiblərindəki sözlərdən biri və ya ikisi formaca fərqlənər.

Omonim söz və ya söz birləşmələrinin cümlələrin omonimləşməsində müəyyən rol oynadığını da inkar etmək olmaz. Cümlələrin bir qismi bu yolla omonimləşir. Lakin bu, əsas amil kimi götürülə bilməz. Omonim cümlələr omonim söz və söz birləşmələrinin iştirakından başqa, sözlərin qrammatik və sıraca dəyişməsi, intonasiya və sair yollarla da əmələ gəlir.

Cümlələrin omonimliyini iki qrupa ayırmaq olar:

1. Sadə cümlələrin omonimliyi.
2. Mürəkkəb cümlələrin omonimliyi.

Sadə cümlələr bir-biri ilə omonim sözlərin, sərbəst və sabit birləşmələrin iştirakına, tərkibindəki sözlərin sırasının və qrammatik formalarının dəyişməsinə, intonasiyaya və s. əsasən omonim münasibətdə olur.

Omonim sadə cümlələrin bir qismi omonim sözlərin və söz birləşmələrinin iştirakına görə yaranır; məsələn,

*O, **aşıq** oynayırdı.*

*O **aşıq** oynayırdı.*

Sözlər arasında qrammatik əlaqənin dəyişməsi nəticəsində də sadə cümlələr omonimləşir; məsələn,

*Səni və oğlunu təbrik edirəm.*

*Səni oğulla təbrik edirəm.*

Birinci cümlədə ata və oğul müəyyən münasibətdə əlaqədar olaraq təbrik edilərsə, ikincidə ata oğlu olmasına görə təbrik olunur. Birincidə hər ikisi obyektdirsə, ikincidə ancaq ata obyekt hesab olunur.

Dilimizdə tabeli mürəkkəb cümlənin elə tiplərinə təsadüf edilir ki, onların növünü təyin etmək çətin olur. Çünki bəzi tabeli mürəkkəb cümlələrin baş və budaq cümlələri bir-birindən tərkibcə və quruluşca fərqlənmir; məsələn, *Fərid elə həkimdir ki, **bütün kollektiv ona hörmət edir.** Fərid elə işləyir ki, **bütün kollektiv ona hörmət edir.** Fəridin işi elədir ki, **bütün kollektiv ona hörmət edir.***

Bu cümlələrin hər üçünün budaq cümləsi formaca, tərkibcə eynidir. Həmin budaq cümlələr tərkib və formaca uyğun olsa da, mənaca müxtəlifdir. Bunları budaq cümlələrinə görə omonim hesab etmək olar. Yuxarıdakı cümlələrin birincisi təyin, ikincisi tərzi-hərəkət, üçüncüsü xəbər budaq cümləsidir.

Omonim budaq cümlələr formaca, tərkibcə eyni olsalar da, mənalarına və növlərinə görə bir-birindən fərqlənir.

## LÜĞƏTİN QURULUŞU VƏ ONDAN İSTİFADƏ ETMƏ QAYDALARI

Lüğətdə omonimiyanın bütün obyektləri – omomorfemlər, omonim sözlər, omonimik hadisələr (omoform, omofon, omoqraf və paronimlər), omonim söz birləşmələri və omonim cümlələr yox, ancaq omonim sözlər izah olunur.

Lüğətdə omonimlərin leksik, leksik-qrammatik və qrammatik növləri verilir. Omonim cərgələr əlifba sırası ilə yerləşdirilmişdir.

*Leksik omonimlər:*

**Aşıq** I *is* [*ər.*] Xalq sənətkarı.

**Aşıq** II *is. anat.* Diz qapaqlarından çıxan oynaq sümüyü.

**Aşıq** III *is.* Uşaq oyunlarından birinin adı.

*Leksik-qrammatik omonimlər:*

**Acı** I *sif.* Qəlbə toxunan, ağır sancan; fəlakət.

**Acı** II *f.* Ürəyi yanmaq, yazığı gəlmək.

*Qrammatik omonimlər:*

**Arpalıq** I *is.* Arpa əkmək üçün yararlı yer.

**Arpalıq** II *is.* Atların azı dişlərinin dibindəki çökəklik.

Omonim cərgənin üzvləri müstəqil söz kimi roma rəqəmləri ilə işarə olunur; məsələn,

**Qədər** I *is.* [*ər.*] Qeyri-müəyyən miqdar, say, kəmiyyət. *Hər şeyin müəyyən **qədəri** var.*

**Qədər** II *is.* [*ər.*] Tale, qismət, müqəddərat. *Vali buyurdu ki, qəm yeməsin çox; **Qədər** yazdığına çara yox* (R.Rza).

**Qədər** III *qoşma* Qabaq, əvvəl. *Bir məsələ haqqında qəti qərara gələnə **qədər** xeyli düşünərdi* (M.İbrahimov).

Omonim sözlərin mənaları aşağıdakı qaydada sıralanaraq, əvvəl izah olunan omonim söz, ondan sonra onun hansı nitq hissəsinə aid olması, mənşəyi, işlənmə sahəsi, mənası izah olunur. Mənanın şərhi müxtəlif məxəzlərdən alınmış misallarla əsaslandırılır; məsələn,

**Əqrəb** I *is.* [*ər.*] Saatda vaxtı göstərən dəmir mil. *Qucaqlaşıb öpüşdü saatın **əqrəbləri**...* (O.Sarıvəlli).

**Əqrəb** II *is. zool.* Zəhərli həşərat növündən biri. *Çalsa **əqrəb** də hənuz eyləməz əmman, ölübə!* (M.Ə.Sabir).

# LÜĞƏTDƏ GEDƏN İXTİSARLAR

*alm.* – almanca
*anat.* – anatomiya
*arx.* – arxitektura
*astr.* – astronomiya
*aşp.* – aşpazlıq
*bağl.* – bağlayıcı
*bayt.* – baytarlıq
*biol.* – biologiya
*bot.* – botanika
*coğr.* – coğrafiya
*çin.* – çincə
*dan.* – danışıq dilində
*dəniz.* – dənizçilik
*dilç.* – dilçilik
*ədəb.* – ədəbiyyatşünaslıq
*ər.* – ərəbcə
*əvəz.* – əvəzlik
*f.* – fel
*f.sif.* – feli sifət
*fars.* – farsca
*fəl.* – fəlsəfə
*fin.* – fincə
*fiz.* – fizika
*fiziol.* – fiziologiya
*folk.* – folklor
*fon.* – fonetika
*fr.* – fransızca
*geol.* – geologiya
*hərb.* – hərbi termin
*hind.* – hindcə
*holl.* – hollandca
*hüq.* – hüquqşünaslıq
*xüs.* – xüsusi termin
*idm.* – idman
*ing.* – ingiliscə
*is.* – isim
*isp.* – ispanca
*ital.* – italyanca
*keç.* – keçmişdə
*kim.* – kimya
*klas.* – klassik ədəbiyyatda işlənən söz
*köhn.* – köhnəlmiş söz
*k.t.* – kənd təsərrüfatı
*qram.* – qrammatika
*lat.* – latınca
*mal.* – maliyyə işi
*məc.* – məcazi mənada
*məh.* – məhəlli söz
*mif.* – mifologiya
*miner.* – mineralogiya
*modal* – modal söz
*mus.* – musiqi
*nisbi əvəz.* – nisbi əvəzlik
*num. söz* – numerativ söz
*ovç.* – ovçuluq
*pol.* – polyakca
*port.* – Portuqaliya
*psix.* – psixologiya
*rəss.* – rəssamlıq
*riyaz.* – riyaziyyat
*rus.* – rusca
*sanskr.* – sanskritcə
*səs təql.* – səs təqlidi
*sif.* – sifət
*skand.* – Skandinaviya dilləri
*şahm.* – şahmat
*şot.* – şotlandca
*tar.* – tarixi
*tex.* – texnika
*ter.* – termin
*tib.* – tibbi termin
*tibet.* – tibetcə
*uş.* – uşaq dili
*yəh.* – yəhudicə
*yun.* – yunanca
*zool.* – zoologiya

# Aa

**A** I Azərbaycan əlifbasının birinci hərfi.

**A** II *nida* Çağırış, xitab, müraciət bildirir. ***A** bəy, əl saxlayın, amandır, aman!* (S.Rüstəm).

**AC** I *sif.* Qarnıboş, yeməyə ehtiyacı olan. *Çağırma, yat, ay **ac** toyuq; Yuxunda çoxca darı gör!* (M.Ə.Sabir).

**AC** II *f.* Aclıq hiss etmək, yemək istəmək. *Göy bulağın suyunu içən kimi adam **acır**.*

**AC** III *sif.* Həris, gözü doymayan. *Sən boyda qızıl da azlıq edərdi; Xəzinə içində **ac** tamahlara* (M.Araz).

**ACI** I *sif.* Qəlbə toxunan; ağır; sancan; fəlakətli. *Mümkün deyil ki, kişi səni görə, sənə **acı** söz deməyə (*N.Vəzirov).

**ACI** II *f.* Ürəyi yanmaq, yazığı gəlmək. *Əgər **acısan** da bu hala bəzən; Təəssüf etmirəm, Etibar bala (*B.Azəroğlu).

**ACIMAQ** I *f.* Acı olmaq, acı dad vermək, acılaşmaq.

**ACIMAQ** II *f.* Yazığı gəlmək, rəhmi gəlmək, ürəyi yanmaq. *Elxan, mən sənə **acıyıram*** (C.Cabbarlı).

**ACITMAQ** I *f.* Acı etmək, acılaşdırmaq, turşutmaq, qıcqırtmaq. *Çox saxlamaqdan yağı **acıtmışlar**.*

**ACITMAQ** II *f.* İncitmək, acığını tutdurmaq. *Qaşqabağı, sallaq dodağı, çatılan qaşı, qırışıq alnı müəllimi lap **acıtdı*** (Ə.Vəliyev).

**AFƏT** I *is.* [*ər.*] Bəla, fəlakət, ziyan. *Elə bil Gülüstana **afət** bürküsü çökmüşdü* (Dastanlar).

**AFƏT** II *is.* [*ər.*] Son dərəcə gözəl qız, qadın. *Baxan bir sən idin ey nazlı **afət**; Bir də pəncərədən boylanan gecə* (B.Azəroğlu).

**AGENT** I *is.* [*lat.*] Casus; vəkil edilmiş şəxs. ***Agentlər** qayığı Qaraşəhər körpüsündə gözləyirmişlər* (A.Şaiq).

**AGENT** II *is.* [*lat.*] *term.* Elmi terminologiyada istehsal edən amil, səbəb. *Məlum olduğu kimi, fontan üsulu ilə neft çıxarılması dövrünü uzatmaq üçün laylara su və ya digər **agentlər** vurmaq lazımdır.*

**AĞ** I *is.* Ağ rəngli bez və s. parça. *Firəngiz **ağı** çıxarda-çıxarda ciddiləşdi* (B.Bayramov).

**AĞ** II *is*. Gözün buynuz təbəqəsində əmələ gələn ləkə (xəstəlik). *Mən onun gözünə **ağ** sallam* (C.Məmmədquluzadə).

**AĞ** III *is. köhn.* Tor. *Dağ maralı kimi sərsəm gəzən yar; Axır rast gələrsən sən **ağa** qarşı* (Aşıq Fətəli).

**AĞ** IV *is. məh.* Tuman və ya şalvarın orta hissəsi.

**AĞ** V *sif.* Yaxşı. ***Ağ** gün ağardar, qara gün qaraldar* (Ata. sözü).

**AĞ** VI *sif.* Rəng. Qar, süd, tabaşir rəngli. ***Ağ** ipəkdən donlar geyir çılpaq ağaclar* (O.Sarıvəlli).

**AĞ** VII *sif.* [*ər.*] Sözə qulaq asmayan, itaət etməyən. *Ağanın üzünə adam hər zaman bir bürüncək üçün heç **ağ** olarmı?* (O.Sarıvəlli).

**AĞ** VIII *sif.* Tamamilə. *Bu lap **ağ** yalandır, – dedi. – Doğrudur, Gülyanaqovla mən bir küçədə anadan olmuşuq* (Anar).

**AĞA** I *is. köhn.* Hakim, hökmran. *Mərd anadan mərd oğul; Yada **ağa**, mərdə qul; Qorxaq töhmət gətirər; Baş ucaldar mərd oğul* (Bayatı).

**AĞA** II *is*. Yaşlı adama müraciət üçün işlədilən söz. ***Ağa**, olmasın azar, bu nə halətdir, sizdə görürəm?* (Ə.Haqverdiyev).

**AĞAC** I *is*. Budaqları və bərk gövdəsi olan çoxillik bitki. *Qocalığın önündə gəncliyin utanması; Meşədə **ağacların** tək-tək yarpaq tökməsi; Yetkin ağlın önündə ürəyin diz çökməsi?* (B.Vahabzadə).

**AĞAC** II *is*. Məsafə, ölçü (təxminən 6-7 km uzunluq ölçüsü). *Babam iki günə gedərdi kənddən şəhərə, on **ağac** yolu* (B.Azəroğlu).

**AĞACLAŞMAQ** I *f.* Bir-birini ağacla vurmaq, ağacla vuruşmaq.

**AĞACLAŞMAQ** II *f.* Ağac kimi bərkimək, sərtləşmək. *Bitkinin toxumları yetişəndə qozaları **ağaclaşır** və ya giləmeyvə şəklini alaraq ətləşir* (Qədirov).

**AĞALIQ** I *is*. Hökmranlıq etmək. *Nə haqq ilə mənim evimdə **ağalıq** edirsən?* (C.Cabbarlı).

**AĞALIQ** II *is. köhn.* Ağalara məxsus mülk, ev, su, meşə, heyvan və s. *İndi bunları **ağalığa** aparmaq lazımdır* (S.S.Axundov).

**AĞARTI** I *is*. Süddən hazırlanan məhsul: qatıq, şor, süzmə, pendir və s. *Bağır müdirinin **ağartısına** şərik olmaq istəmədi* (İ.Məlikzadə).

**AĞARTI** II *is*. Uzaqdan görünən ağ şey. *Uzaqdan bir **ağartı** nəzərə çarpdı* (Ə.Vəliyev).

**AĞARTMAQ** I *f.* Açmaq. *Buna bənzər bir hiss ürəyini gəzib dolaşdısa da onu **ağartmadı*** ("Ulduz").

**AĞARTMAQ** II *f.* Əhənglə rəngləmək. *Bayramqabağı divarları **ağartdılar**.*

**AĞBİRÇƏK** I *is.* Ailənin böyüyü, başçısı. *Bizə ağlı həmişə sən öyrədirsən, **ağbirçəyimizsən*** (B.Bayramov).

**AĞBİRÇƏK** II *sif.* Saçı ağarmış yaşlı, qoca (qadın). *Gənclikdən zövq alır **ağbirçək** qarı* (S.Vurğun).

**AĞI** I *is.* Zəhər. *Qırram qayaları, yıxaram dağı; Xanlar zəhər içər, sultanlar **ağı*** (Dastanlar).

**AĞI** II *is. köhn.* Ağlaşma zamanı avazla oxunan nisgilli sözlər. *İçində yan, **ağı** deyib, ağlama; Ağlamağın yeri deyil, ağlama* (M.Araz).

**AĞIL** I *is.* [*ər.*] İnsanda düşünmə qabiliyyəti; zəka, idrak. ***Ağıl** başda olar, yaşda olmaz* (Ata. sözü)

**AĞIL** II *is. məh.* Mal-qara və qoyun saxlamaq üçün ətrafı hasarlanmış üstü açıq yer. ***Ağıllar** boş olduğundan qapıları açıq idi* (M.İbrahimov).

**AĞIZLIQ** I *is.* Kisə, çuval, qab və s. ağzına qoyulan qapaq, tıxac, qıf və s. *Bu çuvalların **ağızlığı** yoxdur.*

**AĞIZLIQ** II *is.* Nəfəslə çalınan musiqi alətinin və s. ağıza alınan hissəsi.

**AĞLAR** I *is.* Ağ irqə mənsub olanlar, qaraların əksi. *Qılıncdan keçirdi bizi bu **ağlar**; Lalə tək qızardı Amazon çayı* (S.Vurğun).

**AĞLAR** II *is. tar.* Əksinqilabçılar. *Qırmızılar **ağlara** qalib gəldi.*

**AĞZIBİR** I *is. dan.* Darısqal yer, heyvan salınan yer, həbsxana və s. *Saldın axır öz əlinlə özünü **ağzıbirə*** (M.Ə.Sabir).

**AĞZIBİR** II *zərf, dan.* Sözübir, dilbir, müttəfiq. *İşdə **ağzıbir** olmaq lazımdır.*

**AX** I *f.* Mayenin yuxarıdan aşağı hərəkət etməsi. *Dneprin gümüşü suları sahilin qumlarını yalayaraq **axır*** (S.Qədirzadə).

**AX** II *nida* Təəccüb, təəssüf və s. hissləri bildirir. ***Ax**, deyəsən ağa gəlir* (Ü.Hacıbəyov).

**AXIR/AXUR** I *is.* İçərisi yonulmuş, mala yem tökmək üçün nov. *Naxıra gedərəm çoban olmaz, **axıra** gedərəm saman* (C.Cabbarlı).

**AXIR** II *is.* [*ər.*] Son, aqibət, nəticə. *Ay arvad! Mənim **axır** sözümdü* (C.Məmmədquluzadə).

**AXIR** III *ədat* Nəhayət. *Unutmuşam cəfaları, dərdləri; **Axır** gəlib sənə yetişdim, Əsli!* (Ü.Hacıbəyov).

**AJUR** I *is.* [*fr.*] *term.* Mühasibatda: əməliyyatın həmin gün kitaba qeyd edilməsi.

**AJUR** II *is*. [*fr*.] *tex*. Şəbəkə, tor.

**AKT** I *is*. [*lat*.] Şahidlərin iştirakı ilə, yaxud yoxlama nəticəsində müəyyən edilən bir hadisəni təsdiq edən sənəd, yazı. *Üstəlik bir* ***akt*** *da bağladılar ki, oğurluqda tutulub* ("Qaçaq Nəbi").

**AKT** II *is*. [*lat*.] Ali məktəblərdə təntənəli iclas, hərəkət, dramatik əsərin bir hissəsi. ***Akt*** *salonuna yığışanların sayı getdikcə artardı.*

**AKTİV** I *is*. [*lat*.] Müəssisənin və ya ictimai təşkilatların fəal hissəsi.

**AKTİV** II *is*. [*lat*.] *mal*. Mühasibatda: müəssisə və ya idarənin balansında mövcud olan bütün qiymətli şeylərindən və ya borc tələblərindən ibarət olan hissə.

**AKTİV** III *sif*. [*lat*.] *dilç*. Bir dildə danışanların hamısı tərəfindən başa düşülən və həmişə işlədilən (söz). *Dilimizin* ***aktiv*** *lüğət tərkibi.*

**AL** I *is*. *köhn*. Hiylə, məkr, yalan. *Koroğlunu* ***al*** *dil ilə tutandı; Ölər əcəm oğlu getməz bu yerdən* (Dastanlar).

**AL** II *is*. [*ər*.] Xurafata inananların təsəvvüründə canlanan, gözünə görünən mövhum surət, xəyal. *Zahıya deyərdilər ki, yatma, yatsan,* ***al*** *anası gələr ciyərini çıxarar* (H.Sarabski).

**AL** III *sif*. Qırmızı. *Narın küləklər öpür sənin* ***al*** *bayrağını* (S.Rüstəm).

**AL** IV *f*. Əl ilə götürmək; qaldırmaq; ələ keçirmək. *Mənim könlümdə gül açmış əməlsən; Güc* ***aldın*** *sən bu eldən ey qız, ey qız* (S.Rüstəm).

**ALA** I *is*. *dan*. Qanın pozulması nəticəsində dəridə əmələ gələn ağ ləkə (dəri xəstəliyi).

**ALA** II *is*. *dan*. Alaq; tarlada və bostanda bitən ziyanverici ot. *Qızlar bostanın* ***alasını*** *çəkib qurtardılar.*

**ALA** III *sif*. Müxtəlif rəngli (ağlı-qaralı). *Of! Məni titrətdi sənin gözlərin; Göz yaşı görməsin* ***ala*** *gözlərin* (S.Vurğun).

**ALACƏHRƏ** I *is*. *zool*. Kolluqlarda yaşayan, cücülərlə qidalanan sərçə fəsiləsindən bir quş.

**ALACƏHRƏ** II *is*. *bot*. Dağlıq yerlərdə bitən qabığı zolaq-zolaq ağac.

**ALÇAQ** I *sif*. Bəstəboy, boyu gödək. *Heç yadımdan çıxmır, konsul özü bir uca adamdır, amma mən* ***alçaq*** *adamam* (C.Məmmədquluzadə).

**ALÇAQ** II *sif*. Rəzil, şərəfsiz, namərd. *Bu cür* ***alçaq*** *və rəhmsiz adamlara bir dəqiqə də olsa həyat haramdır* (M.S.Ordubadi).

**ALƏM** I *is*. [*ər*.] Kainat, dünya, Yer kürəsi. *Dumanla örtülmüş* ***aləm*** *işıqsız bir çadırı xatırladır* (B.Bayramov).

**ALƏM** II *is.* [*ər.*] Çoxlu, külli miqdarda, saysız-hesabsız. *Qalanları qoyunların ətini doğrayıb bir **aləm** kabab bişirdilər* ("Qaçaq Nəbi").

**ALƏM** III *sif.* [*ər.*] Çox maraqlı, cazibəli, nəşə verən və s. *Gecə yarı dənizin bir özgə **aləmi** var* (Ə.Cəmil).

**ALICI** I *is.* Müştəri, mal alan. ***Alıcı** tək-tək idi, hamısı şey satırdı* (B.Azəroğlu).

**ALICI** II *is. məh.* Qov. ***Alıcıya** su dəyif, yanmer* ("Dialektoloji lüğət").

**ALICI** III *sif.* Yırtıcı, ovçu (quş); cəld, sayıq. *Onun baxışları **alıcı** tərlan baxışları kimi kəskindir* (S.Vurğun).

**ALINMAQ** I *f.* Almaq, tutmaq, həbs etmək. *Nə üçün susdu natiqlər; **Alındı** həbsə sadiqlər?* (M.Ə.Sabir).

**ALINMAQ** II *f.* İncimək, pərt olmaq, mütəəssir olmaq. *Bu xəbərdən Nəbinin qardaşları çox **alındı*** ("Qaçaq Nəbi").

**ALIŞDIRMAQ** I *f.* Yandırmaq, alovlandırmaq. *Papiros **alışdırdı*** (B.Bayramov).

**ALIŞDIRMAQ** II *f.* Öyrətmək, ələ öyrətmək. *Güldü Bənna: – Bəli, – dedi, – Gərək tələsək; Cəld olmağa **alışdıraq** hər bir naşını* (Ə.Cəmil).

**ALIŞQAN** I *is.* Müəyyən bir şeyi yandırmaq üçün işlədilən alət. *Şahin **alışqanı** çıxarıb odladı* (B.Bayramov).

**ALIŞQAN** II *sif.* Bir şeyə vərdiş etmiş, adətkərdə.

**ALIŞMA** I *is.* Öyrəşmə, vərdiş etmə, adət etmə.

**ALIŞMA** II *is.* Bir neçə adamın şərikli qoyun və ya mal kəsməsi. *Ay balam, mənim öz ətim ola-ola niyə qoca inəyə **alışma** olum* (S.Rəhimov).

**ALIŞMAQ** I *f.* Odlanmaq, alovlanmaq, od tutub yanmaq. ***Alışsa** yerlər də, yansa göylər də; Ölümdən qorxmarıq sən olan yerdə* (S.Vurğun).

**ALIŞMAQ** II *f.* Öyrəşmək, vərdiş etmək, adət etmək. *Gözləri alaqaranlığa **alışandan** sonra Orxan baxıb gördü ki, daxmada ondan savayı heç kim yoxdu* (İ.Məlikzadə).

**ALMALIQ** I *is.* Alma bağı, alma ağacları əkilən yer. *Onlar gəlib **almalığa** çatdılar* (S.S.Axundov).

**ALMALIQ** II *is. anat.* Atın gözlərinin üst tərəfindəki çuxur yer, çökəklik.

**ALT** I *is.* Bir şeyin aşağı hissəsi. *Səkinə kərpicin **altına** baxdı, açar orada yox idi* (Mir Cəlal).

**ALT** II *is.* [*ital.*] *mus.* Alçaq səsli nəfəslə çalınan musiqi aləti.

**AMAN** I *is.* [*ər.*] Əmin-amanlıq, dinclik; imkan; yardım. *Get, düşmənə* ***aman*** *vermə davada*; *Batır suda, vur quruda, havada!* (S.Vurğun).

**AMAN** II *nida* [*ər.*] Həyəcan, şikayət, qorxu və s. hissləri ifadə edir. *Nələr gördün* ***aman****, Vaqif! Nə qansızmış zaman, Vaqif!* (S.Vurğun).

**AMFİBİYA** I *is.* [*yun.*] *zool.* Həm quruda, həm də suda yaşayan heyvan.

**AMFİBİYA** II *is.* [*yun.*] *tex.* Quruda və suda gedən maşın (tank və ya avtomobil).

**AMİL** I *is.* [*ər.*] Bir prosesin, hadisənin hərəkətverici qüvvəsi, səbəbi. *1907-ci sənədən bəri Azərbaycan türkləri arasında milli opera əmələ gəlməsinin birinci* ***amillərindən*** *birisinin* "*şəbeh*" *olduğu şübhəsizdir* (Ü.Hacıbəyov).

**AMİL** II *is.* [*ər.*] *köhn.* Tacir müvəkkili, ticarət agenti. *İstanbulda, Bakıda, Tiflisdə, Batumda onun* ***amilləri*** *var idi* (Ə.Haqverdiyev).

**AN** I *is.* [*ər.*] Ən cüzi bir zaman, ləhzə. *Mənim xatırımdan pozulmamışdır; Gənclik günlərimin əziz* ***anları*** (B.Azəroğlu).

**AN** II *f.* Yada salmaq, xatırlamaq. *Gələcəyə boylandın; Ötən illər içində; Yəqin məni də* ***andın*** (B.Azəroğlu).

**ANALIQ** I *is.* Ögey ana, doğma olmayan ana. *Hərçənd biz bir günah iş görmürük, amma hər halda Gülnisə mənim* ***analığımdır*** (Çəmənzəminli).

**ANALIQ** II *is.* Ana üzərinə düşən vəzifə, ananın öz uşaqlarına olan əlaqə və münasibəti. *Cəmilə indi bilirdi ki, onun elmi işləri ilə yanaşı bir* ***analıq*** *vəzifəsi də vardır* (S.Rəhimov).

**ANCAQ** I *bağ.* Qarşılıq bildirən tabesiz bağlayıcı. *O nə isə soruşmaq istəyirdi,* ***ancaq*** *utanırdı* (Ə.Vəliyev).

**ANCAQ** II *ədat* Məhdudlaşdırma mənasında işlədilən ədat. *Yasəmən* ***ancaq*** *alaq otlarının başını vururdu* (Ə.Vəliyev).

**ANSAMBL** I *is.* [*fr.*] Artistlər dəstəsi. *Çalır xalq çalğı alətləri* ***ansamblı****.*

**ANSAMBL** II *is.* [*fr.*] Ahəng, uyğunluq. *Opera əsərinə məxsus olan bütün ünsürlər – ariya, duet,* ***ansambl****, reçitativ –* "*Koroğlu*" *operasında vardır, lakin bunların hamısı Azərbaycan musiqi folkloru qurulan muğamlar əsasında qurulmuşdur* (Ü.Hacıbəyov).

**APARAT** I *is.* [*lat.*] *tex.* Alət, cihaz, qurğu. *Bütün laboratoriya müdirlərinin otağında – masanın üstündə qara bir telefon* ***aparatı*** *var* (Anar).

**APARAT** II *is.* [*lat.*] İdarə və ya hər hansı bir təşkilat işçilərinin məcmuyu. ***Aparatın*** *işçiləri bir çox hallarda xalis texniki vəzifələri yerinə yetirir.*

**ARA** I *is.* İki şey arasındakı məsafə, boşluq, ortalıq. *Çalışaq girməsin yadlar* ***araya*** (S.Rüstəm).

**ARA** II *is.* Əlaqə, münasibət, rəftar. *Yoxdur sevən gənc könlümün bu hicranla* ***arası*** (S.Rüstəm).

**ARA** III *is.* Fasilə. *Kəndin ayağında maşınların gurultusu* ***ara*** *vermirdi* (B.Bayramov).

**ARA** IV *f.* Axtarmaq, araşdırmaq. *Mən üç gündür ki, at belində səni* ***arayıram*** (C.Cabbarlı).

**ARD** I *is.* Arxa, dal, hər şeyin geri tərəfdə olan yeri. *Günəş çəkilərkən dağlar* ***ardına;*** *Üfüqlər qarardı, sular qarardı* (S.Vurğun).

**ARD** II *is.* Başlanmış bir işin, şeyin davamı, dalı. *Məqalənin* ***ardı*** *məcmuənin gələn nömrəsində dərc olunacaqdır.*

**ARXA** I *is.* İnsanın, heyvanın dalı, beli. *Mən* ***arxam*** *dənizə tərəf oturdum* (Anar).

**ARXA** II *is.* Kömək, havadar, dayaq. *Qəribəm, yoxdu* ***arxam;*** *Qanadım yoxdu qalxam; Çıxam qəlbi dağlara; Bir vətən sarı baxam* (Bayatı).

**ARXA** III *is.* Nəsil, əcdad. *Xalqın yeddi* ***arxa*** *yadları ağzını açanda tərif tökür...* (Mir Cəlal).

**ARI** I *is.* Zərqanadlılar fəsiləsindən olub, bal hasil edən cücü. *Yaz vaxtları pətəklərin ağzı açılanda* ***arılar*** *bağlara səpələnirdilər* (Ə.Əylisli).

**ARI** II *sif. köhn.* Təmiz, pak, saf. *Aydan* ***arı,*** *sudan duru* (Ata. sözü).

**ARPALIQ** I *is.* Arpa səpmək üçün yararlı yer.

**ARPALIQ** II *is. term.* Atın azı dişlərindəki çökəklik, çuxur.

**ARTIQ** I *is.* Bütün ehtiyac təmin olunduqdan sonra qalan şey, qalıq. [Hacı Səməd ağa:] *Hər kəs hər nə qazansa, yediyini yeyir,* ***artığını*** *da gizləyir* (Ə.Haqverdiyev).

**ARTIQ** II *sif.* Çox, xeyli, olduqca. *Bunların hamısı* ***artıqdır.***

**ARTIQ** III *is. ədat* Daha, bundan əlavə. ***Artıq*** *tanrı sənə dost deyil, ana!* (S.Rüstəm).

**ARTIRMA** I *is.* Eyvan, balkon. *O,* ***artırmaya*** *qədəm qoycaq gözü mənə sataşdı* (S.Qədirzadə).

**ARTIRMA** II *is. məh.* Uşaq oyunlarından birinin adı.

**ARTİKUL** I *is.* [*lat.*] Malın, məmulatın tipi.

**ARTİKUL** II *is.* [*lat.*] *ter.* Hərbi qanun, müqavilə və sənədlərdə bənd.

**AS** I *is.* [*ər.*] Kart oyununda: tuz, təkxallı qumar kağızı.

**AS** II *is.* [*ər.*] Mahir təyyarəçi.

**AS** III *sif.* [*ər.*] Sözü keçən, nüfuzlu adam. *O, **as** adamdır. Hamı ona hörmət edir.*

**AS** IV *f.* Bir şeyi yuxarıdan bənd etmək, sallamaq. *Sağ meşə, sol meşə, yollar ensiz, dar; Sanki dağ başından kəndir **asmışlar*** (B.Azəroğlu).

**ASMA** I *is.* Paltar asmaq üçün qarmaq, paltarasan. *Boz şinelini və gün bozartmış papağını çıxarıb koridordakı **asmadan** asdı* (S.Rəhimov).

**ASMA** II *is. tex.* Talvar, çardaq. *Tütünü **asmalarda** qurudurlar.*

**ASMA** III *sif.* Bir yerdən asılan, sallanan. *Dünyada körpü çoxdur; Adlısı, adsızı var; Dəmirdən, **asma** körpü; Daşdan hörülmə körpü* (B.Azəroğlu).

**ASMAQ** I *f.* Bir şeyi yuxarıdan bir yerə ilişdirib sallamaq, asılı hala salmaq. *Mən əvvəl sarı paltonu alıb altdan **asardım*** (Anar).

**ASMAQ** II *f.* Xörək bişirmək üçün qazanı ocaq üstünə qoymaq. *Ay Pərzad xala, yeri onları da yığ gətir, bir yerdə yeyək, bozbaş **asmışam*** (Çəmənzəminli).

**AŞ** I *is.* Xörək, plov. *Bayram **aşıdır**, indicə Qönçəbəyim gətirdi* (S.Qədirzadə).

**AŞ** II *is.* Dərini, gönü aşılayıb hazırlamaq üçün maddə. *Gönü **aşa** qoydular.*

**AŞ** III *f.* Bir şeyin üzərindən atılıb keçmək. *Keçərək Mil düzündən sarı dağlar **aşdım*** (Ə.Cəmil).

**AŞIQ** I *is.* [*ər.*] Yaradıcılığında şairlik, nəğməkarlıq, çalğıçılıq, bədii qiraət və rəqs sənətlərini üzvi surətdə birləşdirən xalq sənətkarı.

**AŞIQ** II *is. anat.* Diz qapaqlarından çıxan oynaq sümüyü. *Bozbaşı yedikdən sonra evin uşaqları, kasalara göz gəzdirərək, sümükdən **aşıqları** çıxarıb, bir yerə yığırdı* (H.Sarabski).

**AŞIQ** III *is.* Uşaq oyunlarından birinin adı. *Uşaq vaxtı küçədə **aşıq** oynayanda hərdənbir savaşardıq* (C.Məmmədquluzadə).

**AŞIQLIQ** I *is.* Aşıq sənəti. *Çıxdım **aşıqlığa,** düşdüm ellərə; Aşıqlardan san almağa gəlmişəm* (Aşıq Vəli).

**AŞIQLIQ** II *is.* Dizin aşıq sümüyü gizləndiyi yer. *Qoyunun **aşıqlığını** sədr öz qabağına çəkdi.*

**AŞIRMA** I *is.* Şalvara bənd edilən lentşəkilli qoşa bağ; şalvar asmalığı. [Fətullayev] *...elə faytonun içindəcə uzun şinelinin üstündən bağladığı ona-çılanı yana çəkdi.* ***Aşırmasını*** *düzəltdi* (İ.Şıxlı).

**AŞIRMA** II *is.* Plovun bir növü. *Bir dəfə dost-aşnasına xəbər verdi ki, hamısı cümə günü ona* ***aşırma*** *plova qonaqdırlar* (Ə.Haqverdiyev).

**AŞIRMAQ** I *f.* Qaldırıb qoymaq, yükləmək, keçirmək. *Həcər təkrar papağı başına qoydu, əlini aynalıya atdı, kəməri çiyninə* ***aşırdı*** (S.Rəhimov).

**AŞIRMAQ** II *f.* Yıxmaq, çevirmək. *Telman Paşayev rəqibini başı üzə-rindən* ***aşırıb*** *təmiz qələbə qazandı.*

**AŞIRMAQ** III *f.* Bir şeyi acgözlüklə və cəld yemək. *Bozartmanı yedilər, hələ üstəlik toyuğun da çığırtmasını* ***aşırdılar****.*

**AŞLIQ** I *sif.* Aş üçün, plov üçün yararlı. *Aldığım düyü əsil* ***aşlıq*** *düyüdür.*

**AŞLIQ** II *sif.* Aşa qoymaq üçün yararlı. *Əlidə yaxşı* ***aşlıq*** *dəri var.*

**AŞMAQ** I *f.* Keçmək; düşmək; çıxmaq. *Oradan çıxıb erməni küçələrinə* ***aşdılar*** (M.F.Axundzadə).

**AŞMAQ** II *f.* Düzəlmək; keçmək; təmin olunmaq. *A Gülər, rəng gətir, rəngsiz* ***aşmaz*** *işimiz* (S.Rəhman).

**AŞMAQ** III *f.* Çevrilmək, yıxılmaq. *O tərəf-bu tərəfə çox* ***aşdı,*** *ancaq gözlərinə yuxu gəlmədi* (S.Rəhimov).

**AŞNA** I *is.* [*fars.*] Dost, yaxın, tanış, yoldaş. *Gör* ***aşnam*** *özünü kimlərnən yan-yana qoyur* (Anar).

**AŞNA** II *is.* [*fars.*] Qeyri-rəsmi arvad və ya kişi, oynaş. *Arvadından savayı, bir rus qızı da* ***aşnası*** *var idi* (Ə.Haqverdiyev).

**AT** I *is.* Qoşulan və minilən ev heyvanı. *O, Feyzini səsləyib iki saz* ***at*** *yəhərləməsini tapşırdı* (B.Bayramov).

**AT** II *is.* Şahmat fiquru. *Mat olmasın deyə,* ***atı*** *qurban verdi.*

**AT** III *f.* Tullamaq, salmaq. ***At*** *bu dəcəlliyi bir yana oğlum*; *Qoy sən tək sağalıb dursun anan da* (B.Azəroğlu).

**ATALIQ** I *is.* Ögey ata. *Rusca əlifba savadımı da* ***atalığımdan*** *öyrən-mişdim* (Ə.Haqverdiyev).

**ATALIQ** II *is.* Ata üzərinə düşən borc, vəzifə. *Nəsib dayı* ***atalıq*** *borcunu yalnız övladı yaxşı geyindirib yedirməkdə görən adamlara gülərdi* (İ.Şıxlı).

**ATƏŞ** I *is.* [*fars.*] Od, ocaq. *Payızdır, elə bil soyumuş günəş; Daha tar-lalara tökməyir* ***atəş*** (B.Azəroğlu).

**ATƏŞ** II *is.* [*fars.*] Tüfəng və ya topdan atəş. *Tuturlar onları qafil **atəşə**; Gizləyir dostları qalın bir meşə* (M.Rahim).

**ATLANMAQ** I *f.* Ata minmək. *Sübh **atlanıb**, günortaya özümü Əhməd-qalaya yetirdim* (Ə.Haqverdiyev).

**ATLANMAQ** II *f.* Tullanmaq, sıçramaq, hoppanmaq. *Bir ay yarım novbahardan keçəndə; Köksündən **atlanır** sellərin, dağlar* (Aşıq Ələsgər).

**AVAR** I *is.* Qayığı sürmək üçün kürək, qayıqçı kürəyi.

**AVAR** II *is.* Dağıstanda yaşayan xalqlardan birinin adı. *Ətrafımda ləzgi, qomuq, **avar**, lak, tərəkəmə; Oynaq gözlər, şən dodaqlar, həpsi yabançı qəmə* (A.İldırım).

**AVAR** III *is. məh.* Evlərin damına döşənən qamışaoxşar ot.

**AVARA** I *is.* [*fars.*] İşsiz-gücsüz adam, sərsəri. *Sən demə, başqa yerdə arvadı, qızı varmış; onları başsız qoyub qaçmış bu **avara*** (S.Rüstəm).

**AVARA** II *is. məh.* Bir və ya ikiillik camış balası.

**AY** I *is. astr.* Planet, göy cisimlərindən biri. ***Ay** da, göy də sarı bir heyva kimi; Durur hərəkətsiz səhərə kimi* (S.Rüstəm).

**AY** II *is.* İlin bölündüyü on iki hissədən hər biri. *Dolandı həftələr, dolandı **aylar**; Cəlal qayıtmadı o gündən bəri* (S.Vurğun).

**AY** III *nida* Çağırış, müraciət, haraylama nidası. ***Ay** qalaq-qalaq buludlar; Bir an uzaq getməyin!* (M.Rahim).

**AYAR** I *is. dan.* Barama, pambıq və s. bu kimi xammallardan əldə edilən xalis malın miqdarı.

**AYAR** II *is. məh.* Məhsuldar. *Qurda yaxşı baxırlar, doydururlar, onda **ayar*** olur ("Dialektoloji lüğət").

**AYAR** III *sif.* Ürəyiaçıq, gülərüzlü. *Muxtar əmi **ayar** adamdı* (İ.Hüseynov).

**AYLIQ** I *is. dan.* Maaş, əməkhaqqı. *Mədəndə bundan dörd qat az alır-dım, indi, şükür Allaha, **aylığım** pis deyil* (M.Hüseyn).

**AYLIQ** II *sif.* Bir aya aid, bir ay üçün nəzərdə tutulan iş. *Bir **aylıq** mənzili bir gündə kəsər; Köhlən bəsləmişəm, gərək Qıratım* (Dastanlar).

**AYNALI** I *is. köhn.* Patronu üstdən qoyulan təklülə tüfəng. *Nəbi cəld ayağa qalxıb, dirəkdən asdığı **aynalını** götürdü* ("Qaçaq Nəbi").

**AYNALI** II *sif.* Aynası, güzgüsü, şüşəsi olan. *Yorğun-arğın insanlar işdən sonra; Yığılmışdı divarları daş **aynalı** bir salona* (S.Vurğun).

**AYPARA** I *is*. Bir-iki günlük ay. *Göydə yanır **aypara**; İşıq düşür yollara* (B.Vahabzadə).

**AYPARA** II *is. köhn*. Qızıl ya gümüşdən qayrılan yarımdairə (ay) şəkilli qadın bəzəyi. *Çəpkənin yaxasındakı zümrüd və zəbərcəd düymələri... iki tərəfdən döşlərinə taxdığı almaz **ayparalar**, onu tovuz quşunun qanadları qədər bəzəmişdi* (M.S.Ordubadi).

**AYRI** I *sif.* Başqa, qeyri, digər. *Öz ləyaqətimi qorumaq üçün **ayrı** yol tapmadım* (S.Qədirzadə).

**AYRI** II *zərf* Tək, müstəqil. *...Hər nəysə, mən ki o paltoları bir dəfə də **ayrı** asmadım* (Anar).

**AYRI** III *zərf* Aralı düşmək, uzaq düşmək, uzaqlaşmaq. *Camal ailəsindən **ayrı**, tək yaşayırdı, Əsmər də onun evinə köçdü* (Anar).

**AZ** I *say* Sayca çox olmayan, cüzi. *Ayrı cür olsaydı, seximiz iyirmi iki metr **az** parça toxuyacaqdı, başa düşürsənmi?* (S.Qədirzadə).

**AZ** II *f.* Doğru yoldan çıxmaq, pis yola qulluq etmək, yolu itirmək. *Nəbi olmasa kəndlilər bu cür qudurub yolundan **azmazdılar*** ("Qaçaq Nəbi").

**AZAD** I *is*. [*fars*.] *bot.* Bərk oduncaqlı ağac növü.

**AZAD** II *sif.* [*fars*.] Başqasından asılı olmayan, sərbəst. *Ey **azad** gün, azad insan; Doyunca iç bu bahardan!* (S.Vurğun).

**AZI** I *is*. Ağzın hər iki tərəfində arxa hissədə yerləşən əsas dişlər.

**AZI** II *ədat* Ən cüzi, minimum. *Ən kiçik dərdi də **azı** min kərə; Saldı ürəyinə hər saat, hər gün* (B.Vahabzadə).

# Bb

**BAB** I *is.* [*ər.*] *köhn.* Fəsil, bölmə (əsərdə). *Gər şərh edərsəm ayəti hüsnün kitabini; Hər **bab** içində fəslinə yüz bin füsul ola* (İ.Nəsimi).

**BAB** II *is.* [*fars.*] Tay, bərabər. – *Yox, əsla Alo, hər yana dönsə. Mənimki öz **babımdır,** tay-tuşumdur* (S.Rəhimov).

**BABA** I *is.* Atanın, ya da ananın atası. *O qoca **babası** saç-saqqalı ağ; Səlimi özünə sanırdı dayaq* (A.İldırım).

**BABA** II *is.* Sadə, adi, fağır mənasında. *Mən yoxsul bir məllim **babayam*** (Ə.Haqverdiyev).

**BABALI** I *is.* Günah. *Biz də istifadə edərik, **babalı** onların boynuna vəs-salam* (M.İbrahimov).

**BABALI** II *sif.* Babası olan. ***Babalı** uşaq, babasız uşağa tənə edərdi.*

**BABI** I *is.* [*fars.*] XIX əsrin ortasında İranda "Bab" təxəllüslü Mirzə Əli Məhəmməd tərəfindən təsis edilmiş dini təriqətə mənsub olan adam.

**BABI** II *sif.* [*fars.*] Dinsiz, inamsız, kafir. *Bu isə bəs o ləinin də işi qul-labıdır; Dini, imanı danıb, yoldan azıbdır, **babıdır*** (M.Ə.Sabir).

**BADALAQ** I *is.* Sərbəst güləş zamanı müqabil tərəfi yıxmaq üçün aya-ğını onun ayağına dolaşdırıb burma. *Mən onu üzəndə dostum **badalaq** vurub məni üzü üstə yıxır ki, laləni özü dərsin* (M.Hüseyn).

**BADALAQ** II *is.* Hiylə, kələk, fənd mənasında. *Mən az görməmişəm **badalaqları**... Min fırıldaq gələn o alçaqları* (S.Vurğun).

**BADAMLI** I *is.* Müalicə üçün içilən su. *Azərbaycanda istehsal olunan mineral sulardan biri də **badamlıdır.***

**BADAMLI** II *sif.* Badamdan və ya badamla hazırlanan, içərisində badam olan. *Eşidirəm ki, dadlı-dadlı xuruşlar, **badamlı** paxlavalar çox yeməli imiş* ("Molla Nəsrəddin").

**BAĞ** I *is.* Meyvə ağacları əkilmiş sahə. *Alma **bağı**.*

**BAĞ** II *is.* Bağlamaq üçün ip, kəndir. *Ayaqqabının **bağı**.*

**BAĞÇA** I *is.* Kiçik bağ, güllük, çiçəklik. *Getsə bir qapıdan eşqin ayağı; Saralar **bağçası,** tökülər barı* (S.Vurğun).

**BAĞÇA** II *is.* Məktəb yaşına çatmamış uşaqlar üçün tərbiyə müəssisəsi.

**BAĞIR** I *is. köhn.* Qaraciyər. *Qoyunun qara **bağrından** bir qədər götürüb ocağa tutdu* (Dastanlar).

**BAĞIR** II *is.* Ürək, qəlb. *Hər gün kəndə gəlib bəylər, qazaxlar; Yazıq camaatın **bağrını** dağlar* (S.Rüstəm).

**BAĞIR** III *f.* Bərk qışqırmaq, çığırmaq. *Xaspolad bir də ucadan **bağırdı*** (M.Hüseyn).

**BAĞIŞLAMAQ** I *f.* Hədiyyə etmək, peşkəş vermək. *Günəş bizə **bağışlamış** al bayraqlı səhəri* (S.Vurğun).

**BAĞIŞLAMAQ** II *f.* Günahından, təqsirindən keçmək, əfv etmək. *Məncə yaraşmayır çoxuna bu ad; Məni **bağışlasın** sevgilim həyat* (S.Vurğun).

**BAĞLAMA** I *is.* Bağışlanmış şey, boğça. *Qoltuğumda **bağlama**; Mən gedirəm ağlama!* (B.Vahabzadə).

**BAĞLAMA** II *is.* Xalq ədəbiyyatında şeir forması; qıfılbənd deyişmə. *Mana bir **bağlama** söylə, görüm xalq aşığısan, yoxsa qondarma aşıqsan*? (Dastanlar).

**BAĞLAMA** III *is. məh.* Qapı-pəncərə laylarını bərkidib saxlamaq üçün taxta parçası.

**BAĞLI** I *sif.* İp, zəncir və s. ilə bənd edilmiş; örtülü, qapalı. *Könül dedikləri, **bağlı** otaqdır* (R.Rza).

**BAĞLI** II *sif.* Bağı çox olan yer. *Yerlərə baxıram – bağçalı-**bağlı**; Göylərə baxıram – qapısı bağlı* (S.Vurğun).

**BAĞLI** III *sif.* Məftun, vurulmuş. *Bəlkə qız səni sevmir. Ürəyi özgəsinə **bağlıdır*** (M.F.Axundzadə).

**BAĞLI** IV *sif.* Əlaqədar. *Bülbüllə **bağlı** bir epizodu da xatırlayıram.*

**BAĞLIQ** I *is.* Bağ salmaq üçün yararlı yer, bağ olan yer. *Bu çayın o biri tərəfi isə gözəl **bağlıq** idi* (A.Şaiq).

**BAĞLIQ** II *is.* Bağlamaq, bənd etmək üçün yun və pambıqdan əyrilmiş ip, sap və s. *Dünən ona bir **bağlıq** yun vermişəm.*

**BAĞRIQARA** I *is. zool.* Su kənarında yaşayan uzun qıçlı, döşü qara quş. ***Bağrıqaranın** qızardı bağrı; Şahbaz ona varanda doğru* (Xətayi).

**BAĞRIQARA** II *sif.* Kədərli, halı pərişan. *Mən aşiq bağrıqara; Quşlar da **bağrıqara**; Lalədən xoş gül olmaz; Onun da bağrı qara* (Bayatı).

**BAXIŞ** I *is.* Baxma, gözdən keçirmə. *Saçlarım qapqara; **Baxışlarım** davamlı; Addımlarım mətin* (B.Azəroğlu).

**BAXIŞ** II *is.* Fikir, əqidə. *Hər gün bir məmləkətdə; Əqidələr,* ***baxışlar;*** *mənfəətlər toqquşur* (B.Azəroğlu).

**BAK** I *is.* [*fars.*] *klas.* Qorxu, xof. *Bu bir, iki, üç məsələdə yox o qədər* ***bak****; Olsun, bəcəhənnəm, necə rəftar olacaqdır* (M.Ə.Sabir).

**BAK** II *is.* [*fr.*] İçinə maye tökmək üçün ağzı örtülü qab. *Bir dəfə Heybət başını aşağı saldı və qabı yerdən götürüb,* ***baka*** *neft tökdü* (M.Hüseyn).

**BAK** III *is.* [*holl.*] Gəminin göyərtəsinin burun hissəsi.

**BAL** I *is.* Arıların çiçək və meyvə şirəsindən hasil etdikləri qatı şirin maddə. *Dodaqların şəkər dadır,* ***bal*** *dadır; Gözəllikdə olmaz sənə tay, gözəl* (S.Rüstəm).

**BAL** II *is.* [*fars.*] *klas.* Qanad. *Döyüşdükcə qoca qartal; Qüvvət alır* ***balü*** *pəri* (S.Vurğun).

**BAL** III *is.* [*fr.*] Böyük rəqs gecəsi. *Üzünü görmədim zər poqonların; Görmədim* ***balını*** *dvoryanların* (S.Vurğun).

**BAL** IV *is.* [*fr.*] Məktəblərdə qiymət dərəcəsi; külək; zəlzələ və ya dalğanın ölçü vahidi. *Los-Anceles şəhərində zəlzələ olmuş, zəlzələnin gücü 9* ***bala*** *çatırdı.*

**BALAQ** I *is.* Tumanın, şalvarın, dizliyin ayağa düşən hissəsi. *Bunlar payız günü çöl-bayırda;* ***balağına*** *yapışan pışpışıdır* (R.Rza).

**BALAQ** II *is.* Camış balası. *Mürşüd camış* ***balaqlarını*** *suvarmaq üçün çaya aparmışdı* (Ə.Vəliyev).

**BALAQ** III *is. məh.* Qamışabənzər, içi boş, buğumlu yemlik bitki.

**BALQABAQ** I *is.* [*fars.*] Uzunsov, ortası nazik şirin qabaq. *...kimisi yaman günün köməyi olan kudu və* ***balqabaqları*** *gizlədirdi* (M.İbrahimov).

**BALQABAQ** II *sif.* Key, maymaq, ruhsuz, iradəsiz. *Xəlil nədir ki, o məni işdən çıxardır, bunlar da* ***balqabaq*** *kimi durub baxırlar* (M.Hüseyn).

**BALLI** I *is. bot.* Şirəli otlardan birinin adı.

**BALLI** II *sif.* Balı olan. ***Ballı*** *pətəklərə bənzər beynimiz; İçində boş qalmış bir çox şanlar* (S.Vurğun).

**BAMİYƏ** I *is.* [*fars.*] *bot.* Meyvəsi konus şəklində olan və xörəyə işlədilən birillik lifli bitki. *Doğra daha* ***bamiyəni*** *bozbaşa; Sonra toyuq köksü ilə get aşa; Qəlyanı çək, qəhvəni iç, çox yaşa!* (A.Səhhət).

**BAMİYƏ** II *is.* [*fars.*] Un, yağ, şəkər və s.-dən hazırlanan bamiyə şəklində şirni.

**BAN** I *is.* Arabanın təkərlərindən yuxarı olan hissəsi, qutusu, gövdəsi. *Araba cırıldamaqdan, **ban** cırıldayır* (Ata. sözü).

**BAN** II *is.* Xoruz səsi. *Üçüncü xoruz **banı** qadın açdı; Yenə bağladı darvazanı* (R.Rza).

**BAN** III *is.* Dam, çardaq. *Sürücü maşının **banına** dırmaşdı.*

**BANK** I *is.* [*fr.*] Pul vəsaitini toplayan və təqsim edən kredit idarəsi. *Dövlət **bankı**.*

**BANK** II *is.* [*alm.*] Dəniz dibinin nisbətən dayaz, dərinliyi gəmi hərəkəti üçün kifayət olan sahəsi.

**BANK** III *is.* [*fr.*] Kart oyununda ortalığa qoyulan pul. [Xudadad bəy:] *Canım, ta mən dördaşıq oynamaq istəmirəm, **bank** oynayacağam, gedirəm* (Ü.Hacıbəyov).

**BANKA** I *is.* [*ing.*] Dənizdə ayrıca dayaz yer.

**BANKA** II [*holl.*] Qayıqda avar çəkənlərin oturduğu skamya.

**BANKA** III *is.* [*pol.*] Silindrşəkilli şüşə və saxsı qab. ***Bankanın** ağzı açılanda ətir qoxusu evi başına götürdü* (Ə.Haqverdiyev).

**BANKET** I *is.* [*fr.*] İctimai, siyasi xadimlərin və s. şərəfinə düzəldilən təntənəli qonaqlıq, ziyafət. *Sən ki **banketə** o qədər adam çağırırsan, paltara, tufliyə pul qalar?* (S.Qədirzadə).

**BANKET** II *is.* [*ing.*] Dəmiryolunu seldən, daşqından qoruyub, saxlamaq üçün hündür olmayan torpaq bənd.

**BAR** I *is.* [*fars.*] Meyvə, məhsul; səmərə. *Bağçamızın ağacları dürlü-dürlü **bar** verir* (O.Sarıvəlli).

**BAR** II *is.* [*fars.*] *klas.* Yük, ağırlıq. *Kim dözər mənim tək belə firqətə; Rəncü məşəqqətə **bari**-möhnətə* (M.P.Vaqif).

**BAR** III *is.* [*yun.*] Meteorologiyada təzyiq vahidi olub, 1 mln. dinanın (dn.) 1 $sm^2$ təzyiqinə bərabərdir.

**BAR** IV *is.* [*ing.*] Ayaq üstə duraraq yemək yeyilən, ya içki içilən kiçik yeməkxana, qəlyanaltı. *Qarşı binanın alt tərəfindəki **bardan** gülüş və musiqi səsi eşidilirdi* (A.Babayev).

**BAR** V *is.* [*fr.*] *coğr.* Suyun gətirdiyi qumlardan çay ağzında əmələ gələn dayaz yer.

**BAR** VI *is.*[*ing.*] *tex.* Qazma maşınlarında çapmaq üçün diş.

**BAR** VII *is. məh.* Çörəkdə və xörəkdə əmələ gələn ağ rəngli, çox xırda göbələkciklər, kif.

**BARABAN** I *is.* Təbil. *Çalındı tunc, **baraban,** ordu döndü dənizə...* (A.İldırım).

**BARABAN** II *is. tex.* Müxtəlif maşınların və mexanizmlərin silindr şəkilli hissəsi. – *Ərşad, gəl gör **baraban** niyə parçanı yuxarı dartmır?* (S.Qədirzadə).

**BARABAN** III *is. anat.* Orta qulağın içi.

**BARAT** I *is. ər.* Bank və s. maliyyə müəssisələri və ya poçt vasitəsilə göndərilən pul. *Pulları haman yerə **barat** verəcəyəm* (M.S.Ordubadi).

**BARAT** II *is.* [*ər.*] Qəbz, vəsiqə. *İcarədarlara icarə hüququnu təsdiq edən sənəd – **barat** verilirdi* ("Azərb. tarixi").

**BARAT** III *is.* [*ər.*] Hədiyyə, bəxşeyiş. Lisanından gəlməyəndə ***baratım;** Naləm istər bu dünyanı dağıtsın* (Aşıq Ələsgər).

**BARI** I *is.* [*fars.*] Hasar, divar, sədd. *Onu **barı** içərisinə almaq və elektrik stansiyası üçün istifadə etmək lazımdır* (C.Cabbarlı).

**BARI** II *ədat* [*fars.*] Arzu; heç olmazsa mənasında. ***Barı,** gedərkən bizə dəyəydin* (M.Rzaquluzadə).

**BARMAQ** I *is.* İnsan və bəzi heyvanların əl və ayaqlarının qurtaracağındakı beş mütəhərrik üzvdən hər biri. *Daş dəyməsin birisinin ayağına; Birisinin **barmağına*** (M.Əliyev).

**BARMAQ** II *is. dan.* Simli musiqi alətində çalan sazəndənin şəxsi yaradıcılığından doğan ən xırda xallar, çox kiçik, lakin bitkin instrumental epizodlar.

**BARMAQ** III *is.* Bir işin gizli iştirakçısı olmaq, xəbəri olmaq, əli olmaq. *Bu işdə yəqin onun da **barmağı** var* (C.Cabbarlı).

**BARMAQLIQ** I *is.* Ağacdan, dəmirdən və ya məftildən qayrılmış tor, hörgü. *Cəld ayağa durub, dəmir **barmaqlığa** yanaşdı* (M.Hüseyn).

**BARMAQLIQ** II *is. məh.* Barmağa dolama çıxdıqda və ya əhənglə ağardan zaman yandırmasın deyə, barmağa keçirilən dəri və ya göndən tikilmiş kisəcik.

**BARMAQLIQ** III *is.* Çilik, qələm (ağacda). *Bu gün yerə yüz **barmaqlıq** basdırmışam.*

**BAS** I *sif.* [*ital.*] *mus.* Ən bəm kişi səsi, ən aşağı kişi səsi. *Güləbətin Hacının otağını süpürəndə həyətdə Şahpələngin qalın **bas** səsini eşitdi* (M.İbrahimov).

**BAS** II *f.* Üstdən sıxmaq, təzyiq etmək, ayaqlamaq, tıxamaq və s. *Kələntəri görən kimi elə bil ki, Rüstəm kişini qaynayan aş qazanına **basıb** çıxartdılar* (M.İbrahimov).

**BASMA** I *is.* Saçı boyamaq üçün rəng. *O, başına həmişə **basma** qoyardı.*

**BASMA** II *is. tar.* Üzərində tatar xanın şəkli olan möhür.

**BASMA** III *is.* Yazı qurulayan, suçəkən kağız. *Bəli, uzun sözün qısası, yazdım bu hekayəni, **basma** ilə quruladım* (Ə.Əliyev).

**BASMA** IV *is.* Naxış, rəng və s. basılmış. *Qanovuz köynəyin atlaz çutqusu; Yaşıl **basmaları** nə gözəl imiş* (Aşıq Abbas).

**BASMA** V *is.* Çap, mətbu. *Əksəri qayış cildli Təbriz **basmasıdır*** (Çəmənzəminli).

**BASMA** VI *is. məh.* Kömür yandıran. *Kömürçülər bir dəstə basmaçı görüb, özdəriçin **basma** qoymiyə göndərdilər* ("Dialektoloji lüğət").

**BASMAÇI** I *is.* Basma işi ilə məşğul olan, qəlib basan. *Sanqo qaçıb, **basmaçı** dəyirmanlarında gizlənmək istədi.* Servantes.

**BASMAÇI** II *is.* [*özb.*] *tar.* Orta Asiyada basmaçılıqda iştirak etmiş adam. *Bütün **basmaçı** hissələrini dağıtdılar* (Ə.Sadıq).

**BAŞ-AYAQ** I *is. aşp.* Kəlləpaça: qoyunun, malın başı və ayaqlarından hazırlanan sulu xörək. *...Baza müdiri Bürcəli dedi: – Bu saat burdan gedirik bizə xaş, **baş-ayaq**, dırnaq, kəlləpaça, xolodes yeməyə* (Anar).

**BAŞ-AYAQ** II *is. məh.* Biçin zamanı yerə tökülən sünbül. *Qarı çöldən 30 kiloqram **baş-ayaq** yığmışdı.*

**BAŞ-AYAQ** III *zərf* Tərsinə, əksinə, başı ayağına və ya ayağı başına. *...Yuxudan qalxan cavanlar Cəmillə Tahiri bir çarpayıda **baş-ayaq** yatmış gördülər* (M.Mehdi).

**BAŞIPAPAQLI** I *is.* Kişi. *Bu xəbər gələn kimi uçitel Mirzə Kərim camaatı yığıb başına dedi: – Gərək kənddə bir nəfər **başıpapaqlı** qalmaya* (Ə.Haqverdiyev).

**BAŞIPAPAQLI** II *zərf* Başında papaq olan. *İçəridə **başıpapaqlı** oturmaq olmaz.*

**BAŞQA** I *sif.* Qeyri, ayrı, özgə, yad. *Qonşu həyətin qapısı **başqa** küçəyə açılırdı* (M.Cəlal).

**BAŞQA** II *qoşma* Seçmə, ayırma mənasında. *Torpaq döşəmə üzərində bir həsir qırığından **başqa** heç nə yox idi* (Ə.Məmmədxanlı).

**BAŞLIQ** I *is.* Yağışdan, soyuqdan, küləkdən qorunmaq üçün başa geyilən örtük. *Əynində boz şinel, başında **başlıq**; Nəysə pıçıldayır o, fəhlələrə* (S.Vurğun).

**BAŞLIQ** II *is. xüs.* Sərlövhə, məqalənin adı. *Reyhan .. əlində rəngli qələm qəzetə **başlıq** çəkir* (Mir Cəlal).

**BAŞLIQ** III *is. etnoqr.* Qızın ata-anasına oğlan tərəfindən verilən mal, yolpulu, südpulu. *Reyhan büsbütün məyus qayıtmışdı. Çünki qıza ağır **başlıq** istəmişdilər* (A.Şaiq).

**BAŞLIQ** IV *is.* Nəfər mənasında. *Qəribədir, altı **başlıq** külfəti bir inək, bir oraqla dolandıran atası Möhsün kişi də deyirdi* (N.Babayev).

**BAŞMAQ** I *is. köhn.* Üstü yarıörtülü, dabanı açıq kişi və qadın ayaqqabısı. *Mərcan xala bu dəfə də bir söz deməyib, **başmağının** üstündən geydiyi corablara baxaraq gülümsədi* (Ə.Əylisli).

**BAŞMAQ** II *is. xüs.* Müxtəlif maşın və mexanizmlərdə: dayaq, qoruyucu və s. vəzifəsini görən cürbəcür hissələrin adı. ***Başmaq** qalınlığı 15-19 mm və uzunluğu 30-40 sm olan polad halqadan ibarətdir...* (Quliyev).

**BAŞSIZ** I *sif.* Sahibsiz, yiyəsiz. *Elmli adamlar hamıdan artıq bizlərə lazımdır. Çünki camaatımız **başsızdırlar*** (Ə.Haqverdiyev).

**BAŞSIZ** II *sif.* Başı olmayan. "***Başsız** atlı*" *əsərini oxumuşsanmı?*

**BAŞSIZ** III *sif.* Küt, fərasətsiz, kütbeyin, gic. *Başa başsızları **başsız** çıxarır; Yeri get qabını yala, ay axmaq!* (M.Araz).

**BATAREYA** I *is.* [*fr.*] *hərb.* Bir neçə top və minaatandan ibarət taktik vahid. *Sən indi öz **batareyasını** buraxıb mətbəxdə soğan doğrayan bir topçuya oxşayırsan* (C.Cabbarlı).

**BATAREYA** II *is.* [*fr.*] *fiz.* Bir-birinə birləşdirilmiş elektrik elementi və ya akkumulyatorlar sırası. *Günəş **batareyası.***

**BATMAN** I *is. köhn.* 8 kiloqram ağırlığında çəki ölçüsü. *Bir misqal ondan bir **batman** misə vurur, xalis gümüş olur* (M.F.Axundzadə).

**BATMAN** II *is.* [*fr.*] Baletin xüsusi növü.

**BAZ** I *is.* [*fars.*] Alıcı quş, qızılquş. *Əlimdən uçurtdum **bazım**; Dərdimi kağıza yazım* (Dastanlar)

**BAZ** II *is.* [*fars.*] Müəyyən bir işin və ya şeyin həvəskarı, hərisi. *Belə poetik adların **bazıyam** yaman* (Anar).

**BAZAR** I *is.* [*fars.*] Alış-veriş yeri. *Biz hər gün səsli-küylü **bazarın** yanından keçirdik* (Ə.Əylisli).

**BAZAR** II *is.* [*fars.*] Həftənin şənbədən sonra gələn günü, istirahət günü. *Mənim də hər **bazar** günü getməyə əlim çatmırdı* (S.Qədirzadə).

**BAZI** I *is.* [*fars.*] Oyun, kələk, hiylə. [Şərəfnisə xanım:] *Bəsdir, Allahı sevirsən, bu **bazıları** mənə az gəl!..* (M.F.Axundzadə).

**BAZI** II *is. məh.* İki zəmi, tarla arasında mərz; dikdir. *Badımcan çoxu **bazılarda** küçüklər; Da tərpəşmək olmaz badımcan əlindən* (Şəhriyar).

**BAZI** III *is. məh.* Xışın, cütün ulamadan kötüyə qədər olan hissəsi; qol.

**BEL** I *is.* Bədənin ortası, qurşaq bağlanan yeri. ***Belində** qəbzəli xəncər olan bir kişi içəri girdi* (İ.Əfəndiyev).

**BEL** II *is.* Uzun saplı qazma aləti. *Ulduz həyatə girərkən hasarın yanında əlində **bel** yer qazırdı* (M.Ənvər).

**BELƏ** I *əvəz.* İşarə mənasında işlədilən əvəzlik. *O **belə** adamlara həmişə hörmət etməyi sevirdi* (Ə.Vəliyev).

**BELƏ** II *ədat* Qüvvətləndirici mənasında işlədilir. *O, Pərşanı incidə biləcək bir kəlmə **belə** dilinə gətirmədi* (M.İbrahimov).

**BELİBAĞLI** I *is. zool.* Qırğı böyüklükdə yırtıcı quş.

**BELİBAĞLI** II *sif.* Beli bağlı olan, beli qurşaq və s. ilə bağlanmış. *Kəndin **belibağlı** qadınları əllərində bağlama, çiyinlərində yaba işə gedirdilər.*

**BELLİ** I *sif.* Əlində bel olan. *Deyir, Qaraqullar kəndinin camaatı əli ağaclı, **belli,** kürəkli tökülüb Rüstəm bəyin evini darmadağın dağıtdılar* (Ə.Haqverdiyev).

**BELLİ** II *sif.* Damı olan, üstü olan. *Lakin qılınc **belli** qurulsa hasar; Üstündə göllənməz nə yağış, nə qar* (S.Vurğun).

**BEYT** I *is.* [*ər.*] İki misradan ibarət şeir parçası. *Fəhlə yavaş-yavaş hecaladı, bir dəfə oxuyandan sonra ilk **beyti** əzbərlədi* (M.Hüseyn).

**BEYT** II *is.* [*ər.*] *köhn.* Ziyarətgah olan ev. ***Beyt** haqqı, a bəy, o yerdə qır nə qədər desən tapılır, bir az qazırsan torpaqdan neft iyi gəlir* (N.Vəzirov).

**BƏHR** I *is.* [*ər.*] Musiqi vəzninin təşəkkül sistemi. *Şerin üçüncü və beşinci bəndləri ayrı **bəhrdədir*** (M.Hüseyn).

**BƏHR** II *is.* [*ər.*] *köhn.* Dəniz, dərya. *Bir tərəfin **bəhri**-Xəzər; Yaşılbaş sonralar gəzər* (S.Vurğun).

**BƏHR** III *is.* [*fars.*] Xeyir, səmərə, bəhər. *Çəkmişik övladımızın fikrini; Ömrümüz olsa görərik **bəhrini*** (M.Ə.Sabir).

**BƏHRƏ** I *is.* [*fars.*] *tar.* Keçmişdə kəndlilərdən alınan natural vergi. *Torpaqdan, mülkdən aldığınız **bəhrə** sizə bəs eləmirmi?* ("Qaçaq Nəbi").

**BƏHRƏ** II is. [*fars.*] Məhsul, meyvə. *Lənkəranın **bəhrələrini** vəsf edən bir mahnı var.*

**BƏHS** I *is.* [*ər.*] Bir məsələ haqqında ətraflı danışmaq, fikir yürütmə. *İçərkən ortalığa belə **bəhs** düşdü* (S.S.Axundov).

**BƏHS** II *is.* [*ər.*] Hər hansı bir elmin və ya əsərin müəyyən hissəsi. *Morfologiyada isim **bəhsi**.*

**BƏLƏNMƏK** I *f.* Bələyə bükülmək, sarğı ilə sarınmaq. *Körpə əsgiyə **bələndi.***

**BƏLƏNMƏK** II *f.* Bulaşmaq, bulanmaq. *Qənd əzilib dilə, dişə, dəhanə; Qaymaq dodaqlara bal **bəlðnibdir*** (Aşıq Ələsgər).

**BƏLGƏ** I *is. etnoqr.* El arasında evlənən oğlan tərəfindən qız evinə göndərilən birinci nişan – üzük və örpək.

**BƏLGƏ** II *is. məh.* Gönü aşılamaq üçün nar qabığı və yarpağından hazırlanmış un. ***Bəlgə** qurtardı, gön isdaxda qaldı* ("Dialektoloji lüğət").

**BƏLGƏ** III *is. məh.* Vuruş zamanı qola sarınan qalın parça.

**BƏLGƏ** IV *is.* Bəhanə, səbəb, dəlil. *Sən də bunu əlində **bəlgə** tutub, məni hər dəqiqə pərt eləmə.*

**BƏLGƏ** V *is.* Sərmayə, maya. *A bala, əlində **bəlgə** saxla, lazım olar.*

**BƏM** I *is.* [*ər.*] *mus.* Musiqidə aşağı səs. *Pərdələr üstünə barmağın ensin; **Bəmdə** çox dayanma, qaldır zilə sən* (Ə.Kürçaylı).

**BƏM** II *is.* Üst. *Palıdlar meşənin ucalan zili; Yataram onların yaşıl **bəmində*** (Vahid Əziz).

**BƏND** I *is.* [*fars.*] *anat.* Skelet sümüklərinin oynaq yerləri; buğum, məfsəl. [Qazan xan] *başında, bədəninin **bəndlərində** bir ağırlıq və sızıltı duydu.* (M.Rzaquluzadə).

**BƏND** II *is.* [*fars.*] Şerin bir neçə misradan ibarət olan bölgüsü. *Koroğlu elə sözün birinci **bəndini** demişdi...* (Dastanlar).

**BƏND** III *is.* [*fars.*] Bir yeri seldən, daşqından qorumaq, suyun kənara axmasının qabağını almaq üçün çəkilən sədd. *O çürük şalbanları taxta **bəndin** altına kim qoyub?* (C.Cabbarlı).

**BƏND** IV *is.* [*fars.*] Bağ, ip, düyün. *Sona hərdən onun **bəndini** açıb həyatə buraxırdı* (Mir Cəlal).

**BƏND** V *is.* [*fars.*] Vurğun, aşiq. *Hər bir dərdə mən doldum; Səni gördüm **bənd** oldum* (Ü.Hacıbəyov).

**BƏND** VI *is.* [*fars.*] Maddə. *Maarifyanı şurada müzakirə olunub nöqsanlara görə qərarın bir **bəndində** direktorun və dərs hissə müdirinin, necə deyərlər, "başları sığallanıb".*

**BƏND** VII *is.* Bağlı. *Səlim ağa hirsindən yer eşirdi, bircə sözə **bənd** idi ki, yapışa Hürünün boğazından, ata darvazadan küçəyə...* (M.İbrahimov).

**BƏRƏ** I *is.* Ov gözlənilən yer, pusqu yolu. *Ceyranın güzgüsü; Ovçunun **bərəsi**; Dərənin gözüydün, ay bulaq...* (M.Araz).

**BƏRƏ** II *is.* Çaylar üzərində qurulan mütəhərrik körpü, üzücü körpü, sal. *...Gecə ikən **bərələrlə** Dnepri üzüb o biri sahilə keçmişdi* (S.Qədirzadə).

**BƏRƏ** III *is.* Qoyunların sağın yeri. *Qoyunları sağmaq üçün **bərəyə** saldılar.*

**BƏRİ** I *zərf* Bu tərəfə, buraya, yaxına. ***Bəri** gəl, ay zalım, bir qucaqlaşaq; Unut bu tərsliyi, gəl Allaha bax!* (S.Vurğun).

**BƏRİ** II *əvəz. məh.* Bu. ***Bəri** başdan işinizi möhkəm tutun.*

**BƏRİ** III *qoşma* Bir şeyin başlandığını və davam etdirildiyini bildirir. *Qızyetər bu evə köçəndən **bəri**; Öpür saçlarını günün işığı* (S.Vurğun).

**BƏS** I *ədat* [*fars.*] Yetər, kafi, kifayət. *İş apar, baş gedərsə qoy getsin; Ad qalır **bəs** deyilmi millət ilə* (M.Ə.Sabir).

**BƏS** II *ədat* Sualı, ya da fikri qüvvətləndirmək üçün işlənir. ***Bəs** niyə belə müsəlman məclisi qurmusunuz?* (B.Bayramov).

**BƏSTƏ** I *is.* [*fars.*] Musiqi kompozisiyası, musiqinin bəstəsi; nəğmə, hava, mahnı. *Seyr et bu varlığı, şeyda bülbülüm! Həyata müjdədir hər yeni **bəstən!*** (S.Vurğun).

**BƏSTƏ** II *sif.* [*fars.*] *köhn.* Bağlı. *Əqlü huşum mənim, fikri xəyalım; Şux gözdə, qəmzədə, **bəstədir,** ay qız!* (M.P.Vaqif).

**BƏSTƏ** III *sif.* [*fars.*] Boyca bir qədər alçaq. *Bu, on altı-on yeddi yaşlarında **bəstə** boylu, silahsız bir gənc idi* (S.Qədirzadə).

**BİC** I *is. dan.* Ağac və kolların kötüyündən, yaxud gövdəsindən çıxan xırda zoğ, pöhrə. *Əncir ağacının **bici** çoxdur, kəsmək lazımdır.*

**BİC** II *sif. dan.* Rəsmi nikahda olmayan ata-anadan doğulmuş uşaq. *Söylə, bəlkə – **bic** doğulub; Atasından yox xəbəri?* (B.Vahabzadə).

**BİC** III *sif.* Çox hiyləgər, fəndgir. *Bildi ki, oğlu necə **bic** və haramzadədir* (M.F.Axundzadə).

**BİNA** I *is.* [*ər.*] Tikili, mülk, ev. *Hər küçə alışan bir boyunbağı; Hər **bina** bəzəkli bir mirvaridir* (M.Araz).

**BİNA** II *is.* [*ər.*] Bünövrə, özül, təməl, əsas. *Şəhər **bina** olanda; ilkin bura küçə dedilər* (R.Rza).

**BİNA** III *is.* [*ər.*] Əzəldən, lap əvvəldən. *Xoş gün görməmişik sizdən, **binadan*** (S.Rüstəm).

**BİR** I *say* Əşyanın konkret miqdarını bildirən ədəddir. *Yəni mən o qədər ölü oldum ki, **bir** qorodovoyun da öhdəsindən gələ bilmədim* (Mir Cəlal).

**BİR** II *ədat* Təkid, hədə; təsəlli mənasında. *Mişa, **bir** diqqətlə bax, gör məni tanıyırsanmı?* (Ə.Əbülhəsən).

**BİRLİK** I *is.* Bir olmaq; bütövlük, vəhdət, ittifaq. *Sənə çalışmaq yaraşır; **Birlik** uğrunda vuruşmaq yaraşır* (S.Rüstəm).

**BİRLİK** II *is.* Sıx əlaqə; həmrəylik, ümumilik. *Fikir **birliyi,** iş birliyi.*

**BİRLİK** III *sif.* Ölçüsü, nömrəsi, sayı və s. bir olan. ***Birlik** taxtaları ayrı seç, mənə lazımdır.*

**BİRYERLİ** I *sif.* Həmyerli, bir yerdə olan. *O, Həsənlə **biryerlidir.***
**BİRYERLİ** II *sif.* Bir yeri olan, bir adamlıq. *O, **biryerli** kupedə gedirdi.*

**BİŞMƏK** I *f.* Odda qızartmaq və ya suda qaynatmaqla yeyiləcək hala gətirilmək. *Qulplu qazanlarda xörək **bişər**, qara zurna dilə gələrdi. Düz nağıllardakı kimi üç gün, üç gecə çalıb-oynayardılar* (İ.Şıxlı).
**BİŞMƏK** II *f.* Ustalaşmaq, püxtələşmək, təcrübələnmək. *Ancaq hələlik burada **bişərsən**, sonra baxarıq* (S.Rəhimov).

**BİŞMİŞ** I *is.* Xörək. *Bir neçə gün idi ki, **bişmiş** yeməmişdim, dünən bir parça yavan çörəyi güclə tapmışdım* (Çəmənzəminli).
**BİŞMİŞ** II *sif.* Bərkimiş, işdən xəbərdar. *Bizə ancaq həyatda, işdə **bişmiş** adamlar lazımdır.*

**BİTİRMƏK** I *f.* Axıra çatdırmaq, tamamlamaq, qurtarmaq. *Hədiyyə naharını təzəcə **bitirmişdi** ki, qapıda maşın səsləndi* (Mir Cəlal).
**BİTİRMƏK** II *f.* Göyərtmək, yetişdirmək. *Yox, burada təbiət özü özbaşına bir çöp də **bitirmir*** (M.İbrahimov).

**BİTMƏK** I *f.* Tamam olmaq, başa çatmaq. *Səd şükür ki, qış tükəndi, **bitdi**; Novruz gəlib, bahar yetdi* (A.Səhhət).
**BİTMƏK** II *f.* Yetişmək, çıxmaq, cücərmək. *Bağçamızda gül **bitdi**; Lalə bitdi, gül bitdi; Vətəndə bir bağ saldıq; Hər nə əkdik, gül bitdi* (Bayatı).

**BİZ** I *is.* Deşik açmaq üçün ucu şiş metal alət. *Usta, bu daşdan mənə bir **biz** qayır* (Dastanlar).
**BİZ** II *əvəz.* Birinci şəxsin cəmi. *Bildir, ad günündə anası ilə **bizə** gəlmişdi* (S.Qədirzadə).

**BLOK** I *is.* [*fr.*] Dövlətlərarası, partiyalararası ittifaq; birlik.
**BLOK** II *is.* [*ing.*] *tex.* Ağır şeyləri qaldırmaq üçün sadə mexanizm.
**BLOK** III *is.* [*ing.*] Böyük binada mənzillər qrupu. *Dördüncü **blokun** qabağında saxladı: – Düşün, üçüncü mərtəbə, iyirmi beşinci mənzil sizindir* (M.İbrahimov).
**BLOK** IV *is.* [*ing.*] Dəmiryolunda semaforu açıb-bağlamaq üçün elektrik aparatı.
**BLOK** V *is.* [*ing.*] Betondan (sement və dəmir) quraşdırılmış tikinti materialı.

**BOĞAZ** I *is. anat.* Boyunun, qida borusunun başı və nəfəs yollarının yerləşdiyi ön hissəsi. ***Boğazını** cırırdı, yadlar millət adından* (S.Rüstəm).

**BOĞAZ** II *is. coğr.* Dünya okeanında hər hansı iki quru sahəni bir-birindən ayıran və ya iki su hövzəsini birləşdirən ensiz su zolağı. *Dardanel **boğazını** tutub onlardan alaq!* (C.Məmmədquluzadə).

**BOĞAZ** III *is. dan.* Xanəndənin şəxsi yaradıcılıq məhsulu kimi onun ifaçılıq üslubuna xas və mənsub olan ən kiçik avaz ifadələri.

**BOĞAZ** IV *sif.* Qarnında balası olan. *Əmniyyələr **boğaz** inəyi, eşşəyi və qoyunları tövlədən çıxardılar* (M.İbrahimov).

**BOĞAZLIQ** I *is.* Boğaza sarınan şal və ya boğaza keçirilən qadın zinəti. *Gəldiyev əlini **boğazlığına** atdı, düzəltdi* (Mir Cəlal).

**BOĞAZLIQ** II *is.* Hamiləlik. *Qarabağ madyanlarının **boğazlıq** dövrü.*

**BOKS** I *is.* [*ing.*] *idm.* Əllərə xüsusi əlcəklər geyilərək, müəyyən qayda ilə icra edilən yumruq döyüşündən ibarət idman növü.

**BOKS** II *is.* [*ing.*] *tib.* Xəstəxanada ayrılmış palata. *Keçici xəstəliyə tutulmuş xəstəni **boksa** qoydular.*

**BORC** I *is.* Qaytarmaq şərti ilə alınan, ya birinə verilən pul və s.

**BORC** II *is.* Vəzifə. ***Borcunu** bilməyənlər həqiqətdən gen olar* (B.Vahabzadə).

**BORCLU** I *is.* Borcu olan, başqasından borc almış olan. *Hacı Bayram indiyədək bu camaatın qanını soyubdur. Bu dörd oymaqda bir nəfər varmı ki, ona **borclu** olmasın?* (Ə.Haqverdiyev).

**BORCLU** II *is.* Borc verən. *Borclu **borclunun** sağlığını istər* (Ata. sözü).

**BOŞ** I *sif.* İçində heç bir şeyi olmayan. ***Boş** kürsü ilə nə qədər çalışdım bir şey çıxmadı* (Ə.Haqverdiyev).

**BOŞ** II *sif.* Əbəs, hədər, əsassız, mənasız. *Bu hələ **boş** danışıqdır* (Ə.Haqverdiyev).

**BOY** I *is.* Bədənin uzunluğu; qədd-qamət. *Bir balaca **boyu** var; Ev dolusu toyu var* (Tapmaca)

**BOY** II *is. folk.* Dastanlarda müəyyən hadisəyə həsr edilmiş fəsil, hissə.

**BOY** III *is. bot.* Koma halında sarı çiçəyi və xoş qoxusu olan çoxillik bitki.

**BOYA** I *is.* Bir şeyə müəyyən rəng vermək, yaxud rəsm çəkmək üçün işlədilən rəng maddəsi; rəng. *Ətli dodaqlarına elə bil çəhrayı **boya** sürtmüşdü* (Anar).

**BOYA** II *f.* Rəngləmək, rəng vermək. *Buludlar al-əlvan rəngə* ***boyanır*** (S.Vurğun).

**BOYLU** I *sif.* Ucaboy, boylu-buxunlu, qədd-qamətli. *Sona hündür* ***boylu****, gülümsər, gözəl, tən yerişli, şux gülüşlü bir qız idi* (C.Cabbarlı).

**BOYLU** II *sif. dan.* İkicanlı, hamilə. *Onların kəndində Əbdürrəhman adında bir bəy də vardı. Əzazilin biriydi,* ***boylu*** *arvadlar onu görəndə uşaq salardılar* (İ.Şıxlı).

**BOZ** I *is.* Dişi qırqovul.

**BOZ** II *is. dan.* Dəmrova oxşar dəri xəstəliyi, keçəllik. *Uşağın başında* ***boz*** *var, onu həkimə göstərmək lazımdır.*

**BOZ** III *sif.* Kül rəngli, qara rənglə ağ rəngin qarışığından əmələ gələn (rəng). *Yatdım* ***boz*** *otlaqda* ***boz*** *dovşan kimi* (O.Sarıvəlli).

**BOZ** IV *sif. dan.* Utanmaz, nəzakətsiz, həyasız, sərt, qaba. *Qəhrəmanın ciddi təkidi müqabilində Rüstəm acıqlanır, ona* ***boz*** *sifət göstərirdi* (S.Rəhimov).

**BOZAQ** I *is. bot.* Şoran torpaqlarda bitən birillik yem bitkisi.

**BOZAQ** II *is. zool.* Qabayunlu Azərbaycan qoyun cinsi.

**BÖLMƏ** I *is. riyaz.* Bir sayda neçə dəfə başqa say olduğunu bilmə əməli. ***Bölmə*** *cədvəli.*

**BÖLMƏ** II *is. hərb.* Kiçik əsgəri hissə; vzvod. *İldırım qabaqdaydı,* ***bölmə*** *hücum edəndə* (S.Rüstəm).

**BÖLÜK** I *is. hərb.* Piyada və bəzi xüsusi qoşun hissələrində batalyon tərkibinə daxil olan əsgəri hissə; rota. *İstehkam* ***bölüyü*** *Kornilovka yaxınlığında qatardan töküldü* (Mir Cəlal).

**BÖLÜK** II *is.* Parça, tikə. *Tağı əmi qırğını alıb başını kəsdi. Sonra iki* ***bölük*** *edərək tulalara atdı* (S.S.Axundov).

**BÖYÜR** I *is.* Bədənin çiyindən ombaya qədər olan sağ və sol tərəfi. *Amma mən ayaqlarımı onun qabarıb yatan* ***böyürlərinə*** *elə sıxmışdım ki, qırsaqqız kimi ona yapışmışdım.* (Ə.Məmmədxanlı).

**BÖYÜR** II *f.* Bağırmaq (öküz, inək və s.). *Təpələrdə* ***böyürür*** *sağılmamış inəklər; Solur bağda ağaclar, bağçalarda çiçəklər* (B.Vahabzadə).

**BUCAQ** I *is.* Künc, guşə. *Qorxusundan bir* ***bucağa*** *qısılar; Dinə bilməz, mat-mat baxar, ağlarsan* (M.P.Vaqif).

**BUCAQ** II *is. riyaz.* Həndəsi fiqur, bir nöqtədən çıxan iki xətt arasındakı müstəvinin bir hissəsi.

**BULAMAQ** I *f.* Batırmaq, çirkləndirmək. *Elxan girdi palçığa; Üst-başını **buladı*** (T.Elçin).

**BULAMAQ** II *f.* Tərpətmək, yellətmək. *Toplan görüb utandı; Quyruğunu **buladı*** (T.Elçin).

**BULANMAQ** I *f.* Batmaq, kirlənmək, duruluğunu itirmək. *Yaralı alqana boyanmış idim; Yıxılıb torpağa **bulanmış** idim* (A.Səhhət).

**BULANMAQ** II *f.* Mədəsi qarışmaq, pozulmaq.

**BULUD** I *is.* Havada toplanan kəsifləşmiş su buxarı, yığını. ***Buludlar** axışır səmayə lay-lay; Sönür göy üzündə rəngi solmuş ay* (B.Azəroğlu).

**BULUD** II *is. rus.* Böyük boşqab, uzunsov ya girdə, dayaz iri boşqab. *Sonra da böyük **buludda** buğlana-buğlana zəfəranlı plov gətirildi* (S.Qədirzadə).

**BULUDLU** I *sif.* Buludla örtülmüş. *...**Buludlu** səmada tutqun görünən günəş aşağıya enməkdə idi* (M.Cəlal).

**BULUDLU** II *zərf* Qəmgin, kədərli, dumanlı. *Heç səni belə **buludlu** görməmişəm* (M.İbrahimov).

**BURUQ** I *is.* Neft və yaxud mədən suları çıxarmaq üçün xüsusi üsullarla qazılan quyu. *Gecə ay nur səpərkən **buruqlar** meşəsinə; Qulaq verdi ney çalan küləklərin səsinə* (Ə.Cəmil).

**BURUQ** II *sif. k.t.* Axtalanmış. *Qoyunlar elə bildi ki, birinci həlak oldu **buruq*** (F.Qoca).

**BURUN** I *is. anat.* İnsan və heyvanların üzündə iybilmə və tənəffüs orqanı.

**BURUN** II *is. coğr.* Qurunun sivri bucaq şəklində dənizə, gölə və ya çaya uzanmış hissəsi. *Zığ **burnu,** Ümid **burnu.***

**BÜRÜNCƏK** I *is.* Bürünməyə yarayan örtü, üst paltarı. *Bu gecə məndən yatdı yoxdu, gərək bir **bürüncək** götürəm* (C.Məmmədquluzadə).

**BÜRÜNCƏK** II *is. bot.* Taxıllar qrupuna mənsub birillik ot bitkisi.

# Cc

**CAĞ** I *is.* Çəpər, hasar. *Bu bağın **cağını** niyə söküb yandırmırsınız?* (Çəmənzəminli).

**CAĞ** II *is.* Arabanın yanları. *Firidun atın cilovunu yaxındakı arabanın **cağına** keçirdi* (M.Şəkili).

**CALAMAQ** I *f.* Peyvənd etmək; bağlamaq. *Keçən günə gün çatmaz, **calasan** günü günə* (Ə.Haqverdiyev).

**CALAMAQ** II *f.* Tökmək. – *Axı, gərək özününkü də özünə əl isitməyə ocaq qoya, daha bu ocağa su **calayıb** söndürməyə* (S.Rəhimov).

**CALAMAQ** III *f.* Qatmaq, qarışdırmaq. *Məni bu işə **calama.***

**CAN** I *is.* [*fars.*] Bədən. *Arif olan, bir od düşüb **canıma**; Əridib döndərir a yağa məni* (Aşıq Ələsgər).

**CAN** II *is.* [*fars.*] Sevgili. *Xəstə könül dərdü qəmdən ayrıldı; Bu gün məclisimə bir **can** gəlibdir* (Aşıq Ələsgər).

**CAN** III *köməkçi söz* Əzizləmə mənasında. ***Can** Koroğlu, məni bağışla! Yalandan dedim ki, səninlə dostam.* "Koroğlu"

**CANLI** I *sif.* Güclü, qüvvətli, sağlam; yoğun.

**CANLI** II *is.* Diri, ölməmiş. *Xəzərdə **canlı** varmış; Onu ikiayaqlı canlılar; Qırıb qurtarmış* (M.Araz).

**CƏBR** I *is.* [*ər.*] *riyaz.* Riyaziyyat elmlərindən birinin adı. *Bu **cəbr,** həndəsə bilməm nə demək? Uğraşan beynini incitmiş olur* (H.Cavid).

**CƏBR** II *is.* [*ər.*] Zorakılıq, zor işlətmə. *Böylə bir **cəbri** hökumət duysa; Çəkəcəkdir başımız dürlü bəla* (H.Cavid).

**CƏMİYYƏT** I *is.* [*ər.*] Birlik, ittifaq. *Əhməd Cavad ədəbiyyat **cəmiyyətinin** məsul katibi idi.*

**CƏMİYYƏT** II *is.* [*ər.*] *Şair **cəmiyyətin** dili, dilmancı; Şair bir planet siqlətindədir* (M.Araz).

**CƏNG** I *is.* [*fars.*] Vuruş, döyüş. *Düzəldirlər top, tüfəng; Etmək üçün yarım **cəng*** (M.Müşfiq).

**CƏNG** II *is.* Mis qabın hava ilə təmasda olması nəticəsində qaralması.

**CƏNGİ** I *is.* [*fars.*] *mus.* Qəhrəmanlıq və cəngavərlik ruhunu ifadə edən gümrah və şən musiqi əsəri. *Koroğlunun **cəngi** havası dağlara, dərələrə səs saldı* (M.Hüseyn).

**CƏNGİ** II *is.* [*fars.*] Döyüşçü, əsgər; dalaşqan. *Sənin namusun olsa mənim qapıma gəlməzsən, itil gözümün qabağından **cəngi!** – deyə qovdu* (Çəmənzəminli).

**CIR** I *sif.* Yabanı. *Məclis qaynaşır; **cır** arı yuvası kimi* (R.Rza).

**CIR** II *sif.* Ciyiltili, zingiltili. *Vallah, **cır** səsindən qulağımız batdı* (S.Rüstəm).

**CIR** III *f.* Parçalamaq; didmək. *Bəzən yazdıqlarımı sonra **cırıb** atıram* (R.Rza).

**CIZIQ** I *is.* Xətt. *Cürbəcür **cızıqlar** və dairələr çəkilmiş bir lövhədə fabrikin illik planı və məhsulun hansı şəhərlərə göndərildiyi göstərilmişdi* (Anar).

**CIZIQ** II *is.* Hüdudu keçmə, lovğalanma, qudurma. *Sən dedin, mən dinmədim, amma daha **cızıqdan** çıxdın, ağ elədin* (Anar).

**CİLD** I *is.* [*ər.*] Üz, qabıq. *Qara **cilddə** çap eləyin kitabımı; Məndən sonra* (M.Araz).

**CİLD** II *is.* [*ər.*] Böyük bir kitabın bölündüyü qisimlərdən hər biri, nüsxə. *Seçilmiş əsərlərin xüsusi bir **cildinin** bütünlükdə "Dəli Kür" romanı üçün ayrılması təsadüfi deyil* (B.Nəbiyev).

**CİRƏ** I *is.* Pay, norma. *..Cahan xanım son aylar onun özünü də sıxışdırmağa, **cirə** ilə dolandırmağa başlamışdı* (M.İbrahimov).

**CİRƏ** II *is. bot.* Toxumu ədviyyat üçün istifadə olunan bitki.

**CÖVHƏR** I *is.* [*ər.*] Mahiyyət, əsas maya. *Asəf Zeynallının istedadının mayasında əsil sənət **cövhəri** var idi.*

**CÖVHƏR** II *is.* [*ər.*] Cavahir, qaş-daş, qiymətli daş. *Min **cövhər** gizlənmiş ən kiçik daşında* (M.Müşfiq).

**CÖVHƏR** III *is.* [*ər.*] Turşu. *Həmin pulun cüzi hissəsinə mağazalardan adi şəkər tozu və limon **cövhəri** alır.*

**CÜMLƏ** I *is.* [*ər.*] *qram.* Bitmiş bir fikir ifadə edən söz və ya söz birləşmələrindən ibarət dil vahidi. *Qəzet, kitabdan da gəlmişik cana; Eynidir **cümlə** də, eynidir söz də* (B.Vahabzadə).

**CÜMLƏ** II *is.* [*ər.*] Hamısı, bütün. ***Cümlə** dolaşdı, qoymayın! İş yavalaşdı qoymayın!* (M.Ə.Sabir).

**CÜRƏ** I *is. zool.* Ördəyəoxşar kiçik su quşu.

**CÜRƏ** II *is.* Forma, növ. *Yox, insanlar anadan bir **cürə** doğulmayır* (Ə.Kürçaylı).

**CÜRƏ** III *sif. mus.* Sazın dörd simli kiçik növü.

**CÜT** I *is. köhn.* Yeri şumlayıb əkin əkmək üçün kənd təsərrüfat aləti və ona qoşulan heyvan birlikdə cüt adlanır.

**CÜT** II *num. söz* Qoşa. *Qaşqa kəlim boz, ala; Tarlaya saldım yola; Tay öküzlə iş aşmaz; Öküz gərək **cüt** ola* (Bayatı).

**CÜYÜR** I *is. zool.* Ceyranabənzər heyvan. *Boynunu irəli uzadıb sərtliklə bükən, şaxəli buynuzlarını oynadan **cüyür** bizə sarı gəlir.*

**CÜYÜR** II *is. bot.* Söyüdəoxşar ağac. ***Cüyürdən** toxunan səbət daha möhkəm olur.*

# Çç

**ÇAĞ** I *is.* Vaxt, müddət. *Vurun, vurun alçağı; Keçmiş verginin **çağı*** (M.Müşfiq).

**ÇAĞ** II *sif.* Kefi yaxşı olan, əhvali-ruhiyyəsi saz olan. *Sən eylərsən damağımı **çağ,** gəlin!* (M.P.Vaqif).

**ÇAĞ** III *sif.* Gözəl, qəşəng. *Ağ, **çağ** qıçı Allah yaradıb, bəndəsi görsün* (M.Ə.Möcüz).

**ÇAXMAQ** I *is.* Tüfəngin atəş açmaq üçün yararlı hissəsi. *Neçə güllə xəznədədir; Neçə qundaq sinədədir; Neçə barmaq **çaxmaqdadır*** (B.Azəroğlu).

**ÇAXMAQ** II *is.* Alışqan. *Mübhəm neçinlərin **çaxmaq** daşından; Alışıb fikrimiz, yanıb qəlbimiz* (B.Vahabzadə).

**ÇAL** I *is.* Çəpər, hasar. *Gələn yox, gətirən yox; Batıb **çalı,** çəpəri* (H.Arif).

**ÇAL** II *sif.* Saçı ağarmış, qocalmış. ***Çal** saçları ortadan haçalanaraq gicgahlarına tökülmüşdü* (S.Qədirzadə).

**ÇALA** I *is.* Çuxur, çökək. *Maşın, balaca bir **çalada** dirəndi.* (Ə.Mirzəcəfərli).

**ÇALA** II *is.* Yuva. *Gələrsən-görərsən qalası qalır; Daşında kəkliyin **çalası** qalır* (İ.Tapdıq).

**ÇALASI** I *is.* Qatıq mayası. ***Çalasısız** qatıq olmaz* (Ata. sözü).

**ÇALASI** II *is.* Aravuran, araqarışdıran. *Mən onu tanıyıram. Qırx qazana **çalasıdır.***

**ÇALĞI** I *is. mus.* Musiqi. *Əmimgilin qapısında üç gün, üç gecə **çalğı səsləri** kəsilmədi* (M.İbrahimov).

**ÇALĞI** II *is.* Həyat süpürgəsi. ***Çalğını** götürüb, qapı-bacanı süpürdü* (İ.Şıxlı).

**ÇALMAQ** I *f.* Musiqi alətini hərəkətə gətirmək. Hava ifa eləmək. *Şair dostum, **çaldığın** saz; Eldən ayrı səs ucaltmaz…* (M.Araz).

**ÇALMAQ** II *f.* Sancmaq, dişləmək. *Birdən cansız kağız bir ilan kimi elə bil ki, **çaldı** ağa Nazimi* (C.Gözəlov).

**ÇALMAQ** III *f.* Biçmək. *Kitab yazırsınız, ot **çalırsınız;** Calaq vurursunuz, bağ salırsınız* (B.Vahabzadə).

**ÇALMAQ** IV *f.* Vurmaq. *Evdədir, xahiş etdi ona zəng **çalasınız,** gözləyir* (M.İbrahimov).

**ÇALMAQ** V *f.* Oğurlamaq. *Mollanın börkünü **çaldı** oğru; Yüyürüb qaçdı bir bağa doğru* (M.Ə.Sabir).

**ÇANAQ** I *is. anat.* İnsanın taz sümüyü, çanaq sümüyü.

**ÇANAQ** II *is.* Taxta kasa. ***Çanağı** başında sındı* (Ata. sözü).

**ÇANAQ** III *is. köhn.* Təxminən 5 kq-a bərabər ağırlıq çəki vahidi.

**ÇANAQ** IV *is.* Musiqi alətinin hissəsi. *Qorxuram **çanağı** partlaya tarın, Bu təzə guşənin hay-harayından* (B.Vahabzadə).

**ÇAP** I *is.* Mətbəə. ***Çap** maşını.*

**ÇAP** II *f.* Yarmaq, doğramaq. *Dağları **çapmağa** yaranmış insan!* (S.Vurğun).

**ÇAPMAQ** I *f.* Səyirtmək, bərk sürmək. *Tapdıqgil də onun arxasınca dördnala **çapdılar*** (İ.Şıxlı).

**ÇAPMAQ** II *f.* Kəsmək. *Mən bədbəxt öz ayağıma balta **çapdım*** (H.Nəzərli).

**ÇAPMAQ** III *f.* Talan etmək, qarət etmək. *Koxanı gör, kəndi **çap*** (Ata. sözü).

**ÇARPAZ** I *is.* İlgək; bənd; düymə. *Çuxanın qaytanları, düymələri qırıq-qırıq oldu. **Çarpazlardan** biri onun dırnağına keçdi* (İ.Şıxlı).

**ÇARPAZ** II *sif.* Kəsişən, bir-birini kəsən. *Poladın briqadasında **çarpaz** becərmə qızğın gedirdi* (Ə.Vəliyev).

**ÇAŞ** I *sif.* Çəp, əyri, yan. *Deyir, kaş sən **çaş,** çopur olaydın, mənim də canım rahat olaydı* (Anar).

**ÇAŞ** II *f.* Özünü itirmək. *Alma yanağına, ay qabağına; Baxan kimi ağlım **çaşdı,** Güləndam!* (Aşıq Ələsgər).

**ÇATMA** I *is.* Tüfənglərin baş-başa çatılması, yığılması. *Əhəd **çatmanı** qucaqlayıb uzandı, elə bil sinəsi ilə onları düşməndən qoruyurdu.*

**ÇATMA** II *is.* Tikinti materialı, tirlərin üstünə atılan taxta. *Qonşudan aldığı **çatmalar** olmasaydı, iş iki gün də ləngiyəcəkdi.*

**ÇATMA** III *sif.* Qovuşuq, bitişik. *Qapının ağzında ucaboylu, enlikürək, **çatma** qaşlı bir oğlan dayandı* (İ.Şıxlı).

**ÇATMAQ** I *f.* Yetişmək, öndə gedənlərə yaxınlaşmaq. *Ancaq gələnlər ona **çatıb** atları yanaşı sürdülər* (İ.Şıxlı).

**ÇATMAQ** II *f.* Qalamaq. – *Ay uşaqlar, bir yaxşı ocaq **çatın*** (İ.Şıxlı).

**ÇATMAQ** III *f.* ***Çatıldı** qaşları onun get-gedə; Başını ovcunun içinə aldı* (Ə.Kürçaylı).

**ÇAY** I *is. coğr.* Qurunun səthində dərə üzrə daima və ya ilin çox hissəsində axan su. *Qoca Nəbatinin eşqi, arzusu; O gün batmadımı Arpa **çayında?*** (B.Vahabzadə).

**ÇAY** II *is.* [*çin.*] *bot.* Yarpağından çay dəmləmək üçün istifadə edilən ətirli bitki. *Samovarı doldumu? Çaynikdə **çay** oldumu? Sizdən sual alıram; Bizə izin oldumu?* (Ə.Cavad).

**ÇEVİRMƏK** I *f.* Döndərmək. *Yoxsa, yerin altı üstünə **çevrilər,** hər şey məhv olub gedər* (C.Gözəlov).

**ÇEVİRMƏK** II *f.* Tərcümə etmək.

**ÇƏKİ** I *is.* Ağırlıq ölçmə. ***Çəkidə** və qiymətdə müştərilərə kələk gəlmək Xeybərin olub sümük azarı* (C.Gözəlov).

**ÇƏKİ** II *is.* Balığın bir növü. ***Çəki** balığının sayı getdikcə artırılır. Hovuzdan çaya tökülür.*

**ÇƏKİ** III *is.* Atın qarnının altından keçirilən qayış; yəhərdə tapqır. *Özü hər şeyi yoxladı, atın **çəkilərini** bərkitdi* (İ.Şıxlı).

**ÇƏKMƏ** I *is.* Uzunboğaz ayaqqabı. *Neçə-neçə ölkənin; Tozlarına bulandı **çəkmələr!*** (B.Vahabzadə).

**ÇƏKMƏ** II *is. kim.* Qaynamaqla, qızmaqla maddələrin tərkib hissələrinə ayrılması.

**ÇƏKMƏ** III *is.* Plovun bir növü. *Sizə **çəkmə** bişirim ki, dadı damağınızdan getməsin.*

**ÇƏKMƏ** IV *sif.* Çəkilmiş, dartılmış. *Qara **çəkmə** qaşları çatılmışdı, iri gözləri çox fikirli olsa da, təmkinini saxlayırdı* (M.İbrahimov).

**ÇƏKMƏK** I *f.* Dartmaq. *Kababı hərə bir tərəfə **çəkirdi.***

**ÇƏKMƏK** II *f.* Qaldırmaq. *Zurnaçılar cuşa gəlib daha da zilə **çəkirdilər*** (İ.Şıxlı).

**ÇƏLİK** I *is.* Əlağacı, əsa. – *Bax bunun kimi*! – *deyə keçisaqqal cəld ayağa durub **çəliyini** ona göstərdi* (S.Qədirzadə).

**ÇƏLİK** II *is.* Polad. ***Çəlik** bir mətanət göstərib yenə; Olmadıq həyatda müztərib yenə* (M.Müşfiq).

**ÇƏLİK** III *sif.* Arıq. – *Vaxtım yoxdur, – deyib Rəfael traktora çıxdı və qocanın zarıltılı səsini **çəlik** atın kişnəyişi ilə boğdu* (H.Nəzərli).

**ÇƏMƏN** I *is.* Gül-çiçək olan yer. *Şərbətlərdən içə-içə; Gedirdilər o taydakı **çəmənə*** (M.Əliyev).

**ÇƏMƏN** II *is. bot.* Ətirli yabanı bitki. ***Çəmən*** *çiçəyinin ətri bizi məst eləmişdi.*

**ÇƏN** I *is.* Mayeləri saxlamaq üçün böyük qab. *Su buraya yığılıb güclü nasosla nəhəng* ***çəndən*** *bayıra vurulacaq.*

**ÇƏN** II *is.* Duman. *Dağ başına endi* ***çən;*** *Ağ geyindi çöl, çəmən* (B.Azəroğlu).

**ÇƏNG** I *is.* [*fars.*] Üçbucaq şəklində simli, dartımlı musiqi aləti.

**ÇƏNG** II *is.* Dili tutulma, nitqi quruma; keyləşmə, qıc olma. *Xəstə üç gündən çox idi ki,* ***çəng*** *olmuşdu.*

**ÇƏNG** III *is.* [*fars.*] Pəncə. *Bəlkə bu Firuzə salıb onu lotu-potunun* ***çənginə*** (M.İbrahimov).

**ÇƏNG** IV *zərf* Bürüşük. *..Qırağında* ***çəng*** *oturub, göydə tikə qapmaqdan, çərtib çıxdım* (S.Rəhimov).

**ÇƏNGİ** I *is.* [*fars.*] Dəf çalıb nəğmə oxuya-oxuya oynayan rəqqasə. ***Çənginin*** *qazandığı ənlik-kirşana gedər* (Ata. sözü).

**ÇƏNGİ** II *is.* Rəzil; murdar; nacins. [Hafizə xanım:] *Bəli, indi də it-qurd küçüyü saxlayacağam. Götür, çıx çölə,* ***çəngi*** (Ə.Haqverdiyev).

**ÇƏNLİ** I *sif. Dumanlı.* ***Çənli*** *bir payız səhəri idi* (H.Nəzərli).

**ÇƏNLİ** II *sif.* Çəlləkli. *Yay olanda bağlar arası yolla* ***çənli*** *maşınların əlindən tərpənmək olmur.*

**ÇƏRTMƏK** I *f.* Yonmaq. *Uşağın karandaşlarını* ***çərtib*** *özünə verdim.*

**ÇƏRTMƏK** II *f.* Qan almaq məqsədilə ülgüclə bədənin müəyyən hissəsini kiçik düz xətlə yüngülcə kəsmək. *Bu vaxt vəzir piy basmış kürəyini* ***çərtən*** *neştərin ilk təmasından azacıq diksindi* (Ə.Məmmədxanlı).

**ÇƏRTMƏK** III *f.* Cücərmək. *Pambıq cücərtisi təzəcə* ***çərtirdi.***

**ÇİÇƏK** I *is. bot.* Gül. *Ağaclar açsın* ***çiçək;*** *Yarpağı ləçək-ləçək* (M.Ə.Sabir).

**ÇİÇƏK** II *is. tib.* Xəstəlik. *Yəni əgər uşağa vaxt ikən çiçək mayasını döysən, dəxi o uşağı* ***çiçək*** *naxoşluğu tutmaz* (C.Məmmədquluzadə).

**ÇİL** I *is.* Çöl toyuğu. *Dağ döşündə* ***çil*** *ovlar; Çil kəkliklər* ***çil*** *ovlar* (Dastanlar).

**ÇİL** II *sif.* Xallı, ləkəli. *Açıldı yaz günü, əridi soyuq; Gördüm samanlığa girir* ***çil*** *toyuq* (S.Vurğun).

**ÇİM** I *is.* Bir bel (lapatka) ağzı qədər torpaq.

**ÇİM** II *is.* Qarışqalar tərəfindən çıxarılan torpaq qatı.

**ÇİM** III *f.* Yuyunmaq. *Şükufə, qəbul et bu uşaqları; Su qızdır, tələsik* ***çimdir*** *onları* (H.Billuri).

**ÇİM** IV *ədat* Tamam, tamamilə. *İndi o, atın* ***çim*** *tərə batmasına dözmədi* (İ.Şıxlı).

**ÇİN** I *is.* Rütbə, dərəcə. *Kim onu tutsa hökumətdən böyük* ***çin*** *alacaq* (C.Bərgüşad).

**ÇİN** II *is.* Ölkə. *Mələyim, nuri-cəmalın səri afaqa dolub; Atdı bütxanəni* ***Çin*** *əhli, sənə səcdə qılıb* (A.Səhhət).

**ÇİN** III *is.* Pillə, qat. *Axı Püstə xala harada görmüşdü ki, arvad ərdən bir* ***çin*** *yuxarıda otura* (Y.Dilbazi).

**ÇİN** IV *is.* Taxıl biçmək üçün işlədilən dişli dəryaz. *Yazı düzündə qızıl-saç zəmilərə yenicə* ***çin*** *çəkiləcəkdi* (C.Bərgüşad).

**ÇİN** V *is.* Xeyli, çoxlu. [İmanqulu:] *Allah kömək eləsin, nə deyim... Ancaq qardaş bir* ***çin*** *külfətim var, zarafat deyil* (N.Vəzirov).

**ÇİN** VI *is.* Doğru, həqiqət. *Nə qədər arzu, istək;* ***Çin*** *olacaq bu ildə* (Ə.Kürçaylı).

**ÇİNLİ** I *sif.* Çin ölkəsinin vətəndaşı, sakini. *Bağlamış belinə minalı kəmər; Hərəsi bir* ***çinli*** *gözələ bənzər* (Şəhriyar).

**ÇİNLİ** II *sif.* Rütbəli, vəzifəli.

**ÇİNLİ** III *sif.* Oraqlı. *Əli oraqlı-****çinli*** *biçinçilər belə, xəlvət-xəlvət, bir-bir, iki-bir qaçağın çağırışına gəldi* (S.Rəhimov).

**ÇÖL** I *is. coğr.* Düz, bozqır. *Mənzər sükan arxasında; Sanki* ***çöllər*** *hakimidir* (Ə.Kürçaylı).

**ÇÖL** II *is.* Bayır, eşik. *O, halvanı alıb qoydu ağzına və yeyə-yeyə çıxdı* ***çölə*** (C.Gözəlov).

**ÇUXA** I *is. köhn.* Qafqazda üstdən geyilən uzun kişi paltarı. *Murad* ***çuxanın*** *ətəyindən dartıb yerə oturtdu* (Ə.Vəliyev).

**ÇUXA** II *is.* Bəxt, tale. *Qara* ***çuxa*** *yatdı, ala* ***çuxa*** *qalxdı* (Ata. sözü).

# Dd

**DAD** I *is. psix.* Xarici duyğuların növlərindən biri, tam. *Beş-on günlük ömrü var; Şirin bir yuxu yatsın; O da bilsin dünyanın ləzzətini, **dadını*** (S.Vurğun).

**DAD** II *is.* [*fars.*] Fəryad, şikayət. *Dünyanın əlindən **dad** çəkən zaman; Xəyal kölgəsində daldalandınız* (B.Vahabzadə).

**DAD** III *is.* [*fars.*] Mahur muğamının ilk guşələrindən biri.

**DAD** IV *is.* [*fars.*] Kömək. *İgid odur ki, elinin dərdli günündə **dadına** çatsın* (M.İbrahimov).

**DAD** V *f.* Yemək, yoxlamaq, təcrübə etmək. *Onun bişirdiyi xörəkdən bir az **dadım.***

**DAĞ** I *is. coğr.* Hündürlüyü 200 m-dən çox olan yüksəklik.

**DAĞ** II *is.* [*fars.*] Qəm, qüssə, kədər. *Sinəmə çəkilən **dağı**; Dağlara yükləsəm, altında qalar* (S.Vurğun).

**DAĞ** III *is.* Dağlama, yandırma. *Bədəninə **dağ** basmasam, atamın oğlu deyiləm* (Ə.Haqverdiyev).

**DAĞARCIQ** I *is.* Qoyun dərisindən olan kiçik torba.

**DAĞARCIQ** II *is.* Yuva, mənbə. *Mən başdan ayağa sirr **dağarcığıyam*** (N.Vəzirov).

**DAĞLI** I *is.* Dağda yaşayan adam. *Gəlmiş hüzuruna bir qara **dağlı**; Bir qara qulundur qolları bağlı* (M.Müşfiq).

**DAĞLI** II *sif.* Dağ olan (yer). *Yolun **dağlı,** qayalı; Hər işdən oldum halı* (Bayatı).

**DAĞLI** III *sif.* Dərdli, dərdi olan, dağı olan. *Bağrı eşqinlə **dağlı** bir şair; Edəcək dərdi dərbədər, gözəlim!* (S.Rüstəm).

**DAL** I *is.* [*ər.*] Ərəb əlifbasında (د) işarəsi ilə yazılan "d" hərfinin adı. *Ələsgərin xətti çıxdı çal indi; Heyi yeyə, **dalı** reyə çal indi* (Aşıq Ələsgər).

**DAL** II *is.* Arxa, kürək. ***Daldan** atılan daş topuğa dəyər* (Ata. sözü).

**DAL** III *is.* Budaq. *Əsməyir şax kimi pambıqlı **dallar*** (M.Müşfiq).

**DAL** IV *f.* Qapılmaq. *Onların ən gizli sirrinə **dalsan*** (S.Vurğun).

**DALA** I *is.* Geri, əksinə. *Ayaq tappıltısı... O dönmür **dala**; Qaçır, xəyalında qovur an anı...* (B.Vahabzadə).

**DALA** II *f.* Yandırmaq, sancmaq. *Gicitkən qızın əl-ayağını bərk **dalamışdı.***

**DAMAQ** I *is. anat.* Ağız boşluğunda olan üzvlərdən biri. *O, gümüş dəstəkli qəlyanını doldurub **damağına** alandan sonra gözünü qıyıb xeyli müddət bu heykələ baxmışdı* (İ.Şıxlı).

**DAMAQ** II *is. bayt.* Heyvanlarda xəstəlik, damaq şişi. *Çox yeməkdən* at ***damaq** olub.*

**DAMĞA** I *is.* Mal-qaraya vurulan möhür. *Sovxozun atlarına **damğa** vurdular.*

**DAMĞA** II *is.* Böhtan, ləkə. *Bundan sonra, bu **damğadan** sonra mən başımı qaldırıb necə baxım camaatın üzünə* (İ.Hüseynov).

**DAMĞA** III *is.* Möhür, nişan. *Odladılar kəndi qolu hörümçək **damğalı;** qan və ölüm carçıları* (R.Rza).

**DAMMAQ** I *f.* Yuxarıdan damcı-damcı tökülmək. *Novdanlar da şırıldayır, **damacaqdır** damımız* (Ə.Cəmil).

**DAMMAQ** II *f.* Qabaqcadan hiss etmək, duymaq. *Mənim ürəyimə **dammışdı** ki, sən gələcəksən bizi unutmayıbsan* (İ.Əfəndiyev).

**DAN** I *is.* Şəfəq, sübh. *Səhərdir, **dan** yerindən günəş qalayıb ocaq* (Ə.Cəmil).

**DAN** II *f.* İnkar etmək. *Kəndlilər bir ağızdan o son tüfəngi **dandı*** (S.Rüstəm).

**DAR** I *is.* [*fars.*] İnsanı boğazından asmaq üçün xüsusi düzəldilmiş ağac.

**DAR** II *is.* Uşaq oyunlarından birinin adı.

**DAR** III *sif.* Ensiz, enli olmayan. *Deyən **dar** çəkilib məhəbbət yolu; Kamınca qaynayıb axa bilmirəm* (M.Araz).

**DARAQ** I *is.* Baş daramaq üçün işlədilən əşya; kənd təsərrüfatında işlədilən alət. *Dayanıb güzgünün qabağında sən; Pərişan saçına **daraq** çəkirsən...* (B.Vahabzadə).

**DARAQ** II *is.* Patron yığmaq üçün metal qab. *Şamxal .. xəzinənin boş olduğunu görüb, taxtın üstündəki qoltuqaltıdan bir **daraq** patron götürdü və tüfəngi doldurdu* (İ.Şıxlı).

**DAŞ** I *is.* Bərk cisim. ***Daş** qəlbli insanları neylərdin, ilahi?!* (M.Ə.Sabir).

**DAŞ** II *f.* Yağıntı nəticəsində çayın sahili basması, bərk qaynama nəticəsində suyun daşıb tökülməsi. *Çaylar **daşıb** sel olsun; Taxıllar tel-tel olsun* (M.Ə.Sabir).

**DAŞLAŞMAQ** I *f.* Daş kimi olmaq, bərkimək. *Əkilmiş yer quraqlıqdan **daşlaşmışdı.***

**DAŞLAŞMAQ** II *f.* Daşla vuruşmaq. *Bu həyatin uşaqları o biri həyatin uşaqları ilə **daşlaşırdılar.***

**DAVA** I *is.* [*ər.*] Vuruş, döyüş. *Kağızını kəsmə ha... **davada** ürəkli ol* (Ə.Cəmil).

**DAVA** II *is.* [*ər.*] Dərman, əlac. *Təbibsiz, **davasız** təbib neyləsin?* (S.Vurğun).

**DAVAM** I *is.* [*ər.*] Dözüm, möhkəm. *Ürək birdən sıxılar, tunel zülmət gecə tək; Bircə anlıq zülmətə **davam** gətirməz ürək* (X.Rza).

**DAVAM** II *is.* [*ər.*] Başlanmış işi, söhbəti yarımçıq qoymamaq. *O dedi: – Məhkəmə **davam** edəcək; Sualı-sorğusu uzun gedəcək* (S.Vurğun).

**DAY** I *is.* Biryaşar at balası, dayça. *İlxıda bir boz **day** var idi* (Dastanlar).

**DAY** II *ədat* İfadəni qüvvətləndirmək mənasında, daha artıq. *Balam, **day** burada bizlik heç bir iş yoxdur* (Dastanlar).

**DEMƏK** I *f.* Danışmaq, söyləmək. *Sözü **demək** asandır, yerinə yetirmək isə əsas şərtdir* (İ.İbrahimov).

**DEMƏK** II *modal* Nəticə, davamiyyət bildirir. ***Demək,** səhərə az qalırdı* (M.Hüseyn).

**DƏF** I *is.* [*ər.*] *mus.* Zərbli musiqi alətlərindən biri, qaval. *Bir neçə dəqi-qədən sonra, qızlar **dəf**, ud və kamança ilə gəlib oturdular* (M.S.Ordubadi).

**DƏF** II *is.* [*ər.*] Yox etmə, məhv etmə. *Mən istədim ki, Allaha dua edəm, bu bəlanı bizdən **dəf** eləsin* (S.Rəhman).

**DƏHNƏ** I *is.* Bənd. *Dəyirmanı yatırtdıqda, suyu **dəhnədən** arxa burax-dılar* (S.S.Axundov).

**DƏHNƏ** II *is.* Cilovun atın ağzına keçirilən hissəsi. *Yüyəni qorxudan elə dartdı ki, **dəhnə** az qalır atın cəvcələrini kəssin* (Dastanlar).

**DƏLİ** I *is. köhn.* İgid, qoçaq. *Mən Koroğlunun ən cavan **dəlisi** Eyvazam* (Dastanlar).

**DƏLİ** II *is.* Vurğun, məftun. *Şeir **dəlisi.***

**DƏLİ** III *sif.* Ağlını itirmiş, ağılsız, başına hava gəlmiş. *O **dəli** ananın sözlərinə qulaq asma, gəl bir az ata-bala söhbət edək* (S.S.Axundov).

**DƏM** I *is.* [*fars.*] Zaman, an, ləhzə. *Boran keçdi, bahar gəldi; Qızıl gülün **dəmi** çatdı* (R.Rza).

**DƏM** II *is.* [*fars.*] Kef, əyləncə. *Dədə, ona həm **dəm,** həm də qəm çöm-çəsi deyərlər* (Dastanlar).

**DƏM** III *is.* [*fars.*] Plov və ya çayın müəyyən müddət odun üstündə saxlanması. *Günorta zamanı plov hazır olub **dəmə** vuruldu* (Ə.Haqverdiyev).

**DƏM** IV *is.* [*fars.*] Qaz. *Kömürün **dəmi** bizi birtəhər etdi.*

**DƏM** V *sif.* [*fars.*] Çox içib məst olan, sərxoş. *Biri ayıq, biri **dəmdir;** Bu da özgə bir aləmdir* (F.Mehdi).

**DƏN** I *is.* Quşlara verilən yem. *Nə yesəniz mən verərəm; Su verərəm, **dən** verərəm* (T.Mütəllibov).

**DƏN** II *is.* Taxıl, buğda və s. *Kisədə hazır, arıdılmış **dən** var idi.*

**DƏN** III *is.* Çallıq, ağlıq, saçın ağarması. *Nə erkən sənə **dən** düşdü; Niyə düşdü, nədən düşdü? Beynimmi qüvvədən düşdü? Ağarma, saçım, ağarma!* (M.Araz).

**DƏNƏ** I *is. bot.* Toxum, tum. *Gülün **dənələrini** yığıb saxlamaq lazımdır.*

**DƏNƏ** II *num. söz* Ədəd. *Bu il bir **dənə** də armud yox idi* (Ə.Əylisli).

**DƏNLİK** I *is. anat.* Çinədan. *Toyuğun **dənliyi** yemlə dolu idi.*

**DƏNLİK** II *is. tib.* Ur, boğaz uru, şiş, fır. *Onun boğazında **dənlik** xəstəliyi əmələ gəlib.*

**DƏNLİK** III *is.* Quşlar üçün yemlik taxıl.

**DƏNLİK** IV *is.* Dəyirman boğazında dən tökülən qutu. *Bircə ovuc dənim vardı; **Dənliyə** tökülmədi; Torpağa əkilmədi* (M.Araz).

**DƏRMƏK** I *f.* Qopartmaq, yığmaq. *Bir gülü **dərmək** üçün min əzaba dözürkən; Qarşında gül yerinə dikilən koldan haray!* (B.Vahabzadə).

**DƏRMƏK** II *f.* Nəfəs almaq, nəfəs vermək. *Qoca .. bir hovur nəfəsini **dərmək** üçün çinar altında oturmuşdu* (Ə.Məmmədxanlı).

**DƏYMƏK** I *f.* Toxunmaq. *Daş atanın daşı özünə **dəysin;** Toxunmasın dırnağına Vətənin* (Aşıq Şəmşir).

**DƏYMƏK** II *f.* Yetişmək. *Dad sənin əlindən, a qanlı fələk; Könül həsrət qaldı yara **dəyməmiş*** (Aşıq Şəmşir).

**DƏYMƏK** III *f.* Yoxlamaq, baş çəkmək. *Gedim bir bacımgilə **dəyim,** görüm necə dolanırlar.*

**DƏYMƏK** IV *f.* Görünmək. *Qaranlıq küçədə gözümə heç kəs **dəymədi*** (Q.İlkin).

**DIRNAQ** I *is.* Əl və ayaq barmaqların bərk və iti ucu. *Kim bilir, bayaqdan **dırnaqlarını** tutdurmağa getmişdi* (C.Cabbarlı).

**DIRNAQ** II *is. qram.* Durğu işarəsi. *Nə deyəsən; Bu sözdəki **dırnaq** içi; "böyüklüyə", "müdrikliyə"?* (B.Vahabzadə).

**DIRNAQ** III *is.* At, inək kimi heyvanların ayaqlarının alt hissəsini əhatə edən bütöv və ya haça şəklində buynuz maddə. *Kazak sinəsini tutub yəhərdə qıvrıldı və gurultu ilə atın **dırnaqlarına** düşdü* (İ.Şıxlı).

**DİK** I *sif.* Şaquli. *Çox keçməmiş **dik** yoxuşla Lətifəgilin evinə sarı qalxdı* (M.Hüseyn).

**DİK** II *f.* Zilləmək. *Teymur çox sadə, təmiz və mərd baxışlarını onun üzünə **dikdi*** (H.Seyidbəyli).

**DİL** I *is. anat.* Ağızda olan çox əzələli ət parçası. *Ay keçdi, ilim yandı; Köynəkdə milim yandı; Dərddən ürək tutuşdu; Ağızda **dilim** yandı* (Bayatı).

**DİL** II *is. psix.* İnsanlar arasında ən mühüm ünsiyyət vasitəsi. *Ana **dilim**, səndədir xalqın əqli, hikməti...* (B.Vahabzadə).

**DİN** I *is.* [*ər.*] Üstqurum formalarından biri. *Zülm nə **din** bildi, nə dil, nə Vətən; Cəhalət uydurdu İslam adına* (B.Vahabzadə).

**DİN** II *f.* Danışmaq, söyləmək. *Əzizinəm **din** barı; Danış barı, **din** barı; İgidə tab gətirməz; Yağı tikən min barı* (Bayatı).

**DİRRİK** I *is.* Yaşayış. *Ağlamaq istəyirəm, gözlərimdən yaş gəlmir; Bu nə güzəran, bu nə **dirrikdir?*** (S.Vurğun).

**DİRRİK** II *is.* Bağça, həyətyanı təsərrüfat. *Keçən il Nikolay burada **dirrik** salmışdır* (Q.İlkin).

**DİVAN** I *is.* [*fars.*] Oturmaq və uzanmaq üçün taxt. *Əkbər stəkanı götürüb, çəkilib kənarda bir **divan** üstündə oturdu* (İ.Məlikzadə).

**DİVAN** II *is.* [*fars.*] Bir şairin şeirlər külliyyatı (lirik şeirlər məcmuəsi). *Cildi qızıl suyuna çəkilmiş bir **divanı**; O, göstərir şairə* (B.Vahabzadə).

**DİVAN** III *is.* [*fars.*] Məhkəmə, hökumət yığıncağı. ***Divan** başına min manat qiymət qoyub, qan!* (S.Rüstəm).

**DOĞRU** I *sif. Düzgün, həqiqi. Haşım bunları düz və **doğru** adam bilib, bunlarla tanış oldu* (B.Talıblı).

**DOĞRU** II *qoşma* İstiqamət mənasında işlədilən qoşma. *Tahir ona **doğru** gedib təşəkkür eylədi* (M.Hüseyn).

**DOLAMA** I *is. tib.* Dırnaq altının iltihab verməsi, irinlənməsi. *Barmağına **dolama** çıxıb.*

**DOLAMA** II *sif.* Dolayı. ***Dolama** yollara baxdığım zaman; Yorğun gözlərimə bir yuxu gəldi* (Ə.Cəmil).

**DOLAMAQ** I *f.* Sarılmaq, qucaqlamaq. *Sevgilim! Qolunu **dola** boynuma; Kəlmələr od kimi düşsün dilindən* (S.Vurğun).

**DOLAMAQ** II *f.* Ələ salmaq, sarımaq. *Dəcəlin biridir, qabağına çıxanı **dolayır*** (İ.Şıxlı).

**DOLANMAQ** I *f.* Gəzmək, fırlanmaq. *Quzeydəki qara da; Göydə quşlar **dolanır*** (B.Azəroğlu).

**DOLANMAQ** II *f.* Yaşamaq, gün keçirmək. *Ayıq-sayıq **dolanaq** biz; Uzaq görsün gözlərimiz* (S.Vurğun).

**DOLU** I *is. coğr.* İlin isti dövründə buz halına düşən yağıntı. *Cıdır meydanına **dolu** yağanda; Bəxtinə yəhərsiz bir yabı düşər...* (M.Araz).

**DOLU** II *sif.* Boş olmayan. *Çəmənliyə səpələnib zarafatlaşan, çiyinlərində su **dolu** səhəng olmasına baxmayaraq, bir-birini qovub-oynaşan qızlar qaşdakı kişiləri görən kimi susdular* (İ.Şıxlı).

**DON** I *is. Uzun qadın paltarı. Qızılgüldən, lalədən; **Don** biçib gey qırmızı* (Ə.Cəmil).

**DON** II *is. Şaxta. Şaxtalı qışlarda həsirə bükülmüşdü ki, **don** vurmasın* (M.İbrahimov).

**DON** III *f.* Üşümək, büzüşmək, donmaq. *Burda don artmışdır Talıstan dağı; **Donur** dumanlarda quşun ayağı* (S.Vurğun).

**DONDURMA** I *is.* Müxtəlif şeylərdən hazırlanmış dadlı yemək. *Dənizdə **dondurma** yemək istəyirəm, gətir.*

**DONDURMA** II *sif.* Dondurulmuş şum. *Bu il isə briqadanın sahəsində **dondurma** şumu çoxdan müvəffəqiyyətlə başa çatdırılmış...*

**DONLUQ** I *is.* Maaş, əməkhaqqı. *Nəcəf, hacını zorla razı salmışam, **donluğu** qabaqcadan sənə verəcəkdir* (Q.İlkin).

**DONLUQ** II *is.* Don tikmək üçün yararlı material. *Qız ilk maaşından anasına yun parçadan **donluq*** aldı.

**DÖVLƏT** I *is.* [*ər.*] Hökumət.

**DÖVLƏT** II *is.* [*ər.*] Əmlak, var, sərvət. ***Dövlət** ki yerin deyişindən çıxmaz* (Ə.Haqverdiyev).

**DÖVR** I *is.* [*ər.*] Dolanma; bir şeyin öz oxu ətrafında hərəkəti. *Nolaydı, anamız Yer kürəsi də; Laylalar qoynunda **dövr** eləyəydi* (B.Vahabzadə).

**DÖVR** II *is.* [*ər.*] Zaman, vaxt. *Hər **dövrün** öz havası; Hər vaxtın öz hökmü var* (R.Rza).

**DÖVRƏ** I *is.* [*fars.*] Dərin nimçə. *Bu dəfə onun əlində içi plov dolu **dövrə** vardı* (Ə.Cəfərzadə).

**DÖVRƏ** II *is.* [*fars.*] Ətraf. *Səyyarələr Alfanın **dövrəsində** dolanar* (N.Gəncəli).

**DÖVRƏ** III *is.* [*fars.*] Tur. *Şahmat yarışlarının ikinci* ***dövrəsi*** *başlanmışdı.*

**DURU** I *sif.* Sulu, qatı olmayan. *Dəsturov ərizələri və sair kağızları dəmir qələm və* ***duru*** *mürəkkəblə yazmaz idi* (Ə.Haqverdiyev).

**DURU** II *sif.* Şəffaf, təmiz, bulanıq olmayan. *Su elə* ***duru*** *idi ki, çayın dibindəki daşlar, sürü ilə qaçan balıqlar aydın görünürdü* (İ.Şıxlı).

**DURU** III *sif.* Xalis. *Yay fəsli arabalarda daşınan ağ və təmiz* ***duru*** *buz kərpiclərini görəndə xalam yadıma düşür...* (C.Məmmədquluzadə).

**DUVAQ** I *is.* [*ər.*] Örpək. *Dönüb baxdılar. Zərnigar da üzündəki* ***duvağı*** *araladı* (İ.Şıxlı).

**DUVAQ** II *is.* Qazanın üstünə qoyulan dəstəkli taxta. *Qazanın* ***duvağı.***

**DÜYÜN** I *is.* Toy. *Bir* ***düyün*** *quracaq işin sonunda; Mən də süzəcəyəm onun toyunda* (S.Rüstəm).

**DÜYÜN** II *is.* Yara. *Şah, sənə xəbərlər olsun; Ürəyinə vurdum* ***düyünü*** (Dastanlar).

**DÜYÜN** III *is.* Bənd, bağlama. *Tək əl ilə* ***düyün*** *düyülməz* (Ata. sözü).

**DÜZ** I *is. coğr.* Qurunun hamar, alçaq-hündürlük fərqləri az olan sahəsi. *Haqqım yoxdu yamacına* ***düz*** *deyim onun; Ölüm adlı bir araba durur qapıda* (M.Araz).

**DÜZ** II *sif.* Doğru, həqiqi. *Yenə qızıl sahillərə çəkdi məni bu* ***düz*** *yol* (S.Rüstəm).

**DÜZ** III *zərf* Açıq, birbaşa. *Siz də keçərsiz* ***düz*** *parlamana; Bu şöhrət yaraşır bir qəhrəmana* (S.Vurğun).

**DÜZ** IV *f.* Sıra ilə yerləşdirmək, qoymaq. *Göz yaşım suvaran qəm ləklərinin; Yaxana gül-çiçək* ***düz*** *arasında* (İ.Kəbirli).

**DÜZ** V *ədat* Ancaq mənasında. *Bir ay tamam oldu,* ***düz*** *bir ay, bir gün; Gəldim qəbiristana... Anamla deyil; Onun başdaşıyla görüşmək üçün* (B.Vahabzadə).

# Ee

**EFİR** I *is.* [*yun.*] Fəza, hava. *Kürsülərdə, **efirdə**, zəhərləyib havanı; İndi meydan sulayır neçə söz pəhləvanı...* (B.Vahabzadə).

**EFİR** II *is.* [*yun.*] *kim.* Xarakterik iyi olan rəngsiz uçucu maddə. ***Efir** yağlı bitkilər.*

**EHTİYAT** I *is.* [*ər.*] Tədarük, yaşayış üçün toplanılan vəsait. *Şoferdən də bir litr benzin al, özünə **ehtiyat** saxla* (S.Qədirzadə).

**EHTİYAT** II *is.* [*ər.*] Tədbirlilik, qorxu, çəkinmə, ehtiyatlı olma. ***Ehtiyat** igidin yaraşığıdır* (Ata. sözü).

**EHTİYAT** III *is.* [*ər.*] Çəkinmə. *Xəlil Mirzə nəfəs çəkməyə belə **ehtiyat** edirdi* (Q.İlkin).

**ELƏ** I *əvəz.* İşarə etmək məqsədilə işlədilir. *Cahanda yox **elə** bir qüvvə baş əyim ona mən* (C.Cabbarlı).

**ELƏ** II *ədat* Qüvvətləndirici mənada işlədilən ədat. ***Elə** bu saat çağırtdır gəlsin* (M.Hüseyn).

**ENERJİ** I *is.* [*rus.*] *fiz.* Cərəyan, işıq. *Kinonun maraqlı yerində **enerji** kəsildi.*

**ENERJİ** II *is.* [*rus.*] Güc, qüvvə. *Bəzən ürəkdən deyilmiş səmimi bir söz də fəhləni sevindirir, onun ümidini, **enerjisini** artırır* (M.Hüseyn).

**EŞQ** I *is.* [*ər.*] Məhəbbət, sevgi. *Salam, inandığım o əziz günə; **Eşqin**, gözəlliyin böyüklüyünə* (S.Vurğun).

**EŞQ** II *nida* Əhsən, afərin. *Deyirəm, **eşq** olsun dünən və bu gün; Azadlıq yolunda can verənlərə!* (B.Vahabzadə).

**EVLİ** I *is.* Mənzili olan. *O, dağdan düşüb həmin bu kəndin yerində olan dörd **evli** binəyə gəlir, uşağı qadınına göstərir* (M.S.Ordubadi).

**EVLİ** II *is.* Evlənmiş, subay olmayan. ***Evli** ikən subay* (Ü.Hacıbəyov).

# Əə

**Ə** I Azərbaycan əlifbasının yeddinci hərfi.
**Ə** II *nida* Çağırış, xitab, müraciət bildirir. *Başa düşmürəm, nəyi deyirsən ə, bir adam kimi danışsana!* (Q.İlkin).

**ƏKMƏK** I *f.* Basdırmaq. *Quba bağlarında şitillər alıb; Alma da, armud da, ərik də **əkdi*** (S.Vurğun).
**ƏKMƏK** II *f.* Rədd etmək, başdan eləmək, aradan çıxmaq. *Bərbərzadəni birtəhər tovlayıb otağın ikisini keçirdərik əlimizə. Sonra Sənubəri **əkmək** asandır* (S.Rəhman).
**ƏKMƏK** III *f.* Şumlamaq. *Niyə acından ölürük, əkin **əkərik*** (H.Nəzərli).

**ƏQRƏB** I *is.* [*ər.*] Saatda vaxtı göstərən dəmir mil. *Qucaqlaşıb öpüşdü saatın **əqrəbləri...*** (O.Sarıvəlli).
**ƏQRƏB** II *is. zool.* Zəhərli həşərat növündən biri. *Çalsa **əqrəb** də hənuz eyləməz əmman, ölübə!* (M.Ə.Sabir).

**ƏLƏM** I *is.* [*ər.*] Kədər, qəm, qüssə, dərd. ***Ələmlər** qəlbinə sirdaş kəsildi; Nə dilin açıldı, nə üzün güldü* (B.Azəroğlu).
**ƏLƏM** II *is.* [*ər.*] Bayraq. *Atların qulaqları oldu **ələm**; Quyruğu oldu qələm* ("Qaçaq Nəbi").

**ƏLLİ** I *say* 49 sayından sonra gələn rəqəm. *Tükəzbanın olub həm **əlli** yaşı; Onu sən al əlimdən, ya ilahi!* (M.Ə.Möcüz).
**ƏLLİ** II *sif.* Cəld, bacarıqlı. *Komandir ilk baxışdan hiss etdi ki, Əhəd **əlli** oğlandır* (C.Bərgüşad).

**ƏMƏL** I *is.* [*ər.*] İş, hərəkət. *Son zamanlar Dəryanın sözü ilə **əməli** arasında gizli bir təzad gördüm* (S.Qədirzadə).
**ƏMƏL** II *is.* [*ər.*] *riyaz.* Hesab əməliyyatının hər biri.
**ƏMƏL** III *is.* [*ər.*] Arzu, ümid, məqsəd. *Burada əməl aydın, ürəklər dolu; **Əməllər** torpağı, daşı əridir* (B.Vahabzadə).

**ƏNTƏR** I *is.* [*ər.*] *zool.* Meymun cinsi. *Gözünün üstündə buxara papaq; **Əntərə** bənzəyir o kor yapalaq* (S.Vurğun).
**ƏNTƏR** II *sif. dan.* Eybəcər, kifir. *Mənə yazığın gəlmir, bibi, məni bu **əntərə*** vermək fikrindəsən?

**ƏR** I *is.* Arvadın həyat yoldaşı. *Sən xoşbəxtsən, Mədinə, çünki sənin **ərin** var!* (Ə.Əylisli).

**ƏR** II *is.* İgid, cəsur. *Bizimkilərdir; Qəhrəman Vəli ər oğlu, **ərdir**!* (S.Rüstəm).

**ƏRZ** I *is.* [*ər.*] Yer, torpaq. ***Ərzi** qan içində yox; Azad və xoşbəxt görək* (Ə.Cəmil).

**ƏRZ** II *is.* [*ər.*] Anlatma, şikayət etmə, dərdini söyləmə; xahiş, istək. *Hansı bir doktora **ərz** etdim onun illətini; Dedi: çək bundan əlin, boşla, bu çoxdan ölübə!* (M.Ə.Sabir).

**ƏSƏR** I *is.* [*ər.*] Bir adamın yaratdığı şey, iş. *Bu **əsər** ümumiyyətlə, ədəbiyyatımızda bir dönüşdür* (S.Rüstəm).

**ƏSƏR** II *is.* [*ər.*] Əlamət, iz, nişan. *Görüb bilməli yerlər çoxdur şəhərimizdə; Köhnəlikdən **əsər**, iz yoxdur şəhərimizdə* (S.Rüstəm).

**ƏSƏR** III *is.* [*ər.*] Təsir. *Söz etməz **əsər,** çarə qalıb indi duayə; tədbir elə, övrət!* (M.Ə.Sabir).

**ƏSMƏ** I *is. bot.* Çöl bitkisi. *Talada **əsmə** əlindən yerimək mümkün deyildi.*

**ƏSMƏ** II *is.* Titrəmə, titrəyiş. *Məs geyinib, məsi var; Canında **əsməsi** var* (Bayatı).

**ƏSMƏ** III *is.* Çarşabın bir növü. ***Əsmə** çarşab aldıra qızı; Qızıl qolbaq aldıra qızı* ("Azərb. folkloru antologiyası").

# Ff

**FAL** I *is.* [*fars.*] Tale və bəxtdən xəbər vermək üçün fal açmaq. *Qarı dua etməkdən, **fal** açmaqdan yorulmuş* (B.Azəroğlu).

**FAL** II *is.* Toyuğun altına qoyulan yumurta. *Nə təhər deyərlər, yumurtlamadın, yumurtlamadın, bəs **falını** niyə içirsən, balam* (Ə.Vəliyev).

**FAL** III *is.* [*holl.*] *dəniz.* Gəmilərdə yelkənləri, siqnal bayrağını və s. qaldırmaq üçün ip.

**FAL** IV *is.* Dilim. *Bir **fal** limon alanda; İstəkana salanda* (M.Rahim).

**FAZA** I *is.* [*yun.*] Mərhələ, dövr.

**FAZA** II *is.* [*yun.*] *tex.* Generatorun hər bir sargı qrupu. *Transformatordan kəndə üç **faza** gəlir.*

**FERMA** I *is.* [*fr.*] Kolxoz və sovxozlarda ixtisaslaşdırılmış təsərrüfat.

**FERMA** II *is.* [*fr.*] *tex.* Çatı. Bir-biri ilə bağlanan mil. ***Ferma** adətən poladdan, ağacdan, dəmir məlumatından hazırlanır.*

**FƏNN** I *is.* [*ər.*] Elm, bilik. *Elmə, **fənnə,** üdəbayə baxalım nifrət ilə* (M.Ə.Sabir).

**FƏNN** II *is.* [*ər.*] Biclik, fənd. ***Fənnin** var isə örtüləcək cümlə qüsurun* (M.Ə.Sabir).

**FƏSİL** I *is.* [*ər.*] İlin dörd qismindən hər biri. *Dəyişdi **fəsillər,** dolandı illər; Axdı gah bulanıq, gah duru sellər* (M.Müşfiq).

**FƏSİL** II *is.* [*ər.*] Əsərin bir hissəsi. *S.Rəhimovun "Qafqaz qartalı" (I kitab) romanı 73 **fəsildən** ibarətdir.*

**FƏSİL** III *is.* [*ər.*] *mus.* Bir dəfədə icra olunan musiqi əsəri.

**FİQUR** I *is.* [*lat.*] *riyaz.* Qapalı xətlə məhdudlaşdırılmış düz səthin hissəsi. *Bu **fiqurun** çəkilməsinə on dəqiqə vaxt sərf etdi.*

**FİQUR** II *is.* [*lat.*] Qumar və şahmatda böyük kart və daşların adı.

**FİL** I *is. zool.* Ən nəhəng, xortumlu heyvan. *Hindistandakı **fillər** istiyə daha dözümlü olurlar.*

**FİL** II *is. şah.* Böyük fiqurlardan biri. ***Fil** yalnız diaqonal xətlərlə hərəkət edir.*

**FORMA** I *is.* [*lat.*] Xarici görünüş. *Onun **forması** mənə yaxşı təsir bağışlayır.*

**FORMA** II *is.* [*lat.*] Rəsmi paltar (hərbi və mülki xidmətçilər və məktəblilər üçün). *O, hərbi **formada** idi.*

**FORMA** III *is.* [*lat.*] *ədəb.* Bədii əsər üçün təsvir vasitələri məcmuyu. *Bu **formalar** əsərdəki hadisələri bir növ tamamlayırdı.*

**FORMA** IV *is.* [*lat.*] *qram.* Şəkil. *Azərbaycan dilində felin xüsusi və ümumi **formaları** var.*

# Gg

**GƏR** I *is. bot.* Tut ağacının bir növü. *Bağban öz bağında **gər** əkdi bir gün* (Aşıq Şəmşir).

**GƏR** II *sif.* Yoğun. *Cümşüdün **gər** səsi eşidildi* (İ.Hüseynov).

**GƏR** III *f.* Qabartmaq, açmaq. *Düşmən pulemyotuna; Köksünü **gərməyib** ki!..* (F.Mehdi).

**GƏRƏK** I *is.* Lazım, zəruri, vacib. *Səbr elə, ehtiyat **gərək...*** (S.Vurğun).

**GƏRƏK** II *is. modal* Ehtimal, arzu, təkid mənalarını ifadə edir. *Əziz qonaqlar **gərək** bizi bağışlasınlar* (M.Hüseyn).

**GƏZ** I *is.* Halvaya bənzər Şərq şirniyyatı. *Molla Musa **gəzdən** bir az götürüb ağzına qoyduqdan sonra yenidən söhbətə başladı.*

**GƏZ** II *is.* Çapılmış yer. *Dirəyin gəzi.*

**GƏZ** III *num. söz* [*fars.*] *köhn.* Dəfə, kərə. *Tutilər söz təhrin danışsa yüz **gəz;** Belə şirin-şirin danışa bilməz* (M.P.Vaqif).

**GƏZMƏK** I *f.* Seyr etmək, dolanmaq. *Əlbəttə, bütün dünyanı **gəzmək,** görmək yaxşıdır* (B.Bayramov).

**GƏZMƏK** II *f.* Axtarmaq. *Onu jandarmalar **gəzir** dörd dövrə* (S.Vurğun).

**GİRİŞ** I *is.* Müqəddimə, başlanğıc. *Əziz müxtəsər bir **giriş** sözü söylədi* (Ə.Vəliyev).

**GİRİŞ** II *is.* İctimai yerlərdə içəri girmək üçün yol. *Qapılardan çıxış, **giriş** vardır; Bunda, əlbəttə ki, bir iş vardır...* (M.Ə.Sabir).

**GİRİŞ** III *f.* Başlamaq, işdən yapışmaq. *Onlar qətiyyətlə arakəsməni sökməyə **girişdilər*** (S.Rəhimov).

**GÖRMƏK** I *f.* Müşahidə etmək; rastlaşmaq. *Gözümə bir qara keçmiş **görünür;** Bir qara keçmiş ki, bizdən uzaqdır* (S.Vurğun).

**GÖRMƏK** II *f.* İcra etmək, yerinə yetirmək. *Lakin bu sahədə də əslində heç bir iş **görülməmişdi**.*

**GÖRÜŞ** I *is.* Başqa bir şəxslə və ya kütlə ilə söhbət etmək, danışmaq üçün ayrılan vaxt. *Bu **görüşdən** sonra tez-tez professorgilə gedirdim* (C.Bərgüşad).

**GÖRÜŞ** II *is.* Fikir, münasibət, dünyagörüşü. *Bizdə hüquq elmi nə qədər inkişaf edərsə, o qədər də cinayətlər azalmış olar, o qədər də bizim adamların **görüş** dairəsi genişlənər* (S.Rəhimov).

**GÖY** I *is.* Səma. ***Göylər** qara pərdə çəkdi; Buludlardan öz-özünə* (B.Azəroğlu).

**GÖY** II *is.* Göyərti, tərəvəz. ***Göy** satanlar, meyvə satanlar bir-bir bazara axışır* (Ə.Əylisli).

**GÖY** III *is. məh.* Yeznə, qızın əri. *Ay Əhməd, sənin **göyün** məndən nə istəyir?*

**GÖY** IV *sif.* Rənglərdən birinin adı. ***Göy** sərvlər asta-asta yırğalayır başını* (O.Sarıvəlli).

**GÖY** V *sif.* Xəsis. *O yaman **göy** adamdır.*

**GÖYƏRMƏK** I *f.* Bitkinin yerdən təzəcə göz verməsi. *Qayaların qoltuğunda barmaq-barmaq gicitkən **göyərir**.*

**GÖYƏRMƏK** II *f.* Müəyyən təsir nəticəsində, bədəndə, qollarda və s.-də əmələ gələn göylük. *Bütün bədəni **göyərmiş,** üzü şişmişdi* (S.Rəhman).

**GÖYLÜK** I *is.* Göy olan yer. *Dağların ətəklərindəki **göylük** ayazıyır, şəklini dəyişirdi* (S.Rəhimov).

**GÖYLÜK** II *is.* Xəsislik. *Bəylik, **göylük,** səylik olan məclisdə; Qalma, orda xeyir-bərəkət olmaz* (Aşıq Ələsgər).

**GUR** I *sif.* Toplu. *Nəsrullanın iri gözləri yuxusuzluqdan qızarmış, **gur** saçları səliqəsiz halda alnına tökülmüşdü* (Q.İlkin).

**GUR** II *sif.* Güclü, iti, dalğalı. *Krandan axan **gur** suyun şırıltısı, yuyulan saxsı qabların cingiltisi söhbəti davam etdirməyə mane oldu* (Q.İlkin).

**GUR** III *sif.* Bərk, uca. *Otağa **gur** və zəhmli bir səs yayıldı* (İ.Şıxlı).

**GÜL** I *is.* Çiçək, qızılgül. ***Gül** – Hafiz divanında şerin təravətidir* (B.Azəroğlu).

**GÜL** II *f.* Müəyyən bir hadisədən aldığı zövq nəticəsində insanın qəh-qəh çəkməsi. *Bir az da **gül,** acı yaşlar axıtdığın yerdə* (S.Rüstəm).

**GÜLƏBƏTİN** I *is. bot.* Çöl bitkisi. *Bu yerlərin istiliyinə baxma, **güləbətin** az bitir buralarda.*

**GÜLƏBƏTİN** II *is.* Tikmənin bir növü. *Ağızları yaşmaqlı; **Güləbətin** başmaqlı* (M.Rahim).

**GÜLƏŞ** I *is. idm.* İdmanın bir növü. ***Güləş** bir-iki saat davam eləyirdi* (Ə.Əylisli).

**GÜLƏŞ** II *f.* Qurşaq tutmaq. *Burada Yaqub hər axşamçağı uşaqları **güləşdirirdi*** (Ə.Əylisli).

**GÜLƏŞ** III *sif.* Gülərüzlü, xoşüzlü, nəvazişli. *Söz-söhbəti bir az nağıl; Bir az **güləş**, bir az paxıl* (Q.Qasımzadə).

**GÜLƏŞDİRMƏK** I *f.* Qurşaq tutdurmaq. *O hər axşam uşaqları **güləşdirməmiş** getməzdi.*

**GÜLƏŞDİRMƏK** II *f.* Mübahisə etmək; oynatmaq; vuruşdurmaq. *Mən sənnən söz **güləşdirmək** istəmirəm, qonaq qardaş* (İ.Hüseynov).

**GÜN** I *is.* Planet, günəş. ***Gün** çeşmədən çəkiləndə, naxır gəlirdi* (Ə.Əylisli).

**GÜN** II *is.* Səhərdən axşama qədər olan vaxt. *Görürəm faşizmin ölən **gününü;** Görürəm bəşərin gülən gününü!* (S.Rüstəm).

**GÜN** III *is.* Həyat, yaşayış. ***Gün** keçər, ağarar saçı-saqqalı; Çöldə qurd-quş kimi yuvasız ölər* (S.Vurğun).

**GÜNLÜK** I *is.* Təyin olunmuş günlərin miqdarı. *Körpü olmadığından rayon mərkəzi ilə əlaqəmiz çətinləşirdi, yolumuz bir **günlük** uzaq düşürdü* (S.Rəhman).

**GÜNLÜK** II *is.* Gündən və yağışdan qorunmaq üçün şapka qabağı. *Başında isə **günlüyü** parıldayan mahud şapka var idi* (İ.Şıxlı).

**GÜRZƏ** I *is.* İlanın növlərindən biri. *Bu ilan **gürzədir.** Çox zəhərli ilandır* (S.S.Axundov).

**GÜRZƏ** II *is.* İçərisinə ət və ya başqa şey qoyulmuş xəmir xörəyi.

# Hh

**HAQQ** I *is.* [*ər.*] Hüquq, ixtiyar. *Odur uşaqları narazı salan; Bu işçi gənclərin **haqqını** çalan* (M.Müşfiq).

**HAQQ** II *is.* [*ər.*] Həqiqət, ədalət, doğru. ***Haqq** ilə nahaqqı axtaran hakim; Tapar qulaq ilə göz arasında* (Aşıq Ələsgər).

**HAQQ** III *is.* [*ər.*] Əməyin əvəzində alınan donluq. *Bir də ... palto tikənə; Zəhmət **haqqı** verəcəksən* (Ə.Kürçaylı).

**HAQQ** IV *is.* [*ər.*] Bəraət. *Sarışının hərəkətlərinə **haqq** qazandırdı* (S.Qədirzadə).

**HAQQ** V *qoşma* Barədə. *Daldada sənin **haqqında** bir söz deməmişik, o, düşmən sözüdü* ("Qaçaq Nəbi").

**HAL** I *is.* [*ər.*] Vəziyyət. *Bizim **halımıza** tutuldu göylər; Buludlar belini büküb ağladı* (M.Müşfiq).

**HAL** II *is.* [*ər.*] *qram.* Sözlərin cümlədə dəyişilərək başqa sözlərlə əlaqəyə girməsini müəyyənləşdirən bir kateqoriya.

**HAVA** I [*ər.*] *coğr.* Yer atmosferini təşkil edən fiziki qatışıq qazlar. *Boğur insan oğlunu; O yerlərin **havası*** (S.Vurğun).

**HAVA** II *is. coğr.* Müəyyən mərhələdə və müəyyən vaxt ərzində atmosferin arasıkəsilmədən dəyişilən vəziyyəti, göy. *Deyirlər igiddi o nadan Nəbi; Tüfəngi **havada** oynadan Nəbi!* ("Qaçaq Nəbi").

**HAVA** III *is. mus.* Musiqi əsərinin əsasını təşkil edən təranə, melodiya. *Dostum, kamanını ələ al görək; Bizə bir yanıqlı **hava** çal görək* (S.Rüstəm).

**HAVA** IV *is.* [*ər.*] Əqlini itirmə, dəli olma. *Bu döyülməklə qoçu öldü, Niyazlının da başına **hava** gəldi* ("Qaçaq Nəbi").

**HAVALI** I *sif.* Lovğa, özündən razı. *Gəzirlər **havalı** ağalar, bəylər; Çalışır qan-tərdə naxırçı, nökər* (Aşıq Ələsgər).

**HAVALI** II *sif.* Əsəbi, həyəcanlı, qızğın. *Görünür **havalı** başlar; Hər şeyi tez unudar* (R.Rza).

**HAVALI** III *sif.* Havası olan. *İşıqlı, **havalı** evimdə mənim; Qəfəsə salınmış bir turacım var* (H.Arif).

**HAVALI** IV *sif.* Ağlını itirmiş. *Sən də bilirsən ki, **havalı** bir şeydir, tutması var, şəkil kimi gözəlliyinə sözüm yox* (M.İbrahimov).

**HESAB** I *is.* [*ər.*] Haqq, intiqam. *Ağlatmaz yandığım cinayət məni; Fəqət tarix səndən alacaq **hesab!*** (M.Müşfiq).

**HESAB** II *is.* [*ər.*] *riyaz.* Riyaziyyat fənlərindən birinin adı. *Bizim hər gün **hesab** dərsimiz var.*

**HƏLİM** I *is.* Plovun suyu, düyü suyu; şorba. *Çörəyi götürməyəcəyik, qoy dustaqlar **həlim** içsinlər* (S.Rəhimov).

**HƏLİM** II *sif.* [*ər.*] Yumşaq xasiyyətli, mülayim. *Yumşaq təbiətli bu **həlim** insan; Deyərdin, quşa da daş ata bilməz* (B.Vahabzadə).

**HƏNA** I *is.* [*ər.*] Xına, boyaq. *Ağzı piyaləsən, gərdəni mina; Nazik əllərində innabı **həna*** (M.P.Vaqif).

**HƏNA** II *is.* [*ər.*] Yersiz deyilən söz. *Heç **hənanın** yeridir?*

**HƏSİR** I *is.* [*ər.*] Şlyapa. *Bir rəssam istərəm; onun şəklini çəkə; papağı **həsir*** (R.Rza).

**HƏSİR** II *is.* [*ər.*] Lığdan toxunan palaz kimi döşənəcək. *Onlar bir stəkan çay içdikdən sonra torpaq döşəmədəki **həsirin** üstündə uzanaraq xoruldayır və öz xorultuları ilə çayçının ürəyindəki arxayınçılığı daha da möhkəmləndirirdilər* (M.İbrahimov).

**HİM** I *is.* İşarə. *Arılar ətrafda **him** gözləyir, **him***; *Oxusam hamısı mənə qoşular* (Ağa Laçınlı).

**HİM** II *is.* Bəhanə. *Şahnaz elə bir **him** axtarır* (İ.Şıxlı).

**HİM** III *is.* Bünövrə, özül, əsas. *Ovsunçuyam, ovsun sallam hi mara; Bənna olsan, tərki axtar, **him** ara* (Aşıq Ələsgər).

**HİN** I *is.* Quş saxlanılan yer, dam. *Kəkliklə dolsa da daşaltı **hinlər;** O yetim yuvalar inciyib, küsüb* (Ağa Laçınlı).

**HİN** II *is.* [*ər.*] Vaxt, zaman. *Bu **hində** qapı döyüldü.*

**HOQQA** I *is.* [*ər.*] Tiryək çəkmək üçün çaşqalı gil çubuq, qəlyan.

**HOQQA** II *is.* [*ər.*] Fokus, kələk, hiylə. *Bakı* (*su bakı*) *niyə gərək versin, bu nə **hoqqadır** düzəldiblər...* (C.Gözəlov).

# Xx

**XAL** I *is.* İnsan bədənində olan ləkə. *Kim bilsin bu mələyin; Bu açmamış çiçəyin; Canında neçə **xal** var* (M.Müşfiq).

**XAL** II *is.* Oyunda əldə edilən hesab. "*Neftçi*" "*Zenit*"*dən bir **xal*** *götürdü.*

**XAM** I *is.* Dincə qoyulmuş torpaq. *Rəfael əlini hələ şumlanmamış geniş **xam** yerlərə uzatdı və davam etdi* (H.Nəzərli).

**XAM** II *is.* Qoruq, müəyyən müddət otarılmayan sahə. *Qərəz, uzun sözün qısası, bəylər **xamda** otlayan buğa kimi tutaşdılar* (M.İbrahimov).

**XAM** III *is.* Təcrübəsiz, naşı, adət etməmiş adam. *Ay qız, bizi **xam** yerinə niyə qoyubsan?* (İ.Şıxlı).

**XAM** IV *sif.* Minilməmiş at. *Əzizim dedikləri Bayramı elə tutmuşdu ki, sanki **xam** at kəməndə salınmışdı* (Ə.Vəliyev).

**XAMA** I *is.* Bişirilməmiş südün üzü. *Qoca, südün **xamasını** hamıdan əvvəl nəvəsinə verərdi.*

**XAMA** II *is. geol.* Mədən yatağı. *Kəlbəcərdə belə **xamaların** olduğu son zamanlar kəşf edilib.*

**XAR** I *is.* [*fars.*] Tikan. *Gül dibini **xara** qoydun; Bülbülü ah-zara qoydun* (Dastanlar).

**XAR** II *sif.* [*fars.*] Zəlil, bimar olan. *Gördüm məktəbdə biri əziz, birisi **xardır*** (H.Billuri).

**XARİC** I *is.* [*ər.*] Başqa ölkə. *Mən evə gələndə qapını atam açdı, **xaric-dən** qayıdandan sonra onun iş yerini dəyişiblər* (M.İbrahimov).

**XARİC** II *is.* [*ər.*] Dışarı, bayır, bir şeyin bayır üzü. *Evin **xarici** daxilinə nisbətən gözəldir.*

**XARİC** III *is.* [*ər.*] Çıxarılma, qovulma, kənar olunma. *Sədayi-musiqi etsin gərək könülləri cəzb; Ürək sıxan, yolu **xaric** sədaların nəyi var?* (Ə.Vahid).

**XAS** I *is.* [*ər.*] Məxsus, aid olma. *Astadan, lakin xislətinə **xas** ciddi ahənglə dilləndi* (S.Qədirzadə).

**XAS** II *is.* [*ər.*] Həftənin ikinci günü, çərşənbə axşamı. ***Xas** günü.*

**XAS** III *is.* [*ər.*] Seçmə, baş. *Cəmi dəlilərin **xası**; Meydanda var mərd davası* ("Koroğlu").

**XAŞ** I *is.* Maya. ***Xaş** qoy, xəmir yoğuracağam.*

**XAŞ** II *is.* Başayaq. *Yerin məlum, şənbə günü Bürcəligilə getdik xaşa, həftəni vurduq başa* (Anar).

**XƏBƏR** I *is.* [*ər.*] Məlumat. ***Xəbər*** *var əqlə batan;* ***Xəbər*** *var qara böhtan* (R.Rza).

**XƏBƏR** II *is.* [*ər.*] *qram.* Cümlənin baş üzvlərindən biri.

**XƏBƏRSİZ** I *zərf* Xəbəri olmayan, məlumatı olmayan. *Mən on yeddi gündür arvad-uşaqdan* ***xəbərsizəm*** (S.Qədirzadə).

**XƏBƏRSİZ** II *is. qram.* Xəbəri olmayan cümlə.

**XƏRÇƏNG** I *is. zool.* Suda yaşayan heyvanlardan biri.

**XƏRÇƏNG** II *is. tib.* Xəstəliyin bir növü. ***Xərçəng*** *şişi kimi iyrənc, eybəcər; Bir azar yaşayır ilikdə, qanda* (X.Rza).

**XƏRƏK** I *is.* Əşyaları bir yerdən başqa yerə daşımaq üçün istifadə olunan alət. *Həkim, cərrah kürsüsü, Maştağa, Hövsan yolu; Sanitar maşınları, bir xərəyin dörd qolu* (X.Rza).

**XƏRƏK** II *is.* Simli musiqi alətlərində simlərin səslənən hissəsinin uzunluğunu məhdudlaşdıran cihaz.

**XƏRƏK** III *is.* Şumlama zamanı kotanın açdığı yer.

**XƏZİNƏ** I *is.* [*ər.*] Güllə yeri; sandıq (tüfəngdə). *Darağı* ***xəzinəyə*** *basıb çaxmağı hərlədi, gülləni lüləyə verdi* (İ.Şıxlı).

**XƏZİNƏ** II *is.* [*ər.*] Şərq hamamlarında isti sulu çarhovuz. *Molla* ***xəzinədə*** *o qədər uzanmışdı ki, az qala yatıb qalacaqdı.*

**XƏZİNƏ** III *is.* [*ər.*] Dövlət, əmlak, dəfinə. *Şah sağ olsun, özün bilirsən ki, mən sənin boş* ***xəzinəni*** *doldurmuşam* (M.F.Axundzadə).

**XIR** I *is.* Çınqıl, əzilmiş xırda daş parçaları. *Göytəpə kəndinin ucqarında,* ***xır*** *yolunun üst tərəfində üçotaqlı bir bina var* (İ.Şıxlı).

**XIR** II *is.* Bostan. *Qurudu buğda, arpalar yandı; Ot-alaf bitdi,* ***xırlar*** *odlandı* (M.S.Ordubadi).

**XIR** III *sif.* Xalis, təmiz. *Çörək* ***xır*** *duzdur.*

**XIRSIZ** I *sif.* Xırı olmayan. *Yağışlı havada* ***xırsız*** *yolla maşınların hərəkəti çətinləşir.*

**XIRSIZ** II *sif.* Oğru; talançı. *Quş xanın bir qızı var; Bir könül* ***xırsızı*** *var* (M.Müşfiq).

**XOR** I *is. mus.* Səslə oxuyanların böyük ansamblı. *O vaxtın axşam çağları sanki böyük bir **xor** idi* (Ə.Əylisli).

**XOR** II *zərf* Pis (baxmaq). *Bu yeni dünyadan əlini üzən; Özünü heçliyə buraxanlardır; Bu yeni dünyaya **xor** baxanlardır* (M.Müşfiq).

**XURUŞ** I *is.* [*fars.*] Plova əlavə edilən qara. *O, aşı masanın üstünə qoydu. Sonra **xuruşunu** gətirdi* (Anar).

**XURUŞ** II *sif.* Xırda, kiçik. *Heç nə, nə olacaq?! Kolxozdan Həsənovun evinə daşınan xırda-**xuruş** şeylərdir* (M.İbrahimov).

# İi

**İÇ** I *is.* Hər hansı bir şeyin daxili. *Şam kimi sakit durur; Şam tək **içində** yanır* (B.Vahabzadə).

**İÇ** II *is.* Ləpə. *Səfai stolun üstündə büllur qablardakı qovrulmuş badam **içini,** püstəni və sarı kişmişi ovucladı* (M.İbrahimov).

**İÇ** III *f.* Suyu, başqa mayeləri içmək. *Gəl, qaçma, yaxın gəl mənə, qardaş; Al **iç,** hələ canımda meyin var* (S.Rüstəm).

**İXTİYAR** I *is.* [*ər.*] Haqq, hüquq. *Kimin **ixtiyarı,** kimin pulu var; Tökülüb hər yandan gəldi "qonaqlar"* (O.Sarıvəlli).

**İXTİYAR** II *sif.* [*ər.*] Qoca, yaşa dolmuş. *O neyləsin ömrünün bu **ixtiyar** yaşında?* (S.Vurğun).

**İKİBAŞLI** I *sif.* İki başı olan. *Unutmadıq **ikibaşlı** qartal çarı; Çəkdi bizi gah aşağı, gah yuxarı* (M.Müşfiq).

**İKİBAŞLI** II *zərf* Eyhamlı, kinayəli. *Qaraş **ikibaşlı** söz soruşduqda Maya da ondan incidi* (M.İbrahimov).

**İKİÜZLÜ** I *sif.* Hər iki tərəfində üzü olan. ***İkiüzlü** daş güzgü ona anasından yeganə yadigar idi.*

**İKİÜZLÜ** II *sif.* Yaltaq, riyakar. *O, qorxulu bir şəxsdir, çünki **ikiüzlüdür**.*

**İNCİ** I *is.* Mirvari, dürr. *Dedin ki, bihudə axtarmasınlar; **İncini** dəryada, dənizdə, şair* (B.Azəroğlu).

**İNCİ** II *f.* Toxunmaq, xətrinə dəymək. *Dedim mən razıyam: nə **inci,** nə küs* (B.Azəroğlu).

**İŞLƏMƏ** I *is.* Əl işi, bəzək, ornament. *Qədim **işləmələrə** o yeni həyat verir, onları yenidən xalqa qaytarır.* "Qobustan"

**İŞLƏMƏ** II *is.* Mədə pozğunluğu ilə əlaqədar işlədilən dərman.

**İŞLƏMƏK** I *f.* İş görmək, fəaliyyət göstərmək. *Bir ay nə **işlədik,** nə donluq aldıq; Qəpik-quruşsuz avara qaldıq* (S.Vurğun).

**İŞLƏMƏK** II *f.* Mədə pozğunluğu nəticəsində tez-tez bayıra çıxmaq.

**İT** I *is.* Ev heyvanlarından birinin adı. *Yatıb arabanın kölgəsində **it;** Mırıldayır, bu mənim kölgəmdir, eşit* (S.Rüstəm).

**İT** II *f.* Yox olmaq, getmək, gözdən yayınmaq. *Atlarına mindilər; Qısırdağdan ağzı yuxarı sürüb gözdən **itdilər*** ("Qaçaq Nəbi").

**İY** I *is.* Qoxu. ***İyi** çəkən burun, darı dənləyən qulaqlar* (R.Rza).

**İY** II *is.* Mil, ox. *Arvad dükcəni **iydən** çıxardıb, üstünə sacayaq qoydu ki, gecə iyə ilişən olmasın* (Çəmənzəminli).

# Kk

**KAFEDRA** I *is.* [*yun.*] Auditoriyalarda mühazirəçi və ya məruzəçi üçün hündür yer. *Məruzəçi yavaş-yavaş **kafedraya** qalxdı.*

**KAFEDRA** II *is.* [*yun.*] Ali məktəblərdə bir və ya bir neçə yaxın fəndən dərs deyən müəllim heyəti. *Azərbaycan dilçiliyi **kafedrası.***

**KAFTAR** I *is.* [*fars.*] *zool.* Goreşən, xırda şeylərlə qidalanan yırtıcı. *Musa kişi isə bu söhbətlərə gah sükut içində, gah böyük həyəcanla qulaq asaraq, heç dəxli olmadan çığır-bağır qoparır, ah-nalə edir, **kaftardan**, yalquzaqdan danışırdı* (M.İbrahimov).

**KAFTAR** II *sif.* [*fars.*] Qoca. *Bu da dörd, bu da beş; De, danış, **kaftar!*** (S.Vurğun).

**KAR** I *is.* [*fars.*] İş. *Bəsdir oxudun, az qala canın tələf oldu; Bu **kardan** əl çək* (M.Ə.Sabir).

**KAR** II *is.* [*fars.*] Təsir. *Söz **kar** etmir qoduğa; Hey deyir: "inqa-inqa"...* (S.Rüstəm).

**KAR** III *is.* [*şot.*] *coğr.* Dağ yamaclarının yuxarı hissəsində buzlaq sirkindən yuxarıda taxçavari dərinlik.

**KAR** IV *sif.* Eşitməyən, eşitmə qabiliyyətini itirmiş. *Özümüz yanırıq öz dərdimizə; Dünyanın qulağı **kar** olmuş bizə* (B.Vahabzadə).

**KEÇİCİ** I *sif.* Müvəqqəti, ötəri, ötüb-keçən. *Yox, Cəlal, bu qədər hissə qapılmaq; Gəncliyin **keçici** hissidir, ancaq* (S.Vurğun).

**KEÇİCİ** II *sif.* Sirayət edən, birindən digərinə keçən. *Sarılıq **keçici** xəstəlikdir.*

**KEÇİNMƏK** I *f.* Yaşamaq, yola getmək. *Orada telefonsuz, kitabxanasız necə **keçinərəm...*** (S.Qədirzadə).

**KEÇİNMƏK** II *f.* Ölmək. *O, gecə işləyən yerdə, stolun arxasında ürək xəstəliyindən **keçinmişdi*** (C.Bərgüşad).

**KEÇİRMƏK** I *f.* Aşırmaq, addatmaq. *O bizi başqa sinif otağına **keçirdi** və biz hər şeyi təzədən başladıq* (Anar).

**KEÇİRMƏK** II *f.* Söndürmək. *Ürək yanğısını suyla **keçirmək** olmaz, – dedi* (Anar).

**KEÇİRTMƏK** I *f.* Saxlamaq. *Kəbirlinski, nahaq zəhmət çəkmisən, – dedi. – Dublyajı **keçirtdik** sabaha* (Anar).

**KEÇİRTMƏK** II *f.* Yaşamaq, dolanmaq. *Günümüzü pis **keçirtmirik.***
**KEÇİRTMƏK** III *f.* Söndürmək; *ötürmək. İşığı **keçirt,** yatmaq vaxtıdır.*

**KEÇMƏK** I *f.* Ötmək, ötüb keçmək, gəlib getmək. *Qacar ayaqladı böyük İranı, Tiflisi odlara qaladı, **keçdi!*** (S.Vurğun).
**KEÇMƏK** II *f.* Sönmək. *Tez yanıb, tez söndü zülmət içində; Elə bil şam idi dünyada, **keçdi*** (B.Azəroğlu).
**KEÇMƏK** III *f.* Getmək. ***Keçdi** döyüşlərdə ömrümün çoxu* (S.Vurğun).

**KƏF** I *is.* [*fars.*] Köpük, xörəyin üzündə əmələ gələn maddə. *Qazan daşdı, **kəfin** al; Qaynadıqca kəfin al* (Bayatı).
**KƏF** II *is.* [*fars.*] Hiylə, kələk. *Mənə belə **kəf** gələndə, gör o yazıqlara nə toy tutur* (A.Şaiq).

**KƏFGİR** I *is.* [*fars.*] Xörəyin köpüyünü yığmaq, aş çəkmək üçün alət. *Anam əlindəki **kəfgirlə** iri tavada qovurduğu əti qurdalayıb sözünə əlavə etdi* (S.Qədirzadə).
**KƏFGİR** II *is.* [*fars.*] Saat rəqqası. *Adam boyda olan saatın iri **kəfgiri** ətalətlə sağa-sola hərəkət etdikcə otağa ahəngdar bir çıqqıltı yayılırdı* (İ.Şıxlı).

**KƏM** I *is.* [*fars.*] Yox; əskik, nöqsan. *Eh, oğul, dünyada mən taleyi **kəm**; Qırx il at belində mürgüləmişəm* (S.Vurğun).
**KƏM** II *sif.* [*fars.*] Az; dar. *Aşıq deyər Əlidən; Sözün başlar bəlidən; Ağlı **kəm** canana bax; Küsübdü mən dəlidən* (Bayatı).
**KƏM** III *zərf* [*fars.*] Pis, yaman, əyri. *Sən bizə **kəm** baxma, ya pərvərdigar; Oğulla sevinsin bütün analar!* (S.Vurğun).
**KƏM** IV *is.* Yüyənin atın ağzına keçirilən dəmir hissəsi; cövzə. *Atın **kəmini** tutmayan yolda piyada qalar* (Ata. sözü).

**KƏRƏ** I *sif.* Əridilməmiş yağ. *Hərdən Bəyxanım qarı bir tikə lavaşın içində Qubada qoz boyda **kərə** yağ gətirib həyətdən keçəndə verərdi* (Ə.Əylisli).
**KƏRƏ** II *sif.* Qulağı kəsik, qulaqsız, qulağı gödək. *Ala **kərə,** tayın gördüm; Sarı kürə, tayın görmək gərək* (Ata. sözü)
**KƏRƏ** III *num söz.* [*ər.*] Dəfə. *Zabit tülkü-tülkü baxdı əsgərə; Aldatmaq istədi onu son **kərə*** (S.Rüstəm).

**KƏSMƏ** I *is.* Parçanın bir növü. *Haqq nəzərin Ələsgərdən kəsmədi; Yar qəddinə yaraşanlar **kəsmədi*** (Aşıq Ələsgər).
**KƏSMƏ** II *is. mus.* Zərbli, muğam, şikəstənin bir növü. ***Kəsmə** çal... yolçuyuq... duyulan olmaz* (S.Vurğun).
**KƏSMƏ** III *sif.* Qısa. *O, **kəsmə** yolla dərəyə endi.*

**KƏSMƏK** I *f.* Doğramaq, bölmək. *Yavaş ol, ay kişi, paraları elə **kəsirsən** ki, elə bil hər biri bir qoçdur* (N.Xəzri).

**KƏSMƏK** II *f.* İş vermək. *Qəşəng qıza baxmaq üstündə adamı günahkar hesab etsələr, gələrək hər yüz nəfərdən doxsan doqquzuna iş **kəsələr*** (Q.İlkin).

**KİLKƏ** I *is.* Kətan, yun və s. təmizlənərkən qalan qırıntı. *Yundan qalan **kilkəni** bir yerə yığ.*

**KİLKƏ** II *is.* Balığın bir növü. *Harda qaldı bir xalqı diri-diri udanlar? Torunuza ilişdi üç-dörd **kilkə** tutanlar?* (X.Rza).

**KİLKƏ** III *is.* Çöküntü. *Çaxırı şüşələrə elə süz ki, **kilkəsi** dibində qalsın.*

**KİLKƏ** IV *is.* Daim saçları pırtlaşıq olan. *Qarının xınadan qızartdıq **kilkələrinə** elə bil heç vaxt daraq dəyməmişdi* (Ə.Məmmədxanlı).

**KİMİ** I *əvəz.* Konkret olmayan şəxsin və ya başqa əşyaların qeyri-müəyyənliyini bildirir. ***Kimi** dərz daşıyır, **kimi** sovruq sovurur, **kimi** bostan suvarırdı – hərə bir iş görürdü* (S.Rəhimov).

**KİMİ** II *qoşma* Bənzətmə, müqayisə, məkan və zaman anlayışı mənalarında. *O şeydə Səkinə güzəşt nə olduğunu bilmir, qaya **kimi** möhkəm dururdu* (M.İbrahimov).

**KİP** I *is.* Topa, yığın, qalaq. *Meşədən bir **kip** odun gətirdi.*

**KİP** II *sif.* Sıx, möhkəm. ***Kip** örtülü pəncərədən keçib; Saçlarımı qarışdırır az qala* (F.Sadıq).

**KOMA** I *is.* Ev, daxma. *Atasını öldürdülər, **komasını** yıxdılar* (R.Rza).

**KOMA** II *is.* Topa, yığılmış torpaq, ot, kol. *Cüyür, ceyran qaça bilmir; **Koma** qalın, kol qalın...* (O.Sarıvəlli).

**KÖÇ** I *is.* Düşərgə, arandan dağa, dağdan arana getmə. *Qoyunun üçü gəldi; Dolandı **köçü** gəldi* (Bayatı).

**KÖÇ** II *f.* Bir yerdən başqa yerə getmək; vəfat etmək. *Günəş doğmamış sən; Ömürlük **köçdün** həyatdan* (B.Azəroğlu).

**KÖK** I *is.* Ağacın rişəsi. *Ağaclar **kök** üstə qalxır, yüksəlir; Meyvənin şirəsi rişədən gəlir* (B.Vahabzadə).

**KÖK** II *is. bot.* Yer kökü, uzunsov sarı bitki. *Balaca **kök** yekəldi. Şişdi, şişdi, kökəldi* (T.Elçin).

**KÖK** III *is. qram.* Sözün mənalı, dəyişməyən hissəsi. *Söz tərkibinə görə iki qismə ayrılır: **kök** və şəkilçi.*

**KÖK** IV *is. məh.* Nəsil, qohum-əqrəba. *Sən hansı **kökdənsən?***

**KÖK** V *is.* Vəziyyət, şəkil, forma. *Əyə, üz-gözün nə **kökdədir,** lap kömür-çüyə oxşayırsan* (İ.Şıxlı).

**KÖK** VI *sif.* Yağlı. *Küçənin o başından qəssab Əli bir **kök** inəyin boy-nuna ip salıb darta-darta gətirir* (Ə.Əylisli).

**KÖK** VII *sif.* Kefi yüksək olan. *Sənin dövlətindən kefim çox **kökdür*** (Ü.Hacıbəyov).

**KÖKLƏMƏK** I *f.* Musiqi alətlərinin sazlanması. *Bir də tələbələrdən birisi tarı **köklədi,** çəpik qalxdı* (Çəmənzəminli).

**KÖKLƏMƏK** II *f.* İki üzdən tikiş tikmək. *Maşın tumanı yaxşı **kökləyir.***

**KÖKLƏMƏK** III *f.* Dəbərtmək. *Kişi say qoyub, ocağı **kökləmişdi*** (Çəmənzəminli).

**KÖPÜK** I *is.* Bişirilən şeyin üzündə əmələ gələn qabarcıqlar. *Dilbər mürəbbənin **köpüyünü** yığmaq üçün kəfgir gətirdi.*

**KÖPÜK** II *is.* Qəpik. *Axı, o ki bir **köpüyündən** keçən deyil!* (M.İbrahimov).

**KRAN** I *is.* [*holl.*] Lülək. *Burada **krandan** su şırıltı ilə axırdı* (Q.İlkin).

**KRAN** II *is.* [*alm.*] Ağırlıq qaldıran mexanizm. *Bu körpü indiyədək tətbiq olunmamış üsulla, nəhəng **kran** vasitəsilə tikilir* (R.Nağıyev).

**KÜLÇƏ** I *is.* Filiz qırıntısı. *Aslan qranit **külçəsi** kimi ağır və güclü idi* (M.İbrahimov).

**KÜLÇƏ** II *is.* Çörək, bayram çörəyi. *Sağlığında badam yeməyib, **kül-çəsinə** badam vurublar* (Ata. sözü)

**KÜLFƏT** I *is.* [*ər.*] Ailə, oğul-uşaq. *Nə lazım qardaş, kasıb adamam, bir sürü **külfət** sahibiyəm* (N.Vəzirov).

**KÜLFƏT** II *is.* [*ər.*] Arvad, əyal, həyat yoldaşı. *Mən zavodda işləyən Tahirin **külfətiyəm*** (S.Rəhman).

**KÜLLÜ** I *sif.* Kül olan, küllənmiş. *Gördüyün **küllü** kömbədir; bazara çıxıb qoğal olub* (Ata. sözü)

**KÜLLÜ** II *sif.* Çoxlu, saysız-hesabsız. *Kürənin içərisində böyük sıxlığa malik **küllü** miqdarda potensial enerji toplanmışdı* (S.İmanov).

**KÜNDƏ** I *is.* [*fars.*] Yaymaq və yastıqlanmaq üçün müxtəlif ölçülərdə kə-silmiş və girdə şəklə salınmış xəmir parçası. *Anam həmişə **kündəni** xırda tutur.*

**KÜNDƏ** II *is.* [*fars.*] Dustaqların ayaqlarına vurulan bağ, bənd. ***Kün-dənin** tozunu silin, padşahın libası bulanmasın* (Ə.Haqverdiyev).

**KÜP** I *is.* Gildən hazırlanmış böyük su qabı. ***Küpə** girməyən üzüm sirkə olmaz* (Ata. sözü)

**KÜP** II *is.* Balta, bel və s.-nin sap keçirilən yeri. *Qapı yəqin ki, balta **küpü** ilə döyülməkdən əzilib çatlamışdı* (İ.Hüseynov).

**KÜRƏ** I *is.* [*fars.*] Ocaq. *O saat sinəsi dəmirçi **kürəsi** kimi yanmağa başladı* (Dastanlar).

**KÜRƏ** II *is.* [*ər.*] Girdə, şar şəkilli. *Axı, necə dözür bu zərbələrə; Havada fırlanan balaca **kürə**?* (B.Vahabzadə).

**KÜRƏ** III *is.* [*ər.*] Dünya. *Bir səhər bu səslə qalxdım yerimdən; Günəşlə bir baxdım Yer **kürəsinə*** (M.Araz).

**KÜRƏ** IV *is.* Kürəşəkilli ildırım. *Birdən toyuq yumurtası boyda sarı işıq verən **kürə** pəncərədən içəri daxil oldu və dəhlizə keçdi.*

**KÜRƏ** V *sif.* Qulağı uzun olan. ***Kürə** qoyunun yunu çox olur.*

**KÜRƏK** I *is.* Avar çəkmək üçün alət. *Oğlan tez **kürəkləri** buraxıb onu qolları arasına aldı* (S.Qədirzadə).

**KÜRƏK** II *is. anat.* İnsanın arxa tərəfi, qurşaqla çiyinləri arasındakı hissəsi, kürək sümüyü.

**KÜRƏK** III *is.* Torpaq və s. Atmaq üçün ağacdan qayrılmış uzundəstəkli alət. Alməmməd kişinin uşağı çoxuydu. *O, külfətini dolandırmaxdan ötrü... Cavanşir mahalının meşələrindən ağac, taxta daşıyar; **kürək,** şana qayırıb satar, uşaqlarını birtəhər dolandırardı* ("Aşıq Ələsgər" dastanı).

**KÜRƏKLİ** I *sif.* Kürəyi enli. *Mən uzun boylu, enli **kürəkli** komendantımızın yanına gedib, Güləbətinin dediklərini ona danışdım* (M.İbrahimov).

**KÜRƏKLİ** II *sif.* Əlində kürək olan. *Əli **kürəkli** fəhlələr çaydan necə keçməyin planını çəkirdilər.*

**KÜRSÜ** I *is.* [*ər.*] Bir neçə pilləli oturacaq, taxt, stul. *Amma necə deyərlər, kürsüyə çıxmaq bir ayıb, **kürsüdən** düşmək iki ayıb* (Anar).

**KÜRSÜ** II *is.* [*ər.*] Qış zamanı evin içində düzəldilən ocaq, stul. *Cavahir kömür qoyub **kürsü** qurmuş, donmuş ayaqlarını yorğanın altına keçirib Teymur üçün yun corab toxuyurdu.* (H.Seyidbəyli).

**KÜRÜ** I *is.* Balıq, badımcan və s.-nin içində olan yeməli toxumlar. *Masanın üstündə buğlanan çay, təzə təndir çörəyi, bal, yağ, **kürü,** qaymaq yan-yana düzülmüşdü* (M.Əliyev).

**KÜRÜ** II *f.* Kürəklə kürümək; süpürmək, təmizləmək. *Səhər tezdən damın qarını **kürüdü.***

**KÜT** I *is.* Təndirin divarından odun üstünə düşmüş çörək. *Xəmrəmiz arvadlardan olmasa, çörəyimiz **küt** gedər* (Ə.Vəliyev).

**KÜT** II *is.* Kəsəri olmayan alət. *Bu ki lap **kütdür,** – deyib yenidən mətbəxə keçdi* (S.Qədirzadə).

**KÜT** III *sif.* Bacarıqsız, qabiliyyətsiz. ***Küt** beyninə doldurmuşdun faşistlərin dərsini!* (S.Rüstəm).

**KÜTLƏ** I *is.* [*ər.*] Əməkçi xalq, əhali. *Bir yerdə toplanmış həyəcanlı kəndli **kütləsi** qızğın seldən pis olur* (M.İbrahimov).

**KÜTLƏ** II *is.* [*ər.*] Metal, daş və s. iri parçası, yığın. *Meteoritlərin yer üzərinə düşməsi, onların ölçüsü, forması və **kütləsindən** asılıdır* (S.İmanov).

# Qq

**QABAQ** I *is. bot.* Balqabaq. Qarpız, qovun və xiyar cinsindən olub, sarımtıl bostan bitkisidir. *Sonra bibim haradansa bir ovuc **qabaq** toxumu tapdı, bir nimçə qarğıdalı çıxartdı* (Ə.Əylisli).

**QABAQ** II *zərf* İrəli, ön. *Bütün döyüşlərdə getdin **qabaqda;** Nə arxada qaldın, nə də yoruldun* (B.Azəroğlu).

**QABAQ** III *zərf* Əvvəl. ***Qabaqlar*** *biz onunla tez-tez görüşərdik* (İ.Əfəndiyev).

**QABAQLIQ** I *is.* Qadınların alınlarına vurduqları qızıl, gümüş və s.-dən bəzək.

**QABAQLIQ** II *is.* Qabaq əkilmiş yer. *Evimizin qabağı **qabaqlıqdır.***

**QABAR** I *is.* Çox sürtülməkdən, toxunmaqdan, əzilməkdən suluqlamış, yaxud döyənək olmuş yer. *Ayaqlarım yolunda qat-qat **qabar** bağlamış* (R.Rza).

**QABAR** II *f.* Acıqlanmaq, qışqırmaq, xoruzlanmaq. *Dişi aslan naçalnikin üstünə **qabardı*** ("Qaçaq Nəbi").

**QABARMAQ** I *f.* Qabar əmələ gəlmək, qabar olmaq. *Var ol, bala, yorulsa da, **qabarsa** da əl; Bir daş üstə bir daş qoya hər insan* (Ə.Cəmil).

**QABARMAQ** II *f.* Yüksəlmək, qalxmaq, daşmaq. *Dedikcə alışıb yanır gözləri; **Qabardıb** döşünü verir irəli* (S.Vurğun).

**QABLAMA** I *is.* Qulpsuz və ya qulplu qapağı olan kiçik mis qab. *Tamaşa xala bir **qablama** isti süd töküb stola qoydu* (M.Əlizadə).

**QABLAMA** II *is.* Yerbəyer etmə, yerləşdirmə. *Yorğan-döşəyi, pal-paltarı **qabladıqdan** sonra sakitləşdi.*

**QAC** I *is.* Düşmən, zidd, əks. *Mən cəhalətlə əzəldən **qac** idim* (S.Rüstəm).

**QAC** II *is. məh.* Yer sulamaq üçün qazılan kiçik arx. ***Qaca*** *su buraxmaq.*

**QAĞA** I *is. dan.* Hörmət üçün böyük qardaşa, əmiyə, dayıya və ümumiyyətlə, yaxın adama müraciətlə işlənən söz. *Ay **qağa,** nə yatmısan, evimi yığıblar, dur görək bu nə işdir?* (Mir Cəlal).

**QAĞA** II *is. uş.* Uşaq dilində; hər cür şirin, dadlı, yeməli şey.

**QAX** I *is.* Qurudulmuş meyvə. *Pul yoxdur, toyuq, ördək, **qax,** qoz ki vardır, bunları gətirin borclarınıza hesab edək* (S.S.Axundov).

**QAX** II *f. məh.* Yerə vurmaq, çırpmaq; üzə vurmaq. *Bir yaxşılıq eyləyəndə həmişə başa **qaxır.***

**QAXAC** I *is.* Qurudulmuş ət. *Çörək gün altında quruyub **qaxaca** dönmüşdü* (Ə.Əbülhəsən).

**QAXAC** II *is.* Quru, arıq. *Bunlar hamısı o **qaxacın** işləridir, – deyə Nikolay dişlərini qıcadı* (Q.İlkin).

**QALA** I *is.* [*ər.*] Müdafiə məqsədi ilə çəkilmiş istehkam, hasar. *Ətrafında sıldırım, keçilməz **qala** çəkib* (B.Bayramov).

**QALA** II *is.* [*ər.*] Həbsxana, qazamat, dustaqxana. *Saqqalın ağ vaxtı bu günə düşdüm; Yenə də **qalalar** küncünə düşdüm* (S.Vurğun).

**QALIN** I *sif.* Sıx. *Saman və ot tayaları, **qalın** kol-kos, yaşıl ağaclar islandıqca havanı xoş bir ətirlə doldururdu* (M.İbrahimov).

**QALIN** II *sif.* Yoğun. *Evin divarı **qalındır.***

**QALIN** III *sif. dan.* Pullu, dövlətli. *Yaman **qalın** adamdır, iki maşın almağa imkanı var.*

**QAN** I *is.* Orqanizmdə damarlarla dövr edib, onun bütün hüceyrələrinin qidalanmasını və maddələr mübadiləsini təmin edən qırmızı maye. *Bıçaq vursan **qanı** çıxmazdı* (B.Bayramov).

**QAN** II *f.* Anlamaq, başa düşmək. *Ay balam, eybini **qan**; Bir həya eylə, utan!* (M.Ə.Sabir).

**QANLI** I *is.* Qatil. *Hər bir halda **qanlı qanlıdan** əl çəkməz* (C.Cabbarlı).

**QANLI** II *sif.* Qana batmış, qana bulaşmış. *Fəhlələrdən bir neçə nəfəri Qurbanın **qanlı** cənazəsini kazarmaya gətirdilər* (M.İbrahimov).

**QANUN** I *is.* [*ər.*] Hamı üçün məcburi olan üsul, qayda, hökm. *Deyirlər, yatacaq yenə mədənlər; Sizin **qanunda** da yoxdur bir kəsər* (S.Vurğun).

**QANUN** II *is.* [*ər.*] Bəzi Şərq ölkələrində uzunsov dördbucaq taxta üzərində gərilmiş simlərdən ibarət musiqi aləti.

**QAPILMAQ** I *f.* Dartıb almaq, qamarlamaq. *Papağı başından **qapıldı.***

**QAPILMAQ** II *f.* Bir şeyə həddindən artıq aludə olmaq, uymaq. *Bütün varlığı ilə başladıqları işin şövqünə **qapılmışdı*** (M.İbrahimov).

**QARA** I *is.* Yer kürəsinin torpaqla örtülü hissəsi; torpaq. ***Qarada** və suda.*

**QARA** II *is.* Plovla yeyilən, müxtəlif şeylərdən hazırlanmış xuruş. *Plovun **qaralarını** gətirdilər.*

**QARA** III *is.* Yazı, xətt, hərf. *Hə, hə, heç bilmirsiniz ki, onun üstündə mən nə zəhmət çəkmişəm, **qaraları** bir-bir ona tanıtmışam* (H.Sarabski).

**QARA** IV *sif.* Pis. ***Qara** xəbər tez yetişər.*

**QARA** V *sif.* Bütün rənglərin ən tündü, ən tutqunu; his, kömür rəngi. *Həmin gecə göy üzünü **qara** buludlar tutub, şiddətli yağmur yağmağa başlayır* (S.S.Axundov).

**QARACA** I *is. k.t.* Dəni qara toz halına salan taxıl xəstəliyi.

**QARACA** II *is.* Azərbaycanda bitki adlarından biri.

**QARACA** III *sif.* Qara rəngli, qaramtıl. *Tutu çox qara və çirkin idi. Anası ona körpə vaxtından "**Qaraca** qız" deyib əzizlədiyinə görə əsil adı unudulub, hər kəs onu bu adla çağırırdı* (S.S.Axundov).

**QARAÇI** I *is.* Köçəri və yarımköçəri həyat keçirən bir xalq.

**QARAÇI** II *sif. dan.* Qışqırıqçı, küy-kələkçi, həyasız. *Yoxsa, o mənim saçlarımı yolar, yaman **qaraçı** arvaddır* (C.Əmirov).

**QARAGİLƏ** I *is.* Turş meyvəsi olan kol bitkisi və onun meyvəsi. *Bu meşələrdə milyonlarla özü özbaşına bitən alma-armud, **qaragilə,** alça, zoğal, hər nə desən var* (S.Rəhimov).

**QARAGİLƏ** II *is.* Azərbaycan xalq havalarından birinin adı. *Bu, Cənubi Azərbaycanda məşhur olan **"Qaragilə"** mahnısı idi* (M.İbrahimov).

**QARAYANIQ** I *sif.* Qarabəniz, qarayağız. *Kəlbalı alçaqboylu... gödək qılçaları xeyli içəriyə əyilmiş **qarayanıq** adam idi* (S.Rəhimov).

**QARAYANIQ** II *sif. dan.* Zəhmətkeş, kasıb. *Əşi, sən ki **qarayanıqsan,** nədən qorxursan.*

**QARĞA** I *is.* Leş və böcəklərlə qidalanan qara və ala quş. *Mırt-mırt oxuyub mırtıldayırsan; **Qarğa** kimi hey qırıldayırsan* (M.Ə.Sabir).

**QARĞA** II *f.* Qarğış etmək, nifrət etmək. ***Qarğadı** hər gəlin, qız öz uğursuz baxtına* (Ə.Cəmil).

**QARI** I *is.* Qoca qadın, qoca arvad. *Budur! Dünya görmüş o **qarıya** bax; Mənalı gözləri intizardadır* (S.Vurğun).

**QARI** II *sif.* Qatı, qəddar, kinli. ***Qarı** düşmən tab gətirməz bilirəm ki, süngünə* (S.Rüstəm).

**QARIŞ** I *is.* Açıq əlin baş barmağından çeçələ barmağın ucuna qədər olan məsafə. *Sarsılmaz qaladır hər **qarış** yerin* (R.Rza).

**QARIŞ** II *f.* Müdaxilə etmək, iştirak etmək, birləşmək, qoşulmaq. *Söndür qəzəbini, bəylərlə barış; Sənə qulluq verək bizlərə **qarış*** (S.Rüstəm).

**QARIŞMAQ** I *f.* Müdaxilə etmək, araya girmək. *Sən onun işinə **qarışma.***

**QARIŞMAQ** II *f.* Dolaşıq düşmək, qatma-qarışıq olmaq. *Mənim işlərim bir-birinə **qarışıb.***

**QARQARA** I *is. xüs.* Ağır şeyləri qaldırmaq üçün düzəldilmiş çarx. *Pəncərə taxtasının altına hər metrdən bir **qarqara** vurmağı və ştepseli məftilin ucuna bağlamağı Səfa boynuna götürdü...* (M.İbrahimov).

**QARQARA** II *is.* Ağzı, boğazı yaxalama, dezinfeksiya etmə. *Bronxial astma xəstəliyinin müalicəsi masaj və **qarqara** ilə aparılır* ("Jurnalist").

**QARQARA** III *is. məh.* Qışda suyun üzündə olan buz qatı. ***Qarqara** qışda olar* ("Dialektoloji lüğət").

**QARŞI** I *is.* Müqabil tərəf, qabaq. ***Qarşısında** ilk məhəbbətin canlı heykəlini gördü* (Anar).

**QARŞI** II *qoşma* Haqqında, barəsində. *Ürəyində nənəsinə **qarşı** zərrə qədər də şübhə oyanmırdı* (M.Hüseyn).

**QART** I *is. dan.* Kəsər alətləri itiləmək üçün daş, bülöv. *Dəryazları **qart** ilə itiləmək* ("İzahlı lüğət").

**QART** II *sif.* Qocalmış. *Ağır yaralanmış o **qart** canavar; Qəzəblə sıçrayır hey üstümüzə* (S.Vurğun).

**QART** III *sif.* Qatı, qəddar. *Sülhün **qart** düşmənləri indi titrəmir əbəs* (Ə.Cəmil).

**QAŞ** I *is.* İnsanın gözləri üstündə qövs şəklində uzanan tüklərdən ibarət xətt. *Qızın xəncər kimi çatılır **qaşı**; Axır yanağına isti göz yaşı* (O.Sarıvəlli).

**QAŞ** II *is.* Sağanaqdakı qiymətli daş. ***Qaşı** cavahirat, qızıldan kəmər; Görürdün geyinib yaşıl-al gəlir* (Aşıq Qurbani).

**QAŞ** III *is.* Axşam, şər. ***Qaş** qaralırdı* (Anar).

**QAŞQA** I *is.* Mal-qaranın, atın alnındakı ağ hissə. ***Qaşqa** at altımda qoruqdan gəlirdim* (S.S.Axundov).

**QAŞQA** II *is. məh.* Alın. *Güllə canavarın **qaşqasından** dəymişdi.*

**QAŞQA** III *sif. dan.* Tərs, həyasız, sırtıq. *Bəsdir, **qaşqa** uşaq olma.*

**QAT** I *is.* Lay, təbəqə, büküm. *Göylərin **qatına** ucaldı fəryad; O qırğın Qafqazda tutar qoymadı* (S.Vurğun).

**QAT** II *f.* Əlavə etmək, birləşdirmək. *O iki atı ilxıya **qat**!* (Dastanlar).

**QAT** III *num. söz* Dəfə, kərə. *Çünki milyonlardan yüz **qat** azsınız; Deyərək Bəxtiyar bir nişan aldı* (S.Vurğun).

**QATAR** I *is.* [*ər.*] Sərnişinləri daşıyan vaqonlar. ***Qatarım*** *qışqırıb ötən zamanı; Sürülər, naxırlar qaçıb dağılır* (O.Sarıvəlli).

**QATAR** II *is.* [*ər.*] Dəstə, karvan. *Yaxşı yadımdadır, Cənuba sarı; Uçub qaqqıldaşan durna* ***qatarı*** (S.Vurğun).

**QATAR** III *is.* [*ər.*] *mus.* Azərbaycan klassik muğamlarından birinin adı. Zil registrə əsaslanan muğam. *Bir ağız şikəstə, bir ağız* ***qatar;*** *Azərbaycan qızı sinəsində tar!* (S.Vurğun).

**QATLANMAQ** I *f.* Bükülmək, iki qat olmaq. *Asya süfrənin ucunu* ***qatladı*** (Mir Cəlal).

**QATLANMAQ** II *f.* Dözmək, tab gətirmək. *O gün mən ağır və ən çətin dəqiqələrə* ***qatlandım*** (S.Vurğun).

**QAYIN** I *is.* Ər və ya arvadın qardaşı. *Ay aman, ay qız,* ***qaynın*** *gəlib evlərdən səni axtarır* (C.Cabbarlı).

**QAYIN** II *is. bot.* Möhkəm oduncaqlı, qollu-budaqlı ağac, ağcaqayın. *Bir qədər aralıda isə "qızlar", qəşəng* ***qayın*** *ağacları görünürdü* (C.Əlibəyov).

**QAYMAQ** I *is.* Südün üzü. *Əşrəfgil təzə camış* ***qaymağından*** *bir-iki qaşıq götürdülər* (İ.Şıxlı).

**QAYMAQ** II *is. bot.* Çiçəyin bir növü. *Sarı* ***qaymaq*** *çiçəkləri, qrammofon gülləri yaşıllığı daha da gözəlləşdirirdi* (İ.Şıxlı).

**QAYNAQ** I *is.* Bir şeyin qaynayıb çıxdığı yer; mənbə. *Deyirəm sevincdən axan yaşların;* ***Qaynağı*** *dərindi, kökü dərindi* (B.Vahabzadə).

**QAYNAQ** II *is. tex.* Metalda əritmə yolu ilə calanan yer, qaynayıb bitişən yer. *Qoruyucu borular adətən 6-10 m uzunluğunda olub, bir-biri ilə* ***qaynaq*** *vasitəsilə birləşdirilir* (Quliyev).

**QAZ** I *is. zool.* Ördəyə bənzər, lakin ondan böyük, uzunboğaz, əti yeyilən su quşu.

**QAZ** II *is.* [*fr.*] *kim.* Maddə, fiziki cisim. *Yerdən çıxan* ***qazı*** *qədim adamlar ilahi bir şey hesab edərdilər* (M.Hüseyn).

**QAZAĞI** I *is. mus.* Azərbaycan oyun havalarından biri. *Toyda həmişə* ***qazağı*** *çaldırardı.*

**QAZAĞI** II *is.* Yəhərin bir növü. ***Qazağı*** *yəhərin, düşüb böyrünə; Qırılmış cilovun, taydır üzəngin* (M.Rahim).

**QAZAN** I *is.* İçində xörək bişirmək, su qaynatmaq və s. üçün böyük girdə metal qab. *Ocaq daşının üstündəki iri* ***qazandan*** *plov qoxusu gəlirdi* (Ə.Vəliyev).

**QAZAN** II *f.* İşləməklə, çalışmaqla əldə etmək, qazanc götürmək. *Kərbəlayı Məmmədəli iki il yarımdır ki, qürbətə çıxıb, az-çox çörək pulu **qazansın*** (C.Məmmədquluzadə).

**QAZI** I *is.* [*ər.*] *tar.* Müsəlmanlarda dini məhkəmə işlərinə baxan ruhani, şəriət hakimi.

**QAZI** II *f.* Kəskin bir alətlə bir şeyin səthindəki şeyi qoparmaq, təmizləmək. *Taxtanı bıçaqla **qazımaq.***

**QAZINTI** I *is.* Yer altından qazımaqla çıxarılan mədən və s. faydalı süxurlar. *Azərbaycan faydalı **qazıntılarla** çox zəngindir.*

**QAZINTI** II *is.* Bir şeyin qazılmasından əmələ gələn qırıntı, tör-töküntü. *Ət taxtası **qazıntısı.***

**QAZMA** I *is.* Torpaq qazımaq üçün istifadə olunan saplı alət. *Güldanə ilə Bənövşənin əlində **qazma,** Tərgülün əlində vedrə, Gülxarla Gülşənin əlində bel var idi* (Ə.Vəliyev).

**QAZMA** II *is.* Yeraltı daxma, yaşayış yeri. *Enirəm **qazmaya... Qazma** soyuq, dar* (Ə.Cəmil).

**QEYD** I *is.* [*ər.*] Qısa şəkildə yazma. *Əzizbəyovun gözləri yazı stolunun üstündəki **qeydlərinə** sataşdı* (M.Hüseyn).

**QEYD** II *is.* [*ər.*] Fikir, qayğı, narahatlıq. *Hər kəs öz qohum-əqrəbasını aramağa məşğul olub, Qaraca qızın **qeydinə** qalan yox idi* (S.S.Axundov).

**QEYRİ** I *sif.* [*ər.*] Özgə, yad, kənar, başqa. *Bahadır **qeyri** bir halətdə idi* (N.Nərimanov).

**QEYRİ** II *qoşma* Seçilmə, fərqlənmə, əlavə mənalarında. *Zərif İran xalçası ilə döşənmiş balaca otaqda Firidundan **qeyri** heç kəs yox idi* (M.İbrahimov).

**QƏDƏR** I *is.* [*ər.*] Qeyri-müəyyən miqdar, say, kəmiyyət. *Hər şeyin **qədəri** vardır* ("İzahlı lüğət").

**QƏDƏR** II *is.* [*ər.*] Tale, qismət, müqəddərat. *Vali buyurdu ki, həm yeməsin çox; **Qədər** yazdığına çarə yox* (R.Rza).

**QƏDƏR** III *qoşma* Qabaq, əvvəl. *Bir məsələ haqqında qəti qərara gələnə **qədər** xeyli düşünərdi* (M.İbrahimov).

**QƏRAR** I *is.* [*ər.*] Çıxarılan nəticə, qətnamə; fikir, mülahizə. *Vera, yığıncağınızda nə **qərara** gəldiniz?* (S.S.Axundov).

**QƏRAR** II *is.* [*ər.*] Səbir, dözüm, təmkin, durma. ***Qərarım** tutarmı, onu anmasam; Onun xəyalıyla oda yanmasam?* (Ə.Cəmil).

**QƏRƏZ** I *is.* [*ər.*] Məqsəd, niyyət, məram. *Bəs indi mənim yanıma gəlməkdən **qəraziniz** nədir?* (M.F.Axundzadə).

**QƏRƏZ** II *is.* [*ər.*] Ədavət, kin. *Şəxsi düşmənçilikdən doğan tənqid, bir parça **qərəzdən** ibarətdir* (M.S.Ordubadi).

**QƏRƏZ** III *ara söz* [*ər.*] Xülasə, sözün qısası. ***Qərəz**, sözüm ondadır ki, bu işdə sən bizə mane olursan* (S.Qədirzadə).

**QƏSD** I *is.* [*ər.*] Niyyət, məqsəd, məram. *Xudayar bəyin **qəsdi** Zeynəbin və səqirlərin var-yoxuna... sahib olub, Zeynəbi çölə ötürmək idi* (C.Məmmədquluzadə).

**QƏSD** II *is.* [*ər.*] Sui-qəsd, birini öldürmək məqsədilə edilən təşəbbüs. ***Qəsd** eləmişdin nə üçün canına; Olmuş idin təşnə onun qanına?* (A.Səhhət).

**QƏZA** I *is.* [*ər.*] Bədbəxt hadisə, fəlakət. *Elə bil ki, yelkənin **qəzaya** uğramışdı!* (Ə.Cəmil).

**QƏZA** II *is.* [*ər.*] 1918-ci il inqilabından əvvəl inzibati ərazi vahidi. *Ona görə ayıbına gəldi ki, axı **qəza** naçalniki idi* ("Qaçaq Nəbi").

**QIR** I *is.* Evlərin damına salınan qara rəngli qatı maddə. *Evlərin damındakı **qır** əriyib, divar aşağı süzülürdü* (N.Babayev).

**QIR** II *is. köhn.* Düzən, çöl. *Cənnət qoxan **qırlar,** əngin obalar; Bir atlazdır yaşıl, ucu görünməz* (A.Şaiq).

**QIR** III *f.* Sındırmaq. *Ləpələr bu pilləkənləri saxsı qab kimi vurub **qırır*** (Mir Cəlal).

**QIRX** I *say.* Otuz doqquzdan sonra gələn rəqəm. *Hərarəti həmişə **qırx** ilə **qırx** iki arasındadır* (M.İbrahimov).

**QIRX** II *f.* Tükləri ülgüc və ya qayçı ilə dibindən kəsmək. "*Tütünçüoğlu*" *ülgücü və qayçını çıxarıb Molla Qurbanın bığlarını və saqqalını **qırxdı*** (M.S.Ordubadi).

**QIROV** I *is. coğr.* Yerə, yarpaqlar və s. üzərinə düşən buz kristalları, şehin donmuş zərrələri. *Atım köpüklənir, atım buğlanır; Donmuş **qırov** kimi sinəsində tər* (S.Vurğun).

**QIROV** II *is.* Gözdə əmələ gələn cüzi görməməzlik; göz nöqsanı.

**QIYMAQ** I *f.* Gözlərini yarı yumaraq, qısaraq baxmaq. *Hesabdar gözlərini **qıyıb** üfüqdə iki boy qalxmış günəşə baxdı* (M.İbrahimov).

**QIYMAQ** II *f.* Heyfi gəlmək. *Ay zalım oğlu, adam da İsgəndər kimi oğlana **qıyıb** güllə atarmı?* (Ə.Haqverdiyev).

**QIZ** I *is.* Qadın cinsindən olan uşaq, övlad. ***Qızlar,*** *oğlanlar yanaşı oturmuşdular* (M.Hüseyn).

**QIZ** II *f.* Bərk istilik almaq, hərarət almaq. *Otağa cənub küləyinin ılıq şüaları dolur, beləliklə, ev bir az daha* ***qızırdı.*** (Ə.Əbülhəsən).

**QIZIL** I *is.* Rəngi sarı olan qiymətli metal.

**QIZIL** II *sif.* Al-qırmızı. *Uzun enli və düz küçədə* ***qızıl*** *bayraqlar görünürdü* (M.Hüseyn).

**QIZILCA** I *is. tib.* Səpki (xəstəlik). *Uşaq* ***qızılca*** *çıxardıb.*

**QIZILCA** II *is. bot.* Meyvə. *Bütün qışı uşaqlardan hansının cibinə əl atsaydın, göyəm qurusu, ya* ***qızılca*** *tapardın.* (İ.Hüseynov).

**QIZINMAQ** I *f.* İsinmək, istiləndirmək. *Mən istədim ki, sizdə bir az* ***qızınıb*** *rahat olam* (S.S.Axundov).

**QIZINMAQ** II *f.* İnanmaq, bel bağlamaq. *Bütün Təbrizdə sizdən başqa,* ***qızınıb*** *etibar edəcəyim bir nəfər də adam tapmıram* **(**M.F.Axundzadə).

**QIZMAQ** I *f.* Hərarət almaq, istilənmək. ***Qızdı*** *günəş, əsdi isti yellər; Qarlar əridi, axışdı sellər* (A.Şaiq).

**QIZMAQ** II *f.* İnanmaq, bel bağlamaq, etibar etmək. *Axı, ürəyim* ***qızmır,*** *– dedi, – yad ölkə, uzaq yer* (Çəmənzəminli).

**QİSMƏT** I *is.* [*ər.*] Tale, bəxt. *İkimiz eylərik onda söhbət; Görək Allah nə eyləyir* ***qismət*** (M.S.Ordubadi).

**QİSMƏT** II *is.* [*ər.*] Pay. *Hər tərəfdə olursa bir sirqət; Verilirdi ona böyük* ***qismət*** (M.S.Ordubadi).

**QİTƏ** I *is.* [*ər.*] *coğr.* Yer kürəsinin okean və dənizlərlə əhatə olunmuş böyük hissələrindən hər biri. *Amerika* ***qitəsi.***

**QİTƏ** II *is.* [*ər.*] *ədəb.* Azı iki beytdən ibarət və birinci beyti sonrakılarla həmqafiyə olmayan kiçik şeir.

**QOÇ** I *is.* Qoyunun erkəyi, damazlıq erkək qoyun. *İsmayıla gələn* ***qoçun*** *anası hansı ayda, gündə qoça gəlibdir?* (Dastanlar).

**QOÇ** II *sif.* İgid, qoçaq. ***Qoç*** *Koroğlu, düz yeddi ildir ki, mən bu yolların ağasıyam* (Dastanlar).

**QOL** I *is.* İnsan bədəninin üzvü. *Odur, bir tərəfdə anam büzüşmüş; Yatmışdır, başının altında* ***qolu*** (B.Azəroğlu).

**QOL** II *is.* İmza. *Necə etməz, bəs bu boyda peçatı, bu yoğunluqda* ***qolu*** *görmürsən?* (M.İbrahimov).

**QOL** III *is.* [*ing.*] *idm.* Futbolda qapıdan topun keçməsi nəticəsində əldə edilən xal. *Birdən oğlan qışqırır; "Dinamo"* ***qol*** *vuracaq!* (M.Rahim).

**QORA** I *is.* Cır üzüm, üzümün dəyməmişi. *Cavahir talvardan asılmış* ***qora*** *salxımlarını ona göstərib dedi.* (H.Seyidbəyli).

**QORA** II *is.* Yaş, acı göz yaşı. *Sıxır gözünün* ***qorasını*** *ki, bir şey olmasa deməzlər* (Anar).

**QOŞMA** I *is. ədəb.* Hər misrası on bir hecadan ibarət olan beş bəndli şeir. *Mən səni görmüşəm on beş il əzəl; Dilində bir* ***qoşma,*** *bir dərdli qəzəl* (S.Vurğun).

**QOŞMA** II *is. qram.* Hallana bilən sözlərlə işlənərək onlarda müxtəlif məna əmələ gətirən köməkçi söz (məs.: *görə, ötrü, kimi* və s.).

**QOŞMA** III *sif.* Qoşulan, özü hərəkət edə bilməyən. ***Qoşma*** *vərdənələri traktorlara qoşurlar.*

**QOŞMAQ** I *f.* Bağlamaq, bənd etmək. *Payızın əvvəlində Nurəddin arabasını* ***qoşub,*** *şəhərə kirayəçiliyə getdi* (S.S.Axundov).

**QOŞMAQ** II *f.* Getmək, bir tərəfə üz tutmaq, yüyürmək. *Kənd uşaqları əllərində badya, mis kasa dərəyə doğru* ***qoşurdular*** (A.Şaiq).

**QOV** I *is.* Tez alışan yumşaq maddə. *Çaxmaq daşına* ***qov*** *qoyub çəkdi* (M.İbrahimov).

**QOV** II *f.* Çıxıb getməyə, rədd olmağa məcbur etmək. *Atam müfti idi, mən artistliyə gedəndə* ***qovdu*** *məni evdən* (Anar).

**QOVAQ** I *is. bot.* Söyüd fəsiləsindən olan qollu-budaqlı ağac. *Sənin sayəndədir rus kəndliləri; Azad nəfəs alır* ***qovaq*** *altında* (M.Rahim).

**QOVAQ** II *is.* Tüklərin arasında olan kəpək, qabıq. *Başı* ***qovaqla*** *doludur.*

**QOY** I *f.* Yerləşdirmək; buraxmaq; saxlamaq. *Kərim kitabı büküb pəncərəyə* ***qoydu*** (M.İbrahimov).

**QOY** II *ədat* Əmr, çağırış, hədə, arzu və s. mənalarında işlədilir. ***Qoy*** *mənə işləməyə icazə versinlər* (H.Seyidbəyli).

**QOYUN** I *is.* Gövşək ev heyvanı. *Canavarlar yedi bütün* ***qoyunu;*** *İştə, oğlum, yalançılıq oynu* (M.Ə.Sabir).

**QOYUN** II *is.* Ağuş, qucaq. *Qadın dəniz kimidir;* ***Qoynu*** *incilərlə dolu* (B.Azəroğlu).

**QOYUN** III *ədat* Əmr, çağırış, hədə, arzu və s. mənalarında işlədilir. ***Qoyun,*** *Ağayi Kürd Əhməd hökm versin* (M.İbrahimov).

**QUL** I *is. tar.* Müharibədə əsir tutulub satılan adam. *Təbiətin ana qəlbi **qul** doğmamış insanı!* (S.Vurğun).

**QUL** II *is.* [*ər.*] Qulyabanı, canlı kimi görünən qorxunc xəyal.

**QULLUQ** I *is.* Xidmət, iş, vəzifə. *Qulam mətbəədə **qulluğa** düzəldi* (Mir Cəlal).

**QULLUQ** II *is. köhn.* Qul olmuş adamın halı; köləlik.

**QULP** I *is.* Dəstə, sap. *Səhəngi çiynində rahatlayıb qolunu **qulpuna** keçirdi* (İ.Şıxlı).

**QULP** II *is.* Əmma, bəhanə axtarma, əllaməlik etmə. *Heç bir hədiyyə də olmazdı ki, Nazlı ona **qulp** qoymasın* (C.Gözəlov).

**QUNDAQ** I *is.* Körpə uşaqları sarımaq üçün sarğı ləvazimatı.

**QUNDAQ** II *is.* Tüfəngin ağac hissəsi. *Gülllədən tüfənginin parçalandı **qundağı*** (S.Rüstəm).

**QURAQ** I *is.* Paltarın bir yerinə artırılmış parça.

**QURAQ** II *zərf* Yağmursuz, quru. *Bəzən də ruzigar dəyişir, hava elə **quraq** keçir ki, cücü əlindən yollardan ötmək olmur* (Mir Cəlal).

**QURD** I *is.* Canavar. *Məhəbbət olmayan bir məzarlıqda; **Qurd** kimi parçalar insan insanı* (S.Vurğun).

**QURD** II *is. zool.* Yumşaq bədənli, uzunsov, ayaqsız, sürünərkən hərəkət edən kiçik heyvan. *Eşqsiz yaşayan donuq bir insan; İçini **qurd** yemiş boş bir ağacdır* (S.Vurğun).

**QURĞU** I *is.* Mexanizm, maşın, texniki avadanlıq. *Orda keşik çəkən bütün fəhlələr; Gözü tək qoruyur bu **qurğuları*** (S.Vurğun).

**QURĞU** II *is. dan.* Büsat, təntənə. *Zülümünü nümayan eylədin aşkar; **Qurğular** pozulub, sanlar itibdir* (Aşıq Ələsgər).

**QURĞU** III *is.* Hiylə, kələk. *...Hampaları Gorus şəhərinə toplayıb gecə-gündüz məsləhət-məşvərət keçirəndən sonra axır belə bir **qurğu** qurmuşdu* (S.Rəhimov).

**QUR-QUR** I *is. dan.* Boruşəkilli qab. *Ay qız, **qur-qurda** su gətir, içək.*

**QUR-QUR** II *səs təql.* Daxildə əmələ gələn səs. *Su içdikcə boğazında **qur-qur** səsi gəlirdi.*

**QURŞAQ** I *is.* Belbağı. *Məmmədhəsən əlini eşşəyinin **qurşağına** salıb çəkə-çəkə apardı* (C.Məmmədquluzadə).

**QURŞAQ** II *is. coğr.* Yer kürəsi səthinin iki meridian arasındakı hissəsi. *Avropa tamamilə mülayim **qurşaqda** yerləşən yeganə qitədir.*

**QURŞAMAQ** I *f.* Belinə bağlamaq. *Qoy qılınc **qurşasın** müstəmləkələr* (S.Vurğun).

**QURŞAMAQ** II *f. məc.* Dolamaq, ələ salmaq. *İstəyirlər özək katibini heçə döndərib Xədicə Soltanı **qurşasınlar*** (Mir Cəlal).

**QURU** I *is.* Torpaq, qitə, yer. *...Biz cəld sudan çıxdıqda ilan da üstümüzə hücum edərək **quruya** çıxdı* (S.S.Axundov).

**QURU** II *sif.* Yaş olmayan. *Bir ulağın üstə **quru** odun satırdı* (B.Azəroğlu).

**QURU** III *f.* İflic olmaq, hərəkətdən qalmaq. *Acı dilim **qurusun;** Dilim, onu uçurdu* (İ.Səfərli).

**QURULU** I *sif.* Quru olan, yaş olmayan. ***Qurulu**-yaşlı meşə odunu yandırırdılar* (M.İbrahimov).

**QURULU** II *sif.* Hazır. *Qapıdan çıxanda köksünü ötürdü və **qurulu** qoyub getdiyi evə son dəfə baxdı* (İ.Şıxlı).

**QURULUŞ** I *is.* İctimai, dövlət sistem üsulu, idarə üsulu. *Sosializm **quruluşu.***

**QURULUŞ** II *is.* Əsərin düzülüşü, daxili tərtibatı. *Məndə bütün Moskva teatrlarının **quruluşları** vardır* (Anar).

**QURUM** I *is.* Sobaların, bacaların iç divarlarında tüstüdən əmələ gələn kəsif maddə; his.

**QURUM** II *is.* Cəmiyyət. *Türkiyədə dil **qurumu**.*

**QURUMAQ** I *f.* Yaşlığı, nəmliyi yox olmaq, quru vəziyyətə düşmək.

**QURUMAQ** II *f.* Arıqlamaq, zəifləmək, üzülmək. *Köhnə dost, yaxşı hafizən var, amma zaman səni yaman **qurudub*** (M.İbrahimov).

**QUZĞUN** I *is.* Dəniz. ***Quzğunun** kənarında varmış qədim bir şəhər* (M.Müşfiq).

**QUZĞUN** II *is. zool.* Qarğa növündən iri və sürətlə şığıyan yırtıcı quş. ***Quzğun** tutar kimi zərif bir quşu* (M.Müşfiq).

**QUZULAMAQ** I *f.* Quzu doğmaq, balalamaq. ***Quzuladı** qoyun, töküldü döllər; Yaylaq həvəsini qıldı ellər* (Xətayi).

**QUZULAMAQ** II *f.* Yumşalıb, narınlaşmaq, ovulub tökülmək. *Palçıq çıxır qurşağa, **quzulamış** səngərdə* (R.Rza).

# Ll

**LAX** I *sif.* Boş, sərbəst. *...Dili üst damağında asılıb qalmış **lax** dişinə toxuna-toxuna, alver edirmiş kimi dilləndi* (H.Seyidbəyli).

**LAX** II *sif. Qoxumuş, iylənmiş. **Lax** yumurtanı yerə vuran kimi hər tərəfi qoxumuş iy bürüdü.*

**LAK** I *is.* [*alm.*] Spirtdə həll edilmiş qatran. *Küçələr də parıldayırdı. **Lak** çəkilmiş qara çəkmə kimi* (Anar).

**LAK** II *is.* Dağıstan xalqlarından birinin adı.

**LAL** I *sif.* Danışa bilməyən adam. *Ancaq Dilbər, mənim atam **laldır,** onun buraya gəlməsi...* (C.Cabbarlı).

**LAL** II *zərf* Sakit. *Gecə sakit, gecə **lal;** Ətraf sükut içində* (B.Azəroğlu).

**LAVA** I *is.* [*ital.*] Vulkanın ağzından çıxan ərgin və odlu maye. *Yanar **lava** bir zaman bu yerləri külə döndərib.*

**LAVA** II *is.* [*ital.*] *köhn.* Kazaklarda hücum üsulu; basqın, axın.

**LAVA** III *is.* Şaxtada kömür qatı. *Zərbə bu **lavaya** çatanda şaxtada güclü bir titrəyiş hiss edildi.*

**LAY** I *is.* Qat. *Öyrənilməmiş **laylardır.** Geoloqlar da səhv edə bilərlər* (M.İbrahimov).

**LAY** II *is.* Bütöv. *Görür ki, qəflətən çəkib bıçağı; Biri o birinin köksünə çaxır; Sanki **lay** divarı uçurub yıxır* (F.Mehdi).

**LƏPƏ** I *is.* Fındıq, badam və qozun içi. *Çöpün ucunu qoz **ləpəsindən** yuxarı çıxartdıq* (S.S.Axundov).

**LƏPƏ** II *is.* Dalğa. *Bahara nəğmə qoşar hər bəyaz qanadlı **ləpə*** (S.Rüstəm).

**LƏPƏLİ** I *sif.* Ləpəsi olan meyvə. ***Ləpəli** qozları ləpəsizlərdən seçmək lazımdır.*

**LƏPƏLİ** II *sif.* Dalğalı, dalğası olan. *Hər şeyin sahili var; **Ləpəli** dərya kimi* (A.Cəfər).

**LİL** I *is.* Ən xırda qum, çöküntü. *Kür bulanır **lilindən;** Baş açmıram dilindən* (Bayatı).

**LİL** II *is.* Göy rəngli maddə. ***Lil** rənginə çalan bəbəkləri əvvəl böyüdü, sonra kiçildi* (M.Əliyev).

**LİNG** I *is. k.t.* Qaldırıcı alət. *O, **linglə** tiri qaldırdı* (İ.Şıxlı).

**LİNG** II *is.* Kəmər oyununda dairənin içərisində durana vurulan zərbə. *Əli elə **ling** vurdu ki, Hüseyn o dəqiqə yıxıldı.*

**LİRA** I *is.* [*yun.*] *mus.* Simli musiqi aləti.

**LİRA** II *is.* [*yun.*] Nəğmə, mahnı. *Bu böyük günlərə min dastan deyir; Şairin **lirası,** aşiqin sazı* (S.Vurğun).

**LOPA** I *is.* Məşəl, alov. *Qızlar, gəlin biz də **lopa** yandıraq; Dünya işıqlansın ilk səhər kimi* (S.Vurğun).

**LOPA** II *is.* Topa, yığın. *Nədənsə hündür şam ağacının budaqlarındakı qar **lopası** qopub yerə düşdü* (M.İbrahimov).

# Mm

**MACAR** I *is.* Avropada yaşayan xalqlardan biri. *Məhbuslar müəyyən sektorlara bölünmüşdü. Rus sektoru, çex, polyak, rumın, yuqoslav, yəhudi,* ***macar*** *sektorları* (Q.Xəlilov).

**MACAR** II *is.* Təzəcə hazırlanmış çaxır. ***Macardan*** *iki bakal içdi.*

**MADDƏ** I *is.* [*ər.*] Əşya, materiya. *Məhlula ağırlaşdırıcı* ***maddələr*** *qatmaq olar* (M.İbrahimov).

**MADDƏ** II *is.* [*ər.*] Qanun, qərar və sairənin hər bir bəndi. *Bu* ***maddələri*** *utopiya adlandırmaq nə qədər yanlışdırsa, real hesab etmək də o qədər qorxuludur* (M.Hüseyn).

**MAHMIZ** I *is.* Çəkmənin dabanındakı dəmir. *Kor ata* ***mahmız*** *vursa, xətrinə dəyər* (M.Hüseyn).

**MAHMIZ** II *is. bot.* Ətirli otlardan biri. ***Mahmızcıq*** *otu.*

**MAHMIZ** III *is. məh.* Xoruzun ayaqlarında olan buynuza oxşar hissə.

**MAL** I *is.* Satılmaq üçün çıxarılan hər hansı əşya. *Söylənir Şəkinin ipək* ***malları;*** *Quba xalçasının qara xalları* (S.Vurğun).

**MAL** II *is.* İribuynuzlu ev heyvanı. *Nə* ***mal,*** *qoyun mələşməsi; Nə də isti bir ocaq var!* (S.Vurğun).

**MAL** III *is.* Dövlət, var. *Çuval-çuval daşınmış; Ağanın halal* ***malı*** (B.Azəroğlu).

**MALA** I *is.* Divara çəkilən cilalı suvaq. *Daş daşıyanlardan tutmuş* ***mala*** *çəkənlərə qədər hamı əlindəki işi qoyub mənim üzümə heyran-heyran baxırdı* (S.Rəhman).

**MALA** II *is.* Kvadrat şəkilli kənd təsərrüfat aləti. *Orada qarğıdalı əkəcəyəm.* ***Malasın*** *.. traktor ilə çəkəcəyik* (M.İbrahimov).

**MAMA** I *is. məh.* Atanın bacısı, bibi. *Mən* ***mamagilə*** *gedirəm.*

**MAMA** II *is.* Uşaq doğuzduran şəfqət bacısı. *Xəstəxanada otuz ildən çox* ***mama*** *olmuşam* (Anar).

**MAMALIQ** I *is.* Bibilik vəzifəsi. *Onu görüm* ***mamalıqdan*** *geri qalsın.*

**MAMALIQ** II *is.* Şəfqət bacısı hazırlayan. *Mən* ***mamalıq*** *məktəbində oxuyuram* (Ə.Mirzəcəfərli).

**MARKA** I *is.* [*alm.*] Müxtəlif qiymətli poçt və ya gerb işarəsi. *Adam var ki, görürsən,* ***marka*** *toplayır* (Anar).

**MARKA** II *is.* [*alm.*] Demokratik Almaniyada, Finlandiyada pul vahidi.

**MARS** I *is.* [*lat.*] *astr.* Planetlərdən birinin adı. *İndi raketlər **Marsa** səyahət edir.*

**MARS** II *is.* [*holl.*] *dəniz.* Gəmi dorunda müşahidəçi üçün meydança. *Gəminin **marsında** oturan adamın suya düşməsi kapitanı daha da qorxutdu.*

**MARS** III *is.* Nərddə iki oyuna bərabər uduş. *Məni neçə dəfə **mars** eləmisən?* (M.İbrahimov).

**MAT** I *is.* [*ər.*] Şahmat oyununda: çıxılmaz vəziyyətdə qalma, uduzma. "*Rəqib*" *də şahı kimi yol tapmayır; **mat** qalır* (R.Rza).

**MAT** II *is.* [*ər.*] Təəccüb, heyrət, məəttəl. *Gülpəri **mat** qalıb yerində durur* (S.Vurğun).

**MATERİYA** I *is.* [*ing.*] Maddə, maddi aləm. ***Materiya** itmir, bir formadan başqa formaya keçir.*

**MATERİYA** II *is.* [*ing.*] Parça, qumaş, arşın malı. *Bu **materiyadan** ancaq qadın üçün paltar tikmək olar.*

**MAYA** I *is.* [*fars.*] *biol.* Rüşeym. *Əynimiz, başımız kimyalaşsa da; **Mayamız,** kökümüz saf qalsın barı* (B.Vahabzadə).

**MAYA** II *is.* [*fars.*] Acıtma (xəmir). *Gülbahar nənə mənə nağıl danışır. **Mayası** bahar sularından yoğrulmuş dadlı nağıl.*

**MAYA** III *is.* [*fars.*] Sərmayə, kapital. *İstəyirlər **mayalarını** çoxaldıb xoca olsunlar, amma bacarmırlar* ("Qaçaq Nəbi").

**MAYA** IV *is.* Dişi dəvə. *Sarvan çəkər, **maya** bozlar, nər gedər.* (A.Tufarqanlı).

**MAYA** V *is.* Kök, qəşəng (qadın). *Şahnaz kimi ağca **mayadan** kim keçər?* (İ.Şıxlı).

**MAZ** I *is.* [*rus.*] Xüsusi quruluşlu kiy; bilyard ağacı.

**MAZ** II *is.* Bilyard və ya qumar oyununda: uduşa şərik olmaq üçün oyunçunun qoyduğu pula başqası tərəfindən edilən əlavə. *Mister Haverd 10 dollar **maz** qoydu.*

**MAZ** III *is. tib.* Sürtmə, yaxma üçün dərman. *Yanığın dərmanı sintomisin **mazıdır.***

**MAZURKA** I *is.* [*pol.*] *mus.* Milli polyak rəqsi. ***Mazurka** rəqsinin gurultusundan; Aynalar titrəmiş, hardadır onlar?* (S.Vurğun).

**MAZURKA** II *is.* [*pol.*] Badam və qozdan hazırlanan ədviyyəli qoğal. *Qarını almanlardan bu dəfə bişirdiyi dadlı **mazurkalar** xilas etdi.*

**MƏCAZ** I *is.* [*ər.*] Əhval, kef. *Sus, danışıb **məcazımı** pozma, sədrin sözünü kəsməzlər* (S.Rəhman).

**MƏCAZ** II *is.* [*ər.*] Həqiqi mənada yox, başqa mənada işlədilən söz və ya ifadə. *Obrazlılıq daha çox **məcazlarla** yaradılır.*

**MƏCLİS** I *is.* [*ər.*] Parlament, İranda və Türkiyədə qanunverici orqan.

**MƏCLİS** II *is.* [*ər.*] İctimai yığıncaq; qonaqlıq, ziyafət. *Xan öz gözəl sarayında; O gün böyük **məclis** qurur* (B.Azəroğlu).

**MƏXRƏC** I *is.* [*ər.*] *fon.* Danışıq üzvlərinin fəaliyyəti nəticəsində formalaşan hər səsin əmələ gəlmə yeri, artikulyasiya.

**MƏXRƏC** II *is.* [*ər.*] Kəsr xəttinin altındakı ədəd.

**MƏNLİK** I *is.* Heysiyyət, ləyaqət. *Mən bütün **mənliyimi,** bütün həyat və səadətimi yolunda fəda etməyə hazıram* (H.Cavid).

**MƏNLİK** II *is.* Mənə aid, mənimlə əlaqədar. ***Mənlik** heç bir iş yoxdur.*

**MƏNSƏB** I *is.* [*ər.*] Yüksək vəzifə, böyük məqam. ***Mənsəbə,** şöhrətə, pula həvəs də; Ömürlük yox olur bizim ölkədə* (S.Vurğun).

**MƏNSƏB** II *is.* [*ər.*] *coğr.* Çayın dənizə töküldüyü yer. *Kür çayının **mənsəbi** Xəzər dənizidir.*

**MƏNSUR** I *is.* [*ər.*] *ədəb.* Nəsr ilə yazılmış əsər. *Son zamanlar **mənsur** əsərlərə daha çox meyil vardır.*

**MƏNSUR** II *is.* [*ər.*] Qələbə çalmış, üstün gəlmiş. *Kişi **mənsur** adamlar kimi sinəsini qabağa verib dayanmışdı.*

**MƏNZİL** I *is.* [*ər.*] Yaşayış yeri, otaq. *Ata, neçə pillədir; Yerdən bizim **mənzilə?*** (R.Rza).

**MƏNZİL** II *is.* [*ər.*] Məsafə, yol. *Bir qədər özünə gəldi xəstəmiz; Düzəldi **mənzilə** yenə dəstəmiz* (S.Vurğun).

**MƏRƏKƏ** I *is.* [*ər.*] Qalmaqal, döyüş, dava. *Bacım olsaydı, gör nə **mərəkəydi*** (Anar).

**MƏRƏKƏ** II *is.* [*ər.*] Kampaniya, tamaşa. *Burnu lap burnuna bənzər – yekədir; Gəl yaxından ona bax, – **mərəkədir!*** (S.Rüstəm).

**MƏSƏLƏ** I *is. riyaz.* Həll olunası əməliyyat. ***Məsələnin** həlli.*

**MƏSƏLƏ** II *is.* Plovun üstünə qoyulan xuruş. *Plovun **məsələsi** əla idi.*

**MƏSƏLƏ** III *is.* İş. *Sizinlə çox vacibli **məsələ** barəsində danışacaqdır* (H.Nəzərli).

**MƏST** I *is.* [*fars.*] Evdə geyilən yüngül ayaqqabı. *Qafar kişi, sən kimlərə məst tikirsən? – **Məsti** cırılanlara, başına dönüm* (N.Xəzri).

**MƏST** II *is.* [*fars.*] İçkidən, çox yeməkdən xumarlanma, sərxoş. *Mən onsuz da **məstəm,** dəryadır qəmim; Bir an ayrılmamış qəmdən aləmim* (B.Azəroğlu).

**MƏZƏ** I *is.* [*fars.*] İçki ilə bərabər yeyilən şey, çərəz. *Kimi qəhvə, kimi şokolad, təyyarəçi də çaxırla **məzə** istədi* (Çəmənzəminli).

**MƏZƏ** II *is.* [*fars.*] Kef, zövq, ləzzət. *Dişin dürdür, dilin qənddir; Dodaqların **məzə,** Kəklik!* (Aşıq Ələsgər).

**MİL** I *is.* [*ər.*] İynə. *Qayda budur: **mil** salınar əyri baxan gözlərə* (S.Vurğun).

**MİL** II *is.* [*ər.*] Xətlər, cizgilər. *Alnını buz bağlamış **millərə** dayayaraq baxır, diqqətlə baxır* (B.Azəroğlu).

**MİL** III *is.* [*ing.*] *coğr.* Müxtəlif ölkələrdə müxtəlif uzunluğa bərabər məsafə ölçüsü. *Coğrafi mil 7420, dəniz **mili** isə 1852 metrdir.*

**MİLLİ** I *sif.* [*ər.*] Millətə məxsus, yerli. *Qoydu qolbağını tez **milli** fonda; Yatdı səngərlərə cəbhə boyunda* (M.Müşfiq).

**MİLLİ** II *sif.* [*ər.*] Mil-mil olan, zolaq-zolaq. *Ağ **milli** qəhvəyi kostyumuna söz ola bilməzdi* (M.Hüseyn).

**MİN** I *say* 999-dan sonra gələn rəqəm. *Səyriyir dodağı, qaçır bənizi; Alnında **min** acı fəlakət izi* (S.Vurğun).

**MİN** II *f.* At belinə qalxmaq, maşına çıxmaq. *At **min,** hünər öyrət, məni də bəxtəvər eylə* (M.Ə.Sabir).

**MİNA** I *is.* [*fr.*] Su və ya yer altına qoyulan iri mərmi. *Gül-çiçək yerinə, bülbül, yaxşı bax; **Minalar** əkilib indi çöllərə* (B.Vahabzadə).

**MİNA** II *is.* [*fr.*] Karandaşın içi.

**MİNA** III *is.* [*fars.*] Sürahi. *Bir gərdəni **mina,** ağzı piyalə; Bir ləhcəsi şirin yara aşiqəm* (M.P.Vaqif).

**MİSRİ** I *is.* [*ər.*] *mus.* Aşıq mahnı yaradıcılığı formalarından biri. *Ə, bir* **"*Misri*"** *çal, qılınc oynat, nərə çək.*

**MİSRİ** II *sif.* [*ər.*] Yenilməz, qüdrətli, kəsərli. ***Misri** qılıncım var, sənin nəyin var!* (S.Rüstəm).

**MİZ** I *is.* [*fars.*] Stol. *Cavanlar yazı stolunun qabağındakı dəyirmi **mizin** dalında üzbəüz oturdular* (M.Hüseyn).

**MİZ** II *is.* Pis iy. *Evi kəsif **miz** iyi bürüdü* (İ.Şıxlı).

**MÖHÜR** I *is.* [*fars.*] Peçat, damğa. ***Möhür*** *də ondadır, qol da ondadır* (H.Arif).

**MÖHÜR** II *is.* [*fars.*] *din.* Təriqətinə mənsub müsəlmanların namaz zamanı alınlarını qoyduqları yumru və ya oval formasında olan quru gil parçası. *Deyirlər hər sabah alnın* ***möhürdə;*** *Genə yalvarırsan Rəsulillaha…* (A.İldırım).

**MÜXTƏSƏR** I *is.* [*ər.*] *qram.* Sadə cümlənin bir növü. *Baş üzvlərdən ibarət olan sadə cümlələrə* ***müxtəsər*** *cümlə deyilir.*

**MÜXTƏSƏR** II *modal* [*ər.*] Nəhayət, qısa olaraq. ***Müxtəsər,*** *yaxşıdan yaman gəlməz; Yaxşıdan bir kəsə ziyan gəlməz* (M.Ə.Sabir).

**MÜRƏKKƏB** I *is.* [*ər.*] Yazı yazmaq üçün işlədilən rəng. *Qurumuş* ***mürəkkəb*** *qabına samovarın qırnasından su süzüb, bir kitabın arasından qələmi tapıb çıxartdı* (Ə.Əylisli).

**MÜRƏKKƏB** II *sif.* [*ər.*] Çətin, qatışıq. *Sualınız çox mürəkkəbdir, zati-aliləri!* (İ.Şıxlı).

# Nn

**NƏ** I *əvəz.* Sual əvəzliyi. *Ah, nə deyim, nə ad verim bu aləmdə mən sana* (S.Vurğun).

**NƏ** II *ədat* Sual mənasında. *Ay qızlar, bizim sədr nə ürəyi daş adammış* (İ.Hüseynov).

**NƏR** I *is.* [*fars.*] Dəvənin erkəyi.

**NƏR** II *is. sif.* [*fars.*] İgid, cəsur, qəhrəman. *Atam kimi **nər** kişi ağlayanda, Yaqub ağlaya bilməzdimi?* (Ə.Əylisli).

**NƏTİCƏ** I *is.* [*ər.*] Yekun, son, axır. *Hər mövsüm bir mövsümün; **Nəticəsindən** doğar* (M.Müşfiq).

**NƏTİCƏ** II *is.* [*ər.*] Nəvənin uşağı. *Əsgər gedib mənim nəvəm, **nəticəm**; Aslan kimi vuruşurlar davada* (S.Rüstəm).

**NİŞAN** I *is.* [*fars.*] İşarə, qeyd. ***Nişan** aldım, kaman atdım; Dəydi oxum daşa, könül* (M.Müşfiq).

**NİŞAN** II *is.* [*fars.*] Adaxlama. ***Nişan** taxılmadan gəzir, dolanır; Görəndə adamın qanı bulanır* (M.Müşfiq).

**NİŞAN** III *is.* [*fars.*] Fərqlənmə üçün verilən bəzəkli məmulat.

**NİŞAN** IV *is.* [*fars.*] Əlamət. *Sükut razılıq **nişanıdır*** (S.Rəhman).

**NİŞANLAMAQ** I *f.* İşarə etmək, qeyd etmək. *Kəndə gəlmək üçün hündür çinar ağacını **nişanlamışdım*** (Ə.Əylisli).

**NİŞANLAMAQ** II *f.* Qız və ya oğlanı adaxlamaq. *Yalnız gələndən sonra öyrəndi ki, qızı **nişanlayıblar*** (C.Bərgüşad).

**NİŞANLI** I *sif.* Adaxlanmış (oğlan və ya qız). ***Nişanlı** qız-oğlan barədə bir söz deyə bilmərəm* (S.Qədirzadə).

**NİŞANLI** II *sif.* Qeyd olunmuş. ***Nişanlı** yerdə qoymuşam* (C.Gözəlov).

**NÖVBƏ** I *is.* [*ər.*] Sıra. ***Növbə** anasına çatanda hər ikisi bir anlığa duruxsundu* (M.İbrahimov).

**NÖVBƏ** II *is.* [*ər.*] Zaman, vaxt. *Onun bu görkəmi öz **növbəsində** Hacı Əliyə pis təsir edirdi* (M.İbrahimov).

**NÜSXƏ** I *is.* [*ər.*] Yazılı bir şeydən çıxarılan surətlərdən hər biri. *Əmr verin hər idarəyə bir **nüsxə** göndərim* (S.Rəhman).

**NÜSXƏ** II *is.* [*ər.*] Həkimin yazdığı dərman kağızı, resept. *Mirzə cibindən kağız və qələmdan çıxarıb **nüsxə** yazmaq istəyəndə Fərman onu dayandırdı* (Ə.Haqverdiyev).

# Oo

**O** I *əvəz.* Üçüncü şəxsin təki.
**O** II *əvəz.* İşarə məqsədi ilə işlədilir.

**OBYEKT** I *is.* [*lat.*] *fəl.* Maddi aləmin insan fəaliyyətində dərk edilən əşyaları.
**OBYEKT** II *is.* [*lat.*] *qram.* Tamamlıq.
**OBYEKT** III *is.* [*lat.*] Hədəf. *Tənqid* ***obyektinin*** *özünü də düzgün seçmək lazımdır.*

**OBYEKTİV** I *is.* [*lat.*] *fiz.* Optik cihazın qabaq şüşəsi və ya şüşələri. *Fotoaparatın* ***obyektivini*** *toz basmışdı.*
**OBYEKTİV** II *sif.* [*lat.*] Şüurumuzdan asılı olmayan; qərəzsiz. *Gəlin* ***obyektiv*** *səbəblər axtarmayaq* (M.İbrahimov).

**OCAQ** I *is.* Od yanan yer. *Arzum budur: yuvam olsun əbədi;* ***Ocağımın*** *bir də odu sönməsin* (H.Billuri).
**OCAQ** II *is.* Fanatiklərin müqəddəs və möcüzə hesab etdikləri müxtəlif yer və əşyalar. *Müqəddəs* ***ocaqları*** *yaxıb ayaqladılar* (S.Rüstəm).
**OCAQ** III *is.* Mərkəz, yuva. *Bu, sənət* ***ocağı,*** *elm ocağıdır; Əski yaşayışı vurub dağıdır* (M.Müşfiq).

**OX** I *is. tar.* Silah. ***Ox*** *kimi süzüb darılığa doğru uçdu* (İ.Şıxlı).
**OX** II *is.* Mehvər. *Çarxın biri var, o biri yoxdur.* ***Ox*** *yerlə sürünür* (C.Cabbarlı).
**OX** III *nida* Ağrı, iztirab, təəssüf və s. mənalarda işlədilir. ***Ox,*** *səndən sonra mən nələr çəkdim, nələr* (C.Cabbarlı).

**OXŞAMAQ** I *f.* Bənzəmək. *Su gəlir lülə-lülə; Dost gəlir gülə-gülə; Dostumun göyçək üzü;* ***Oxşayır*** *qızılgülə* (Ə.Cavad).
**OXŞAMAQ** II *f.* Sığallamaq, əzizləmək. *Gəl ipək saçını* ***oxşayım;*** *Səninlə bir an da yaşayım* (M.Müşfiq).
**OXŞAMAQ** III *f.* Ağı demək, dərdinə şərik olmaq. *Hər kəs öz ölüsünü* ***oxşar*** (Ata. sözü).

**OXU** I *is.* Qiraət. *Tələbələr* ***oxu*** *zalında seminara hazırlaşırdılar.*
**OXU** II *f.* Oxumaq. *Əvvəl dərsini* ***oxu,*** *sonra kinoya gedərsən.*

**OTARMAQ** I *f.* Yedizdirmək, yemləmək. *Baharın quzuları güneyə dağılışıb* ***otlayırdı.***

**OTARMAQ** II *f. dan.* Kələk gəlmək, aldatmaq. ***Otarmağa*** *adam tapmadın?*

**OV** I *is.* Vəhşi heyvan və quş vurulan yer. *Əsmə, dayan, ey külək;* ***Ova*** *çıxmış Əli bəy* (S.Vurğun).

**OV** II *is.* Qənimət. *Atdan düşüb* ***ovunu*** *kənara çəkmiş, cələdə, dalda bir yerdə gizlətmişdi* (İ.Şıxlı).

**OVMAQ** I *f. Sürtmək, ovxalamaq. Gözlərini* ***ovuşdurub,*** *təzədən Güləbətinə baxdı* (M.İbrahimov).

**OVMAQ** II *f.* Xırda-xırda doğramaq, əzmək. *Bir qoca da zilləyərək gözlərini tavana;* ***Ovuşdurub*** *ovucunda tütün tökür qəlyana* (S.Rüstəm).

**OY** I *f.* Qazmaq, eşmək. *Əncir ağacının dibini xeyli* ***oydular,*** *amma bir şey əldə etmədilər.*

**OY** II *nida* Ağrı, iztirab, kədər, qüssə məqamında işlədilir. ***Oy, oy, oy...*** *Ay allahı sevən, balam öldü* (Ə.Haqverdiyev).

**OYMAQ** I *is.* İcma, kənd, oba. *Pristav, naçalnik gələndə kəndə; Obanı,* ***oymağı*** *vururlar bəndə* (Aşıq Ələsgər).

**OYMAQ** II *is.* Tıxac, çarxların içərisində sürtünməni azaltmaq üçün metal borucuq və halqa.

**OYMAQ** III *is.* Üskük. *İynə,* ***oymaq,*** *çarqat, ənlik, kirşan alan!.. – deyə bağıraraq dolaşdı* (H.Nəzərli).

**OYNAQ** I *is. anat.* Bənd, buğum. ***Oynaqları*** *bərk ağrıyır.*

**OYNAQ** II *sif.* Diribaş, zirək, çevik. *Qadın gözlərinin* ***oynaq*** *xəyalı; Donuyor qarşımızda* (M.Müşfiq).

**OYNAMAQ** I *f.* Rəqs etmək. *O, Əlinin toyunda çox* ***oynadı.***

**OYNAMAQ** II *f.* İstiqraz, lotereya və s. şeylərin oynanılması. *İdman lotereyası bu gün* ***oynayır.***

**OYNAŞ** I *is.* Aşna. *Xain qadın öz* ***oynaşı*** *Mühakimi saraya gətirmək üçün Dilşadı ona verməyə çalışırdı* (M.S.Ordubadi).

**OYNAŞ** II *f.* Atılıb-düşmək. *Gecənin qaranlığında şəfəqlər* ***oynaşır,*** *çuqun qazanlarda xörək bişirənlərin kölgəsi bir nəhəng kimi uzanıb zəmilərin ortasında gəzişirdi* (İ.Şıxlı).

**OYNATMAQ** I *f.* Rəqs etdirmək. *Toyda Gülnazı xeyli* ***oynatdılar.***

**OYNATMAQ** II *f.* Ələ salmaq, məsxərəyə qoymaq. *Məni* ***oynatmaq,*** *Ayalı, səni pis günə qoyaram* (C.Bərgüşad).

# Öö

**ÖLDÜRMƏK** I *f.* Məhv etmək, yox etmək. *Baxışların qəlblərin; Qəmini **öldürərdi*** (Ə.Kürçaylı).

**ÖLDÜRMƏK** II *f.* Vaxt itirmək. *Əcəb nəzakətlisən. Deməli, mənimlə sən vaxtını **öldürürsən*** (Anar).

**ÖTMƏK** I *f.* Keçmək, çatıb keçmək. ***Ötür** dəqiqələr səssiz-səmirsiz* (H.Arif).

**ÖTMƏK** II *f.* Oxumaq, mahnı oxumaq. *Bülbül cəh-cəh vurub gəlirdi dilə; **Ötürdü** saflığı o duya-duya* (Ə.Kürçaylı).

**ÖTÜRMƏK** I *f.* Yola salmaq. *Danışa-danışa o Səmayəni; **Ötürmək** istədi məktəbə qədər* (H.Arif).

**ÖTÜRMƏK** II *f.* Yemək, udmaq. *Günorta zamanı ətin **ötürdü;** Quşlar işin həlakətə yetirdi* (Q.Zakir).

**ÖTÜŞMƏK** I *f.* Yarışmaq, qaçışmaq. *Yığıb çantalara yerdən-yemişdən; Yolda gah yüyürüb, gah **ötüşərdik*** (S.Vurğun).

**ÖTÜŞMƏK** II *f.* Oxumaq. *Gülüşür pənbə, al, bəyaz güllər; **Ötüşür** hər tərəfdə bülbüllər* (H.Cavid).

**ÖTÜŞMƏK** III *f.* Qaydaya salmaq, dolanmaq, yola getmək. *Yemək sarıdan birtəhər **ötüşürük**, gileyimiz yoxdur.*

**ÖYRƏNMƏK** I *f.* Bilmək, oxumaq, dərs almaq. ***Öyrəndim** ki, o, gecə əl lampasının neftini üstünə səpərək özünü odlamışdır.*

**ÖYRƏNMƏK** II *f.* Alışmaq. *Öyrənmişik əl açmağa; **Öyrənmişik** alqışa biz* (Ə.Kürçaylı).

# Pp

**PANAMA** I *is.* Həsirdən toxunmuş enli şlyapa. *Başında **panama,** gözündə çeşmək; Bir nəfər qabaqdan keçir bu zaman* (Ə.Kürçaylı).

**PANAMA** II *is.* Müxtəlif yollarla vəzifəli şəxsləri ələ almaq üsulu, fırıldaq.

**PANAMALI** I *sif.* Panaması olan. *İstəyirdim **panamalı** qonşuma bir-iki sual verəm, elə bu dəmdə on-on beş nəfər əllərində iri sinilər doldular çadıra.*

**PANAMALI** II *sif.* Panamada yaşayan. ***Panamalı** dostum məni sorğu-suala tutdu.*

**PARA** I *is.* [*fars.*] Tikə, hissə, parça. *Ürəyimin **parası;** Layla körpəm, a layla!* (R.Rza).

**PARA** II *is.* Pul. *Adəmi adəm eyləyən **paradır;** Parasız adəmin üzü qaradır* (M.Ə.Sabir).

**PARAD** I *is.* [*fr.*] Bayram, təntənə, bayramlarda hərbi hissənin təntənəli marşla keçməsi. *Bugünkü **paradda** idmançılar həvəslə çıxış etdilər.*

**PARAD** II *is.* [*fr.*] Qılınc oyununda: rəqibin hücumundan müdafiə olunma priyomu.

**PARÇA** I *is.* [*fars.*] Material. *Donun darlığı **parçanın** qıtlığındandır* (Ata. sözü).

**PARÇA** II *is.* Hissə, tikə. *Bu gün həmin o şəkli; Yüz yol gördüm mən azı; Necə miskin, mənasız; Adi kağız **parçası!*** (Ə.Kürçaylı).

**PARK** I *is.* [*ing.*] Bağ, mədəniyyət və istirahət yeri. *Mən bir **park** deyiləm, qalın ormanam; Mən bir göl deyiləm, dərin ümmanam* (M.Müşfiq).

**PARK** II *is.* [*ing.*] Səyyar anbar, nəqliyyat vasitələrinin məcmuyu. *Tramvay **parka** yaxınlaşanadək qız sürücünün yanında durdu* (Q.İlkin).

**PARTİYA** I *is.* [*lat.*] Bir oyun, bir əl. *Bir **partiya** nərd oynayıb evdən çıxdılar.*

**PARTİYA** II *is.* [*lat.*] Müəyyən miqdarda mal. *Bu günlərdə daha bir **partiya** ayaqqabı alınmışdır.*

**PARTİYA** III *is.* [*fr.*] Siyasi təşkilat.

**PARTİYA** IV *is.* [*lat.*] *mus.* Çoxsəsli musiqi əsərində bir musiqi aləti və ya oxuyan tərəfindən ifa edilən ayrıca hissə.

**PAT** I *is.* [*fr.*] *şahm.* Şahmat oyununda oyunçunun öz şahını zərbə altına qoymadan hərəkət edə bilmədiyi vəziyyət.

**PAT** II *is.* [*fr.*] Marmelad, meyvə pastilası növlərindən biri.

**PATRON** I *is.* [*fr.*] Güllə, mərmi. *Atları gətirdilər, tərklərini **patronla** doldurub, atları minib Ağrı deyə yola düşdülər* ("Qaçaq Nəbi").

**PATRON** II *is.* [*fr.*] Silindr, borucuq. ***Patronu** içəri saldıq, lampoçkanı bağladıq* (M.İbrahimov).

**PATRON** III *is.* [*fr.*] *xüs.* Dərzilikdə: ülgü, əndazə.

**PAY** I *is.* Yemək, ərzaq. *Həsrətin çəkənlər olubdu sayıl; Yığır qapılardan **pay,** sarı köynək!* (Aşıq Ələsgər).

**PAY** II *is.* Hissə. *Ondan mənə də bir **pay** düşür, ya yox?*

**PƏRDƏ** I *is.* [*fars.*] Örtük. *Pəncərə qara **pərdə** ilə tutulmuşdu* (S.Qədirzadə).

**PƏRDƏ** II *is.* [*fars.*] Əsərdə akt, hərəkət. *Gənc dramaturq yeni dramasının həmin **pərdəsini** mənə oxudu* (S.Rüstəm).

**PƏRDƏ** III *is.* [*fars.*] *mus.* Simli musiqi alətlərində səslərin fərqlənməsi. ***Pərdələr** üstünə barmağın ensin; Bəmdə çox dayanma, qaldır zilə sən* (Ə.Kürçaylı).

**PƏS** I *is. mus.* Alçaq səs, alt. *Əvəz Əvəzov boğazını arıtladı... üç-dörd dəfə ah çəkdi və nəhayət, **pəsdən** "Şələbiyyə" mahnısını zümzümə etməyə başladı* (Anar).

**PƏS** II *f.* Susmaq. *Aşna daha mən **pəs!..**; Bir az da sən de!* (S.Vurğun).

**PƏS** III *ədat* Sual mənasında işlədilir. ***Pəs,** a kişi, onda sən mənim sözlərimi niyə pis oxuyursan?* (Dastanlar).

**PİK** I *is.* [*fr.*] *coğr.* Dağın şiş təpəsi, zirvəsi. *Dünyada ən yüksək **pik** Everestdir.*

**PİK** II *is.* [*fr.*] Bir işin ən qızğın, ən gərgin vaxtı. *Jurnalist **pik** vaxtı gəlib çıxmışdı.*

**PİR** I *is.* [*fars.*] Qoca; nurani. *Cana cavan ömrüm bənim **pir** olmuş bu gün!* (Ə.Cavad).

**PİR** II *is.* [*fars.*] Ocaq; insanların müqəddəs sayaraq ziyarət etdiyi yer. *Nəbi durbinlə baxıb gördü ki, quldurlar **pirin** kölgəsində oturublar* ("Qaçaq Nəbi").

**PİYLƏMƏK** I *f.* Piylə yağlamaq. *Şəfqət bacısı xəstənin kürəyini **piylədi,** sonra banka saldı.*

**PİYLƏMƏK** II *f.* Aldatmaq. *Qızın başını **piyləyib** onu sevmədiyi oğlana ərə verdilər.*

**PİYLƏNMƏK** I *f.* Kökəlmək, piy bağlamaq. *Maddələr mübadiləsi düzgün getmədiyi üçün Qızxanım yaman **piylənmişdi*** (A.Əbilov).

**PİYLƏNMƏK** II *f.* Varlanmaq. *Əliəyri Cibidoluyev varlandı, **piyləndi,** amma yedikləri boğazında qaldı, ilişdi, dama düşdü* (A.Əbilov).

**PLATFORMA** I *is.* [*fr.*] Dəmiryolu boyunca hündür səki, meydança. ***Platformalar** boşalır, ancaq boş qalmır.*

**PLATFORMA** II *is.* [*fr.*] Hər hansı bir siyasi partiya və ya qrupun hərəkət proqramı və siyasi tələbi. *Onların **platforması** məlum deyildi.*

**PLATFORMA** III *is.* [*fr.*] *coğr.* Yer qabığının dağ qarışığı olmayan və ya zəif təzahür edən sahəsi.

**PLOMBİR** I *is.* [*fr.*] Mala, qapıya və s. plomb vuran alət.

**PLOMBİR** II *is.* [*fr.*] Dondurmanın bir növü. *Dondurmanın ən çox **plombir** növünü xoşlayıram.*

**POZULMAQ** I *f.* Silinmək, üstündən qələm çəkilmək. *Yazılan **pozulmaz*** (Ata. sözü).

**POZULMAQ** II *f.* Ovqatı təlx olmaq, dilxor olmaq. *Vergülağa Nöqtələrovun kefi **pozulmaz**.*

**PROSPEKT** I *is.* [*lat.*] Şəhərdə böyük və geniş küçə. *Ön planda Nərimanov **prospektinin** yeni binalarından biri* (Anar).

**PROSPEKT** II *is.* [*lat.*] Proqram, layihə, plan. *Əsərin **prospekti** çoxdan hazırdır.*

**PULLU** I *sif.* Var-dövləti olan, dövlətli. *Ana, gəl, gəl ki, dövlətə çatdıq; **Pullu** olduq, səadətə çatdıq!* (M.Ə.Sabir).

**PULLU** II *sif.* Üstündə pulcuqları olan. *O təzə dənizdə mən bəslədiyim; **Pullu** xəşəmləri, ağ şamayları* (Ə.Kürçaylı).

# Rr

**RAST** I *is.* [*fars.*] *mus.* Yaxın Şərq xalqları klassik musiqisinin 12 əsas muğamından biri. *Hünəriniz varsa, bir **rast** oxuyun!* (S.Vurğun).

**RAST** II *is.* [*fars.*] Bir-biri ilə qarşılaşma. *Düşüb-düşməyəli bu saray-lara; Hələ **rast** gəlmədim vəfalı yara!* (S.Vurğun).

**RAST** III *sif.* [*fars.*] Doğru, düz, dürüst. *Özünüz çox yaxşı bilirsiniz ki, biz onlara **rast** güllə atmarıq* ("Qaçaq Nəbi").

**RƏF** I *is.* [*ər.*] Ləmə. *İri bir stol da var; Üstündə qələm, dəftər; Stolunda kitab **rəfi**; Cilid-cilid əsərlər...* (H.Arif).

**RƏF** II *is.* [*ər.*] Rədd etmə. *Sən demədinmi, dumada **rəf** olur ehtiyacımız* (S.Vurğun).

**RƏQQAS** I *is.* [*ər.*] Rəqs edən, oynayan. ***Rəqqasələr** oynayır, Qacar onlardan birini öpür* (S.Vurğun).

**RƏQQAS** II *is.* [*ər.*] Saat mexanizminin hərəkətini tarazlayan kəfgir. ***Rəq-qasın** mütəmadi taqqıltısından başqa, otaqda heç nə eşidilmirdi* (K.Kərimov).

**RƏNG** I *is.* [*fars.*] Boya. *Bığına, saqqalına **rəng** və xına yaxdırmağı vərdiş etmişdi* (A.Şaiq).

**RƏNG** II *is.* [*fars.*] Üz, sifət. *Burda işçilərin **rəngi** sapsarı; Gözlərdə intiqam, baxışlarda kin* (S.Vurğun).

**RƏNG** III *is.* [*fars.*] *mus.* Muğamata daxil olub, mahnı və rəqs xarakteri daşıyan instrumental melodiya. *Ansambl mahur **rəngini** çox böyük məharətlə ifa etdi.*

**RİNQ** I *is.* [*ing.*] Boks meydançası. *Deyirlər ki, kişi **rinqə** çıxan kimi birinci zərbədə rəqibini yerə sərir.*

**RİNQ** II *is.* [*ing.*] Kapitalist ölkələrində bazar qiymətini qaldırmaq üçün bağlanan qısamüddətli müqavilə.

# Ss

**SAÇ** I *is.* Kəkil, tük. *Səhər şəfəqini al əyninə gey; Bahar güllərini **saçla-rına** tax* (Ə.Kürçaylı).

**SAÇ** II *f.* Yaymaq. Günəşin şüaları qüvvədən düşmüş və yayda ***saçdığı*** hərarəti verməkdən aciz idi (T.Ş.Simürğ).

**SAĞ** I *is.* Tərəf, solun əks tərəfi. *Qızıl gənclik nərə çəkir **sağımızda,** solumuzda* (M.Müşfiq).

**SAĞ** II *sif.* Sağlam, canlı, yaşayan. ***Sağdır*** *hələ o günlərin qoca bağbanı; Yad eyləyir nifrət ilə keçmiş zamanı* (S.Rüstəm).

**SAĞ** III *f.* Əmcəyi sıxıb süd çıxarmaq. *Tez durub sübh **sağardım** inəyi; Xansənəmdən diləməzdim köməyi* (M.Ə.Sabir).

**SAĞLIQ** I *is.* Bədənin saz olması, sağlamlıq. *Sənsiz **sağlığıma** yoxdu **gümanım;** Nə tablaşdı, nə dayandı ürəyim* (Aşıq Qurbani).

**SAĞLIQ** II *is.* Şən məclislərdə adamların sağlığına qədəh qaldırma. ***Sağlıq*** *desin ürəkdən; Ona yad da, tanış da* (Ə.Kürçaylı).

**SAĞRI** I *is.* Budların üstü. *O artıq atın belində idi, yerində oyur-oyur oynayan atın sağrısında dizləri üstündə durub, arxadan qollarını Cəbrayıl kişinin çənəsinin altına sıxmışdı* (İ.Hüseynov).

**SAĞRI** II *is.* Başmağın bir növü. *...Nazik vücudunu kip tutmuş zərif çuxa, **sağrı** başmaq geyir* (Ə.Cəfərzadə).

**SAKİN** I *is.* [*ər.*] Yaşayan, bir yerin əhli olan. *Onların dilini hətta qonşu kəndin **sakinləri** də başa düşə bilmirlər...*

**SAKİN** II *is.* [*ər.*] Ərəb əlifbasında: hərəkəsi olmayan, hərəkəsiz.

**SAL** I *is.* Körpü. *Mən aşiqəm Salyana; Dara zülfün sal yana. Necəsən bir ah çəkim; Kür quruya, **sal** yana* (Bayatı).

**SAL** II *is.* Daş. *Hər sütunun altına bir yekə **sal** qoyulub ki, sütunları həm-çinin möhkəm saxlasın* (C.Məmmədquluzadə).

**SAL** III *f.* Atmaq, düşmək. *Qara gözlüm, saçlarını **sal** yana!* (R.Rza).

**SAP** I *is.* Tikiş üçün istifadə olunan tel. *Öz əlimlə inci kimi **sapa** düzəy-dim; Aylarını, illərini əbədiyyətin...* (S.Vurğun).

**SAP** II *is.* Alətin əl tutulan hissəsi. *Rəşid qəlbinin çırpıntısı eşidilməsin deyə, belin ağzını yerə sancıb **sapını** sinəsinə dayadı* (Ə.Cəfərzadə).

**SAP** III *f.* Azdırmaq, yoldan çıxarmaq. *Başımın üstündə nənəmin səsi; Əsmədikcə öz yolundan **sapırdı*** (M.Müşfiq).

**SAPLI** I *sif.* Sapı olan (iynə). *Qara **saplı** iynəni mənə ver, şalvarın sökük yerini tikim.*

**SAPLI** II *sif.* Əl tutmağa yeri olan (alət). *Göyərçin indi qəmalti dediyi qara **saplı** iri bıçağı o ili Gorusdan təzə almışdım* (Ə.Vəliyev).

**SAR** I *is.* [*ər.*] *zool.* Qırğı nəslindən olan quş. *Tülək, tərlan qorxmaz **sar-dan;*** *Könül ayrılmaz Nigardan* ("Koroğlu").

**SAR** II *f.* Bürümək. *Azacıq hər tərəfi **sardı** sükut; İndi Gülnaz mütəhəyyir, məhbut* (M.Müşfiq).

**SARI** I *is.* [*hind.*] Hind qadınlarının paltarı. *Onun əynində ağ bezdən **sarı** vardı* (M.İbrahimov).

**SARI** II *sif.* Rənglərdən biri. *Gümüş biləklərin, bəyaz qolların; **Sarı** kəhrəbası, hayıf ki, yoxdur!* (M.P.Vaqif).

**SARI** III *qoşma* Tərəf, doğru mənasında. *Humay buxarının qabağında tək; Dikilmiş gözləri ocağa **sarı*** (S.Vurğun).

**SARILIQ** I *is.* Rəngi sarıya çalan, rəngi solmuş. *Nəyə lazım **sarılıq,** solğunluq; Bizdə var qırmızılıq, dolğunluq* (M.Müşfiq).

**SARILIQ** II *is. tib.* Yoluxucu xəstəlik. ***Sarılıq** keçici xəstəlikdir.*

**SARIMAQ** I *f.* Bağlamaq. *Biri yaralanır, o biri yara **sarıyır*** (H.Nəzərli).

**SARIMAQ** II *f.* Dolamaq, ələ salmaq. *Bu hövsələmin dar vaxtında sən də məni **sarıma!*** (S.Rəhimov).

**SATAŞMAQ** I *f.* Gözə görünmək, gözə dəymək. *Ayağını üzəngidən yenicə çəkən Cahandar ağanın gözü pəncərəyə **sataşdı*** (İ.Şıxlı).

**SATAŞMAQ** II *f.* Söz atmaq, ələ salmaq. *Allah, Allah! Sən kafir oldun, dinə **sataşdın*** (H.Cavid).

**SAY** I *is. qram.* Əşyanın miqdar və sırasını bildirən nitq hissəsi.

**SAY** II *is.*Miqdar, kəmiyyət. *Çənlibeldə dəlilərin **sayı** gün-gündən artırdı* ("Koroğlu").

**SAY** III *is.* Dənizdə və ya çayda dayaz yer. *Gözlərimə görünməsin; Göy dəryalar **saya** kimi* (R.Rza).

**SAY** IV *sif.* Tanınmış, məşhur. *O çox **say** kişidir, kənddə hamı ona hör-mət edir.*

**SAY** V *f.* Hesablama. *Qoyunları **sayıb** Əhmədə təhvil verin.*

**SAYƏ** I *is.* [*fars.*] Kölgə. *Qaşın qabağında sığallı birçək; **Sayə** salmış üzə şölə, mübarək* (M.P.Vaqif).

**SAYƏ** II *is.* [*fars.*] Himayə, vasitə. *Sənin **sayəndə** ağ günə çıxdıq.*

**SAYMAQ** I *f.* Hesablamaq. *Uşağa birdən yüzə qədər **saymağı** öyrətmək.*

**SAYMAQ** II *f.* Hörmət etmək.

**SAZ** I *is. mus.* Simli xalq musiqi aləti. *Sinəsində telli sazı; Aşıqlar söz qoşub gəlir* (S.Rüstəm).

**SAZ** II *sif.* Kefi kök. *Ağıldan, noxsandan, kamaldan azam; Haçan olsa Göy aşıqdan mən **sazam*** (Aşıq Ələsgər).

**SƏDƏF** I *is.* [*ər.*] *zool.* İçindən inci çıxan dəniz böcəyi. *Külək **sədəfləri** vurub sahilə çıxarmışdı.*

**SƏDƏF** II *is.* [*ər.*] Perlamutr, şirmayı. *Durma, köklə **sədəf** tarı; Bir hava çal, can oynasın* (M.Müşfiq).

**SƏDƏF** III *is.* Dırnaq. *Baş barmağının **sədəfi** kəhrəba rənginə çalırdı* (İ.Şıxlı).

**SƏFƏR** I *is.* [*ər.*] Səyahət. *Güvənib əhlə olmadan faxir; Bakıya eylədim **səfər** axir* (M.Ə.Sabir).

**SƏFƏR** II *is.* [*ər.*] Müsəlman qəməri ilinin ikinci ayı. *Bu **səfər** ayı çıxsa, il yarımdır* (C.Cabbarlı).

**SƏFƏR** III *num. söz* [*ər.*] Dəfə, kərə. *Qəm yemə, qəm yemə, hər şey düzələr; Sağ çıxmaz əlimdən Nəbi bu **səfər*** (S.Rüstəm).

**SƏKSƏN** I *say* Yetmişdən sonra gələn onluq rəqəmi. ***Səksəni,** doxsanı ötübdü yaşım; Qovğaya düşübdü bəlalı başım* (Aşıq Ələsgər).

**SƏKSƏN** II *f.* Diksinmək, çimçişmək, qorxmaq. *Diksinə-diksinə qıya baxanda; **Səksənmə,** könlümü oda yaxanda* (M.Müşfiq).

**SƏNDƏL** I *is.* Ayaqqabı. *Əynində qolu gödək yaşıl sətin köynək, parusin şalvar, ayağında köhnə sarı **səndəli** həyətdəki bostanın alağını eləyirdi* (Ə.Vəliyev).

**SƏNDƏL** II *is.* [*ər.*] *bot.* Hindistanda bitən gözəl iyli və çox bərk ağac. *Söyüddən **səndəl** iyi gəlməz* (Ata. sözü).

**SƏNDƏL** III *is.* [*ər.*] Səndəl ağacından hazırlanan boyaq. *Hər ağacdan **səndəl,** hər yarpaqdan gül; Hər torpağın tamı düz olmaz, olmaz* (Aşıq Ələsgər).

**SƏR** I *is.* [*fars.*] Baş. *Boz at, səni **sər** tövlədə bağlaram; And içirəm, sənə məxmər çullaram* ("Qaçaq Nəbi").

**SƏR** II *f.* Salmaq, örtmək. *Göy çəmənə xalı kimi öz kölgəni **sər!*** (S.Vurğun).

**SƏRF** I *is.* [*ər.*] Xərcləmə. *Keyfə **sərf** eylədim də milyonlar; Yenə dövlətcə etibarım var* (H.Cavid).

**SƏRF** II *is.* [*ər.*] Xeyir, mənfəət. *Əlbəttə... **Sərf** eləmir axı* (S.Qədirzadə).

**SƏRF** III *is.* [*ər.*] *qram.* Morfologiya. *Sabahdan o mənə həmin **sərf** və nəhv kitabından dərs verməyə başladı* (A.Şaiq).

**SƏRMAYƏ** I *is.* [*fars.*] Maya, kapital. *Əlinə bir az **sərmayə,** bir-iki para kənd keçirmək üçün hər alçaqlığa hazır idi* (M.İbrahimov).

**SƏRMAYƏ** II *is.* [*fars.*] Əsil səbəb. *Ondan inciməyin, ağayi-Bəhram, məsələnin **sərmayəsi** başqadır.*

**SIX** I *sif.* Qalın. ***Sıx** meşədir ətəklərin; Ətirlidir küləklərin* (Ə.Kürçaylı).

**SIX** II *f.* Əzmək, qısmaq. *Söyləyin, hər yandan **sıxırmı** sizi; Qalın daş divarlı hasar, a dostlar!* (O.Sarıvəlli).

**SIRIMAQ** I *f.* Tikmək. *Pəri nənə nəvəsinə təzə bir yorğan **sırıdı.***

**SIRIMAQ** II *f.* Vermək. *Ona görə də zornan səni mənə **sırıdı*** (M.Əlizadə).

**SIRT** I *is. coğr.* Yüksəklik.

**SIRT** II *is.* Omba, arxa, bel. *Haydı, minib **sırtına** yel gedişli atların; Yerdə, göydə, dənizdə oynasın qanadların* (M.Müşfiq).

**SIZMAQ** I *f.* Axmaq, damcı-damcı tökülmək. *Körpə gördüm dodağından; damla-damla qan **sızır*** (R.Rza).

**SIZMAQ** II *f.* Ufuldamaq, ax-uf etmək. *Bir neçə gün damın altında ağlar, **sızlar** qaldıq, küləkdən başqa, qapımızı açan yox idi* (Ə.Cəfərzadə).

**SIZMAQ** III *f.* Çəkinmək, həya etmək. *O, səndən **sızır.***

**SİFƏT** I *is.* [*ər.*] Üz. *Gör necə artırmısan; **Sifətinin** sayını* (Ə.Kürçaylı).

**SİFƏT** II *is.* [*ər.*] *qram.* Əşyanın əlamət və keyfiyyətini bildirən bir nitq hissəsi.

**SİFTƏ** I *is.* Satışda hasil olan ilk pul. ***Siftə** səndən, bərəkət Allahdan* (Ata. sözü).

**SİFTƏ** II *is. zərf* Əvvəl, qabaq. ***Siftə** məni tarla düşərgələrinin vəziyyəti maraqlandırırdı* (“Kirpi”).

**SİLK** I *is.* [*ər.*] İctimai təbəqə. *Onun hansı **silkə** mənsub olduğunu müəyyənləşdirmək çətindir.*

**SİLK** II *f.* Çırpmaq. *Döşəməyə saldıqları xalçanı bayramqabağı* ***silkdi.***

**SİM** I *is.* [*fars.*] Simli çalğı alətlərinin teli. *Yandırdı* ***simləri*** *qəlbinin odu* (O.Sarıvəlli).

**SİM** II *is.* [*fars.*] Gümüş. *Ancaq olmasaydı kasıb kəndlilər; Bunca qudurtmazdı sizi* ***simüzər*** (S.Vurğun).

**SİM** III *is.* [*fars.*] *tib.* Yaranın simləməsi. *Artıq bu zaman qıçı* ***sim*** *eləməyə başlamışdı* (M.İbrahimov).

**SİMA** I *is.* [*ər.*] Çöhrə, bəniz, üz. *Bu zaman otağa girir bir nəfər; O gözlər, o* ***sima*** *tanışdır sənə* (B.Azəroğlu).

**SİMA** II *is.* [*coğr.*] Tərkibi əsasən silisium və maqneziumdan ibarət olan yer təbəqəsi.

**SİMLİ** I *sif.* Metal teli olan. *Dinsin* ***simli*** *kaman, dinsin* ***simli*** *tar; Səndən neçə-neçə igid danışsın* (C.Novruz).

**SİMLİ** II *sif.* Yarası simləmiş. *O,* ***simli*** *ayağını zorla hərəkət etdirirdi.*

**SİN** I *is.* [*ər.*] Yaş, il. *Mirzağa qısaboylu, şişman qarınlı, cücə gözlü, yekə burunlu və qalın dodaqlı, orta* ***sinlərdə*** *bir adam idi* (H.Nəzərli).

**SİN** II *f.* Aşağı çökmək, əyilmək, gizlənmək. ***Sindi*** *yalmanına cəhillər atın; Buraxıb cilovu nə qədər ki var* (O.Sarıvəlli).

**SİNİF** I *is.* [*ər.*] Təbəqə. *Nərdə onu yaşadan dünkü parlaq ehtişam; Onu öldürən kəndi* ***sinifinin*** *yolumu?* (M.Müşfiq).

**SİNİF** II *is.* [*ər.*] Dərəcə, sıra. *Gərək ki, yeddinci* ***sinfə*** *keçmişdim* (S.Qədirzadə).

**SİRKƏ** I *is. kim.* Turşu. *Siz öləsiz, bax, bu dəqiqə* ***sirkə*** *gələcək* (C.Məmmədquluzadə).

**SİRKƏ** II *is.* Bit toxumları. *Köynəyinə* ***sirkə*** *düşüb.*

**SİSTEM** I *is.* [*yun.*] İctimai quruluş forması.

**SİSTEM** II *is.* [*yun.*] *geol.* Bir geoloji dövrə aid olan yer qabığı qatları.

**SİYASƏT** I *is.* [*ər.*] Dövlətin yeritdiyi xətt, onun fəaliyyəti.

**SİYASƏT** II *is.* [*ər.*] Hiylə, kələk. *Ah, Miranşah, Miranşah! Əvət, onda azcıq tədbir və* ***siyasət*** *bulunsaydı, kimsə izindən çıxmazdı* (H.Cavid).

**SOL** I *is.* Tərəf, sağın əksi. *Qoşun yayılıbdı* ***sola,*** *həm sağa; Mənim bu günümdə gələsən, Nəbi!* ("Qaçaq Nəbi").

**SOL** II *is.* [*lat.*] *mus.* Diatonik qammanın beşinci notu.

**SOL** III *is. zool.* Enli və yastı dəniz balığı. *Dənizin bu sahəsində nədənsə **sol** növlü balıq daha çox olurdu.*

**SOL** IV *f.* Rəngi qaçmaq, ağarmaq, bozarmaq. *Xasə əridi, üzüldü canın; **Soldu** gül üzün, qaraldı qanın* (M.Ə.Sabir).

**SONA** I *is.* Vəhşi ördəyin erkəyi. *Göydən bir cüt **sona** endi; Aylı dağın arasına* ("Koroğlu").

**SONA** II *is.* Gözəl. *Sən ha bir **sonasan,** cüda düşübsən; Bir bölük yaşıl-baş sonadan, Pəri!* (M.P.Vaqif).

**SONSUZ** I *sif.* Uşağı olmayan kişi və ya arvad.

**SONSUZ** II *sif.* Hədsiz, nəhayətsiz. *Ürəklərə od verən; **Sonsuz** atəş kimiydin* (Ə.Kürçaylı).

**SONSUZLUQ** I *is.* Uşaqsızlıq, uşağı olmamaqlıq. *Qızın üzərində qəlblər əsərdi; Ağırdır, ağırdır **sonsuzluq** dərdi!* (Ə.Kürçaylı).

**SONSUZLUQ** II *is.* Ucu-bucağı olmayan, nəhayətsizlik. *Gəl bərabər fərəhlənib ucalım; **Sonsuzluğun** qapısını açalım!* (M.Müşfiq).

**SORMAQ** I *f.* Soruşmaq, xəbər almaq. *Durnanın qatarı keçəndə bir-bir; **Soruram** yurdumun halı necədir?* (H.Billuri).

**SORMAQ** II *f.* Əmmək, tədricən içmək. *Yerin damarını **sorurdu** fontan; Buruğun başına vururdu fontan* (M.Müşfiq).

**SOVET** I *is.* Sosializm cəmiyyətinin siyasi təşkilat forması.

**SOVET** II *is.* Şura, iclas, müşavirə. *Həmin məsələyə **sovetdə** baxılacaq.*

**SOY** I *is.* Cins, kök. *Çox oldum davada, doyda; İgid görmədim sən **soyda*** ("Koroğlu").

**SOY** II *is.* Nəsil. *Dədəm məni öz **soyumuzdan** bir yetim oğlana nişanla-yıb, başımda çarqatını, barmağımda üzüyünü gəzdirirəm, üç gündən sonra toyumuzdur* (Ə.Cəfərzadə).

**SOY** III *is.* Haray. *Məclis başında durubsan; Kimə çatar **soyun,** Eyvaz?!* ("Koroğlu").

**SOY** IV *f.* Çıxartmaq, təmizləmək. *Qoyunu kəs, **soy**, ətini camaata payla.*

**SOYMAQ** I *f.* Təmizləmək. *O, almanı **soyub** yanındakı qıza verdi.*

**SOYMAQ** II *f.* Talamaq. *Koroğlunun dəliləri taciri **soyub** var-dövlətini kasıblara payladılar.*

**SÖNMƏK** I *f.* Keçmək. *İşıqlar qəflətən **söndü**.*

**SÖNMƏK** II *f.* Ölmək. *Göylərin altında bir günəş **sönür*** (S.Vurğun).

**SÖVDA** I *is.* [*ər.*] Eşq, məhəbbət. *Yox, İmran, bu, ömür-gün **sövdasıdır.** Əgər sən məni yaxşı tanısan, fikrindən əl çəkərsən* (İ.Şıxlı).

**SÖVDA** II *is.* [*ər.*] Alver, alış-veriş. *O tacir, mən müəllim, **sövdamız** çətin tutar* (M.İbrahimov).

**SÖZLƏŞMƏK** I *f.* Dalaşmaq. *Mən kişi ilə **sözləşirəm*** (M.İbrahimov).

**SÖZLƏŞMƏK** II *f.* Vədələşmək. *Deyəsən, ay qız, özü də buradadır axı, **sözləşmisiniz,** hə?* (M.İbrahimov).

**SULU** I *sif.* Suyu olan. *Çün bunlar bilirdilər ki, mənim əyalımın 4000 desyatin **sulu** yerini hökumət alıbdır* (C.Məmmədquluzadə).

**SULU** II *sif.* Həyalı, abırlı. *Üzü **sulu** ikən rədd ol buradan!*

**SUMAQ** I *is. bot.* Ağac növü. *Yaqutun həyatimizdən çıxartdığı **sumaq** kötükləri də qurtarmışdı* (Ə.Əylisli).

**SUMAQ** II *is.* Tünd-qırmızı rəngli ədviyyə. *Lülə kababı **sumaqla** yemək lazımdır.*

**SURƏT** I *is.* [*ər.*] Şəkil, görünüş. *Qəhrini çəkdiyim gülün **surəti**; Sakit xəyalımın gölünə düşdü* (M.Müşfiq).

**SURƏT** II *is.* [*ər.*] Əsərdə iştirak edən şəxslər. "*Hacı Qara*" *komediyasının əsas **surəti** Hacı Qaradır.*

**SURƏT** III *is.* [*ər.*] Tərzdə, şəkildə. *Mən qəti **surətdə** təsdiq edirəm* (C.Cabbarlı).

**SURƏT** IV *is.* [*ər.*] *riyaz.* Kəsr xəttinin üstündəki rəqəm.

**SÜRMƏ** I *is.* [*fars.*] Qaşa və gözə çəkilən qara rəng. *Səhər dura **sürmə** çəkə gözünə; Birçəklərin həlqə qoya üzünə* (M.P.Vaqif).

**SÜRMƏ** II *is.* Taxıl əvəzinə sünbüldə əmələ gələn alaq bitkisi. *Taxılda çoxlu **sürmə** olduğundan çörək də qara çıxmışdı.*

**SÜRMƏK** I *f.* Çapmaq. *Nəbigil atlarını minib iki boy **sürməmişdilər**, Şəfi bəyi Çay Tumasda gördülər* ("Qaçaq Nəbi").

**SÜRMƏK** II *f.* Maşını idarə etmək. *Əgər o, maşın **sürməyi** bacarmasaydı, yağış buğdanı tamam isladacaqdı* (Q.İlkin).

**SÜRMƏK** III *f.* Gün keçirmək, yaşamaq. *Bu dünyada çəkdim olmazın cəfa; Bu zalımlar qoymur **sürək** bir səfa* ("Qaçaq Nəbi").

**SÜRMƏK** IV *f.* Şumlamaq, əkmək. *Kəndlimiz yer **süpürür** ay işığında* (S.Vurğun).

**SÜRMƏK** V *f.* Çox çəkmək, davam etmək. *Lakin çox* ***sürmədi*** *təbəssüm əfsus! Üzü ciddiləşdi bir an içində* (H.Billuri).

**SÜRMƏK** VI *f.* Düşmək, çıxmaq. *Barmağım qapı arasında qalmışdı, indi dırnağım* ***sürür.***

**SÜRÜ** I *is.* Naxır, dəstə. *Qatarın qışqırıb ötən zaman;* ***Sürülər,*** *naxırlar qaçıb dağılır* (O.Sarıvəlli).

**SÜRÜ** II *is.* Xeyli. *Üstümüzə bir* ***sürü*** *adam töküldü.*

**SÜRÜ** III *f.* Çəkmək, çəkə-çəkə aparmaq. *Əli islanmamaq üçün qardaşını cökə ağacının qovluğuna* ***sürüdü*** (C.Gözəlov).

**SÜZMƏK** I *f.* Oynamaq. *Al fişənglər göy üzündə çal-çarpaz* ***süzür*** (O.Sarıvəlli).

**SÜZMƏK** II *f.* Baxmaq, tamaşa etmək. ***Süzürəm*** *qıy vuran məğrur qartalı; Ömür vəfasızdır, insan qocalır* (Ə.Kürçaylı).

**SÜZMƏK** III *f.* Süzgəcdən keçirmək. *Qəribə duyğular hey axın-axın;* ***Süzülür*** *qəlbimə bayaqdan bəri* (B.Vahabzadə).

# Şş

**ŞAH** I *is.* [*fars.*] Hökmdar. ***Şah** sağ olsun, bu sürüyə; Bəs bir köpək, deyil gərək!* (S.Vurğun).

**ŞAH** II *is.* [*fars.*] Şahmatda əsas fiqur. *Şahmatda əsas məqsəd **şahı** çıxılmaz vəziyyətə salmaqdır.*

**ŞAH** III *is.* [*fars.*] Dişi arı. *Ağca xanım, hər yuvada bircə dişi arı olar, ona **şah** deyərlər* (S.S.Axundov).

**ŞAH** IV *sif.* [*fars.*] Görkəmli. *Təəssüf etmirəm, Etibar, bala; Sən özün həyatda **şah** əsərimsən* (B.Azəroğlu).

**ŞAH** V *sif.* [*fars.*] Düz. *Heç vaxt əyilməmiş o **şah** vüqarın; Önündə qan içən qəsbkarların* (B.Azəroğlu).

**ŞAX** I *is.* [*fars.*] Budaq, qol-budaq. *Almanı **şaxdan** üzmə; Bir anlıq baxmaq üçün* (H.Arif).

**ŞAX** II *is.* Ütülü, əzilməmiş. *Əynində **şaxı** sınmamış kostyum, qar kimi ağ neylon köynək vardı, yaxasına qara qalstuk bağlamışdı* (Ə.Mirzəcəfərli).

**ŞAL** I Baş örtüyü. *Bürünübdür gül əndamı; Tirmə **şalın** saçağına* (Ə.Kürçaylı).

**ŞAL** II *is.* Yun parça, kişmiri. *Al, bu sənin. Bu da onun, – deyə kişmiri **şalı** göstərdi* (İ.Şıxlı).

**ŞAM** I *is.* [*fars.*] Axşam; axşam yeməyi.

**ŞAM** II *is.* [*ər.*] Yandırmaq üçün mumdan hazırlanmış cisim. *Yanır saxsı parçasının üstündə bir **şam*** (R.Rza).

**ŞAM** III *is. bot.* İlin hər fəslində yaşıl olan ağac, sərv. ***Şam** ağacı bildi bu keyfiyyəti; Söylədi: "Bəsdir, buraxın söhbəti*" (M.Ə.Sabir).

**ŞAN** I *is.* [*ər.*] Şöhrət, ad-san. *Yanacaq olsa rəsədxana bizə; **Şan** verir fənnilə tariximizə* (H.Cavid).

**ŞAN** II *is.* [*fars.*] Pətək, bal yığmaq üçün mumdan hazırlanmış xüsusi yer. *Bu **şanın** üskükləri niyə balsız olsun...*

**ŞANA** I *is.* [*fars.*] Ağacdan hazırlanmış yabayabənzər kənd təsərrüfat aləti. *Cana doymuş kəndlilər yabanı, **şananı** çəki dedilər* ("Qaçaq Nəbi").

**ŞANA** II *is.* [*fars.*] Daraq. *Tellərində **şana,** əlində həna; Yəmən, yaqut əhmər dodağa düşdü* (Aşıq Ələsgər).

**ŞANA** III *is.* [*fars.*] Xəlbir. *Taxılı **şanadan** keçirdim.*

**ŞAR** I *is.* Kürə, Yer kürəsi. *Yer **şarını** bir nar kimi ovcunda sıxsa; Tamahsıyıb, ulduzlara tor atacaqdır* (M.Araz).

**ŞAR** II *is. köhn.* Keçmişdə səsvermə zamanı istifadə edilən şarşəkilli şey (namizədin lehinə (ağ şar) və əleyhinə (qara şar) verilən səsin miqdarı qutuya atılan şarın miqdarına əsasən təyin edilirdi). *Ey qlasnı, bəs nədən altı il bundan qabaq məktəblərdə süpürgəçilik edən bizim Nəstə xanımın oğlu bu həvəsə düşüb? Sabah, biri gün ona **şar** yeşiyi qoyulacaqdır* (M.Ə.Sabir).

**ŞAR** III *is.* İçərisinə qaz və ya hava doldurulmuş kos şəkilli rezin məmulat. *Dünya ovcumun içində olur; Bir uşaq **şarı** tək; Ürəyim boşalır, dolur* (N.Kəsəmənli).

**ŞƏKƏR** I *is.* Qənd. *Mağazadan 5 kq **şəkər** aldım.*

**ŞƏKƏR** II *is.* Xəstəliyin bir növü. *O, **şəkər** xəstəliyinə tutulub.*

**ŞƏKİL** I *is.* [*ər.*] Rəsm və ya foto rəsmi. *Qəzetə anasının **şəkli** vurulmuşdu* (C.Gözəlov).

**ŞƏKİL** II *is.* [*ər.*] Forma. *Dağların ətəklərindəki göylük ayazıyır, **şəklini** dəyişirdi* (S.Rəhimov).

**ŞƏKİL** III *is.* [*ər.*] *qram.* Növ. *Felin xüsusi və ümumi **şəkilləri** var.*

**ŞƏKİL** IV *is.* [*ər.*] Dram əsərində pərdənin kiçik hissəsi. *İ.Əfəndiyevin "Bahar suları" pyesi 5 pərdə, 9 **şəkildən** ibarətdir.*

**ŞƏKİL** V *is.* [*ər.*] Tərz. *O, qeyri-adi **şəkildə** açılmış gözlərilə məni süzdü və taleyi ilə razılaşan səslə dedi* (M.İbrahimov).

**ŞƏR** I *is.* [*ər.*] Pislik, müsibət, bəla. *Ah köprüdükcə şu xain bəşər; Yer üzü daim qusacaq zülmü **şər*** (H.Cavid).

**ŞƏR** II *is.* [*ər.*] Qaranlıq. ***Şər** qarışan kimi tez budaqlara; Dırmanır bir anda toyuq, cücələr* (B.Vahabzadə).

**ŞƏR** III *is.* [*ər.*] Böhtan. *Bilet almadığı bəs deyil, yazıq arvadın üstünə **şər** atır* (C.Gözəlov).

**ŞƏRQİ** I *is.* [*ər.*] Mahnı. *Qəfildən qarşıda partlayan bir mərmi gurultusu qızın **şərqisini** qırdı* (S.Qədirzadə).

**ŞƏRQİ** II *sif.* [*ər.*] Şərqdə olan. ***Şərqi** Sibir ovalığı.*

**ŞƏVƏ** I *is.* Aqat, qiymətli qara daş. *Fatmanı qapı qonşudan yığma qızıllarla bəzəmişdilər: araqçının qabağında qızıl pilək, boynunda mərcan, inci, qızıllı **şəvə**, döşdə gərdənbənd... var idi* (Çəmənzəminli).

**ŞƏVƏ** II *sif.* Qapqara. *Onun iri, **şəvə** gözləri vardı.*

**ŞİKƏSTƏ** I *is.* [*fars.*] Segah məqamında zərbli muğam. *Tarın tellərində kəsmə **şikəstə;** Tutmuşdum dişimdə bir tatlı bəstə* (M.Müşfiq).

**ŞİKƏSTƏ** II *is.* [*fars.*] Fars yazısında bir xəttin adı. *Xəttat Nəcəfqulu məktəbinin dizi dibində çox oturmuş, sünbüli, reyhani, nəsx,* ***şikəstə,*** *süls xətlərindən dərs almışdı* (Ə.Cəfərzadə).

**ŞİRƏ** I *is.* Meyvələrdən alınan maye. *Hey gül bitirmişəm, ağac əkmişəm; Əlvan çiçəklərdən* ***şirə*** *çəkmişəm...* (O.Sarıvəlli).

**ŞİRƏ** II *is.* Ev ağartmaq üçün gildən hazırlanmış məhlul, sıyıq. *Evin divarına* ***şirə*** *çəkib ağardardılar.*

**ŞİŞ** I *is. tib.* Bədəndə əmələ gələn qabarma (xəstəlik). *Dirsəkdən yuxarı qolumda* ***şiş*** *əmələ gəldi* (M.İbrahimov).

**ŞİŞ** II *is.* Kabab çəkmək üçün dəmirdən və ya ağacdan düzəldilmiş alət. *Biz burada elə tədbir görmüşük ki, nə* ***şiş*** *yanacaq, nə kabab* (İ.Əfəndiyev).

**ŞİŞ** III *sif.* Qəlbi, yüksək. *Odur ki,* ***şiş*** *dağlara indi baxıb "ah" deyir* (S.Vurğun).

**ŞİŞ** IV *f.* Qabarmaq, köpmək. *Birdən ustanın öskürəyi tutdu; boğazının damarları gömgöy göyərib* ***şişdi*** (Q.İlkin).

**ŞİT** I *sif.* Duzsuz. ***Şit*** *yağ.*

**ŞİT** II *sif.* Yüngül. *Bu isə* ***şit*** *sözləri olan mahnıların yaranmasına gətirib çıxarır.*

**ŞİVƏ** I *is.* [*fars.*] Ləhcə, tələffüz. *Daima sözləri ərəb* ***şivəsinə*** *uyğun bir tərzdə çəkər qızğın bir tövr ilə.* (H.Cavid).

**ŞİVƏ** II *is.* [*fars.*] Naz, qəmzə, əda. *Nədir bu nazlanış, nədir bu* ***şivə?*** (M.Müşfiq).

**ŞOR** I *is.* Kəsmik. *Bir az cılxa* ***şor,*** *bir eymə də turş qatıq göndərmişdi* (Ə.Vəliyev).

**ŞOR** II *is. coğr.* Qurumuş göllərin yerində əmələ gələn şoranlıq.

**ŞOR** III *is.* İçində yağ və yumurta olan qoğal.

**ŞOR** IV *sif.* Duzlu. *Kor da bilir, balıq* ***şordur*** (Ata. sözü).

**ŞORAN** I *is.* Əkinə yaramayan sahə. *Torpağımız* ***şoran,*** *suyumuz az, toxumumuz da gec yetişəndir* (Ə.Vəliyev).

**ŞORAN** II *is. bot.* Yandırmaq üçün istifadə edilən bitki.

**ŞTAT** I *is.* [*alm.*] Bir idarə işçilərinin sabit heyəti.

**ŞTAT** II *is.* [*alm.*] Bir sıra ölkələrdə ərazi bölgüsü.

**ŞURA** I *is.* [*ər.*] Hökumət, sovet. *Mən bu* ***şura*** *vətənimi sevirəm; Yamacımı, gülşənimi sevirəm* (M.Müşfiq).

**ŞURA** II *is.* [*ər.*] İclas. *Baxalım* ***şura*** *nə qərara gəlir.* (H.Cavid).

# Tt

**TAB** I *is.* [*fars.*] Güc, qüvvət. *Bir ay idi ki, fabrikdən qovulmuşdum, yeni iş tapmaq mümkün deyil idi, aclıq da məni* ***tabdan*** *salmaqda idi* (Çəmənzəminli).

**TAB** II *is.* [*fars.*] Dözmə. *Ürəyim şiddətlə döyündü. Nəhayət,* ***tab*** *gətirə bilməyib soruşdum* (İ.Şıxlı).

**TAĞ** I *is.* [*ər.*] Bostan bitkilərinin gövdəsi. *Addadı zimistan, gəldi növbahar; Şamamanın* ***tağı*** *yaşıldır, yaşıl* (Aşıq Ələsgər).

**TAĞ** II *is.* [*ər.*] Qaşın əyrisi. *Bəstə boyu, ağ əndamı, gül üzü; Baxdıqca qaşının* ***tağı*** *şirindir* (Aşıq Ələsgər).

**TAĞ** III *is.* Bəzi binaların yarımdairə şəklində olan damı. *Körpünün aşağısında sudan qalxan enli kərpic* ***tağların*** *içində otaqlar da var* (İ.Şıxlı).

**TAĞ** IV *is.* Saçın iki hissəyə ayrılan yeri. *Tavuz lələyidir saçının* ***tağı;*** *Xoruz pipiyindən aldır dodağı* (Şəhriyar).

**TAXTA** I *is.* [*fars.*] Tikinti materialı: yonulmuş, hamarlanmış ağac. *Yükü* ***taxta****-şalban, torpaqdı, daşdı* (Ə.Kürçaylı).

**TAXTA** II *is.* [*fars.*] Lövhə. *Ona baxmaq üçün uşağı yazı* ***taxtasına*** *çağırdım* (Q.İlkin).

**TAXTA** III *is.* Bir parça, zolaq, şırım. *Gülpəri xalanın donu dörd* ***taxtadan*** *ibarət olur.*

**TALA** I *is.* Meşənin qırılmış və ya əkilmiş biçənək yeri. *Nağılda gördüyüm cin-şeytan kimi;* ***Talada*** *çəyirtkə hoppanıb-düşər* (Ağa Laçınlı).

**TALA** II *f.* Dağıtmaq, soymaq. *Xəyallar başında at oynadaraq; Ömrünü* ***taladı*** *bir düşmən kimi* (H.Billuri).

**TAM** I *is.* [*ər.*] Dad. *Bəs yeyəndə xörəyin dadından,* ***tamından,*** *ədasından heç hiss etmədiniz ki, bu bişmiş o bişmişlərdən deyil, ev bişmişidir* (C.Gözəlov).

**TAM** II *is.* Bütöv, tamam. *Bu partlayışın nəticələri* ***tam*** *şəkildə xeyli sonra özünü göstərəcəkdir.*

**TAMBUR** I *is.* [*fr.*] Dəmiryolu vaqonlarında örtülü meydança. *Onlar vaqonun* ***tamburunda*** *durub söhbət edirdilər.*

**TAMBUR** II *is.* [*fr.*] *mus.* Zərbli Şərq musiqi aləti. ***Tambur*** *ilə telli sazı; Qabaqlaşıb çalaq barı!* (S.Vurğun).

**TAR** I *is.* [*ər.*] *mus.* Azərbaycan simli musiqi aləti. *Dostumun əlində bir sızlayan* ***tar;*** *Səpirdi ətrafa şəffaf dalğalar* (M.Müşfiq).

**TAR** II *is.* Toyuqların üstündə yatdığı ağac. *Bir qış axşamıydı, qapıda soyuq; Qalxdı* ***tar*** *üstünə bizim çil toyuq* (S.Vurğun).

**TAR** III *is.* Qar yığımı, topası. *Dərələrin boğazında işıldayan xarlanmış qar **tarları** ətrafa sərinlik yayırdı* (C.Bərgüşad).

**TAR** IV *is.* [*fars.*] Qaranlıq. *Hava **tar,** yer dar, bimar zar; Sızıldardı ney tək leylü nahar* (M.Ə.Möcüz).

**TAR** V *is.* Arabanın yan tərəflərində olan paralel üfüqi ağac. *Su əvvəlcə təkərin topunu, sonra da cağları batırıb **tara** çıxanda təkərlərin qıcırtısı da kəsildi* (İ.Şıxlı).

**TAS** I *is.* [*ər.*] Tabaq kimi qab. *Hava qaralcaq qapını kilidləyib, **tası** tax-tapuşa çıxardı* (S.Qədirzadə).

**TAS** II *is.* [*ər.*] Nərd oyununda uduş dövrəsi: üç xal qazanıb udulan oyun. *Gəl bir **tas** nərd oynayaq.*

**TAVA** I *is.* Qızartmaq üçün yararlı qab. *Əlində balaca **tava** tutmuş Şölə ərinin qızınıb qurtarmağını gözləyirdi* (M.Hüseyn).

**TAVA** II *is.* Yastı, yonulmuş daş. *Elçilər **tava** daşının üstündə oturdular.*

**TAVAN** I *is.* [*fars.*] Tab, güc, zor. *Ah, Bəhlul Danəndə! Bəhlul Danəndə! Nə tab qaldı; Nə **tavan** məndə* (R.Rza).

**TAVAN** II *is.* Otağın yuxarı hissəsi. *Seyrinə dal bu qurğunun; Nə damı var, nə **tavanı*** (Ə.Kürçaylı).

**TAVAR** I *is.* Mal. *Misri qılınc bağlamışam belimə; Tərlanların **tavarına** gəlmişəm* ("Koroğlu").

**TAVAR** II *sif.* Görkəmli, qiymətli. *Sonra **tavar** sazını döşünə sıxdı, baxaq nə dedi* (M.Müşfiq).

**TAY** I *is. Eşq bazarının aləmində mənəm həmmalı; Almışam çiynimə qəm yüklərini **tay** kimi* (Ə.Vahid).

**TAY** II *is.* Qoşa əşyalardan biri. *Burada da stulların üstü, pəncərələrin kənarı, döşəmə pal-paltar, çəkmə **tayı,** sınıq güzgü, tükü tökülmüş yastıq və kağız-kuğuzla dolu idi* (H.Seyidbəyli).

**TAY** III *is.* O biri tərəf. *Əşi, mən qızın halalca adaxlısı ola-ola hasarın bu **tayında** qalım, bir dələduzun birisi də o **tayda** olsun? Ay bivəfa arvad!* (Ü.Hacıbəyov).

**TAY** IV *is.* Bərabər. *Boz qarğa bülbülə **tay** ola bilməz* (B.Vahabzadə).

**TAY** V *ədat* Qüvvətləndirici mənasında. *Xanım, belə danışırsan, vallah **tay** qorxumdan meşəyə gedə bilmirəm* (İ.Əfəndiyev).

**TAYFA** I *is.* [*ər.*] Qəbilə, nəsil. *Deyirlər ki, onlar çox qəribə bir **tayfa** imişlər* (M.İbrahimov).

**TAYFA** II *is.* [*ər.*] Cins, növ. *Ataşə ataşla verməsək əvəz; Bu əqrəb **tayfası** sancmaya bilməz* (S.Vurğun).

**TƏBİƏT** I *is.* [*ər.*] Varlıq, maddi aləm. ***Təbiət** varlığı əlində oynadır; Ruzgarlar qudurmuş, səmalar əsəbi...* (M.Müşfiq).

**TƏBİƏT** II *is.* [*ər.*] Xasiyyət. *Evin kiçik qızı olan Kiçikxanım isə başqa **təbiətdə** idi, o, ərköyün və şıltaq idi* (M.İbrahimov).

**TƏHƏR** I *is.* [*fars.*] Üsul, yol, qayda, cür. *Məsələni bu **təhər** həll etmək lazımdır.*

**TƏHƏR** II *is.* [*fars.*] İmkan, güc. *Onlara getməyə **təhərim** yoxdur.*

**TƏK** I *say* Yalqız. *Rüfət oturubdur otağında **tək**; Gözləyir Xatirə indi gələcək* (Ə.Kürçaylı).

**TƏK** II *say* Bir. *Zərnigar üç qardaşın **tək** bacısı idi* (İ.Şıxlı).

**TƏK** III *qoşma* Kimi (bənzətmə mənasında). *Onunçün dərd çəkmə, onu bilmə tək; Onun dostları var burda bizim **tək*** (S.Rüstəm).

**TƏK** IV *ədat* Məhdudlaşdırma mənasında işlədilir: ancaq, təkcə, yalnız. ***Tək** bu aləmdə dövlətin olsun* (M.Ə.Sabir).

**TƏMİZ** I *sif.* Səliqəli. *Üst-başım həmişə **təmiz** olar* (S.S.Axundov).

**TƏMİZ** II *sif.* Saf; namuslu; doğru. *Əhməd çox **təmiz** adamdır, onun əvəzi yoxdur.*

**TƏMİZ** III *zərf* Tamam, tamamilə. *Sən **təmiz** ağlını itirmisən?* (S.S.Axundov).

**TƏMSİL** I *is.* [*ər.*] Satirik və nəsihətamiz məzmunlu, kiçik həcmli mənzum əsər. *Lafonten öz **təmsillərini** ancaq bərk yağış yağan vaxt yazarmış.*

**TƏMSİL** II *is.* Göstərmə, təqdim etmə. *Bosforda lövbər atıb dayanmış iki gəmi; Hərəsi **təmsil** edir bir yurdu, bir aləmi* (N.Rəfibəyli).

**TƏN** I *is.* [*fars.*] Bədən, əndam. *Həmi bir can, bir **tənin;** Çox şükür sənə ey xuda! Olmadıq biz əğyarə fəda* (Ü.Hacıbəyov).

**TƏN** II *sif.* Düz. *Sona hündürboylu, gülümsər, gözəl **tən** yerişli, şux gülüşlü bir qız idi* (C.Cabbarlı).

**TƏN** III *zərf* Bərabər, düz yarı bölmə. *Qardaş olaq, **tən** bölək* (Ata. sözü).

**TƏNG** I *is.* [*fars.*] Cana gətirmə, canını boğazına yığma, incitmə, bezmə. *Mən onun əlindən **təngə** gəlmişəm.*

**TƏNG** II *is.* [*fars.*] Tövşümə. *Qürbətdə cana yetdim; **Təng** olub, sana yetdim; Vətənə dönən günü; Dinə, imana yetdim* (Bayatı).

**TƏPMƏK** I *f.* Qazmaq, belləmək. *O, yeri həmişə səhər tezdən* ***təpərdi.***

**TƏPMƏK** II *f.* Vurmaq, geri vermək. *Nə yava söyləyirsən, ay gədə! Başına at* ***təpibdir*** *nədir?* (N.Vəzirov).

**TƏR** I *is.* [*fars.*] Dərialtı vəzilərin ifraz etdiyi maye. ***Tər*** *üz-gözündə qanına qarışmışdı* (C.Bərgüşad).

**TƏR** II *sif.* [*fars.*] Təzə. *Budur, bahar mövsümü;* ***Tər*** *çiçəklər fəslidir* (Ə.Cəmil).

**TƏRƏKƏMƏ** I *is.* Köçəri həyat sürən etnik qrupun adı. *Aran* ***tərəkə-mələri*** *qoyunlarını oraya, yaylağa apararlar* (N.Vəzirov).

**TƏRƏKƏMƏ** II *is. mus.* Azərbaycan xalq havası.

**TƏRK** I *is.* [*ər.*] Buraxma, qoyub getmə, vaz keçmə. *Tutmuşam əyilməz bayrağını bərk; Ölsəm də etmərəm səngərini* ***tərk*** (S.Rüstəm).

**TƏRK** II *is.* Atın sağrısı. *Durmayın atın* ***tərkinə*** *atın; Dumanlı dağlara vəlvələ salaq* (S.Rüstəm).

**TƏRLƏMƏK** I *f.* Tər tökmək. *İlin hər fəslində* ***tərləyirəm.***

**TƏRLƏMƏK** II *f.* Xərcləmək, ödəmək. *Ay yoldaş, bir az* ***tərləmək*** *lazım gəlir, sənə havayı iş görmürlər* (H.Nəzərli).

**TƏRS** I *sif.* İnad, höcət. *Həm ürəyi yumşaqdır, sadədir, həm də* ***tərsdir*** (M.İbrahimov).

**TƏRS** II *sif.* O biri üzü. *Yazıq! Bu arzular dönsə* ***tərsinə***; *O öz hisslərinə qarışıb yenə; Həyatdan-nəşədən kənar qalacaq* (S.Vurğun).

**TƏRS** III *zərf* Əyri. *Ərşir ona* ***tərs*** *bir nəzər salıb susdu* (X.Hasilova).

**TƏRZ** I *is.* [*ər.*] *qram.* Fellə ifadə olunan hərəkətin məna hüdudu. *Azər-baycan dilində də felin* ***tərz*** *kateqoriyası vardır.*

**TƏRZ** II *is.* [*ər.*] Şəkildə, formada. *Onun dodaqları xəfif bir* ***tərzdə*** *titrə-yirdi* (M.Hüseyn).

**TƏSİRLİ** I *sif.* [*ər.*] Effektiv, təsiri olan, əsər edən. *Emilya Mahmudova "Evimizə gəlin gəlir" mahnısını çox* ***təsirli*** *şəkildə ifa etdi.*

**TƏSİRLİ** II *sif.* [*ər.*] *qram.* Təsirli fel – özünə ismin təsirlik halında işlə-nən və kimi? nəyi? nə? suallarından birinə cavab verən müstəqim obyekt tələb edən feldir.

**TƏSİRSİZ** I *sif.* [*ər.*] Təsiri olmayan, əsər etməyən. *Onun dedikləri* ***təsirsiz*** *deyil, təsirli idi.*

**TƏSİRSİZ** II *sif.* [*ər.*] *qram.* Subyektlə obyekt arasında təsir münasibətini bildirməyən feldir.

**TƏSNİF** I *is.* [*ər.*] Bölmə, ayırma. *Dilimizdəki nitq hissələrini leksik-qrammatik mənalarına, morfoloji əlamətlərinə və sintaktik vəzifələrinə görə* ***təsnif*** *etmək olar.*

**TƏSNİF** II *is.* [*ər.*] *mus.* Dəstgah şöbələri arasında dəqiq və sabit ölçülü nəğmə.

**TƏTİL** I *is.* [*ər.*] Kütlə tərəfindən işin dayandırılması.

**TƏTİL** II *is.* [*ər.*] Məktəblilərin istirahət vaxtı. *Yanvar* ***tətilidir,*** *çöldə yağır qar; Səmayəgildədir İlqarla Nərgiz* (H.Arif).

**TƏYİN** I *is.* [*ər.*] Müəyyən etmə, müəyyənləşdirmə. *Ancaq onun quşu vurduğunamı, yoxsa Əhmədin əlindən almasınamı peşman olduğunu* ***təyin*** *etmək çətin idi* (İ.Şıxlı).

**TƏYİN** II *is.* [*ər.*] *qram.* Cümlənin ikinci dərəcəli üzvlərindən biri.

**TİK** I *is.* [*fr.*] *tib.* Əzələlərin, başın, çiynin və s. qeyri-ixtiyari olaraq atmasından ibarət əsəb xəstəliyi.

**TİK** II *f.* Materialdan paltar hazırlamaq, qurmaq. *Onlar sifarişçilərin dərisindən papaq, doqquz cür don* ***tikirlər*** (Anar).

**TİKİLMƏK** I *f.* Paltarı hazırlamaq; bina qurmaq. ***Günəşin*** *üzünə baxdı otaqlar; Evimiz* ***tikildi,*** *bitdi müxtəsər* (M.Müşfiq).

**TİKİLMƏK** II *f.* Dağılmaq, yıxılmaq. *Evimiz* ***tikildi,*** *uşağı işdən qovublar.*

**TİN** I *is.* İki küçənin kəsişdiyi yer. *Qoy* ***tində*** *qoçular gözləsin bizi; Belə bir zamanda getmək olarmı?* (Ə.Kürçaylı).

**TİN** II *is.* Kömürün dəmi, qaz. *Dünən manqal yandıranda kömürün* ***tini*** *başımı yaman ağrıtdı.*

**TİR** I *is.* [*fars.*] Dirək, ağac. *Allahın var, evi də dağıt, sök* ***tirlərini*** *sat* (Ə.Əylisli).

**TİR** II *is.* [*fars.*] Yaydan atılan ox; güllə. *Qul deyərlər, qulun boynun burarlar; Qullar qabağında gedən* ***tirəm*** *mən* ("Koroğlu").

**TİR** III *is.* [*fr.*] Atmaq üçün xüsusi düzəldilmiş yer. *Kinostudiyada yeni* ***tir*** *açılmışdır. Müəlliflər qəpiyə güllə atırlar* (Anar).

**TİTRƏK** I *is. bot.* Azərbaycanda bitki adlarından biri.

**TİTRƏK** II *sif.* Əsən, təlaşlı. *O,* ***titrək*** *səslə danışırdı.*

**TOX** I *sif. Yeyib doymuş. Heç bir zaman qarınlarını* ***tox,*** *ehtiraslarını soyumuş görməyəcəklər* (M.İbrahimov).

**TOX** II *sif.* Tünd. ***Tox*** *qırmızıdan çox istifadə etmişdir.*

**TOX** III *zərf* Sakit. *Hər halda özünü belə* ***tox*** *tutur* (Anar).

**TOXUMAQ** I *f.* Hörmək. *Qohumlar verdiyi quzu yunundan; Boyalı-butalı corab* ***toxuyur*** (Ağa Laçınlı).

**TOXUMAQ** II *f.* Uydurmaq. *Sözün düzünü danış, özündən* ***toxuma.***

**TOXUNMAQ** I *f.* Hörülmək. *Bu yun corablar qəşəng* ***toxunub.***

**TOXUNMAQ** II *f.* Dəymək, təmas etmək. *Ona* ***toxunmasın*** *o soyuq əllər; Mənim sarayımdır yüksək əməllər!* (S.Vurğun).

**TOXUNMAQ** III *f.* Təhqir etmək, sataşmaq, pərt etmək. *Sənə lağ edəndə mənim də qəlbimə* ***toxunur*** (C.Gözəlov).

**TON** I *is.* [*yun.*] *mus.* Avaz, səs. *Hafiz Sədirzadə "Bayatı Şiraz" muğamını son dərəcədə sərbəst və lirik* ***tonla*** *ifa etdi.*

**TON** II *is.* [*fr.*] 1000 kq-a bərabər çəki vahidi. *O bu il 18* ***ton*** *pambıq yığmağa söz vermişdir.*

**TON** III *is.* [*yun.*] Tərz, üslub, əda. *Sən mənimlə nə üçün bu* ***tonda*** *danışırsan?*

**TOP** I *is. hərb.* Silah. *Atılır dağların başından* ***toplar;*** *Bomboş daraqlarla dolmuş akoplar* (S.Rüstəm).

**TOP** II *is. idm.* Kos. *Adi* ***top*** *oyunu, ya da bir əsər; Ona zövq verirdi dünyalar qədər* (Ə.Kürçaylı).

**TOP** III *is. şahm.* Şahmatda fiqur. ***Top*** *öz gücünə görə yalnız vəzirdən geri qalır.*

**TOP** IV *is.* Materialın bütöv hissəsi, parça və kağız yumağı. *Axırda hərəsi Nəbiyə bir* ***top*** *parça verdi* ("Qaçaq Nəbi").

**TOPLAMA** I *is.* Yığma, toplanış. *Pambıq* ***toplanışı*** *mövsümündə Sona 500 ton məhsul toplamışdı.*

**TOPLAMA** II *is. riyaz.* Cəmləmə əməliyyatı. *Şagird* ***toplamanı*** *da bilmirdi.*

**TOPLAMAQ** I *f.* Bir yerə yığmaq, bir yerə sığışdırmaq. *Dünyada faydalı, dəyərli nə var;* ***Toplamaq*** *istədim yeri düşəndə* (O.Sarıvəlli).

**TOPLAMAQ** II *is. riyaz.* Cəmləmək, üstə gəlmək. *Bu ədədləri* ***toplamaq*** *üçün gərək qaydanı biləsən.*

**TOPLU** I *sif. hərb.* Topu olan. ***Toplu*** *qoşunlar qabağa hərəkət etdilər.*

**TOPLU** II *sif. qram.* Varlığın çoxluğunu bildirən. *Çox zaman şəhərin küçələrində; Bəzən axınların **toplu** yerində* (M.Müşfiq).

**TOPUQ** I *is.* Ayaqda olan çıxıntı. *Daldan atılan daş **topuğa** dəyər* (Ata. sözü).

**TOPUQ** II *is.* Tutulma, dolaşma. *O danışdıqca dili **topuq** vururdu.*

**TOR** I *is.* Balıq və başqa heyvanları tutmaq üçün hörülmüş, toxunmuş şəbəkə, zənbil.

**TOR** II *is.* Tələ, hiylə, kələk. *Düşmüşlər gah şirin, gah acı **toruna;** Sevinə-sevinə, qoruna-qoruna* (M.Müşfiq).

**TOR** III *is.* Qaranlıq. *Şamxal hiss etdi ki, Güləsərin başı hərlənir, hər şey onun gözünə **tor** görünür* (İ.Şıxlı).

**TOZ** I *is.* Xırda qum dənəcikləri. *Külək **tozu** qaldırar; Layla körpəm, a layla* (R.Rza).

**TOZ** II *is. bot.* Ağacın bir növü. *Tozağacı yaranandan ağdı qar kimi; Cökələr də dümağ olmuş bu **tozlar** kimi* (O.Sarıvəlli).

**TRAP** I *is.* [*holl.*] Təyyarə və gəmidə pilləkən, nərdivan. ***Trapla** hündür bir qadın enirdi* (Anar).

**TRAP** II *is. tex.* Suyun axıb getməsi üçün döşəmədə deşik. *Vanna otağında **trap** açmaq lazımdır.*

**TROMB** I *is.* [*yun.*] *tib.* Qan damarında əmələ gələn qan laxtası.

**TROMB** II *is.* [*ital.*] *coğr.* Atmosferin burulğanlı, çox güclü, şaquli hərəkəti, xortumu.

**TUR** I *is.* [*fr.*] Bir dövrə rəqs, oyun. *Son **tur** ərəfəsində təxirə salınmış bir oyun maraq doğurmuşdur.*

**TUR** II *is.* [*fr.*] *hərb.* Tüfəng gülləsindən qorunmaq üçün içi torpaqla doldurulmuş silindr səbət.

**TURŞU** I *is. kim.* Aldehidlərin oksidləşməsi nəticəsində alınan maye. *Sirkə **turşusu.***

**TURŞU** II *is.* Duza qoyulmuş xiyar, kələm, pomidor və s. *Mən əti döyənə kimi get bir az **turşu** al* (Ə.Vəliyev).

**TURŞU** III *f.* Acımaq, qıcqırmaq, süstləşmək. *Kişi Mələyi görən kimi üz-gözünü **turşutdu*** (M.İbrahimov).

**TUŞ** I *is.* [*alm.*] *mus.* Musiqi alətləri ilə çalınan qısa təbrik musiqisi.

**TUŞ** II *is.* [*alm.*] Bilyard oyununda: bilmədən, təsadüfən şara toxunma.

**TUŞ** III *is.* [*alm.*] Mürəkkəbin bir növü. *Şüarlar qırmızı **tuşla** yazıldı.*

**TUŞ** IV *is.* Bərabər. *O, hərbi qaydada özünü düzəldərək, əlini qulağının **tuşuna** qaldırıb, getmək üçün icazə istədi* (M.İbrahimov).

**TUŞ** V *is.* Rast gəlmə, qarşı. *Bir yay aldım çıxmaq üçün şikarə; **Tuş** gəldim bir ahu gözlü nigarə* (M.Müşfiq).

**TUT** I *is. bot.* Meyvəsi yeməli və şirin olan ağac növü. ***Tut** kölgəsində; Bardaş qurmuşdu; Bostançı Qara* (M.Əliyev).

**TUT** II *f.* Yapışmaq. *İmdad çağıran səs bir də eşidilib qırıldı, sanki bağıranın boğazından **tutdular*** (Ə.Cəfərzadə).

**TUTMAQ** I *f.* Saxlamaq, yapışmaq. ***Tutdu** nəbzin təbib onun dərhal; "Nə demişsən?" – deyə edincə sual* (M.Ə.Sabir).

**TUTMAQ** II *f.* Həbs etmək. *Tez olun, gizlənin, gəzirlər sizi; Gəlib **tutacaqlar*** (S.Vurğun).

**TUTMAQ** III *f.* Yaraşmaq. *Zər baftalı qara donu; Allah, necə **tutur** onu!* (Ə.Kürçaylı).

**TUTMAQ** IV *f.* Çevirmək. *Mən üzümü başını aşağı salıb qıpqırmızı qızarmış Azərə **tutdum*** (M.İbrahimov).

**TUTULMAQ** I *f.* Yaxalanmaq, həbs olunmaq. *Atam **tutulmuşdu,*** mühakimə ediləcəkdi (M.İbrahimov).

**TUTULMAQ** II *f.* Alınmaq, təsir etmək. *Sadıq **tutuldu.** Bir siqaret yandırdı* (A.Babayev).

**TUTULMAQ** III *f.* Düçar olmaq. *Avam anası **tutuldu** qəmə; Avam atası qaşını çatdı* (M.Müşfiq).

**TÜMƏN** I *is.* [*fars.*] Pul vahidi. *Bir əmliyin bir **tümənə** satılı; Necoldu dövlətin, malların, dağlar!* (Aşıq Ələsgər).

**TÜMƏN** II *is. tar.* Ərazinin hərbi-inzibati dairələrindən biri.

**TÜND** I *sif.* Acı, bərk (çay). *İndi də dalbadal **tünd** çay içməsi, çörək yeməməsi göstərirdi ki, Göyçək doğrudan da möhkəm acıqlanıbdır* (Ə.Vəliyev).

**TÜND** II *sif.* Xasiyyəti pis olan, ağır olan, hirsli. *Xasiyyətiniz bir az **tünddür,** ondan qorxuruq* (S.Rəhman).

**TÜND** III *sif.* Açıq olmayan, tutqun (rəng). *İti çənəsinin altında qara sapla tikilmiş **tünd** qırmızı düymə qalmışdı* (N.Həsənzadə).

**TÜTÜN** I *is.* Papiros üçün hazırlanmış məmulat. *Ananov kağıza **tütün** bükənlər; Qurtardı tənbəki, saman qalmadı* (Aşıq Ələsgər).

**TÜTÜN** II *is.* Tüstü. *Yanarsan, təpədən çıxar **tütünün**; Tutular boğazın, kəsilər ünün* (M.P.Vaqif).

# Uu

**UC** I *is.* Son, axır. *Gözlə ha gözlə, gözlə ha gözlə, axırda dəstənin **ucu** açıldı* ("Koroğlu").

**UC** II *qoşma* Ötrü, görə. *Yazıq arvad mənim **ucumdan** şirin yuxuya həsrətdir* (Ə.Vəliyev).

**UÇQUN** I *is.* Dağın sürüşməsi. *Görürsən bir anda dağ dərəsində; **Uçqunlar** özgə bir həyat yaradır* (M.Araz).

**UÇQUN** II *f.* Əsmək, titrəmək. *Hava bərk soyuq olduğundan o **uçqunurdu.***

**UÇMAQ** I *f.* Havada qanadla getmək. *Durma, uç göylərə, pərvazına heyranam, **uç**!* (S.Rüstəm).

**UÇMAQ** II *f.* Yıxılmaq, dağılmaq, sökülmək. *Ona elə gəldi ki, dünya üstünə **uçdu**, uşaqlıqdan ürəyində bəslədiyi ən əziz bir arzunu özü məhv etdi* (İ.Şıxlı).

**UÇUQ** I *sif.* Xarab olmuş, dağılmış. *Bu **uçuq** binanın həyət-bacası Lenaya çoxdan, lap balaca vaxtlarından tanış idi* (S.Qədirzadə).

**UÇUQ** II *sif.* Soyuqdəymədən, qorxudan üzdə və dodaqda əmələ gələn səpgi.

**UD** I *is.* [*ər.*] *bot.* Hindistanda bitən və yandırıldıqda xoş iyi verən ağac adı.

**UD** II *is.* [*ər.*] *mus.* Simli Şərq musiqi aləti.

**USTA** I *is.* [*ər.*] Sənətkar, ustad, öz işini bilən. *Ramazan öz işinin **ustasıdır**.*

**USTA** II *zərf* [*ər.*] Cəld; ağıllı. *Allahverdi Qəhrəman oğlu dəmirçi Tomasdan təvəqqə etdi ki, **usta** tərpənsin* (S.Rəhimov).

**UZANMAQ** I *f.* İstirahət etmək, yatmaq. *İşığı söndürüb yatağa **uzandı**, amma yata bilmədi* (D.Dəmirli).

**UZANMAQ** II *f.* Davam etmək. ***Uzanır** məclisin, günəş doğana; Ellər aşiqinə "yenə çal!" – deyir* (S.Vurğun).

**UZANMAQ** III *f.* Boy atmaq, böyümək. Gözlərinin qabağında *Hədəflər gah **uzanır** dönür qara lentaya, gah kiçilir, toz olur* (R.Rza).

# Üü

**ÜNSÜR** I *is.* [*ər.*] Bir şeyin tərkib hissəsi.
**ÜNSÜR** II *is.* [*ər.*] Yabançı, yad, özgə.

**ÜSKÜK** I *is.* Tikiş zamanı barmağa geyilən alət, oymaq.
**ÜSKÜK** II *is.* Pətək, daraq. *Bir **üskük** bal bütün şanın keyfiyyətini özündə cəmləşdirmirmi?*

**ÜTÜ** I *is.* Paltarı qaydaya salan alət. *Başqa qadınlar paltar yuyur, **ütü** çəkir, tikiş tikir, patefon oxudub kef edirdilər* (Ə.Vəliyev).
**ÜTÜ** II *is.* İsti, bürkü. *Uşaq **ütüyə** düşüb, evim yıxıldı.*

**ÜZ** I *is.* Sifət, bəniz. *Aç üzün, yox tikanı insanın; Arı sancar **üzün**, pətəkdən qaç!* (M.Ə.Möcüz).
**ÜZ** II *is.* Qaymaq, südün üzünə gələn yağ. *Onlar çəkilən **üzü** hesabladılar* (İ.Şıxlı).
**ÜZ** III *f.* Suda əl-qol ataraq hərəkət etmək. *Sərin sularında **üzür** balıqlar; Qağayılar kimi süzür qayıqlar!* (S.Rüstəm).

**ÜZƏNGİ** I *is.* Yəhərdə ayaq qoyulan yer. *Yəhərə çəkilən bu cüt **üzəngi;** Baxın, oxşamayır biri-birinə* (Ə.Kürçaylı).
**ÜZƏNGİ** II *is. anat.* Orta qulaqda ikinci sümükcüyün adı.

**ÜZLÜ** I *sif.* Üzü qəşəng olan. *Məni xəbər alsa gül **üzlü** canan; Salam deyərsiniz yara, buludlar* (B.Azəroğlu).
**ÜZLÜ** II *sif.* Yağlı. *Stolun üstündə ılıq yumurta, qaynar süd, **üzlü** pendir, kərə yağ, şirin çay var idi* (Ə.Vəliyev).
**ÜZLÜ** III *sif.* Həyasız, sırtıq; riyakar. *Yox böylə iki dilli, yaman **üzlü** cəfakar; Böylə fələk olmaz!* (M.Ə.Sabir).

**ÜZMƏK** I *f. Suda hərəkət etmək, çimmək. **Üzür** sularda min gəmi; Sükançının nədir qəmi* (Ə.Kürçaylı).
**ÜZMƏK** II *f.* Dərmək. *Könül bağçasıyla öz qələmiylə; Al-əlvan çiçəklər **üzür** Füzuli* (B.Vahabzadə).
**ÜZMƏK** III *f.* Əldən düşmək, yorulmaq. *Nigarançılıq **üzürdü** Bağırı:* "*Görəsən, qayıtdılar Bakıya, yoxsa hələ burdadılar*?.." (İ.Məlikzadə).
**ÜZMƏK** IV *f.* Kəsmək; əlaqəni kəsmək. *Yox, maraqlanır, həyəcan keçirir, gecə-gündüz buruqla əlaqəsini **üzmür*** (S.Rəhman).

**ÜZSÜZ** I *sif.* Həyasız, sırtıq, riyakar. *Bir sıra vicdansız, bir sıra **üzsüz;** Gəzib qara-qara hər yerdə güdür* (M.Müşfiq).

**ÜZSÜZ** II *sif.* Üzü olmayan əşya. ***Üzsüz** yorğan-döşəyə girib xəyala getdi.*

**ÜZÜCÜ** I *sif.* Üzücü, suda üzən. *Hərçəndi Yasəmən çox **üzücü** idi, amma bu iti axan, daşları və böyük kolları yumalayan seldə üzmək mümkün deyildi* (S.S.Axundov).

**ÜZÜCÜ** II *sif.* Yorucu, cansıxıcı. *Bir-birindən **üzücü,** əzablı fikirlər onun qəlbini sıxırdı* (C.Gözəlov).

**ÜZÜK** I *is.* Barmağa keçirilən bəzək əşyası. *Hər əlinə alıb bir danə **üzük;** Üzüyü dəstinə alan oynasın* (M.P.Vaqif).

**ÜZÜK** II *sif.* Əldən düşmüş, yorğun. *O, **üzük** adamlar kimi davranırdı.*

**ÜZÜLMƏK** I *f.* Zəifləmək. *Sara xəstəlikdən **üzülmüşdü**.*

**ÜZÜLMƏK** II *f.* Aralı düşmək... *Mən necə dərd çəkməyim, əlim yardan **üzülür**.*

# Vv

**VAR** I *is.* Dövlət, sərvət, mal-mülk. *Aldada bilməmiş dünyanın **varı**; Bir məslək eşqilə yaşayanları* (S.Vurğun).

**VAR** II *is.* Varlıq, mövcudiyyət. *Ahu-zar çəkməkdən yox olub **varı**; Saf aynası tutub möhnət qubarı* (Q.Zakir).

**VAR** III Xəbər mənasında. *Burada gecələrin qərib səsi **var*** (S.Vurğun).

**VARLIQ** I *is.* Olma, var olma, mövcud olma, mövcudiyyət. *Məhəbbət özü də canlı həyatdır; Onun **varlığını** yaşayan duyur* (S.Vurğun).

**VARLIQ** II *is.* Bolluq. ***Varlığa** nə darlıq* (Ata. sözü).

**VERGİ** I *is.* Müəssisədən, idarədən, əhalidən və s. alınan məcburi dövlət rüsumu. ***Vergi**, biyar bizi gətirdi cana* (S.Rüstəm).

**VERGİ** II *is.* Fövqəladə istedad, qabiliyyət. *Sözün düzü, bu dilbərdə təbiətin **vergisi** var* (S.Vurğun).

**VƏZİFƏ** I *is.* [*ər.*] Bir şəxsin üzərinə qoyulan və onun mütləq yerinə yetirməli olduğu iş; borc. *Hər bir işdə **vəzifəni**; Sən biləsən əsgər kimi!* (B.Vahabzadə).

**VƏZİFƏ** II *is.* [*ər.*] Bir idarə və müəssisədə müəyyən işlərin ifası ilə əlaqədar olan qulluq yeri, qulluq. *O, rayon partiya komitəsinin katibi **vəzifəsini** ifa edir.*

**VƏZN** I *is.*[*ər.*] Çəki, ağırlıq. *Mənim pambıq yükü ilə aram yoxdur. Özü çox, **vəzni** az* (Ə.Haqverdiyev).

**VƏZN** II *is.* [*ər.*] Şeirdə müəyyən ölçü; misraların ölçüsü. *Demirəm mən sənə şair deyilsən, var şerin; **Vəzn** var, qafiyə var, qaliba yox can, Yusif!* (S.Ə.Şirvani).

**VURAN** I *is. riyaz.* Vurma əməlində: vurma hasilini almaq üçün bir ədədin digər ədədə neçə dəfə vurulduğunu göstərən ədəd.

**VURAN** II *f. sif.* Buynuzla, yaxud təpiklə, vurmaq xasiyyəti olan. ***Vuran** öküzə Allah buynuz verməz* (Ata. sözü).

**VURĞU** I *is.* Döyünmə, vurma. *Bir əsər yaranır hər düşüncədən; Hər qəlb **vurğusunun** öz mənası var* (S.Vurğun).

**VURĞU** II *is. qram.* Sözdə bir hecanın başqalarına nisbətən yüksək tonla deyilməsi.

**VURULMAQ** I *f.* Zərbə endirilmək, çalınmaq, güllə ilə vurulub öldürülmək və s. *Üzvlərdən Hacı Mirzə Həsən **vuruldu*** (M.S.Ordubadi).

**VURULMAQ** II *f.* Bənd olmaq, aşiq olmaq, məftun olmaq. *Can, usta, mən bir çəlik yay kimi qurulmuşam; Ürəkdən ahugözlü bir qıza **vurulmuşam*** (M.Müşfiq).

# Yy

**YAD** I *is.* [*fars.*] Hafizə. *Hərdən düşür mənim də; Məktəb illərim* ***yada*** (Ə.Cəmil).

**YAD** II *sif.* [*fars.*] Özgə, başqa, qeyri. *Onun çörəyilə boya-başa çatmaq; Sonra* ***yad*** *oğluna qoşulub qaçmaq* (S.Vurğun).

**YAĞ** I *is.* Qida maddəsi, süddən hazırlanan məhsul. *Nənəm* ***yağ*** *gətirir, anam bal qoyur; Bacım işləməli bir dəsmal qoyur* (O.Sarıvəlli).

**YAĞ** II *f.* Yağışın düşməsi, yağmaq. *Göydən odlu qurğuşun* ***yağır*** *buzlu səngərə* (O.Sarıvəlli).

**YAĞLI** I *sif.* Yağı çox olan ət, xörək, süd və s. *İçilən çay, yeyilən* ***yağlı*** *plov; Çəkilən hoqqavü qəlyan oldu* (M.Ə.Sabir).

**YAĞLI** II *sif.* Varlı. *Mən həmişə* ***yağlı*** *kəndçilərin evinə düşürəm* (M.Hüseyn).

**YAXALAMAQ** I *f.* Qəflətən tutmaq, yapışmaq. *Geri dönərək məni* ***yaxaladı*** (S.Rəhman).

**YAXALAMAQ** II *f.* Suya çəkmək. *Su töküb* ***yaxaladı****, kənara atdı, təzədən doldurdu və kamali-ehtiramla Cahan xanıma uzatdı* (M.İbrahimov).

**YAXALANMAQ** I *f.* Yuyunmaq. *Get, ocağın üstündə isti su var,* ***yaxa-lan****, gəl...* (M.İbrahimov).

**YAXALANMAQ** II *f.* Ələ keçmək, tutulmaq. *Cümşüd iki dəfə oğurluq üstə* ***yaxalanmışdı.***

**YAXMAQ** I *f.* Sürtmək, çəkmək. ...*Əslində isə bir kəndçi öz bicliyi ilə yüz şəhərlinin başına piy* ***yaxar*** (M.İbrahimov).

**YAXMAQ** II *f.* Yandırmaq. *Şairlər, şairlər, bircə söz üstə; Sübhədək* ***yaxdınız*** *ürəyinizi* (B.Vahabzadə).

**YAL** I *is. coğr.* Sıra dağların və ya dağ massivlərinin ən hündür hissəsi. *Yaz olanda yaşıllaşır; Gülür yamacın,* ***yalın*** (O.Sarıvəlli).

**YAL** II *is.* Atın boynundakı tüklər. *Yataraq birtəhər atın* ***yalına;*** *Səyirdib dolandı dağın dalına* (S.Vurğun).

**YAL** III *is.* İtə vermək üçün hazırlanan yemək. *Çırmayıb qolunu itə* ***yal*** *tökür* (S.Vurğun).

**YALAQ** I *is.* İti yemləmək üçün qazılmış yer. *İtin yalını* ***yalağa*** *tök.*

**YALAQ** II *sif. dan.* Yaltaq; xəsis; qazan dibi yalayan. *Bircə ondan özünü gözlə, çox **yalaq** adamdır* (C.Məmmədquluzadə).

**YALMAN** I *is.* Atın boynu, yal bitən yeri. *Sindi **yalmanına** cahillər; Buraxıb cilovu, nə qədər ki var* (O.Sarıvəlli).

**YALMAN** II *f.* Dodaqlarını yalayaraq islatmaq. *Murad əlini gözlərinin üstündən götürüb, ələmli bir nəzərlə mənə baxdı; **yalmandı** – dodaqları qurumuşdu* (Çəmənzəminli).

**YALNIZ** I *zərf* Tək, tənha, kimsəsiz. *Axşama qədər orada **yalnız** qaldım* (H.Nəzərli).

**YALNIZ** II *ədat* Məhdudlaşdırma mənasında; ancaq. *Mən **yalnız** ona, Şahmara baxırdım* (İ.Əfəndiyev).

**YAN** I *sif.* Böyür, tərəf. ***Yan** küçələrdən iki böyük dəstə gəlirdi* (M.Hüseyn).

**YAN** II *f.* Od tutmaq, əzab çəkmək. ***Yan,** dinmə, sən allah! Qan, dinmə, sən allah!* (M.Ə.Sabir).

**YAR** I *is.* [*fars.*] Dost, yoldaş. *Bulmadım onda bir müvafiq **yar;** Yar sandıqlarım bütün əğyar...* (M.Ə.Sabir).

**YAR** II *is.* [*fars.*] Sevgili, məşuq, məşuqə. *Çəmən döşəyidir sevdalı **yarın**; Ona layla deyir səhər küləyi* (S.Vurğun).

**YAR** III *f.* Doğramaq, kəsmək. *Nəğmələr söyləyirəm al günəşə; **Yar** mənim beynimi, **yar** qəlbimi, **yar*** (S.Rüstəm).

**YARA** I *is.* Xəstəlik; güllə yarası. *Sürünür döşündə, qolunda **yara;** Sürünür bu yaxın təpəni aşır* (Ə.Cəmil).

**YARA** II *f.* Lazım olmaq, gərək olmaq, yaramaq. *Çox da ki varın yoxdur, meylimə **yaramısan*** (B.Vahabzadə).

**YARI** I *is.* İki yerə bölünmüş şeyin bir hissəsi; orta. *Pis olmaz, **yarıda** bir ayaq saxlamaq* (R.Rza).

**YARI** II *f.* Xoşbəxt olmaq, təmin olunmaq. *Mən fələyə neylədim, Qoymadı bir **yarıyam?*** (B.Vahabzadə).

**YAŞ** I *is.* İl, sinn. *Bahar oldu, qış oldu – itirdiyim ömür, gün; Qazandığım **yaş** oldu* (B.Vahabzadə).

**YAŞ** II *is.* Ağlamaq nəticəsində gözdən tökülən su. *Dedikcə qəlbinə qaranlıq çökür; Gözündən od kimi o, **yaşlar** tökür* (S.Vurğun).

**YAŞ** III *sif.* Nəm, sulu. *Nahid uçuruma enmək istəyəndə ayağı **yaş** gilin üstündə sürüşdü, az qaldı ki, dərəyə ensin* (H.Abbaszadə).

**YAŞ** IV *sif.* Pis. *Məzhəbi, dini, rəhmi yox; İşləri **yaşdı,** qoymayın!* (M.Ə.Sabir).

**YAŞLANMAQ** I *f.* Yaşa dolmaq, qocalmaq. *Artıq Ədhəm kişi **yaşlanmışdı.***

**YAŞLANMAQ** II *f.* Nəmlənmək, yaş olmaq. *Gecə yağış yağdığına görə paltar **yaşlanmışdı.***

**YAŞLI** I *sif.* Xeyli yaşı olan, yaşa dolmuş. *Hər dəfə bu mənzərəni görəndə mən **yaşlı,** atam kimi güclü olmağı arzulayırdım* (Ə.Əylisli).

**YAŞLI** II *sif.* Sulu, nəmli, gözü sulu. *Xəstə cavan, **yaşlı** gözləri ilə həyata son dəfə olaraq baxırdı* (Çəmənzəminli).

**YATMAQ** I *f.* Yuxulamaq. *Bütün ailələr səhər məlumatını dinləməmiş evdən çıxmır və gecə məlumatını dinləməmiş **yatmırdılar*** (S.Rəhman).

**YATMAQ** II *f.* Qurtarmaq, dayanmaq. *Fabriklərdə işləyən fəhlələr işləri **yatırmışdılar*** (Ə.Haqverdiyev).

**YATMAQ** III *f.* Çökmək, oturmaq. *Çoban iti üstünə gələndə aşağı **yat.***

**YAVA** I *sif.* Pozğun, ədəbsiz, azğın. *Mən səni gəlin gətirdim ki, oğlumun ayağını qumarxanalardan, **yava** yollardan çəkəsən* (Çəmənzəminli).

**YAVA** II *sif.* Sərt, boğuşqan, acıqlı (it.) ***Yava** itin yava küçüyü olar* (Ata. sözü).

**YAY** I *is.* İlin fəsillərindən birinin adı. *Bu **yay** istirahətə öz bağımıza köçəcəyik!* (S.Qədirzadə).

**YAY** II *is.* Elastiki, yığılıb-açılan əşya. *Faytonçu əlindəki paslı mis məftili oğlanın köməyi ilə salamat **yaylara** sarımağa başladı* (Q.İlkin).

**YAY** III *is. köhn.* Silah. ***Yaydan** ayrılan ox geriyə dönməz; İrəli baş alar, yalnız irəli* (S.Vurğun).

**YAY** IV *f.* Genişləndirmək, enlilətmək. *Dünyaya **yaydı** şöhrətini, adını* (F.Qoca).

**YAYLA** I *is. coğr.* Dəniz səviyyəsindən hündürdə yerləşən sərin yer.

**YAYLA** II *f.* İstilənmək. – *Niyə evə gələn kimi soyunub tökürsən? – **Yaylamışam.***

**YAYLIQ** I *is.* Dəsmal, örtük. *Görürkən yuxuda qoçaq babamı; Hönkürüb ağlaram əlimdə **yaylıq**...* (S.Vurğun).

**YAYLIQ** II *sif.* Yayda hasil olan, yetişən. *Bizim bağda çoxlu **yaylıq** alma ağacı var.*

**YAZ** I *is.* İlin fəsillərindən birinin adı. *Qaydadır, boranlı, qarlı qışların; Sonunda çiçəkli, güllü **yaz** olar* (S.Vurğun).

**YAZ** II *f.* İş görmək. *Öz eşqimi könlümdəki yarpaqlara **yazdım*** (S.Rüstəm).

**YAZI** I *is.* Qeyd, məktub, gözəl xətt. *Stolun üstündə qaldı yarımçıq; Qızıl qələminlə yazdığın **yazı*** (S.Rüstəm).

**YAZI** II *is.* Çöl, səhra, düzənlik. *Bunlar atları **yazılara** tərəf sürməyə başladılar* ("Qaçaq Nəbi").

**YEL** I *is.* Bir tərəfə axın edən hava cərəyanı. *Su gəlsə sel bilərdim; Meh əssə **yel** bilərdim; Dağda bir oba salsan; Mən səni el bilərdim* (Bayatı).

**YEL** II *is. tib.* Revmatizm (xəstəlik). *Canımda **yel** var, yoldaş Qaradağlı* (B.Bayramov).

**YELKƏN** I *is.* Gəmi. *Lermontovun **yelkəni** tək; Sakitliyi tufanlarda aramışam* (B.Vahabzadə).

**YELKƏN** II *sif.* Külək tutan yer. ***Yelkən** yerdə oturma, xəstələnərsən.*

**YELLİ** I *sif.* Küləkli. ***Yelli** havada həyətə düşməsən olmaz?*

**YELLİ** II *sif.* Yel xəstəliyinə tutulmuş. *O, **yelli** ayağını dəriyə bükmüşdü.*

**YELLİ** III *zərf* Çox tez, cəld. *Evə **yelli** get, Bayram!*

**YELLİ** IV *sif.* Hirsli, acıqlı. *Beş-altı ağzı **yelli** cavanın belinə berdanka bağlayıb saldılar ortalığa* (M.İbrahimov).

**YETİŞMƏK** I *f.* Dəymiş. *Xəstə nə qədər darıxsa da, armud vaxtında **yetişər**, – dedi. – Hər şeyin öz vaxtı var* (M.İbrahimov).

**YETİŞMƏK** II *f.* Çatmaq. *Unutmuşam cəfaları, dərdləri; Axır gəlib sənə **yetişdim,*** Əsli! (Ü.Hacıbəyov).

**YETİŞMƏK** III *f.* Həddi-büluğa çatmaq. *Maşallah, qızınız artıq **yetişib.***

**YOL** I *is.* Gediş-gəliş üçün yer. *Kəndimizin qəşəng **yolu** var.*

**YOL** II *is.* Vasitə, üsul. *Məsələni hansı **yolla** həll etmək olar?*

**YOL** III *f.* Didişdirmək. *Qazın tükünü **yoldular.***

**YOL** IV *num. söz* Dəfə, kərə. *Sizə üç **yol** gəlmişəm, amma sizi evdə tapmamışam.*

**YOLUXMAQ** I *f.* Xəstəliyə tutulmaq. *Sarılıq, elə bil **yoluxdu** o birilərinə* (B.Azəroğlu).

**YOLUXMAQ** II *f. dan.* Baş çəkmək, dəymək. *Səid müəllim xəstə idi. Yatağından durmuşdu. Bir gün onu **yoluxmağa** getmişdik.*

# Zz

**ZƏFƏR** I *is.* [*ər.*] Qələbə, qalibiyyət, müvəffəqiyyət. *Gəzib bu dost elləri, dolansan qarış-qarış; Hər yanda görəcəksən, yüksəliş, **zəfər**, yarış* (Ə.Cəmil).

**ZƏFƏR** II *is.* [*ər.*] Bəla, xəta. *Mənim arzum budur ki, sənə **zəfər** toxunmasın.*

**ZƏR** I *is.* [*fars.*] Qızıl, qızılı rəng. *Çöllər **zərə** boyanır; Günün şüalarından* (B.Azəroğlu).

**ZƏR** II *is.* Nərddə oyun daşı. *Qaraş **zəri** nərd taxtasının içinə çırpdı, ayağa durdu* (M.İbrahimov).

**ZƏRF** I *is.* [*ər.*] Bükülən, bükmək üçün olan paket. *Elə əlimə keçən qəzeti qaldıranda arxasından ağ bir **zərf** düşdü* (S.Qədirzadə).

**ZƏRF** II *is.* [*ər.*] *qram.* İş və hərəkətin necə, harada, nə zaman, nə qədər icra olunduğunu bildirən nitq hissəsi.

**ZİL** I *sif. mus.* Yuxarı səs, yuxarı registr. *Cəlal da **zil** səslə deyir bayatı; Tutub qışqırığı bütün elatı* (S.Vurğun).

**ZİL** II *ədat* Tamamilə, lap qara. *Gözlərin **zil** qaranlıq; Gəl, bir aylı gecədir* (F.Qoca).

**ZİNDAN** I *is.* [*fars.*] *köhn.* Qaranlıq və dəhşətli həbsxana, qazamat. *Sabah Şərqin yəqin mərd oğulları; **Zindanların** qapısını döyəcəklər* (S.Rüstəm).

**ZİNDAN** II *is.* [*fars.*] Dəmiri döymək üçün alət. ***Zindan** pas atıb; Çəkic sapsız qalıbdır* (İ.Zamanlı).

# MÜNDƏRİCAT

*Azərbaycan dilində omonimiya* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5
*Omonim sözlər* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5
*Omonimlərin müəyyənləşdirilməsi* . . . . . . . . . . . . . . . . . . . . . . . . 6
*Omonimlərin inkişafı və yaranma yolları* . . . . . . . . . . . . . . . . . . . 11
*Leksik yolla əmələ gələn omonimlər* . . . . . . . . . . . . . . . . . . . . . . . 12
*Omonimlərin təsnifi* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 24
*Omomorfemlər* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 33
*Sözlərlə şəkilçilərin omonimliyi* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 38
*Sintaktik omonimlər* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 39
*Omonim söz birləşmələri* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 40
*Frazeoloji omonimlər* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 44
*Omonim cümlələr* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 46
*Lüğətin quruluşu və ondan istifadə etmə qaydaları* . . . . . . . . . . . 47
*Lüğətdə gedən ixtisarlar* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 49

**Aa** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 50
**Bb** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 61
**Cc** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 75
**Çç** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 78
**Dd** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 83
**Ee** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 90
**Əə** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 91
**Ff** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 93
**Gg** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 95
**Hh** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 98
**Xx** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 100
**İi** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 103

**Kk** ........................................105
**Qq** ........................................111
**Ll** ........................................122
**Mm** ........................................124
**Nn** ........................................129
**Oo** ........................................130
**Öö** ........................................132
**Pp** ........................................133
**Rr** ........................................136
**Ss** ........................................137
**Şş** ........................................145
**Tt** ........................................148
**Uu** ........................................156
**Üü** ........................................157
**Vv** ........................................159
**Yy** ........................................160
**Zz** ........................................164

# AZƏRBAYCAN DİLİNİN OMONİMLƏR LÜĞƏTİ

"ŞƏRQ-QƏRB"
BAKI
2007

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Kompyuter səhifələyicisi: *Rəvan Mürsəlov*

Korrektorlar: *Pərinaz Musaqızı*
*Fəridə Səmədova*

Yığılmağa verilmişdir 14.03.2007. Çapa imzalanmışdır 30.05.2007.
Formatı 60×90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 10,5. Ofset çap üsulu.
Tirajı 10000. Sifariş 63.

DÜST 5773-90, DÜST 4.482-87

CBS POLYGRAPHIC PRODUCTION
Tel/Fax: 447 75 04, Tel.: 447 75 05

Kitab "CBS-PP" MMC mətbəəsində çap olunmuşdur.
Bakı, Şərifzadə küçəsi, 3.